**XƏDİCƏ HEYDƏROVA**

# QƏDİM VƏ ORTA ƏSR LÜĞƏTLƏRİNİN TƏRTİBİ PRİNSİPLƏRİ

**“Elm və təhsil”**
**Bakı – 2021**

**AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının 30 iyun 2021-ci il tarixli iclasının 6 №-li qərarına əsasən çap olunur.**

**Elmi redaktor: İsmayil Oruc oğlu Məmmədli**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəyçilər: Nəriman Fərman oğlu Seyidəliyev**
*filologiya üzrə elmlər doktoru*

**Arzu Hüseynova**
*Filologiya üzrə fəlsəfə doktoru*

**Xədicə İsabala qızı Heydərova.** Qədim və orta əsr lüğətlərinin tərtibi prinsipləri. Bakı, "Elm və təhsil" , 2021, 256 səh.

Təqdim olunan monoqrafiyada dünya leksikoqrafiyasının qədim və orta əsrlər (b.e.ə. 2300-cü ildən başlayan və b.e. VIII əsrinə qədərki dövr) ərzində şumer, hind, Çin və yunan lüğətlərinin tərtibi quruluşu, ərəb lüğətçiliyi əsasında şərq lüğətçiliyinin formalaşması məsələləri, həmçinin Avropa lüğətçiliyinin də yaranması və inkişaf etməsi araşdırılır. Tədqiqat tələbələr, müəllimlər, aspirantlar və tədqiqatçıların istifadəsi üçün nəzərdə tutulmuşdur.

## Ön söz

Filologiya üzrə fəlsəfə doktoru Xədicə İsabala qızı Heydərova lüğətçilik sahəsində ümid verən istedadlı alimlərdən biridir. Leksikoqrafiya ilə bağlı bir çox məqalələri, monoqrafiyaları və tək müəllifi olduğu "Nəsiminin anadilli əsərlərinin izahlı ensiklopedik lüğəti" üçcildliyinin 2019-cu ildə nəşr olunmuş I cildi və nəhayət çapa hazırladığı "Qədim və orta əsr lüğətlərinin tərtibi prinsipləri" adlı əsəri göstərir ki, müəllif öz sahəsinin dərin bilicisidir.

Leksikoqrafiya dilçiliyin ən qədim və ən çətin sahələrindən biridir. 16-cı əsrdə yaşamış fransız filoloqu və leksikoqrafı Jozef Jüst Skaliger demişdir ki, cinayətkarları katorqalara göndərib ağır fiziki işə məruz qoymaq əvəzinə lüğət işinə təhkim etmək lazımdır. Çünki ondan ağır əmək yoxdur. Həqiqətən də insandan xüsusi istedad, həvəs və zərgər incəliyi tələb edən bu dilçilik sahəsi ta qədimdən bəri ən populyar və tələbatı olan əsərlərə malikdir. Təsadüfi deyil ki, hələ eramızdan əvvəl 2000-ci illərdə akkadlar elm, məktəb, dini məbəd və dəftərxana dili olan şumercəni öyrənmək və tədris etmək məqsədilə lüğətlər tərtib etməyə başlamışlar. Məhz bu əsərlərin içərisində sözlərin düzgün tələffüzü üçün fonetikanı da öyrənib lüğətə tətbiq etmək ehtiyacı yaranmışdır. Bu isə o deməkdir ki, dilçiliyin ilkin əsərləri məhz lüğətlər olmuşdur.

Filologiya üzrə fəlsəfə doktoru Xədicə İsabala qızı Heydərovanın təqdim etdiyi "Qədim və orta əsr lüğətlərinin tərtibi prinsipləri" adlı monoqrafiyasında b.e.ə. 2300-cü ildən başlayan və b.e. VIII əsrinə qədərki lüğətlərin tərtibi prinsiplərinin təhlili öz əksini tapmışdır. Tədqiqatçı tarix boyu dünya lüğətçiliyi sahəsində olan ümumi tendensiya və qanunauyğunluqları müəyyənləşdirərək onları analiz edir, ən qədim dövrdən indiyə qədər predmet-tematik prinsipdən əlifba sisteminə qədər keçilmiş inkişaf yolunu araşdırır. Əsər üç fəsildən ibarətdir. Birinci

fəsildə ən qədim tarixə malik şumer, hind, çin və yunan lüğətləri tədqiq olunur. İkinci fəsil "Ərəb lüğətçiliyi əsasında şərq lüğətçiliyinin formalaşması (VIII- XVIII əsrlər)" adlanır və burada ərəb lüğətçiliyinin tərtibi prinsipləri, orta əsrlərdə ərəb leksikoqrafiyasının təsiri altında formalaşmış tədrisi xarakterli qrammatik şərhləri olan qıpçaq, cağatay və Azərbaycan lüğətçiliyi araşdırılır. Üçüncü fəsil Avropa lüğətçiliyinin yaranması və inkişafına (I-XVIII əsrlər) həsr olunmuşdur. Burada latın, ingilis və rus-slavyan lüğətçiliyi tədqiq olunur.

X. Heydərova bu vaxta qədər mövcud olmuş lüğətləri daxili quruluş nöqteyi-nəzərindən aşağıdakı növlərə ayırır:

1. Predmet-tematik sistem (mövzular üzrə sözlərin qruplaşdırılması);

2. Artikulyasiya əsaslı sistem (boğaz səslərinə görə sözlərin düzülməsi).

3. Qafiyə üsullu sistem (sözlərin ilk və son hərflərinin əlifba sırası ilə ardıcıl düzülməsi);

4. Kök-yuva sistemi (sözün kök samitlərinin baş söz söz kimi verilməsi və həmin samitlər əsasında yaranan derivativ törəmələrin bir lüğət məqaləsinə toplanması);

4. Əlifba sıralı sistem (baş sözlərin ilk hərfləri əsasında əlifba sırası ilə düzülməsi).

Ən qədim dövrdən indiyə qədər yaradılmış, öz dövründə iz qoymuş lüğətlərin quruluşu və sözlüyü haqqında müfəssəl məlumatlar daşıyan bu əsər həm informativ və həm də elmi əhəmiyyətə malikdir. Çünki Xədicə Heydərova burada lüğətçiliyin tərtibi prinsiplərinin mərhələli inkişafını, ümumi qanunauyğunluqlarını və tendensiyalarının izlənməsini, bir-birinə göstərdiyi təsirini, hətta orta əsr türk lüğətlərində tətbiq edilən əlifba sistemi və o dövrün lüğətçilərinin qədim türk dillərinin fonetikası haqqında söylədiyi fikirlərin müqayisəli tədqiqatını aparır.

**Professor, fil.e.d. İsmayıl Məmmədli**

# GİRİŞ

Lüğətçilik dilçiliyin ən qədim sahələrindən biridir. "Tətbiqi leksikoqrafiya ilk dəfə 4 min il bundan əvvəl müxtəlif qloslar (mənası anlaşılmayan sözləri), qlossarilər (mənası anlaşılmayan sözlərin kiçik lüğətləri) və vokabularilər şəklində meydana gəlmişdir".[1] Bilinən ən qədim lüğət müasir Suriya ərazisində qədim Ebla dövlət-şəhərinin xarabalıqlarında (Hələbdən 70 km cənubda, indiki Təll-Mərdih rayonunda) aşkarlanan təxminən eramızdan əvvəl 2300-cü ilə aid ikidilli şumercə-akkadca söz siyahılarından ibarət mixi yazılı lövhələrdir. Bir çox mənbələrdə e.ə. III əsrə aid Çin lüğəti Erya ilk izahlı lüğət olaraq göstərilir. Lakin qədim Ebladan birdilli şumer lüğətlərinin də tapıldığı bildirilir.[2]

İlk dövrlərdən indiyə qədər yaradılmış dünya lüğətlərinin tərtibati quruluşuna nəzər yetirərkən ümumi tendensiyaları müşahidə etmək mümkündür. Leksikoqrafik əsərin makrostrukturu onun quruluşunun ümumi prinsiplərini – mikrostrukturların (lüğət məqalələrinin) sol tərəfində lüğət vahidlərinin (baş sözlərin), sağ tərəfində semantik sahənin (qrammatik, etimoloji, üslubi xüsusiyyətlər və izahların) qrafik verilmə tərzi, bunların ümumi ardıcıllığını və s. əhatə edir. Kitabımızda dünya lüğətçiliinin makro və mikrostruktur baxımından tərtibati prinsiplərinin inkişaf mərhələləri nəzərdən keçirilir.

Bu vaxta qədər mövcud olmuş lüğətləri daxili quruluş nöqteyi-nəzərindən aşağıdakı növlərə ayrmaq olar:

[1] Берков В. П. Вопросы двуязычной лексикографии (словник). Л. : изд-во ЛГУ, 1973. s.3.

[2] Вах: Древняя Эбла (Раскопки в Сирии). Сост. и введ. П. Маттиэ. Общ. ред. и закл. статья И. М. Дьяконова. М., 1985. S.191)

1. Predmet-tematik sistem (mövzular üzrə sözlərin qruplaşdırılması);

2. Artikulyasiya əsaslı sistem (boğaz səslərinə görə sözlərin düzülməsi);

3. Qafiyə üsullu sistem (sözlərin ilk və son hərflərinin əlifba sırası ilə ardıcıl düzülməsi);

4. Kök-yuva sistemi (sözün kök samitlərinin baş söz kimi verilməsi və həmin samitlər əsasında yaranan derivativ törəmələrin bir lüğət məqaləsinə toplanması);

4. Əlifba sıralı sistem (baş sözlərin ilk hərfləri əsasında əlifba sırası ilə düzülməsi).

İlkin lüğətlər, əsasən, predmet-tematik prinsiplə, mənası anlaşılmayan sözlərin izahını vermək məqsədilə tərtib olunurdu. Məsələn, şumer lüğətlərində olduğu kimi. Hind lüğətlərində həm tematik, həm də artikulyasiya və qafiyə üsulları tətbiq olunurdu. Çin dilində isə əlifba olmadığına görə, lüğətlərində sanskrit leksikoqrafiyasında olduğu kimi, sözlər artikulyasiya əsasında düzülürdü.

B.e. VIII əsrindən etibarən inkişaf etməyə başlayan ərəb leksikoqrafiyası, qəribə də olsa, mürəkkəbdən sadəyə doğru inkişaf yolu keçmişdir. Burada əvvəl artikulyasiya əsasında qəliz kök-yuva sistemi, ardınca paralel olaraq tematik, qafiyə üsullu lüğətlər tərtib olunmağa başlanmış, ən nəhayət əlifba sıralı lüğət quruluşuna keçilmişdir. Qafiyə üsulu baş sözlərin ilk və son hərflərinə görə müəyyənləşirdi. Yeri gəlmişkən, divan ədəbiyyatında da qəzəllərin düzümü rədiflərin son hərfi ilə təsbit edilirdi. Con Heyvud göstərir ki, ərəb lüğətçiliyinin ilk görkəmli və mürəkkəb əsəri olan, artikulyasiya əsaslı kök-yuva sisteminə malik "Kitab əl-ayn" lüğəti sanskrit leksikoqrafiyası ilə aşkar

paralelliklərə malikdir.[3] Qafiyə üsulu da ərəb leksikoqrafiyasından çox-çox əvvəllər – hələ eramızdan öncə IV əsrdə hindlilərin Amarakoşa lüğətində tətbiq olunmuşdur.

Bütün müsəlman Şərqinin lüğətçiliyi ərəb leksikoqrafiyasının təsiri altında inkişaf etmişdir. Azərbaycan da istisna deyildir. Ana dilimizə həsr olunmuş ilk leksikoqrafik əsər olan XIII əsrə aid İbn Mühənna lüğəti tematik prinsipli olub, qrammatik şərh bölgüsü ilə o dövrün ənənəvi dərslik quruluşunu əks etdirir.

Avropada isə yunanlar köhnəlmiş və arxaikləşmiş sözlərin qlossarilərini yaradırdılar və onların quruluşu qeyri-müəyyən idi. Qlossari (*lat*. glossarium "qlosların, sözlərin toplusu") – dar sahə və ya mövzu üzrə sözlərin kiçik izahlı lüğəti deməkdir. Latın dilinin ilk lüğəti I əsrdə, ingilis dilinin lüğəti isə XVII əsrdə tərtib olunmuşdur. Rus lüğətçiliyində XVI əsrdən etibarən "azbukovnik"lər hazırlanmağa başlandı. Onlar əlyazmalar şəklində və dar sahə üzrə tərtib olunan kiçik həcmli sözlüklər idi. Avropada lüğətçiliyin XVIII əsrdən sonra böyük təkmilləşmə yolu keçməsi və təcrübəsinin həm tərtibati baxımdan, həm də işlənmə texnikasına görə düzgün olması digər xalqların dilçiliyinə sirayət edərək geniş yayılmasına, nəticə etibarilə XX əsrdə bütün dünyada leksikoqrafiyanın inqilabi inkişafına səbəb oldu.

Müasir dövrdə leksikoqrafiya sahəsində əlifba prinsipi ən populyar sistem hesab olunsa da, hər bir lüğətin tərtibatında funksiyasından asılı olaraq fərdi yanaşma tələb olunur. Məsələn, dünya leksikoqrafiyasının təcrübəsi göstərir ki, müxtəlif dillərin müqayisəli lüğətində qohumluq əlaqəsinin aşkar mənzərəsini yaratmaq üçün predmet-semantik tərtibat daha məqsə-

[3] Haywood J.A. Arabic Lexicography. Its History, and its Place in the General History of Lexicography. Leiden, Brill, I960; 2-nd revised ed.: Leiden, Brill, 1965. s.39.

dəuyğundur.[4] Bu səbəbdən hər hansı bir lüğətin tərtibatında prinsiplərin seçimində dilin genioloji quruluşu, lüğətin funksiyası və s. xüsusiyyətlər nəzərə alınmalıdır.

Beləliklə, qədim və orta əsrlər dünya lüğətçiliyinin inkişafını üç qismə ayırmaq olar:

1) Ən qədim tarixə malik şumer, hind, Çin və yunan lüğətləri (b.e.ə. 2300-cü ildən başlayan və b.e. VII əsrinə qədər davam edən qədim dövr);

2) Ərəb lüğətçiliyi əsasında Şərq lüğətçiliyinin formalaşması (VIII-XVIII əsrlər);

3) Avropa lüğətçiliyinin yaranması və inkişafı (I-XVIII).

Biz tədqiqatımızı bu bölgü əsasında üç fəslə ayırmışıq. Orta əsr Azərbaycan lüğətçiliyi ikinci fəsildə araşdırılır.

***Fil.ü.f.d. Xədicə Heydərova***

[4] Bax: “Pyotr Simon Pallasın (1741–1811) "Сравнительные словари всех языков и наречий” tezaurus-lüğəti” yarımbaşlığına, s. 222.

# I FƏSİL

## ƏN QƏDİM TARİXƏ MALİK ŞUMER, HİND, ÇİN VƏ YUNAN LÜĞƏTLƏRİ (b.e.ə. 2300-cü ildən başlayan və b.e. VII əsrinə qədər davam edən qədim dövr)

### QƏDİM ŞUMER LÜĞƏTLƏRİ

Qədim şumer yazılı abidələri e.ə. IV-III minilliklərə (e.ə. 3100-2800-cü illər) aid edilir. Şumerlər yumşaq yaş gil lövhə üzərinə taxta çöp və ya iti uclu qamış qələm vasitəsilə mixi yazı ştrixləri çəkmək yolu ilə öz sillabik (heca) yazı sistemlərini yaratmışlar. E.ə. 2000-ci ildən etibarən akkad dili şumer danışıq dilini sıxışdırmağa başlasa da, məktəb, dini məbəd və dəftərxanalarda yazı və elm dili kimi şumercədən istifadə olunurdu. Sonralar Qədim Vavilon dövrü ərzində (e.ə. 2000-1800-cü illər) şumer yazısı akkad yazı sistem ilə əvəzlənir, amma şumer dilinin öyrənilməsi e.ə. I əsrə qədər davam etmişdir. Onun artıq ölü dil səviyyəsində uzun əsrlər boyu elmdə və rəsmi dövlət strukturlarında istifadə olunması həmin dövrlərdə ikidilli lüğətçiliyin inkişafına gətirib çıxarmışdır.

XIX əsrin ortalarında məhz şumer-akkad lüğətləri aşkarlandıqdan sonra şumer dilinin varlığı elm aləminə məlum olmuş və bu lüğətlər əsasında şumer dili öyrənilməyə başlanmışdır. Qədim Mesopotamiya, Babilistan və Assuriya ərazilərində tapılan lüğətlər bütünlüklə şumer dili ilə bağlı leksikoqrafik əsərlərdir. Bunların içərisində yalnız bir ədəd akkad dilinin sinonimlər lüğəti tapılmışdır.

Şumer dilini akkad dilindən fərqləndirə bilən ilk alim irland əsilli Edvard Hinks (Edward Hincks) olmuşdur. O, 1850-ci ildə Britaniyanın Elmi İnkişaf Assosiasiyasına bildirmişdi ki,

mixi yazı mədəniyyətinin Assuriya və Babilistanın sakinləri olmuş samilərə aid edilməsi şübhə doğurur. Çünki sami dillərdə samitlər sabit, saitlər isə dəyişkəndir. Buna görə də eyni dərəcədə sabitliyə malik samit və saitləri olan mixi yazıların sillabik (heca) sisteminin samilər tərəfindən yaradılması inandırıcı görünmür. Bundan iki il sonra Küncik ikidilli sillabarilərini (heca işarələri; heca işarələrindən ibarət məktəbli lüğəti – X.Heydərova) araşdıran Raulinson mixi yazılarda əks olunmuş dillərdən birini Assuriya, digərini isə skif və ya türk dillərindən birinə aid etmişdir. Daha sonra isə şumer dilinin monqol və ya mancur dilinə bənzəyə bilməsi nəticəsinə gəlmişdir. Şumer adını ilk dəfə 1869-cu ildə Julius (Jules) Oppert (1825-1905) işlətmiş və bu dilin türk, fin və macar dilləri ilə yaxın qohumluğunun olduğunu bildirmişdir.[5] Şumerlər əslində özlərini *emegir* adlandırmışlar (*eme* – dil, *gir* sözünün mənası bu günə qədər dəqiq məlum deyildir, "nəcib" anlamını daşıdığı güman edilir). Akkadların yazılı abidələrində onlar şumer adlandırıldıqlarına görə belə də qəbul edilmişdir.

Beləliklə, məlum olmuşdur ki, şumer dili iltisaqidir, lakin sintaktik səviyyədə erqativ (yun. ἐργάτης "fəaliyyətli, təsir göstərən") təsnifata daxil edilir. Akkad dili isə sami dil qrupuna aiddir. Mixi yazı ilk dəfə şumerlər tərəfindən icad edilsə də, sonralar akkadlar sillabari (heca) sistemli mixi əlifbanı öz flektiv dillərinin morfoloji və fonetik quruluşuna uyğunlaşdırmağa çalışmışlar. Mixi əlifbaya ərəblər مسمارية "mismariyyə" – "mismarabənzər" adını vermişlər. Müasir dövrdə mixi yazı sivilizasiyasının öyrənilməsi assuriologiya (*rus*. ассириоло́гия, *ing*. assyriology) adlanır.

Şumer dilinin aqlütinativ xüsusiyyətləri bunlardır: a) söz kökü dəyişməzdir; b) bu dildə söz kökünə leksik və qrammatik

[5] Крамер С. Шумеры. Первая цивилизация на Земле. Москва; 2010. ISBN 978-5-9524-4805-6. 228 с., s. 17-18.

şəkilçilərin artırılması ilə mənasını dəyişə bilir; c) saitlər söz kökündə, ön şəkilçilər (prefiks) və şəkilçilər (suffiks) kökə birləşdikdə ahəng qanununa uyğunlaşır; ç) isimlərdə və feillərdə qrammatik cins yoxdur.

Qədim Hattus və Babilistan ərazilərində şumer-hett lüğətləri və şumer dili üzrə akkad dərs vəsaitləri tapılmışdır. Hətta şumerlərin məktəbli lüğətlərində və bunlarda sillabarilərin, yəni şumer mixi işarələrinin siyahısı olmuşdur. Bu siyahılarda 300-dən çox işarə verilir və hər birinin qarşısında fonetik tələffüzü və izahı yazılır. Məktəblilər sillabarini əzbər öyrənməli idilər. Heyvud göstərir ki, məktəbli lövhələrinin bir üzündə məslək və sənətkarlıqla bağlı isimlər və feillər əks olunmuş, o biri üzündə isə ailə münasibətləri, uşaqların və qulların statusuna aid sözlərin sorğu lüğəti verilmişdir.[6] Türkiyənin Boğazköy ərazisində tapılmış Assuriya arxivlərində şumerlərin alınma sözlər lüğəti aşkar edilmişdir. Burada mixi işarə və onun qarşısında şumer-hett-akkad ekvivalentləri yer almışdır. Hett dili hind-Avropa dil qrupuna aid olmuşdur və hetlər də mixi yazı sistemindən istifadə etmişlər.

1974-cü ildə qədim Ebla şəhərinin saray arxivində 114 şumer lüğəti tapılmışdır ki, bunların bir qisminin qrammatik mətnli əlavələri vardı. P.Mattieyə görə, bu lüğətlər üç qrupa bölünür. Birinci qism kvadrat və hündürlüyü az olan düzbucaqlı formada, kənarları qalın, küncləri düzbucaq lövhələrdir. Onların üz tərəfi düz, arxası mərkəzdən aşağıya doğru getdikcə qabaran şəkildədir. Bu lövhələrdə çəkilən cizgilər, adətən, daha dərin olur, arxa üzündə isə bir-iki sütun mətn və kolofon ( *qəd.yun*. κολοφών, κολοφῶνος "zirvə; son" *qədim əsərlərin sonunda müəllif və yer haqqında məlumat*) yer alır. İkinci qru-

[6] Haywood J.A. Arabic Lexicography. Its History, and its Place in the General History of Lexicography. Leiden, Brill, I960; 2-nd revised ed.: Leiden, Brill, 1965. s.5.

pa ölçücə kiçik, bir qədər nazik və kənar ucları küt formada olan, mixi yazıları zəif basılmış lövhələr daxildir. Üçüncü qrupa isə ölçücə böyük lövhədə xırda xətlə yazılmış ikidilli lüğətlər aiddir.[7] Bundan başqa, İraqın Təll-Fara şəhərində də (qədim şumer şəhəri Şuruppak "şəfaverici məkan", b.e.ə. 2500-cü illər və daha əvvəllərə aid) eyni formalarda lüğət-lövhələr tapılmışdır.

**Birdilli şumer lüğətləri.** Birdilli şumer lüğət mətnlərinin kolleksiyası 47 ədəd gil lövhədən və 206 parçadan ibarətdir.[8] Bu leksikoqrafik əsərlərdə Təll-Fara və Əbu-Səlabihdə tapılan tematik prinsip əsasında tərtib olunmuş lüğətlərdəki kimi sənət növlərinin, quşların, balıqların, toponimlərin və s. siyahıları yer almışdır. P.Mettie göstərir ki, təsərrüfat mətnlərində rast gəlinən işlək terminlərin izahını lüğətlərdə tapmaq olmur.[9] Bu o deməkdir ki, şumerlər, əsasən, qlosları lüğət obyekti hesab etmişlər. Birdilli şumer lüğətlərinin bəzilərində şumer sözlərinin fonetik oxunuşuna rast gəlinir. Şumer lüğətlərinin sözlüyü sabit sillaboqramların (fonetik işarələr) düzülüşü əsasında tərtib edilirdi: V, CV, VC və CVC. Burada V sait səsi, C isə samit səsi ifadə edir.

**Şumer-Ebla lüğəti.** Ebla şəhər-dövlətinin xarabalıqlarından tapılmış gil lövhələr üzərində şumer-Ebla sillabarisi (e.ə. 2400-2500-cü illər) qrammatik mətnlər, izah və orfoepiya ilə təchiz edilmiş lüğət növüdür. Bu lüğət ilk dəfə 1974-cü ildə tapılanda gil lövhə üzərində şumer dili ilə qarşılaşdırılan dil hələ elm aləminə məlum deyildi. Şumer mətnləri üzrə mütəxəssis

[7] Древняя Эбла (Раскопки в Сирии). Сост. и введ. П. Маттиэ. Общ. ред. и закл. статья И. М. Дьяконова. М., 1985. с. 363. S. 191-192.
[8] Son göstərilən əsər, s. 191.
[9] Son göstərilən əsər, s. 193.

Covanni Pettinato şumer-Ebla lüğətlərinin köməyi ilə bir il ərzində həmin dili araşdıraraq öyrənməyə nail olmuş və onu şərti olaraq şəhərin adı ilə Ebla adlandırmışdır. Məlum olmuşdur ki, bu dil şimal-qərb sami dil qrupuna aid olan paleo-Hanaan dilidir. Şumer-Ebla lüğətlərində şumer sözlərinin izahı, tələffüzü və Ebla dilinə tərcüməsi əks olunmuşdur. Professor Pettinato Roma universitetindəki çıxışında bu barədə belə söyləyir: "Ebla lüğətlərindəki qrammatik materiallarda əvəzlik və feil sistemi o qədər dəqiq təsvir edilmişdir ki, ivrit və Finikiya dilinə qohum olan paleo-Hanaan dilində hətta danışmağı öyrənmək olar.

Ebla gil lövhələri şumer dilində yazılsa da, şumer loqoqramları akkad söz və hecalarına, fonetikasına uyğunlaşdırılmış şəkildədir.[10]



***Şəkil 1 Şumer-Ebla mətnli gil lövhə***

Bu lüğətlərin köməyi ilə əvvəl 1000, daha sonra isə yüzlərlə söz leksik siyahıda bərpa edildi və bu, Ebla mətnlərinin interpretasiyası üçün əvəzolunmaz açar oldu".[11]

Şumer-Ebla lüğətlərindəki Ebla dilinin sami dillərə aid olduğunu aşağıdakı sözlərdən aydın görmək mümkündür: yaz-

[10] Bu səbəbdən şumer dilinin əsl fonetikasını müəyyənləşdirmək hələ də mümkün olmamışdır.

[11] http://www.icr.org/article/92/

maq – *k-t-b*, kral – *malikum*, adam – *adamu*. Bu sözlər ivrit və ərəb dillərində eyni şəkildə işlənir. P.Mettie bildirir ki, ikidilli Ebla lüğətlərində şumer sözləri mənsubiyyət şəkilçiləri ilə verilsə də çox zaman tərcümədə göstərilmir: Ama-mu "mənim anam" = u-mu-mu "ana" (ümumsamicə); šeš-mu "mənim qardaşım" = a-hu-um "qardaş" (ümumsamicə). Burada hətta sözlərin qeyri-dəqiq tərcümələrinə də rast gəlinir.[12]

Eblada tapılan ikidilli lüğətlərin sayı bütöv və tam salamat qalmış olanı 47 və qırıntı şəklində isə 206 ədəddir.

**Ebla-Akkad lüğətləri.** Ebla (paleo-Hanaan) və akkad dilləri sami dil qrupuna aid olduqlarına görə lüğətlərdəki sözlərdə bənzərlik müşahidə edilir:

| **Ebla dilində** | **Akkad dilində** | **Tərcüməsi** |
|---|---|---|
| ba-ra-su-um, ba-ra-su | burāšu | ardıc ağacı |
| ḫa-zi-zu-um, ḫa-zi-zu | ḫasisu | qulaq, müdriklik |
| gi-li-tum | giltum | ağçoğan (bitki) |
| sa-ma-lum | gişimmaru | Finikiya palması |

[12] Древняя Эбла (Раскопки в Сирии). Сост. и введ. П. Маттиэ. Общ. ред. и закл. статья И. М. Дьяконова. М., 1985. с. 363. S. 197.

**"Urra hubullu" lüğəti.** Ən məşhur qədim lüğət "Urra hubullu" şumercə-akkadca ensiklopedik tərcümə gil kitabəsi hesab olunur. Hazırda Fransanın Luvr muzeyində saxlanılan bu lüğət ilk dəfə Suriyanın Ebla xarabalıqlarında tapılmışdır. E.ə. 2300-cü ildə Akkad İmperiyasında yaradıldığı hesab edilən "Urra Hubullu" lüğəti 24 gil lövhədən ibarətdir.

Burada ilk iki qarşılaşdırılan söz – şumercə *urra* və akkadca *hubullu* ("borc" və ya "faizli girov" mənasını ifadə edir) lüğətə ad olaraq qəbul edilmişdir. Lüğət tematik prinsiplə tərtib olunmuşdur. Hər lövhə ayrı-ayrı mövzular üzrə terminlərin hər iki dildə qarşılığını verən lüğət məqalələrindən ibarətdir: 4 və 5-ci lövhələrdə dənizdə və quruda nəqliyyat vasitələrini ifadə edən terminlər, 13 və 15-ci lövhələrdə müxtəlif növ heyvanların sistemli şəkildə adları, 16-cıda daşlar, 17-cidə bitkilər, 18-ci lövhədə isə ulduz və planetlərin adları əks olunmuşdur. "Urra hubullu" lüğətinin lövhələrinin bir neçə sayda nüsxəsi olduğundan şumer dövlətinin dini mərkəzi olmuş Nippurda tapılanlar əsli hesab olunur.

İ.T.Kaneva şumer-akkad lüğətlərinin 2 növünü göstərir: ***A*** və ***B***. ***A*** tipli lüğətlərdə akkad dilində olan baş sözün qarşısında şumercə qarşılığı yazılır. ***B*** tipli lüğətlər isə ideoqram (anlayış və ya sözün bir işarə ilə ifadə olunması) tərkibli olub, hər ideoqramın qarşısında şumercə tələffüzü və akkad dilində tərcüməsi əks olunur. Məhz ***B*** tiplu lüğətlər şumeroqramların (hecaları, bəzən isə bütöv sözləri ifadə edən Şumer mixi işarələri) oxunuşuna kömək olmuşdur. Burada şumer sözlərinin tələffüzü Akkad katibləri tərəfindən akkad fonetikası vasitəsilə açıqlanırdı.[13] Tədqiqatlar nəticəsində şumer dilinin əslində 6 sait və 28 (yaxud 29) samit səsi olması qənaətinə gəlinsə də, Akkad lüğət

[13] Канева И. Т. Шумерский язык. - 2-е изд., доп. и перераб. - СПб.: «Петербургское Востоковедение, 2006.- 240 с., s. 16-17.



transkripsiyasında 4 sait və 14 (yaxud 15) samit səsi göstərilmişdir.[14]

Şumer-akkad lüğətlərində şumer dilində bir söz bəzən bir neçə fonetik variantda verilir. Məsələn, *lum* "bolluq" sözü *hum, gum* variantlarında*;* "arvad, həyat yoldaşı" mənasını verən *nitah-dam* leksik vahidi həm də *nitalam* şəklində rast gəlinir.[15] Burada adları ifadə edən baş sözlər yalnız kök şəklində yazılırdı. Şumer dilində adlar isim, əvəzlik və sayları özündə birləşdirir. Morfoloji əlamətləri olmadığına görə sifət şumer dilində nitq hissəsi hesab edilmir. Onun yerinə keyfiyyət və əlamət bildirən feillər çıxış edir. Şumer-akkad lüğətlərində feillərin yalnız kökləri verilərək akkad dilinə məsdər kimi tərcümə olunmuşdur. Maraqlı burasıdır ki, "sabit söz birləşməsi şəklində olan feillər akkad dilinə hərfi tərcümə edilməmiş, məhz idiomatik mənasının qarşılıqları verilmişdir. Məsələn, *ki-ag = akk*. ramu "sevmək" (şumercə hərfi mənası: "torpaq ölçmək")".[16]



***Şəkil 2 Şəkil 2 "Urra Hubullu" lüğəti, 16-cı gil lövhə. Luvr muzeyi.***

[14] Son göstərilən əsər, s. 24-25
[15] Son göstərilən əsər, s. 22
[16] Son göstərilən əsər, s. 72.

| **Şumercə** | **Mixi işarə** | **Akkadca tərcümə** | **Mənası** |
|---|---|---|---|
| il-ar |  | ti-il-pa-nu | dəyənək atma |
| ta-al |  | ru-up-şum | en |
| na-qa |  | e-ci-tum | həvəngdəstə, həvəng |
| qa-qaz |  | pa-xa-su-um | qırıq-qırıq, xıncım-xıncım etmək |
| nin-da |  | mi-i-rum | öküz |

***Şumer-akkad lüğətindən bir parça***

**Aşşurbanipalın kitabxanasındakı lüğətlər.** E.ə. 669-633-cü illərdə Qədim Assuriya dövlətinin hökmdarı və dövrünün ən savadlı şəxslərindən biri olmuş Aşşurbanipalın ölkənin paytaxtı Nineviyada gil kitabələrdən ibarət böyük bir kitabxanası olmuşdur.

XIX əsrin ortalarında Britaniya muzeyinin arxeoloqlarının qazıb çıxardığı bu kitabxanada müasir kitabxanalardakı kimi kitabələr aid olduğu sahələr üzrə rəflərə yığılmış, hər sahənin adı kiçik gil lövhəciyə yazılaraq rəflərə bərkidilmişdi. Bir yeşiyə yığılmış lövhələr bir kitab demək idi. Buradan ümumilikdə 25 000 kitabə – tibb, din, magiya, astroloji və astronomik mətnlər, dövlət arxivi tapılmışdır. Bu unikal kitabxanada gil lövhələr üzərinə həkk olunmuş qlossarilər, hətta sinonimlər lüğəti də var idi. Kitabələrdə mixi yazılardan istifadə olunmuşdur.



***Şəkil 3 Akkad dilinin sinonimlər lövhəsi. Britaniya muzeyi.***

B.A.Turayev göstərir ki, Aşşurbanipalın kitabxanasında şumer-sami, hətta qədim və yeni şumer-sami sözləri lüğətləri, qonşu xalqların dillərinin lüğətləri (məs., kassit) və sami dilində sinonimlərin siyahısı vardır.[17] O, sami dili deyərkən sami dillər qrupunu nəzərdə tutur və öz əsərində də babil xalqı və assuriyalıları yahudilər, Finikiya-hananilər və ərəblərlə yanaşı sami dil qrupuna aid edir.[18] Qədim assuriyalılar akkad dilində danışdıqlarına görə, Turayevin göstərdiyi lüğətlərin məhz şumer-akkad lüğətləri olması nəticəsinə gəlmək olar.

**"Malku-şarru" (Malku=šarru) lüğəti.** Müasir assurialogiyaya cəmi bir ədəd akkad-akkad lüğəti məlumdur. Bu, akkad dilinin doqquz gil lövhədən ibarət "Malku-şarru" sinonimlər lüğətidir. Lüğətin adı başda gələn ilk sinonimlərdən götürülmüşdür. Tematik üslubda tərtib edilmişdir. I lövhəni araşdırmış A.Kilmer onun insanları və yer adlarını (maliyə, bilik, düşmənlər, zalımlar, qadın, kişi, dostlar, qohumlar, qulluqçular, kollektiv terminlər, coğrafi adlar) əks etdirdiyini göstərir.[19]

[17] Тураев Б.А. История древнего востока. Под редакцией Струве В.В. и Снегирева И.Л. - Ленинград: Социально-экономическое, 1935, s. 143.
[18] Son göstərilən əsər, s. 64.
[19] Kilmer, Anne Draffkorn. The First Tablet of malku = šarru together with Its Explicit Version. Journal of the American Oriental Society. Vol. 83, No. 4 (Sep. - Dec., 1963), pp. 421-446, s. 421.

Müasir dövrdə bir çox şumeroloq və assurşünaslar şumer dilini öyrənməyə cəhd göstərsələr də, təəssüf ki, bu vaxta qədər onun tam iri həcmli lüğəti hazırlanmamışdır. Yeganə olaraq ABŞ-ın Pensilvaniya Universitetində A.Syoberqin redaktəsi ilə 18 cildlik "Pensilvaniya şumer lüğəti"nin ("Pennsylvania Sumerian Dictionary", şumercə-ingiliscə) tərtibatı nəzərdə tutulmuş, lakin 1992-ci ildə cəmi iki cildi işıq üzü görmüşdür – A və B hərfləri.

Şumer dilindən fərqli olaraq 1921-ci ildə Çikaqo Universitetinin Şərqşünaslıq İnstitutunda arxeoloq və tarixçi Henri Brestedin təşəbbüsü ilə "Çikaqo Akkad lüğəti"nin tərtibatı 10 cildlik nəzərdə tutulmuş, amma gərgin fəaliyyət nəticəsində cildlərin sayı 21-ə qədər artırılmışdır. İlk cildi 1956-cı ildə, sonuncusu isə 2011-ci ildə çapdan çıxmışdır. Lüğət akkad dilinin e.ə. 2500-cü ildən b.e. 100-cü ilinə qədərki leksikasını əhatə edir.


1952-ci ildə alman alimi Y.Fridrixin "Hethitisches Wörterbuch" hett dilinin lüğəti, 2008-ci ildə A.Klukhorstun "Etymological Dictionary of the Hittite Inherited Lexicon" adlı hett dilinin etimoloji lüğəti çapdan çıxmışdır. Bundan başqa, 1975-ci ildə yenə də Çikaqo Universitetinin Şərqşünaslıq İnstitutunda hett dilinin tamhəcmli lüğətinin yaradılmasına start verildi. 2013-cü ildə 10-cu cild nəşr olundu. Lakin 2015-ci ildə baş redaktorlardan biri məşhur hettoloq Harri Hoffnerin (1935-2015) vəfatı layihəni bir qədər ləngitsə də, lüğətin digər hərfləri üzərində iş hələ də davam etdirilir.

# QƏDİM HİND LÜĞƏTÇİLİYİ

Hind ilahilərinə həsr olunmuş Vedaların (poetik himnlər) müqəddəs mətnlərini yaşatmaq, yeni nəslə mənasını çatdırmaq məqsədilə qədim Hindistanda tətbiqi xarakterli Vedanqa (Vedāṅga) elm sahəsi yaradılmışdır. Vedanqa "Riqveda"ya (ən qədim müqəddəs himnlərin mətnləri, e.ə. 2000-ci ilin ortaları) əlavə hesab edilirdi və öz növbəsində altı sahəyə bölünürdü. Bu sahələrdən biri məhz leksikoqrafiya idi.

**"Niqhantu" qlossarisi.** Ən qədim hind qlossarisi "Vedic-Nighaṇṭu" (*sanskr.* निघण्टु Nighaṇṭu) hesab edilir. Dünyada yeganə şifahi lüğət nümunəsi olan "Vedic-Nighaṇṭu" qədim hind traktatı "Riqveda"nın müqəddəs himnlərindəki işlək sözlərin və mənası anlaşılmayan leksik vahidlərin toplusundan ibarətdir. Raceş Kumar Mişra (Rajesh Kumar Mishra) bu lüğətin müxtəlif dövrlərdə yaradılmış 37 variantını göstərir. Bunlar sırasında "Vedic-Nighaṇṭu" sanskrit dilinin qorunub-saxlanmış ən qədim leksikoloji əsəri hesab edilir (bax: Mishra, 2019: 8-11). Hindistanda belə bir fikir yayılıb ki, onun müəllifi "Riqveda"nın bəzi fəsillərinin müəllifi olmuş Kaşyapadır. Lakin tədqiqatçılar bu fikri təsdiqləmirlər. Onların fikrincə, traktat "Vedic-Nighaṇṭu" bir müəllifə aid olmayıb bir nəslin nümayəndələri və ya bir neçə arxa nəsil tərəfindən yaradılmışdır. Yaskaya görə (Nirukta 1.20), Niqhantu əvvəlki müdriklər tərəfindən Veda mətnlərinin daha asan başa düşülməsi üçün toplanmış nadir və ya çətin sözlərdən ibarətdir. Lüğət dildən-dilə, ağızdan-ağıza gəzərək şifahi şəkildə yaşadılmışdır. Hindlilərin düşünüb tapdıqları xüsusi translyasiya texnikası sayəsində "Riqveda"nın mətnləri, bir çox hind alimlərinin əsərləri və eyni zamanda Niqhantu ilkin tələffüz şəklində minilliklərdən keçərək günümüzə qədər olduğu kimi gəlib çatmışdır.Niqhantu əlifba sırasına salınmadan düzülmüş mindən çox sözdən ibarətdir. Əsər beş

"kāṇḍa"ya bölünür. Birincisi "Naighaṇṭuka kāṇḍa" adlanır və 1341 sinonim və yaxınmənalı sözlərdən ibarət üç leksik-semantik qrupu əhatə edir: birincidə canlı və cansız təbiətdə olan əşyaların adları – yer, günəş, ay, külək, bulud və buna bənzər adları ifadə edə sözlər; ikincidə insan və onun fəaliyyət sferası; üçüncüdə insanın hisslərini, halını, mental vəziyyətini və xarakterik cəhətlərini göstərən məcaz anlamlı anlayışlar əks olunmuşdur. Dördüncü kāṇḍa "naigama kāṇḍa" adlanır. Buraya yalnız "Riqveda"da işlənən 278 omonim və sözlər daxil edilmişdir. "Daivata kāṇḍa" adlanan beşinci kāṇḍa 151 sözdən ibarət olub teoloji terminləri və ilahilərin adlarını əhatə edir. "Niqhantu"ya linqvistik nəzəriyyə və ya lüğət şərhləri salınmamış, sadəcə, sözlərin siyahısı verilmişdir. Bu lüğətin birinci fəslində təkcə "torpaq" sözünün 21 sinonimi daxil edilmişdir ki, bunların da hər biri çoxmənalıdır. Belə ki, bir söz eyni zamanda bir neçə semantik qrupa daxil edilərək sanki semantik şəbəkə yaradılmışdır. "Niqhantu"da, əsasən, isimlər əks olunsa da, bəzi semantik qruplar yalnız feillərdən ibarətdir. Burada eyni zamanda zərf, ön şəkilçilər və hissəciklərə də rast gəlinir. Beş kandada işlənən sözlərin cəmi 1770-dir.




**"Nirukta" lüğəti.** Müəllifi qədim sanskrit qrammatiki Yaska olan "Nirukta" lüğəti (Nirukta və ya Nirukti – *sanskr.* निरुक्त "izah edilmiş, şərh edilmiş, etimoloji interpretasiya") günümüzə qədər gəlib çatmış qədim hind etimologiyası lüğətinin yeganə nümunəsi hesab edilir. Burdakı "..mətnlər dini mahiyyətə

malik olmasa da, ortodoksal induslar tərəfindən olduqca müqəddəs hesab edilir".[20]

O, əsrlər boyu davam edən nüfuza malik olsa da, haqqında çox az məlumat vardır. Bir çox araşdırmaçılar Yaskanın b.e.ə. V əsrdə yaşadığını guman edirlər. Onun çoxsaylı əsərlərindən yalnız "Nirukta" qorunub saxlanılmışdır.



12 fəsildən ibarət olan "Nirukta" yuxarıda adı çəkilən "Nighaṇṭu"nun beş fəslinin şərhindən və hissə-hissə qlossarilərdən ibarətdir. Ümumilikdə Yaskanın lüğəti etimoloji xarakterli hesab edilsə də, müəllif sözlərin mənşəyini qədim hind qrammatiki Paninin kimi diaxron deyil, sinxron aspektdən tədqiq etmişdir.

Çünki mənbə olaraq götürülmüş "Nighaṇṭu"nun sözlüyü "Riqveda"nın müqəddəs mətnləri kimi əsrlər boyu dəyişməmiş, eyni fonetik və morfoloji quruluşda, sözlər predmetləri ifadə etdiyi anlamlarda olduğu kimi qorunub saxlanılmışdı.

Yaska öz lüğətini 5 hissəyə (kanda) bölmüşdür. İlk üç hissədə (Naighatuka-kanda) sinonimlərin, dördüncüdə (Naiganakanda) omonimlərin izahlarını vermiş, beşincidə isə (Daivaffkanda) Veda ilahilərinin adlarının etimologiyasını şərh etmişdir. Nirukta" lüğətində əşyaların adları tematik qruplar üzrə bölgülərə ayrılır, feil və məsdərlər, isim və sifətlərin siyahıları verilir.

[20] Dustin Shane H. REL 5338 - Hindu Traditions. 2017. 14 pages, s. 1.

Cons Bronxorst (Johannes Bronkhorst) göstərir ki, Yaska öz əsərində, əsasən, isimlərin etimologiyasını vermiş, feil, ön şəkilçi və bağlayıcıların mənşəyi haqqında məlumat verməmişdir. Çox guman ki, onun yaşadığı dövrdə bu sözlər hələ köhnəlmiş və ya arxaikləşmiş sözlər sırasına daxil deyildi.[21] Amma əvəzində Yaska bunları qrammatik cəhətdən izah edir. O, sözlərin qrammatik təsnifatını apararkən dörd qismə bölür: adlar, feil, ön şəkilçi və bağlayıcı. Yaska hətta söz yaradıcılığı, fleksiya, ismin halları anlayışı haqqında da məlumatlar verir.

"Nirukta" lüğəti böyük nüfuza malik olmuş, uzun əsrlər boyu müqəddəs mətnlərdən dərslik vəsaiti kimi istifadə olunmuşdur. O, indiyə qədər də altı vedanqdan ("Riqveda" mətnlərinə əlavələrdən) biri hesab edilir.

**"Amarakoşa" (Amarakośa – अमरकोश) və ya "Namalinqanuşasanam" (Nāmaliṅgānuśāsanam) qlossarisi.** Sanskrit dilinin sinonimlər lüğəti olan "Amarakoşa" (Amara – şəxs adı Amara "ölümsüz", kośa – "xəzinə", yəni Amaranın xəzinəsi) b.e. IV əsrinə aid edilir.



Onun müəllifi Vikram və ya Vikramadityanın (II Çandra Qupta) sarayındakı "doqquz cəvahir"dən biri hesab edilən qrammatik və şair Amara Sinha olmuşdur."Amara-

[21] 95. Bronkhorst, Johannes. Nirukta and Aṣṭādhyāyī: their shared presuppositions. Article in Indo-Iranian Journal. January 1981. Citations 15, s. 5.



*Yaskanın "Nirukta" lüğətinin ilk səhifəsi*

koşa" lüğəti Hindistan tarixində böyük nüfuza malik olmuş kitablar siyahısında 100-cü sırada yer alır. Onun başqa bir adı "Nama-linga-anu-shasana"dır (isimlərə və cinsə aid instruksiya). Müəllif burada özünün daha 18 əsəri haqqında danışır. Amma təəssüf ki, onlar itirilmişdir.

Lüğət 10 000-dən çox sözü əhatə edir və "get" sözü ilə başlayaraq "devpatni" ilə bitir. Hind mədəniyyətində mətnlər şifahi şəkildə qorunduğundan "Amarakoşa"nın əzbərlənməsini asanlaşdırmaq məqsədilə poema şəklində tərtib olunmuşdur. Lüğət tematik prinsiplidir və hecaların sayı üzrə qafiyə üsullu tərtibata malikdir. Burada təkcə leksik vahidlərlə deyil, ümumilikdə lüğətin quruluşunda sanki dünyanın mənzərəsi təqdim edilir.

Lüğət beş kandaya (khāṇḍa) bölünür, bunların hər biri ayrı-ayrı mövzulara həsr olunmuş leksik-semantik qruplara – fəsillərə (varga) ayrılır. Tezaurus məfhumların alidən aşağı dərəcəlilərə qədər ciddi ardıcıllıqla məfhumların sinifləndirilməsini və iyerarxiyasını təqdim edir. Lüğətin "Svargadi-khaṇḍa" ("cənnət və digərləri") adlı birinci kandası hind panteonunun (*yun*. Πάνθειον, "bütün tanrılara (məbəd)") baş ilahilərinin və göyün adları və atributları ilə başlayır, sonra ikinci dərəcəli ilahilər, daha sonra isə yarımilahilər və s. ilə bağlı sözlər gəlir. Bunun ardından "səma çıraqları"nın adları – planet və ulduzlar, təbiət hadisələri (yağış, şimşək, qar və s.), hind təfəkküründəki dünya mənzərəsində zaman və məkan anlayışlarını ifadə edən terminlər (yerdəyişmə istiqamətləri, ayların və illərin adları və s.) yer alır. I kandada səmanın 9, ilahilərin 26, Buddanın adları, hind panteonunun mühüm adları və atributlarının və hava məkanının 23 sinonimi verilir. "Bhūvargādi-khāṇḍa" ("torpaq və digərləri") adlı ikinci kanda yer, şəhərlər, heyvanlar və insanlara həsr olunub: müəyyən ardıcıllıqla insan yaşayış evlərinin adları, ev heyvanlarının və vəhşi heyvanların adları, sənətkarlıq, məişət əşyaları və s. Birinci kandanın altıncı fəsli "Śabda-var-

ga” ilahilərlə və insanlarla ünsiyyətqurma, nitqin növləri və s. həsr olunub. “Samanyadi-khaṇḍa” (“ümumi”) adlı üçüncü kanda qrammatika ilə əlaqəli və digər müxtəlif sözləri əhatə edir. “Amarakoşa” lüğəti ilk dəfə Avropada 1798-ci ildə Romada çap olunduğu zaman tanınmış və elm aləmində böyük əks-sədaya səbəb olmuşdur.

X əsrdə yaşamış hind riyaziyyatçısı və astroloqu Halayudha (हलायुध) (950) öz lüğətini Amarkoşun təsiri altında tərtib etmişdir. Ona geniş bir şərh yazan, bəzi hissələrini genişləndirən və əlavələr edən Halayudha beş kanda tərtib etmişdir (Svar, Bhumi, Patala, Common və Anekarsa). İlk dördü sinonim sözlərdir, beşincisində çoxmənalı sözlər toplanmışdır.




[ वि. सं. १२९४ की ताड़पत्र-प्रति के आधार पर ]

***1294-cü ilə aid palma kağızı üzərində çəkilmiş Açarya Hemçandra Surinin rəsmi.***

Bu prinsiplə XII əsrin hind riyaziyyatçısı, qrammatiki və leksikoqrafı olmuş Açarya Hemçandra Suri (हेमचन्द्र) (1088-

1173) öz leksikoqrafik əsərlərini yaratmışdır: Sanskrit dilinin sistemli sinonimlər lüğəti "Adhidhana-çintamani-koşa" ( अभिधानचिन्तामणि Abhidhāna-cintāmaṇi-kośa), qeyri-sanskrit mənşəli dialektizmlər lüğəti "Deshi-Shabda-Sangraho" və ya "Deşinamamala" (Desi-nama-mala), botanika terminləri lüğəti "Niganthu Sesa", çoxmənalı sözlər lüğəti "Anekars Koşa". "Adhidhana-çintamani-koşa" lüğətinin birinci hissəsi sinonimlərdən, ikinci hissəsi isə omonimlərdən ibarətdir. Sinonimlər bölməsi altı kandaya (khāṇḍa) bölünür.

Omonimlər hissəsi hər bir sözdəki hecaların sayına, eyni zamanda son hecalara görə yerləşdirilmişdir.

## QƏDİM ÇİN LÜĞƏTLƏRİ

Buddizmin Çin ərazisində yayılması təsiri ilə sanskrit dilində olan buddist mətnlərinin tərcümə edilməsi hind leksikoqrafik ənənələrini Çin-Tibet mədəniyyətinə gətirməyə başladı. Hind lüğətlərində olan sinonimlərin qafiyə üsulunda düzülüşü Çin leksikoqrafiyasında da izlənməkdədir.

Qədim Çində çətin sözlərin izahı, heroqliflərin quruluşu və etimologiyası ilə məşğul olan xüsusi elmi sahələr mövcud idi.

**"Şi Çjou nyan" lüğəti.** Bu lüğət Çjou sülaləsi dövründə e.ə. 827-782-ci illərdə tərtib olunmuşdu və heroqliflərin siyahısından ibarətdir. Çin heroqlifləri hərflərdən fərqli olaraq məna ifadə edə bildiyi üçün "Şi Çjou nyan" lüğətində yalnız əşyaların və insanla bağlı məfhumların adları verilmiş, quruluşu isə semantik prinsipə əsaslanaraq təşkil edilmişdi.



*"Erya" izahlı lüğəti*

**"Er-ya" lüğəti.** E.ə. III-II əsrlərdə yaradılmış bu lüğət Çin tarixində linqvistik və ensiklopedik xüsusiyyətləri olan ilk sistemli izahlı lüğət hesab olunur. Bu lüğət bir neçə nəsil alimlərin ağır zəhməti hesabına tərtib olunmuşdur. "Er-ya" Çin heroqliflərinin izahlı lüğəti günümüzə gədər tam şəkildə gəlib çatmışdır. Lüğət 19 fəsildən ibarətdir. Daxili quruluşu semantik prinsipə əsasən təşkil olunmuşdur: torpaq, su, səma, dağlar, ağaclar, heyvan, quş, balıqlar və s. İlk üç fəslə digər qruplara salınmamış sözlər daxil edilmişdir: 1) *qu* "qədim sözlər"; 2) *yan* "sözlər"; 3) *sün* "təsvir" (əsasən sifət və zərflər). "Er-ya" lüğətinin sözlüyü qədin Çin dilinin Dotsin dövründəki lüğət tərkibini əks etdirir. Təktərkibli və cüttərkibli vahidlər

lüğətin leksikoqrafik təsvirinin predmeti olaraq təqdim edilir. Sözlükdə ümumişlək sözlərdən başqa terminoloji leksika da verilmişdir. Lüğətdə daha çox köhnəlmiş sözlərə və mənası məlum olmayan qloslara yer ayrılmışdır.

Lüğət tematik-semantik prinsiplə tərtib edildiyindən siyahı şəklində verilmiş baş sözlərin izah ediləni və izah edilməyənləri müşahidə olunur. İzahedilmə metodları bunlardır: 1) birbaşa izah (sinonimlər və ya yaxınmənalı ümumişlək sözlər vasitəsilə); 2) anlayışın izahı; 3) təsvir; 4) müqayisə.

Lüğətdə illüstrativ materiallar da tətbiq edilmişdir. E.ə. 206-220-ci illərdə Xan sülaləsinin hakimiyyəti dövründə qədim klassik əsərlərin mətnlərinin izahı məqsədilə tərtib olunduğu güman edilir.



**“Fan Yan” lüğəti.** I əsrə aid ilk dialektoloji lüğət hesab edilə biləcək “Fan Yan” lüğətinin adı tərcümədə “məhəlli sözlər” deməkdir. Ehtimal olunur ki, müəllifi Yan Syun (e.ə. 53 - b.e. 18) olmuşdur, lakin hələ tam sübuta yetirilməmişdir. “Fan Yan” lüğətinin tərtibatı üçün Xan imperiyasının bütün bölgələrindən sözlər toplanmışdı. Burada hər bir sözün yayılma sahəsi göstərilmişdir. Lüğətdə 9000 heroqlifdən istifadə olunmuşdur. Bu unikal lüğət qədim Çin dialektləri və Çin dili haqqında məlumat verə bilən əvəzolunmaz elmi mənbədir.

**“Şo ven Szeszı” lüğəti.** Müəllifi Syuy Şen olan bu lüğət Çin filologiyasında monumental əsər hesab olunur.

Xan sülaləsi (e.ə. 206 - b.e. 220) dövründə filoloqlar heroqliflərin yazılışına dəyişiklik etməyə cəhd göstərirdilər. Nəzarətsizlik üzündən heroqliflər sistemində xaos yaranmışdı. Xaotik dəyişikliklərin qarşısını almaq məqsədilə Şərqi-Xan dinastiyasının məşhur alimi Syuy Şen “Şo ven Szeszı” (“Sadə heroqliflərin izahı, tərkibi heroqliflərin analizi”) adlı lüğətini tərtib etdi.

B.e. 121-ci ilinə aid “Şo ven Szeszı” lüğətində Çin leksikoqrafiyası tarixində ilk dəfə olaraq sözlər tematik planda deyil, işarələrin formasına görə tərtib olunmuşdur. Burada ümumilikdə 9353 Çin simvolu və 540 əsas yer almışdır. Lüğətin müəllifi olmuş Syuy Şen (30-124) tərtibə 100-cü ildə başlamış,

lakin vaxtsız ölümü ona əsərini bitirməyə imkan verməmişdi. Lüğəti oğlu Syuy Çin 121-ci ildə başa çatdırmışdır. Burada heroqliflər əsas əlamətlərinə görə sistemləşdirilmiş və ümumilikdə 10000 heroqlif əks olunmuşdur. Bu heroqliflərin əksəriyyəti sonrakı lüğətlərdə eyni şəkildə istifadə olunmuşdur. Lüğətə "Erya" lüğətində olduğu kimi təkcə köhnəlmiş və nadir sözlər deyil, "Fan Yan" kimi həm də dialekt sözləri daxil edilmişdir. Cyu Şen burada heroqliflərin izahından əlavə, həm də mənşəyini vermişdir. Girişdən sonra müəllif heroqliflərin təsnifati prinsiplərini təqdim edir.

"Şo ven" lüğətinin yaradılma tarixi müxtəlif mənbələrdə eyni tarixlə 100-121-ci illər gah eradan əvvələ, gah da bizim eraya aid edilir. Biz öz versiyamızı bizim era üzərində saxladıq.

**"Şo Min" lüğəti.** Təxminən II əsrdə Lyu Si "Şo Min" ("Adların izahı") etimoloji lüğətini yaratdı. Burada sözlərin fonetik bənzərliyi əsas götürülmüş və Xan dövrünün sonlarında Çin sözlərinin fonetik təsvirini verir.

**"Quan Ya" lüğəti.** 230-cu ildə Çjan İ tərəfindən "Er-ya" lüğəti üslubunda tərtib edilmişdir. Ancaq həcmi qat-qat ondan artıqdır.

Buddizmin yayılması Çin, Tibet, Koreya, Monqol ərazilərində sanskrit dilindən tərcümə lüğətlərinin yaradılmasına gətirib çıxardı. Hindistandan Çinə bütpərəstliyin keçməsi özü ilə hind əlifba-heca prinsipindəki qafiyə üsulunu da gətirdi. Li Denin "Şen ley", Lyuy Çzinin "Yun Çzi", dəfələrlə yenidən nəşr olunan, əlavələr edilən, şərhləri olan Lyu Fayanın (601) "Çe Yun" lüğətləri məhz qafiyə üslubunda tərtib olunan leksikoqrafik əsərlər idi.


## ORTA ƏSR ÇİN LÜĞƏTÇİLİYİ

Qədim Çin lüğətçiliyində eramızın əvvəllərində yaranan qafiyə üsulu orta əsrlərdə də aktuallığını itirmədi.

**“Quan Yun” (1008) lüğəti.** Bu lüğət 601-ci ilə aid “Çe-Yun” lüğətinin yenidən işlənmiş variantıdır.

**“Yun Çzin” (güzgülərin həmqafiyəsi) lüğəti.** VIII əsrdə tərtib edilmiş “Yun Çzin” lüğətində hər biri 4 hissəyə (4 avaza) bölünən 43 cədvəl qurulmuşdur. Samit və saitlərin yerinə və işlənməsinə görə ahəngi və qafiyəsi müəyyənləşir.

**“Yiqiejing yinyi” lüğəti** (切經音義 ). 649-cu ilə aid bu çincə-sanskritcə lüğətin adı “Tam buddist kanonuna uyğun tələffüz və məna” ifadə edir və Çin ikidilli lüğətlərinin arxetipidir.



***Yiqiejing yinyi (Xuanying) lüğəti***

Onun əlyazması XX əsrin əvvəllərində Dunhuang (Çin) ərazisindəki Moqao mağarasında tapılmışdır.

Bu lüğətdə buddist texniki terminləri əks olunmuşdur. Onun müəllifi Tang sülaləsi dövründə sanskrit monaxı Xuanzangın tərcüməçisi Xuanying 玄 應 olmuşdur. O, öləndə lüğətin 25 fəslini bitirmişdi. Lakin 807-ci ildə monax Huilin (慧琳) həmin lüğətin eyni adla (Yiqiejing yinyi) 100 fəsildən ibarət başqa bir versiyasını yaratmışdı.

XI-XII əsrlərdə ənənə üzrə davam etdirilən və əzbərlənən qafiyə siyahıları qeyri-real tələffüzə malik idi. XII-XIII əsrlərdə köhnə qafiyə sistemi sadələşdirilməyə doğru gedir. Lakin nə qədər sadələşdirilsə də, hələ də canlı tələffüzdən uzaq idi.

**Çjou Detsin lüğəti (1324).** Bu lüğətdə qafiyələr azaldılmış, tələffüz dördavazlı Pekin sisteminə uyğunlaşdırılmışdı.

**"Çjunyuan in yun" lüğəti (1368).** Bu lüğətdə ənənəvi qafiyədən imtina edilmiş və hakimiyyətdə olan şimal dialektinə üstünlük verilmişdir.


## QƏDİM YUNAN LÜĞƏTLƏRİ

Antik elmin qollarından biri məhz leksikoqrafiya olmuşdur. Dövrünün qabaqcıl dilçilik nailiyyətlərinə malik olan qədim Yunanıstan lüğətçiliyin inkişafı üçün münbit mühitə malik idi. Xüsusilə Aristofanın dövründə (e.ə. 257-180-ci illər) klassik əsərlərin, şairlərin dilinə (bunlar arasında Homer birinci yeri tuturdu) həsr olunmuş kiçik müəllif lüğətləri, köhnəlmiş sözlər və ayrı-ayrı ərazilərin dialekt leksikasının qlossarilərinin tərtib edilməsi Aleksandriya məktəbinin fəaliyyət sferasına daxil idi. Bəzən isə lüğətçilər heç bir prinsip tətbiq etmədən istədikləri şəkildə lüğət hazırlayırdılar. Aleksandriya məktəbində yunan dilinin tam lüğət tərkibini əhatə edə biləcək leksikoqrafik əsər müşahidə olunmur.

**Abderalı Protaqor.** B.e.ə. 490-420-ci illərdə yaşamış "İnsan bütün mövcudatın ölçü vahididir" (πάντων χρημάτων μέτρον) tezisi ilə məşhur olan yazıçı-filosof Abderalı Protaqor (Protagóras) əfsanəvi yunan şairi Homerin əsərlərində olan qlosları (*qəd.yun*. γλῶσσα "dil, nitq") – mənası anlaşılmayan sözləri, xüsusi isimləri və texniki terminləri əks etdirən lüğətini – ilk qlossarini (glossary) tərtib etmişdir.

**Filetin "Qeyri-salim qloslar" lüğəti.** E.ə. 340-285-ci illərdə yaşamış şair və filoloq Filet (Philetas) də qloslarla maraqlanırdı. Onun filoloji fəaliyyətinin bəhrəsi olan "Qeyri-salim qloslar" (Ataktoi glossai) əsərinin cəmi 30 parçası günümüzə gəlib çatmışdır. Burada Homerin əsərlərində olan qloslar, dialektizmlər, texniki terminlərin izahı vardır.

**İskəndəriyyəli Aristofan.** Ədəbiyyat tənqidçisi, filoloq, biblioqraf və qrammatik İsgəndəriyyəli Aristofan (Aristophánes) e.ə. 195-ci ildə İsgəndəriyyə kitabxanasına başçılıq etmişdir. O, köhnəlmiş sözlər və texniki terminlərlə yanaşı, deyilişi və yazılışı çətin olan sözlərin də izahlı lüğətini tərtib etmişdir. Atalar sözlərinin lüğətə daxil edilməsi ilk dəfə məhz onun leksikoqrafik əsərində müşahidə olunur. Aristofan həm də durğu və yunan diakritik işarələrinin yaradıcısı hesab olunur.



***Filetin bürünc büstü***

**Yunan filoloqu Pamfil** (Pamphilus, b.e. 50) 95 sayda qədim kitabdan seçərək topladığı köhnəlmiş sözlərdən lüğət tərtib etmişdir.

**İsgəndəriyyəli Hesixius.** Qədim yunan dilinin ən dolğun və ən böyük lüğəti məhz İsgəndəriyyəli Hesixusa (Hesychius) məxsusdur. Eramızın V əsrində yaşadığı güman edilən bu leksikoqrafın lüğətində işlək olmayan, arxaikləşmiş və köhnəlmiş sözlər yer almışdır. İsgəndəriyyəli Hesixus lüğətini hazırlayarkən e.ə. I əsrə qədərki lüğətlərdən yararlanmışdır. Günümüzə qədər gəlib çatmış Hesixusun lüğətinin ən qədim nüsxəsi XV əsrə aid edilir. Daha sonra XVIII, XIX, XX əsrlərdə bir neçə dəfə nəşr olunmuşdur.

**Aelius Dionis.** 125-ci ildə Aelius Dionis (Aelius Dionysius) Afina dialektinin lüğətini yazmışdır.

# II FƏSİL

# ƏRƏB LÜĞƏTÇİLİYİ ƏSASINDA ŞƏRQ LÜĞƏTÇİLİYİNİN FORMALAŞMASI (VIII- XVIII ƏSRLƏR)

## ORTA ƏSR ƏRƏB LÜĞƏTÇİLİYİNİN TƏRTİBİ PRİNSİPLƏRİ

Ərəb leksikoqrafiyası tarixində VIII əsrdən etibarən müxtəlif lüğət məktəbləri və buna müvafiq tərtibi üsullar tətbiq edilməyə başlandı. Bu məktəblər, qəribə də olsa, mürəkkəbdən sadəyə doğru inkişaf yolu keçmişdir. Çünki ərəb lüğətçiliyinin banisi, ilk ərəb lüğətinin müəllifi Xəlil ibn Əhməd Əl-Fərahidi "Kitab əl-ayn" lüğətinə elə bir mürəkkəb tərtibat vermişdi ki, sonrakı leksikoqraflar uzun əsrlər boyu lüğət istifadəçilərinin işini asanlaşdırmaq məqsədilə hər dəfə daha asan üsulları tapıb lüğətlərinə tətbiq etməyə çalışmışlar. Beləliklə müxtəlif məktəblər yaranmışdır.

Ərəb lüğətçiliyinin əsas xüsusiyyətlərindən biri lüğətin qrammatika ilə vəhdət təşkil etməsi idi. Hər bir lüğətin içində qrammatik, fonetik, sintaktik izahlara rast gəlmək mümkündür. "Ərəb leksikoqrafiyasında qrammatik prinsipə əsasən lüğət vahidləri onların nitq hissələrinə ad qrupu (أسماء), feil qrupu (أفعال), köməkçi nitq hissələri (حروف) və başqa qrammatik kateqoriyalara (hal, təsrif və s.) aidiyyəti nöqteyi nəzərdən qruplaşdırılır".[22]

H. Zərinəzadə ərəb lüğətçilyində lüğət vahidlərinin sıralandırılması baxımından üç prinsipi göstərir:

[22] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s. 168.

1. Tematik prinsipə əsaslanan lüğətlərdə ayrıca hissələr təşkil edən söz qruplarının hər biri müstəqil olaraq (ayrıca əlifba sırası üzrə) sıralandırılır;

2. Kök-yuva sistemində tərtib edilmiş və leksik-etimoloji prinsipə əsaslanan lüğətlərdə bir tərəfdən köklər (sadə sözlər) arasında, digər tərəfdən hər bir kökün yuvacığında yerləşən törəmələr arasında ayrıca əlifba sırası tətbiq edilir;

3. Tam əlifba sırası prinsipinə əsasən tərtib edilmiş lüğətlərdə bütün lüğət vahidləri (həm köklər, həm də onların törəmələri) arasında əlifba sırası nəzərə alınır və beləliklə, həmin lüğətlərdə əlifba sırası bütün sözlük üzrə vahid bir sistem təşkil edir;

4. Lüğət vahidlərinin sıralandırılmasında onların ancaq samitləri və ya tam fonetik tərkibi (həm samitləri həm də saitləri) tamamilə nəzərə alına bildiyi kimi, samitləri və yaxud fonetik tərkibi tamamilə deyil, qismən də hesaba alına bilər;

5. Lüğət vahidləri onların tərkibindəki samitlər və ya səslərin (həm samitlər, həm də saitlərin) düzülüşü (söz tərkibindəki sırası) istiqamətində (proqressiv) və yaxud düzülüşü əksinə (reqressiv) və yaxud qarışıq (həm proqressiv, həm də reqressiv) sıralandırıla bilir.[23]

İlkin ərəb qlossarilərində işlək sözlərdən çox, köhnəlmiş və arxaikləşmiş və ya qrammatik cəhətdən qeyri adi və nadir sözləri toplayaraq izah etmək məqsədi güdülürdü. Adi sözlər izahlı lüğətə salınırdısa, çox qısa izah edilir, bəzən isə sadəcə üzərinə işlək söz olduğu (mə'ruf) haqqında işarə qoyulurdu.[24]

Bəzi tədqiqatçılar (S.Vild, J.A.Heyvud, V.A.Zveqintsev) ərəb leksikoqrafiyasının ilkin dövrlərində tematik və fizioloji-

[23] Son göstərilən əsər, s. 168.

[24] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s. 148.

fonetik prinsipə üstünlük verildiyinə görə antik və sanskrit lüğətçiliyinin təsirini göstərirlər. "Çünki Ərəb Xilafətində yunan və hind elmi ədəbiyyatının ərəb dilinə tərcüməsinə böyük fikir verilirdi".[25] Əslində yunan məntiq və fəlsəfəsi daha çox ərəb qrammatikasına nüfuz edə bilmişdir. Ərəb leksikoqrafiyası olduqca mürəkkəb və zəngin inkişaf yolu keçdiyinə görə, zənnimizcə, sistemsiz tərtibata malik yunan lüğətçiliyi ilə müqayisəyə gələ bilməz. Sanskrit leksikoqrafiyasının təsirini isə, predmet-tematik prinsipdə, "ayn" və "qafiyə" üsullarında görmək mümkündür.

## Ərəb lüğətçiliyində işlənən terminlər

Ərəb leksikoqrafiyasında işlənən terminlər bilavasitə orta əsr türk və Azərbaycan lüğətlərinin terminologiyasına daxil olduğu üçün onların siyahısını və izahını verməyi lazım bilirik:

**bab (باب)** – fəsil, bölüm;

**hərfi-illət (حرف علّة)** – tərkibində *əlif, vav, yə* (ي و، ا،) hərfləri olan köklər;

**əbniya (أبنية)** – feil köklərində samitlərin sayının hesaba alınması: *iki hərfli (əslində samitli), üç hərfli, dörd hərfli, beş hərfli* (bu termin ilk dəfə Xəlil ibn Əhmədin "Kitabu-l-ayn" lüğətində işlənmişdir*;*

**ğünnə (غنة)** – burun səsləri olan köklər (bu termin M.Kaşğarinin lüğətində işlənmişdir);

**hərfi-mütavəat** – qayıdış hərfi;

**huruf əs-saləbə (حروف الصلابة)** - sərtləşən hərflər

**ismi-məkan (اسم مكان)** – məkan bildirən;

**ləfif (لفيف)** – bir səhih hərfli (bax: **səhih**) və iki hərfi illətli (bax: **hərfi-illət**) sözlər;

[25] Məmmədəliyev V.M. Ərəb dilçiliyi. Ali məktəb dərsliyi. Bakı: Maarif, 1985, 288 səh., s. 13.

**məf'ul bihi (مفعول به)** – təsirlik hal;

**məhmuz (مهموز) –** həmzəli sözlər;

**mənqūs (منقوص)** – kökün əvvəlində iki hərfi-illətin yanaşı gəlməsi;

**məsdər (مصدر)** – məsdər;

**misāl (مثال)** – ilk hərfi *vav* və ya *yə* (ي) hərflərindən biri olan köklər;

**muarrab və daxil** – ərəbləşmiş və alınma sözlər;

**mudā'af (مضاعف)** – tərkibində şəddəli hərf – qoşa samit olan feil kökləri;

**muhməl (مهمل) -** ərəb dilində işlənməyən və ya mövcud olmayan söz (Xəlil ibn Əhməd və Mahmud Kaşğarinin əsərlərində bu terminə rast gəlinir);

**müst'əməl (مستعمل)** - ərəb dilində işlənən söz (Xəlil ibn Əhməd və Mahmud Kaşğarinin əsərlərində bu terminə rast gəlinir);

**nəvādir (نوادر)** – nadir söz-formalar;

**nāqis (ناقص)** – son hərfi hərfi-illət olan feil kökləri;

**nəql və tə'diyə hərfi** – təsirsiz feili təsirli etmək üçün istifadə edilən hərf;

**salim (سالم)** – tərkibində əlif, vav, yə (ي و، ا) hərfləri olmayan feil kökləri;

**səhih (صحيح)** – tərkibində əlif, vav, yə (ي و، ا) hərfləri olmayan, lakin həmzəli və təşdidli feil kökləri;

**təqalib və ya təqlibat (تقالب، تقليبات)** – eyni bir söz kökünün hərflərinin yerinin dəyişdirilməsi ilə fəqli mənalı sözlərin yaradılması. Bu sözlər bir lüğət məqaləsində yerləşdirilirdi (bu termin ilk dəfə Xəlil ibn Əhmədin lüğətində işlənib);

**təsrif** (تصريف) – qrammatika;

**zavatu-s-sələsə (ذوات الثلاثة) –** üçsamitli köklər;

**zavatu-l-ərbə'ə (ذوات الأربعة)** – dördsamitli köklər (son iki termin Kufə məktəbində, Əl-Fərabinin, M.Kaşğarinin əsərlərində müşahidə olunur).

# ORTA ƏSR ƏRƏB LÜĞƏTLƏRİNİN NÖVLƏRİ

Ərəb leksikoqrafiyasında lüğətlər sözlük tərtibatına görə iki qismə bölünür: predmet-tematik lüğətlər ( معاجم الموضوعات ) və söz lüğətləri ( معاجم الألفاظ) [http://www.angelfire.com; الحميد عبد محمد أبو سكين].

**Predmet-tematik qlossarilər** ( معاجم الموضوعات )

Orta əsr ərəb lüğətçiliyində predmet-tematik prinsipli lüğətlər – Quran və hədislərdəki "qəribə sözlər" (qloslar) və dialektizmlər, tayfaların dialekt leksikası, alınma sözlər, morfoloji cəhətdən nadir sözlər, insan və onu əhatə edən təbiətlə bağlı leksika, heyvanlar, həşəratlar, bitki və tərəvəzlər, toponimlər, etnonimlər, antonimlər, sinonimlər, təbiət hadisələrinin adları (külək, yağış, gündüz, gecə və s.), həmzəli sözlər və s. mövzularda kiçik həcmli və adları çəkilən qlossariləri özündə cəmləşdirən böyük həcmli lüğətləri ehtiva edir. Predmet-tematik qlossari növlərinin adları ərəb lüğətçiliyində aşağıdakı şəkildə tanınırdı: Quran və hədislərə həsr olunmuş qlossari növləri: "qarib əl-Quran" ("Quran"da mənası anlaşılmayan sözlər), "qarib əl-hadis" (hədislərdə anlaşılmayan sözlər), "luğat əl-Quran" ("Quran"da rast gəlinən dialektizmlər); Dilçiliyə aid qlossari növləri: "luğat əl-qabail" (qəbilələrin dialekt leksikası), "muarrab və daxil" (alınma sözlər), "nəvādir" (nadir söz-formalar), "kutub əl-əfal" (feil formaları kitabı), "kutub əl-masadir" (məsdərlər kitabı) və s.; Canlılara həsr olunmuş qlossarilərin növləri: "kitabu'l-hayl" (at və atçılıqla bağlı sözlər), "kitâbu'l-ibil" (dəvə və dəvəçiliklə bağlı sözlər), "kitabu'l-haşarât (həşəratlarla bağlı sözlər) və s.[26]

[26] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s. 21-59;

**“Qarib əl-Quran” qlossariləri.** İlk “Qarib əl-Quran” lüğəti Əbu Səid Aban Əl-Cəririyə aid edilir. XIX əsrdə V.Alvardt tərəfindən Berlin əlyazmaları arasından tapılmış bu leksikoqrafik əsərdə “Quran”da rast gəlinən “qəribə sözlər” qısa izahlarla, bəzən isə sinonimlə şərh edilir. Dövrümüzə qədər gəlib çatmış “Qarib əl-Quran” lüğətlərdən biri də İbn Kutaybinin (...-889) 144 səhifəlik lüğətidir. Bu leksikoqrafik əsər Allahın adlarının mənası və etimologiyası ilə başlayıb “Quran” leksikasının işlək sözlərinin şərhi ilə davam edir və “qəribə sözlər”in izahı ilə bitir. İlk iki hissədə heç bir prinsip gözlənilmir. “Qəribə leksika” isə “Quran” surələrinə görə bölünür, sözlər təfsir əsərlərində olduğu kimi surədə işlənmə ardıcıllığına görə düzülərək izah edilir.[27]

Əbu Bəkr Muhammməd ibn Ömər Əl-Üzeyri Əs-Siccistaninin (...-941) “Nüzxət əl-kulub fi qarıb Əl-Quran” lüğətində “qəribə Quran sözləri” ilk kök hərflərinə görə bölünmüş, hər bölgü üç hissəyə ayrılmışdır: a) fəthəli sözlər; b) dammalı sözlər; c) kəsrəli sözlər. Lüğətin həcmi 230 səhifəlik olub cib lüğəti ölçüsündə tərtib olunmuşdu. Sözlər qısa izah edilmiş, heç bir illüstrativ material verilməmiş və filoloqlardan misal gətirilməmişdi.

Əbu Əl-Qasım Əl-Hüseyn ibn Muhammməd Ər-Raqiba Əl-İsfəhaninin (...-1108) “Mufradat fi qarıb Əl-Quran” lüğəti ön sözdə müəllifin də qeyd etdiyi kimi, söz köklərinin əlifba sırası

---

Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s. 166; Ürün, Ahmet Kâzım. Arap Dilinde Sözlükler. III. Uluslararasi Sözlükbilimi Sempozyumu Bildiri Kitapı. Eskiþehir Osmangazi Üniversitesi Yayınları No:285, 2017. Say.51-58, s. 51-52.

[27] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s. 23.

ilə düzülüşü əsasında tərtib edilmişdi. Bununla belə, o, əsərin içində klassik kök-yuva üsuluna da müraciət etmişdir.

XII-XIII əsrlərdə "qarıb Əl-Quran" lüğətləri azalmağa doğru gedir. Bu tip lüğətlər kök-yuva prinsipinin iki üslubunda tərtib edilirdi: 1) Quran surələri ardıcıllığı ilə; 2) əlifba sırası ilə. Bəzi lüğətçilər yalnız sözlərin izahı ilə kifayətlənir, digərləri Quran təfsirçilərindən sitatlar gətirirdilər.[28]


**"Qarib əl-hadis" lüğətləri.** Hədislərdəki "qəribə sözlər"ə həsr olunmuş lüğətlər "qarıb Əl-Quran" lüğətlərindən bir qədər sonra tərtib olunmağa başlandı. İlk tərtibçilər Əbu Übeyd Mamar ibn Əl-Musənnin (728-825) və onun müəllimi Əbu Adnan Abd Ər-Rəhman ibn Əl-Əla olmuşlar.[29] Lakin təəssüf ki, həmin lüğət bir çox "qarıb əl-hadis" lüğətləri kimi günümüzə qədər gəlib çatmamışdır. Bu lüğətlər heç bir leksikoqrafik prinsip tətbiq edilməmiş kiçik həcmli əsərlər idi.

"Qarib əl-hadis" lüğətləri içərisində ilk kök-yuva prinsipinin əlifba sıralı lüğəti məhz Əbu Əl-Həsən Əli ibn Abullah ibn Muhəmməd ibn Əbu Caradinə (...-1153) məxsusdur.[30]

Əz-Zəməxşərinin (1075-1144) "Əl-Faiq fi qarıb əl-hadis" lüğəti əlifba sırası ilə bölmələrə, bölmələr isə bablara (söz köklərinə) bölünür. Müəllif "Əl-Faiq" (geniş, bol, aşıb-daşan) adını təsadüfən seçməmişdi. Onun əsəri həqiqətən dövrünün ən dolğun lüğət məqaləli lüğəti idi. Əz-Zəmaxşari hər nadir sözün qarşısında hədis, atalar sözləri, şeirlərdən misallar gətirmiş və ardından geniş şərh yazmışdır. Hətta yeri gəldikcə müəllif baş şözün fonetik və morfoloji xüsusiyyətlərini açıqlamışdır. Bəzi filoloqlar "qarib əl-hadis" və "qarib Əl-Quran" kateqoriyalarını bir lüğətdə birləşdirməyə cəhd göstərmişlər. İbn Əl-Əsirin (XII

[28] Son göstərilən əsər, s. 26.
[29] Son göstərilən əsər, s. 27.
[30] Son göstərilən əsər, s. 27.

əsr) "Ən-Nihaya fi qarıb əl-hadis" ümumiləşdirici lüğəti "Kutubu əl-qaribeyn" adı altında "qarıb əl-hadis" lüğətlərinin kulminasiya nöqtəsi oldu.



*İbn Əl-Əsirin (XII əsr) "Ən-Nihaya fi qarıb əl-hadis" lüğəti*

**"Luğat əl-Quran" ("Quran"da rast gəlinən dialektizmlər) qlossariləri.** Ərəb leksikoqrafiyasının formalaşdığı ilk mərhələlərdə yuxarıda adları çəkilən filoloqlar "luğat əl-Quran" ("Quran"da rast gəlinən dialekt sözlər) qlossarilərini də tərtib etmişlər. Həmin lüğətlərin tək-tük nümunələri günümüzə gəlib çatmışdır. Burada, əsasən, üç prinsipin gözlənildiyi müşahidə olunur: 1) surələr (bəzən ayələr) üzrə; 2) köklərin əlifba sırası ilə, kökə daxil olmayan şəkilçilər də nəzərə alınırdı; 3) izah olunan sözlərin aid olduğu dialekt və dillər üzrə.

**“Luğat əl-qabail” (qəbilələrin dialekt leksikası) qlossariləri.** Ərəb lüğətçiliyində ilk dialektoloji lüğətin müəllifi Yunus ibn Həbib (...-798) və Əbu Əmrə Əş-Şəybani (719-826) hesab olunur. Kufə sakini olan Əş-Şəybani “Kitab əl-cim” (“Kitab əl-lüğat” və “Kitab əl-huruf” adları ilə də tanınmış) adlı çoxlu sayda qəbilə və tayfaların leksikasını əhatə edən böyük bir lüğət tərtib etmişdir. İllüstrativ material kimi gətirdiyi böyük sayda şeir nümunələri lüğəti müxtəlif tayfaların antologiyasına çevirmişdi. Gətirilən şeir sitatları sonralar heç bir leksikoqraf tərəfindən istifadə olunmadığına görə əvəzsiz dəyərə malikdir. Bunun səbəbi o idi ki, müəllif sağlığında heç kimə öz əsərini oxumağa və surətini çıxarmağa icazə vermirdi.

Əş-Şəybani sözləri lüğətdə ilk hərfinə görə düzmüş, hər hərf bölmənin başlığı götürülmüşdü. Bir sözü tapmaq üçün onun ilk hərfi ilə başlayan bölməni bütünlüklə gözdən keçimək lazım gəlir.

Məşhur ərəb lüğətçisi İbn Düreyd “Əl-Cəmxara” əsərinin son fəsillərini dialektizmlərə həsr etmişdir. Burada baş sözlər fə'alat$^{un}$ və fə'āliyat$^{un}$, sonra məf'al$^{un}$ və məf'alat$^{un}$ paradiqması ilə bölünmüşdür. Sonra səs əvəzlənməsi, səs düşümü və s. kimi fonetik hadisələrə məruz qalan sözlər verilir. Digər fəsillərdə müxtəlif qəbilə və tayfalarda qadın və kişi cinsində leksikanın dəyişkənliyi, sözün qısa və bütöv şəkli və s. gözdən keçirilir. Nadir söz-formalara (navādir) həsr olunmuş fəsildə isə eyni zamanda dialektizm bölməsində iştirak edən leksik təbəqələr müşahidə olunur ki, bu da onlar arasında bir bağlılıq olduğunu göstərir.[31]

[31] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s. 32-33.

**“Muarrab və daxil” (ərəbləşmiş və alınma sözlər) qlossariləri.** Ərəb leksikoqrafiyasında ilkin dövrlərdə yalnız “Quran”da işlənən alınma sözlər lüğət obyekti idisə, sonralar digər əsərlərə də müraciət olunmağa başlandı. XII əsrdə “muarrab və daxil” lüğətləri kulminasiya nöqtəsinə çataraq indiki dövrə qədər öz əhəmiyyətini itirməməkdədir. Ərəb lekikoqrafları alınmaların mənşəyini fars, yunan, latın, sanskrit və b. dillərə aid edirlər. Bu sahədə daha böyük lüğətləri olan müəlliflərdən aşağıdakıları misal gətirmək olar: Əbu Mənsur Əl-Cəvalik (1073-1144) “Əl-Muarrab min əl-kələm əl-əcəmi”, Abdullah ibn Əhməd Əl-Bişbişi (1361-1417) “Ət-Təkzib va ət-təkmil li-ma ustumila min əl-lafz əd-dəxil”, Əhməd ibn Kamal Paşa (...-1498) “Risalə fi-t-tarib əl-əlfaz əl-arabiyya” və b.

“Muarrab və daxil” lüğətləri istinad olaraq Əbu Übeyd, İbn Düreyd, Əbu Xətim Əs-Siccistani, İbn Sida və b. filoloqların əsərlərində qeydə aldıqları alınmalardan, poetik mətnlərdə, “Quran” və hədislərdən rast gəlinən əcnəbi sözlərdən istifadə etmişlər. Bu lüğətlərin mikrostrukturu aşağıdakı şəkildə idi: baş söz, etimologiyası, izahı, illüstrativ material və ya mənbəyə istinad.

Yuxarıda adları çəkilən lüğətlərin quruluşu fərqli olması ilə diqqəti cəlb edir. Məsələn, İbn Kamal Paşa öz lüğətini alınma sözlərin ərəbləşmə dərəcəsinə görə dörd hissəyə bölür: 1) tamamilə dəyişərək ərəb morfologiyasına uyğunlaşan sözlər; 2) heç bir dəyişikliyə və ərəb sözdüzəldici modellərinə uymayan sözlər; 3) dəyişikliyə uğramayıb ərəb sözdüzəldici modellərinə uyğunlaşan sözlər; 4) dəyişikliyə məruz qalan və ərəb sözdüzəldici modellərinə uyğunlaşmayan sözlər.

Digər müəlliflər həm kök, həm də affiksə görə yalnız əlifba sırasına üstünlük vermişlər.

**“Nəvādir” (nadir söz-formalar) qlossariləri.** Ərəb leksikoqrafiyasında qrammatika və lüğətçilik yanaşı fəaliyyət gös-

tərdiyindən tezliklə lüğətçilər qeyri-adi quruluşa malik sözləri və çox az işlək olan söz-formaları "nəvādir" (nadir söz-formalar) adlı qlossarilərinə toplamağa başladılar. Günümüzə qədər gəlib çatmış bu növ lüğətlərdən ən məşhuru Əbu Zeyd Əl-Ənsarın (...-830) 15 fəsildən ibarət qlossarisidir .

**Ümumi lüğətlər.** VIII əsrdən etibarən ərəb leksikoqrafiyasında çoxsaylı predmet-tematik qlossarilərdən qaynaqlanan böyük həcmli lüğətlər tərtib olunmağa başlandı. Bunlardan ikisi ərəb leksikoqrafiyası tarixində dönüş nöqtəsi olmuşdur: Əbu Übeydin (774 — 838) "Əl-Qarib əl-musannaf fi lisan əl-arab" və İbn Sidənin (1007-1066) "Əl-Muxassa fi-l-lüqa" əsərləri.

Əbu Übeydin (774-838) "Əl-Qarib əl-musannəf" lüğəti ("Ərəb dilində nadir sözlər lüğəti") tematik prinsipli olub 18 000 sözü əhatə edir. İllüstrativ material olaraq lüğətdə 1200 poetik sitatdan (şəvahid) istifadə olunmuşdur. Təsadüfi deyil ki, bütün qrammatik və lüğətçilərin bioqrafik xülasələrində Əbu Übeydin bu əsəri haqqında məlumat tapmaq mümkündür.

Lüğət 25 kitabdan ibarətdir: 1) insanın xüsusiyyətləri; 2) qadınlar; 3) geyim predmetləri; 4) qida məhsulları; 5) xəstəliklər; 6) yaşayış evləri və torpaqlar; 7) atlar; 8) silah; 9) quşlar və həşaratlar; 10) qablar, dilçalar və s.; 11) dağlar; 12) bitki və ağaclar; http://www.angelfire.com) su hövzələrinin növləri və s.; 14) palmalar; 15) buludlar və yağışlar; 16) mövsüm və küləklər; 17) adların forma növləri; 18) feil formalarının növləri; 19) antonimlər; 20) sinonimlər; 21) dəvələr və onların xüsusiyyətləri; 22) qoyunlar və onların xüsusiyyətləri; 23) heyvanlar; 24) vəhşi heyvanlar; 25) qəbilələr. Hər kitab bablara ayrılır. Məsələn, "quşlar və həşaratlar kitabı 18 fəsildən ibarətdir: 1) quşların xüsusiyyətləri və növləri; 2) quş yuvaları və balaları;

3) quş uçuşu növləri; 4) quş səsləri; 5) quş yumurtaları; 6) yumurtaların xüsusiyyətləri; 7) ovlanan quşlar və s.[32]

Əbu Übeyd, əsasən, Əl-Əsmanın 30 sayda kiçik tematik qlossarilərindən istifadə etmiş, ümumilikdə isə, 46 müəllifin əsərlərindən qaynaqlanmışdı. Bundan başqa, İbn Cinnidən qrammatik izahatlar və leksik informasiyaları lüğətinə tətbiq etmişdir.

Ərəb qrammatiki və leksikoqrafı İbn Sidə (1007-1066) müsəlman İspaniyasından idi. Onun iki məşhur lüğəti olmuşdur: "Əl-Muhkam əl-muhit əl-aʿzam" və "Əl-Muxassa fi-l-lüğə". Əbu Übeydin "Əl-Qarib əl-musannəf fi lisan əl-arab" traktatını əzbər bilən İbn Sidə onu daha da təkmilləşdirmiş və "Əl-Muxassa fi-l-lüğə" lüğətini yaratmışdır. O, ön sözündə istifadə etdiyi başqa müəlliflərin əsərlərinin adlarını da qeyd edir. İbn Sidənin lüğəti tematik prinsiplə tərtib olunmuşdu. Lüğət kitablara ayrılaraq xüsusi başlıqlarla təsnifləndirilmişdi (insan, heyvan və təbiətdən başlayaraq cəmiyyət, dini inanclarla bitir). Burada "insan" sözünün izahı belə verilir: "İnsān$^{un}$ – eyni zamanda həm tək, həm də cəm halda olan, həm qadın və həm də kişi cinsinə aid olan bir söz. Onun tək halda olmasının sübutu ərəblərin ikili saydan[33] istifadə etməsidir – "insānāni"".[34]

"İnsan" sözünün izahından sonra hamiləlik və doğuş, uşaqla bağlı adlar, ana südünün verilməsi, süddən ayırma, qidalandırma və tərbiyənin növləri, uşağa ziyanlı yeməklər və s. mövzulu başlıqlar gəlir. Daha sonra İbn Sidə insan bədən üzvlərinin izahlarını verir. Əvvəlki lüğətçilər kimi yuxarıdan aşağı və arxadan önə doğru bədən üzvləri təhlil edilir.

[32] http://www.angelfire.com

[33] Ərəb qrammatikasında ikili sayın terminoloji adı təsniyədir.

[34] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s. 44.

İbn Sidənin lüğətində Əbu Übeyddə olduğu kimi tematik mövzuların ardıcıllığı eynidir. Lakin etdiyi əlavələr və material bolluğu yeni bölgülər aparmasına səbəb olmuşdur. Məsələn, quş və həşaratlar üçün ayrı-ayrı kitablar yazmışdır. Quşlar kitabında "yumurta qoyma", "yumurtadan balaların çıxması", "lax yumurta" və s. kimi başlıqlar əlavə etmişdir. İbn Sidə istifadə etdiyi ədəbiyyat və müəlliflər arasında Əl-Xəlil "Əl-Ayn", Sibaveyhi, İbn Düreyd, Sabita, İbn Əs-Sikkita, Əbu Übeyd və başqalarının adlarını çəkir.

Tematik prinsipə görə ayrı-ayrı mövzularla əlaqədar olan lüğət vahidləri müxtəlif kateqoriyalar üzrə hissələr, bablar, fəsillər, bölmələr və sairədə yerləşdirilir, başqa sözlə desək, lüğət vahidləri mənalarına görə qruplaşdırılır. Məsələn, İbnu-s-Sikkit tərəfindən tərtib edilmiş "Kənzu-l-huffaz fi təhzibi-l-əlfaz" adlı lüğət həmin prinsip əsasında tərtib edilmişdir. Bu lüğətdə 150-dən artıq mövzu bablarda yerləşdirilmişdir, lakin babların təsnifatı məntiqi deyil, necə gəldi və təsadüfidir.[35]

## Söz lüğətləri ( معاجم الألفاظ)

Ərəbcə lüğətlər arasında oxşar və fərqli cəhətləri görən müasir dilçilər onu müxtəlif mərhələ və ya məktəblərə ayırmağa çalışmışlar. Məsələn, müasir ərəb dilçilərindən doktor "Abdullah Dərviş ərəbcə lüğətlərdə ancaq 3 əsas sistemin olduğunu qeyd etmişdir: təqlibat, qafiyə və adi əbcəd üsulu".[36]

"Con Heyvud (Haywood) Dərvişə əsaslanaraq 3 əsas sistem və 1 ikinci dərəcəli sistem nəzərə almışdır: 1) The phoneti-

[35] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s. 166.

[36] Son göstərilən əsər, s. 174.

cal-anagrammatical arrangement (fonetik-anaqrammatik üsulu; the rhyme arrangement (qafiyə üsulu); 3) The modern alphabetical arrangement (əlifba üsulu).[37]

Hüseyn Nəssar isə A. Dərvişdən fərqli olaraq ərəb izahlı lüğətlərini dörd məktəbə bölür. Birinci məktəbi «formalar» (təqalib) məktəbi adlandıraraq Xəlilin adı ilə bağlayır, ikinci məktəbin ilk nümayəndəsi kimi İbn Düreydin adını çəkir, onun «əl-Cəmhərə» adlı lüğətini buraya daxil edir. H.Nəssar üçüncü məktəbi əl-Cövhərinin «əs-Sihah» adlı lüğəti ilə başlayır. Dördüncü məktəbin başlanğıcı kimi Zəməxşərinin «Əsas əl-bəlağə» adlı lüğətini əsas götürür.[38]

Həsən Zərinəzadə isə I məktəbi *dolaşıq anaqrammatikal* adlandırır və Xəlil ibn Əhmədin "Kitabu-l-ayn" lüğətini bu məktəbin ilk nümunəsi hesab edir. II məktəbi *qafiyəyə oxşar* məktəb adlandıran Zərinəzadə bu məktəbin bariz nümunəsi kimi Əl-Cövhərinin "Sıhah əl-ərəbiyyə" lüğətini göstərir. III məktəb *qafiyə* məktəbidir. Bu məktəin ilk nümunəsi, onun fikrincə, "Qanunu-l-ədəb" lüğətidir. IV məktəb *orta vəziyyətli* məktəb adlanır. "Əsas əl-bəlağə" lüğəti bu məktəbin bariz nümunəsidir. V məktəb *sadə* məktəbdir. Zərinəzadə "Əl-Muncid əl-əbcədi" tipli lüğətləri bu məktəbə aid edir.[39]

Ərəb dilçiliyində daha çox Hüseyn Nəssarın təsnifatı öz təsdiqini tapmışdır. Beləliklə, "Söz lüğətləri" aşağıdakı məktəblərə ayrılır: *fonetik tərtibat* və ya *ayn* məktəbi, *əl-Cəmhəra* məktəbi, *qafiyə* məktəbi, *müasir əlifba prinsipli* məktəb.[40] Bu

---

[37] Son göstərilən əsər, s. 174-175.

[38] حسين نصار ، المعجم العربى نشاته و تطوره ،حالة الفهرسة: غير مفهرس. الناشر: دار مصر للطباعة. عدد الصفحات: ٦٨٢ 1408 - 1988 , s. 191-197.

[39] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s. 204-205.

[40] http://www.angelfire.com; عبد الحميد محمد أبو سكين . المعاجم العربية مدارسها ومناهجها . ص. 127 1981.

məktəblər mürəkkəbdən sadəyə doğru inkişaf yolu keçmişdir. Hər məktəbin nümayəndələri əvvəlki lüğətlərin tərtibatındakı mürəkkəb quruluşu sadələşdirməyə çalışmışlar.

## "Fonetik tərtibat" məktəbi (مدرسة الترتيب الصوتي) və ya "Ayn" məktəbi (مدرسة العين)

"Ayn" məktəbi ilk dəfə olaraq Bəsrə məktəbinin nümayəndəsi məşhur qrammatik, fonetist, ərəb əruz elminin banisi, riyaziyyatçı və musiqişünas Xəlil ibn Əhməd əl-Fərahidinin (718-791) tərtib etdiyi "Kitabu-l-Ayn" adlı izahlı lüğətində öz ifadəsini tapmışdır. Bəsrə məktəbinin nümayəndəsi Xəlil ibn Əhməd bir çox ilklərə imza atan alim olmuşdur. O, ərəb dilçiliyinin (qrammatika və fonetika), əruz vəzninin və musiqişünaslığın banisi hesab olunur. Bundan başqa, həm də riyaziyyatçı olmuş Xəlil ilk ərəb lüğətinin müəllifidir. Xəlil ibn Əhməd əl-Fərahidi "Kitəbu-l-ayn" lüğətini VIII əsrin sonunda yazmışdır.




***Xəlil ibn Əhməd əl-Fərahidi (h.t. 100-175; m.t. 718-791)***

Lüğətinin əsli günümüzə qədər gəlib çatmamışdır. Onun yalnız ispan leksikoloqu Əbu Bəkr Əz-Zubeyd tərəfindən köçürülmüş xülasəsi qorunub saxlanmışdır.

Həmin xülasəni 1914-cü ildə alim-rahib Karmelita Anastasi İraqda aşkar edərək çap etdirmişdir.

Uzun illər əsərin Xəlilin şagirdinə, yoxsa özünə aid olması haqqında mübahisələr davam etmiş, Qahirə Universitetinin

professoru Əhməd İbrahim Dərviş lüğətin müəllifinin həqiqətən Xəlilə aid olduğunu sübuta yetirmişdir.[41]

Xəlil lüğətinin sözlüyünü əlifba sırası ilə deyil, fonetik-fizioloji prinsiplə tərtib etmişdir. O, əvvəl hərflərin tələffüz məxrəcinə görə bölgüsünü aparmış və söz tərkibində hərflərin riyazi hesabını – əbniyalar (الأبنية) qurmuşdur: iki hərflilər, üç hərflilər, dörd hərflilər və beş hərflilər.

Əbniyalar (الأبنية) bablara bölünür, bablar Xəlilin fonetik-fizioloji prinsiplə tərtib etdiyi əlifba sırasına uyğun təqlibat formalardan – hər hərfə aid kökün tərkibindəki hərflərin müxtəlif kombinasiyalarından ibarətdir. Beləliklə, bu sistemin əsas xüsusiyyətləri aşağıdakılardır:

**Birinci xüsusiyyət – hərf sırası:** Lüğətin tərtibatı hərflərin əlifba sırası ilə deyil, fonetik-fizioloji məxrəcinə görə sıralanması ilə başlayır.

Lüğətçilik işinə musiqişünas ruhu ilə yanaşan Xəlil əlifba sistemində yerdəyişmə etməklə sanki ahəng yaratmağa çalışmışdır. Ərəb dilində səslərin ilk təsnifatını verən Xəlil onları artikulyasiya (məxrəc) prinsipi üzrə aşağıdakı doqquz qrupa bölür:

1) quttural səslər ( خ، ح ،ع، غ، ه );
2) uvulyar səslər (ق، ك);
3) damaq səsləri (ج، ش، ض);
4) dilönü səslər (ص، س، ز);
5) ön damaq səsləri (ط، د، ت);
6) yuvaq səslər (ظ، ث، ذ);
7) dilucu-kakuminal səslər (ر، ل، ن);
8) dodaq səsləri (ف، ب، م);
9) hava səsləri (و، ي، ا).[42]

[41] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s. 68.

Bu təsnifat Xəlilin "Kitab əl-Ayn" lüğətinin hərf sıralamasında eyni şəkildə öz əksini tapmışdır:[43]

عحهخغ / قك / جشض /صس ز /طد ت/ ظثذ / رلن / فبم / و يا / همزة

Burada "ayn" boğaz hərfi ilə başlayan boğaz səsləri, damaq səsləri, fışıltılı səslər, dil, dodaq səsləri, yarımsaitlərə qədər ardıcıllıqla düzülmüşdür. Bunu əsas gətirən V. Zvegintsevin fikrincə, Xəlilin tətbiq etdiyi fonetik-fizioloji prinsip sanskrit fonetik qaydalarının eynilə təkrarıdır.[44] Əl-Fərabinin əlifba sisteminin digər bir xüsusiyyəti onun 28 yox, 29 hərfdən ibarət olmasıdır (həmzəni hərf kimi qəbul etmək şərtilə).[45]

Ərəb hərflərinin bu növ sırası və qruplaşdırılması müəyyən dəyişikliklərlə ərəb leksikoqrafiyasında XI əsrin ikinci yarısınadək və sonuncu olaraq İbn Sidə tərəfindən tətbiq edilmişdir.[46]

**İkinci xüsusiyyət - əbniya (الأبنية) strukturu:** Hüseyn Nəssar əbniya prinsipini ترتيب الابنية (hərfiyyən: quruluşa görə üsul – sözlərin tərkibindəki samitlərin sayına görə prinsip) adlandırır. Bu prinsipə əsaslanan ərəb leksikoqrafiyasının birinci

---

[42] Məmmədəliyev V.M. Ərəb dilçiliyi, ali məktəb dərsliyi. Bakı: Maarif, 1985, 288 səh., s. 25.

[43] Ahmet Kâzım Ürün. Arap Dilinde Sözlükler. III. Uluslararasi Sözlükbilimi Sempozyumu Bildiri Kitapı. Eskişehir Osmangazi Üniversitesi Yayınları No:285, 2017. s. 51-58, s. 52; Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s. 157; 1981. 127 .ص .المعاجم العربية مدارسها ومناهجها .عبد الحميد محمد أبو سكين, s. 23.

[44] Звегинцев В. А. История арабского языкознания, Москва, 1958, 82 s., s. 46

[45] Salayeva N.Z. "Əs-Sıhah"ın bəzi xüsusiyyətlərinə dair. "Əlyazmalar Xəzinəsində (əsərlər)" məcmuəsi. V cild. "Elm" nəşriyyatı, Bakı-1979. s. 96-103, s. 96.

[46] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s.157.

məktəbində sadə (kök) və ya düzəltmə sözlər onların tərkibindəki samitlərin sayına görə nəzərə alınır.[47]

Beləliklə, Xəlilin lüğətindəki əlifba bölgüsündə hər bir hərfin əbniyası aşağıdakı şəkildə qurulur və bablara bölünür:

a) ikisamitli səhih (tərkibində əlif, vav, yə hərfi olmayan) bab;

b) üçsamitli səhih bab;

c) üçsamitli, hərfi-illətli (əlif, vav, yə) bab: iki səhih hərf və bir hərfi illətli sözlər;

ç) ləfif bab: bir səhih hərfli və iki hərfi illətli sözlər;

d) dördsamitlilər babı;

e) beşsamitlilər babı.[48]

**Üçüncü xüsusiyyət – sözlərin təqlibat formaları.** Xəlil ərəb lüğətçiliyində ilk dəfə olaraq təqlibat üsulunu tətbiq etmişdir. "Təqlibat" – "devirmə, çevirmə, astarını üzünə çevirmə" anlamına gəlir. Bu metodun əsas məğzi ondan ibarətdir ki, feil köklərində samitlərin yerdəyişməsi edilərək müxtəlif kombinasiyaları yaradılır. Xəlil flektiv quruluşa malik ərəb dilinə bir riyaziyyatçı kimi yanaşaraq dildə mövcud olan və olmayan sözlərin düsturlarını – təqalib formalarını müəyyənləşdirmiş, "dil vahidlərinin həm işlənən, həm də potensial növlərinin sayını da hesablamağa çalışmışdır".[49] O, "ərəb dilində mövcud olan dil vahidlərini مستعمل (işlənən), mövcud olmayan dil vahidlərini isə مهمل (işlənməyən) adlandırmış və bunları özünün "Kitabu-l-ayn" lüğətində qeyd edərək, ərəb dilinin fonetik xüsusiyyətləri baxımından işlədilməsi imkan xaricində olan dil vahidlərinə də işarə etmişdir".[50] Xəlilin təqlibat üsulunu bəzi ərəb dilçiləri

[47] Son göstərilən əsər, s. 163.
[48] http://www.angelfire.com
[49] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s.47.
[50] Son göstərilən əsər, s. 47.

anaqrammatik metod adlandırırlar.[51] V.Məmmədəliyev göstərir ki, Xəlil anaqrammatik metoddan istifadə edərkən köklərin modifikasiyasının nəzəri imkanları ilə onların dildə real işlənən vahidlərini bir-birindən fərqləndirir.[52] Beləliklə, belə aydın olur ki, Xəlil ibn Əhməd təqalib üsulunu nəzəri cəhətdən riyazi hesablama olaraq tətbiq etmişdir.

Fəxri Xəlil Nəccar bu metodu aşağıdakı kimi izah edir:[53]

**İkihərflilərin** yalnız 2 təqlibat forması alınır, məs., عب، بع;

**Üçhərflilərin** 6 təqlibat forması vardır. Bunların bəziləri işlək (مستعمل), bəziləri isə qeyri-işləkdir (مهمل). Məs., عبد feil kökünün işlək olanları bunlardır:

عبد - بعد – بدع - عدب- دبع- دعب ;

**Dördhərflilərin** 24 təqlibat forması vardır. Bunların əksəriyyəti qeyri-işləkdir. Məsələn, عرقب kökünün işlək olanları yalnız bunlardır:

عرقب، عقبر، عبرق، عقرب، عربق

**Beşhərflilərin** 120 təqlibat forması vardır. Yenə də burada əksəriyyəti qeyri-işləkdir. İşlək olanları azdır:

سفجرل، سفرلج، سفرجل، سجفرل

Beləliklə, hər bir hərfin altında baba uyğun hər hansı bir sözün tərkibindəki hərflərin bütün yerdəyişmə kombinasiyaları qurulur. Məsələn, ayn ( ع) hərfinin altında üçsamitlilər babında ləʿibə (لعب) kökünün lüğət məqaləsində təqalib (dönüş, dəyişmə) formaları düzülmüşdür:

عبل، لبع، بلع، بعل، علب، لعب

Bu fərqli mənalar ifadə edən və etməyən kök-sözlər hansı hərflə başlamasından asılı olmayaraq yalnız ayn (ع) hərfinin al-

[51] Son göstərilən əsər, s. 164.

[52] Məmmədəliyev V.M. Ərəb dilçiliyi, ali məktəb dərsliyi. Bakı: Maarif, 1985, 288 səh., s. 26.

[53] عبد فخري خليل النّجار . الخليل بن أحمد الفراهيدي آراء، وإنجازات لغويّ، عمان، الأردن, دار صفاء للنشر والتوزيع, 2012 ، ص 215 .s. 129

tında yer almışdır, çünki Xəlilin səs məxrəcinə görə sıraladığı əlifbada *ayn* başda gəlir.[54]

Xəlilin lüğətində sözü tapmaq üçün onun hərflərinə, sonra kökündəki samitlərin sayına diqqət yetirmək lazımdır. Məsələn, şəddə ( شدّ ) sözü şin ( ش) hərfinin ikisamitli babında yerləşir. Bu kökdən törənən fail və məfullar da həmin əbniyada yer alır.

Xəlil ibn Əhmədin lüğətində illüstrativ material kimi əsasən poeziya nümunələri, atalar sözləri, Qurandan ayələr və hədislərdən istifadə olunmuşdur. Xəlil ön sözündə qeyd edir ki, poeziyada, atalar sözlərində və danışıqda olan ərəb dilinin lüğətdə necə göründüyünü bilmək istəmişdir.[55]

"Ayn məktəbi" təxminən 300 il ərzində davam etdirilmişdir. "Xəlil ibn Əhməd Əl-Fərahidinin başçılıq etdiyi bu məktəbin davamçıları, əsasən, aşağıdakı leksikoqraflardır:

1. Əl-Qali ("Əl-Bareʿ);
2. Əl-Əzhəri ("Təhzibu-l-luğət");
3. Sahib ibn Əbbad ("Kitab əl-Mühit");
4. Əbu Bəkr Əz-Zübeydi ("Muxtəsar Əl-Ayn");
6. İbn Sidə ("Əl-Muhakkəm")."[56]

"Kitabu əl-Ayn"da tətbiq edilmiş sistem və prinsiplər lüğəti həddindən artıq dolaşıq şəklə salmış və ondan istifadə işini çətinləşdirmişdi. Buna görə də ondan istifadə o dövrün ziyalı kütləsini deyil, ancaq dilçilərin məhdud bir hissəsini təmin edə bilirdi. Abdulla Dərvişə görə o dövrün şəraiti ciddi bir şəkildə aşağıdakı üç məsələnin həllini tələb edirdi:

1. Lüğət tərtibinin sadələşdirilməsi və ondan istifadənin asanlaşdırılması;

[54] http://www.angelfire.com

[55] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s.13.

[56] http://www.angelfire.com

2. Lüğət sözlüyünün dəqiqləşdirilməsi, təshih edilməsi və bunların semantik baxımdan işlənməsi;

3. Şairlər və qafiyəli nəsr (səc) yazanlara lüğətdən həmqafiyə sözlərin tapılmasına kömək edən lüğət sözlüklərinin yeni təsnifatının tətbiqi.

Bu səbəbdən dilçilər uzun əsrlər boyu lüğətdən istifadəni asanlaşdırmağa cəhdlər göstərməyə başladılar.

## "Əl-Cəmhəra" məktəbi (مدرسة الجمهرة)

Beləliklə, İbn Düreyd "Əl-Cəmhəra" lüğətinin tərtibi prinsipinə dəyişiklik tətbiq etməklə lüğətçilikdə yeni cığır açmış oldu. Bu məktəbdə, əsasən, iki müəllifin adı çəkilir: İbn Düreyd və İbn Faris.

I. **İbn Düreydin (838-933 m.) "Əl-Cəmhəra" lüğəti.** Xəlil "Kitabu-l-Ayn" lüğətində əvvəl hərflərin tələffüz məxrəcinə görə bölgüsünü aparıb, hər hərfin riyazi strukturunu – əbniyalar (الأبنية) qurmuşdusa, İbn Düreyd (838-933 m.) əksinə, "Əl-Cəmhəra" lüğətini ilk öncə əbniyalara, sonra isə hər əbniyanı nəvadır (nadir söz-formalar) və ləfif (feilin kökündə *əlif, vav, yə* hərflərindən ikisinin olması) bablarına ayırmışdı:

a) qoşa samitli feillər və ona aid olanlar;

b) üçhərflilər və ona aid olanlar;

c) dördhərflilər və ona aid olanlar;

ç) beşhərflilər və ona aid olanlar.[57]

Hər əbniyada *əlif*-dən *yə* hərfinə qədər ənənəvi ərəb əlifbası sırası ilə təqalib formaları düzdü.

"Əl-Cəmhəra"nın yeganə üstünlüyü ondakı lüğət vahidlərinin əlifba əsasında sıralandırılmasındadır. İbn Düreyd Əl-Fə-

[57] Son göstərilən əsər.

rahidinin lüğətindəki çətinlikləri aradan qaldırmaq məqsədilə öz lüğətinə əlifba sistemini ابتث (əbtəs) tətbiq etmişdir.

ا / ب / ت / ث / ج / ح / خ / د / ذ / ر / ز / س / ش / ص / ض / ط / ظ / ع / غ /ف / ق / ك / ل / م / ن / هـ / و / ي

Lakin əbniya hesabı və təqalib nizamından istifadə etməklə aldığı nəticələr lüğəti daha da çətinliyə salmışdı.[58] Belə ki, İbn Düreyd Xəlildən bəhrələnərək təqalib üsulunu lüğətinə tətbiq edərək söz kökünün hərflərini müxtəlif kombinasiyalara salmışdı. Lakin o bunu əlifba sırasına uyğun düzmüşdü. Məsələn, qaʿada (قعد) sözü üçün əvvəl üçhərflilər babını tapırıq, orada *qaf* hərfinə deyil, *dəl* hərfinə baxmaq lazımdır, çünki əlifba sırasında *dəl* əvvəldə gəlir, sonra *ayn*, daha sonra *qaf*. Beləliklə, qaʿada (قعد) sözünü dəʿıqa ( دعق ) kökünün altında tapırıq. Elə oradaca bütün təqlibatları verilib: qadaʿa, qaʿada, ʿaqada, dəqıʿa ( قدع، قعد، عقد، عدق، دقع ).[59]

II. Bu məktəbin ikinci klassik nümayəndəsi **Əhməd ibn Farisin (...-1004) "Muʿcəm muqayisi əl-lüğət"** ( معجم مقاييس اللغة) və **"Mucməl əl-lüğət"** (مجمل اللغة) əsərlərinin quruluşu müəyyən fərqlərlə "Əl-Cəmhərə" lüğətinin tərtibi prinsipinə bənzəyir.

İbn Farisin lüğətləri aşağıdakı tərtibi quruluşa malikdir:

1) lüğət adi ərəb əlifbası sırası ilə kitablara bölünür: "*həmzə* kitabı", "*bə* kitabı", "*tə* kitabı" və s.

2) hər kitab əbniyalar üzrə üç baba ayrılır: mudaaf (şəddəli) ikisamitli feillər, üçsamitli feillər, üçsamitli sadə feillərdən törənənlər;

[58] Salayeva N.Z. "Əs-Sıhah"ın bəzi xüsusiyyətlərinə dair. "Əlyazmalar Xəzinəsində (əsərlər)" məcmuəsi. V cild. "Elm" nəşriyyatı, Bakı-1979. s. 96-103, s. 97.

[59] http://www.angelfire.com



***Əhməd ibn Faris (...-1004)***

3) bablardakı sözlər ikinci hərfi nəzərə alınaraq düzülüb. Məsələn, tə (ت) kitabında tə (ت) və cə (ث) yanaşı gələnlər əvvəldə gəlir, sonra tə (ت) və cim (ج), beləcə əlifba bitənə qədər ardıcıllıqla davam edir, sonda tə (ت) və həmzə (أ), tə (ت) və bə (ب) yanaşı gələn sözlər düzülür.[60]

İbn Farisin lüğətləri ilə "Əl-Cəmhəra" və "Ayn" lüğətləri arasındakı fərqlər bunlardır:

1) İbn Farisin lüğətlərinin tərtibatı "Ayn" lüğətində olduğu kimi əlifba sırası ilə başlasa da, ondan fərqli olaraq səs məxrəcinə görə deyil, ənənəvi ərəb əlifbası sırası ilə düzülmüşdür;

2) "Ayn" lüğətində olduğu kimi hər hərfi əbniyalara, bablara və təqalib formalara bölmüş, lakin "Ayn"dan fərqli olaraq cəmi üç bab vermişdir (mudaaf (şəddəli) ikisamitli feillər, üçsamitli feillər, üçsamitli sadə feillərdən törənənlər);

3) İbn Faris sözlərin yerləşdirilməsində "Əl-Cəmhəra"nın yolu ilə getməyərək sözləri ilk hərfinə görə əlifba sırası ilə düzmüş, hər baba uyğun təqlibat formalarını göstərmişdir. Məsə-

[60] Son göstərilən əsər.

lən, *ləʿibə* (لعب ) feilini *ləm* (ل) hərfinin üçhərflilər babında və *ləm* (ل) və *ayn* ( ع) hərflərinin yanaşı gəldiyi hissədə tapırıq. Yaxud *ʿalibə* (علب) feilini *ayn* ( ع) hərfinin üçsamitlilər babında *ayn* ( ع) və *ləm* (ل) hərflərinin yanaşı gəldiyi yerdə görə bilirik.[61]

## "Qafiyə" məktəbi ( مدرسة القافية)

"Ayn" lüğətinin tərtibatındakı çətinliyi görən ərəb lüğətçiləri öz təkmilləşmə işlərini davam etdirirdilər. Abdulla Dərvişin qeyd etdiyi problemlər X əsrə qədər həll olunmamış vəziyyətdə qalmaqda idi. İbn Düreydin əlifba islahatından sonra daha bir mühüm addımı mənşəyinə görə türk olan və leksikoqrafiyadakı xüsusi xidmətlərinə görə «dilçiliyin imamı» ləqəbini almış ərəbşünas Əbu Nəsr İsmayıl Həmad Əl-Cövhəri Əl-Fərabi (m. 940-1002) atdı. Əl-Cövhəri əslən Qazaxıstanın Fərab bölgəsindən olmuşdur.



*Əbu Nəsr Əl-Cövhərinin "Əs-Sıhah" lüğəti*

O, məşhur dilçi və lüğətçi İbrahim Əl-Fərabinin

[61] Son göstərilən əsər.




bacısı oğlu idi. Dayısının məktəbini keçmiş və onun bir çox lüğət tərtibatındakı sirlərinə bələd olmuş Cövhəri daha da irəli gedərək "Dilçiliyin tacı və düzgün ərəb dili" – qısa şəkildə "Əs-Sihah" adlı lüğətini yaradaraq ərəb lüğətçilik məktəbində inqilab etmişdir. Əl-Cövhərinin əsas islahatı ondan ibarət idi ki, səslərin məxrəcinə görə sıralanması və "formalar" (təqlibat) sistemindən imtina etmişdi.

Əl-Cövhəri əvvəlcə lüğət vahidlərini seçmək, ancaq doğru-düzgün hesab etdiyi vahidləri öz lüğətinə daxil etmək, özündən əvvəl tərtib edilmiş lüğətlərdəki uydurma ərəb dilində işlənməyən (مهمل) vahidlərə yol verməmək qərarına gəlmiş və məhz buna görə də lüğətini صحاح العربية (ərəb dilindəki doğru-düzgün sözlər) adlandırmağının səbəbini belə izah etmişdir: "Mən bu kitabda ərəb dilində doğru-düzgün hesab etdiyim sözləri toplamışam." Belə bir məqsəd nəticəsində صحاح العربية lüğətinin sözlüyündə ancaq 40 min lüğət vahidi vardır.[62]

Onun lüğətinə tətbiq etdiyi əsas prinsiplər bunlardan ibarətdir:

**I.** Əl-Cövhəri lüğətini hərflərin adları ilə bablara bölmüşdü: həmzə babı, bə babı, tə babı, sə babı və s. Beləliklə 28 bab

[62] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s.123.

əmələ gəlmişdir. Lakin *yə* və *vav* hərflərini bir baba toplamışdır. Sözləri isə, ikisamitli, üçsamitli, dördsamitli və ya beşsamitli olmasından asılı olmayaraq, axırıncı hərfinə görə lüğətdə yerləşdirmişdir. Yəni sözü axtararkən nə əbniyalar, nə də təqlibat sırasını araşdırmaq lazımdır. Sadəcə sözün son hərfinə və həmin baş hərfin babına baxmaq kifayətdir. Məsələn, *şəkəra* (شكر) sözü *ra* babının *şin* fəslində yerləşir.[63]

**II.** Lüğət məqalələri kök-yuva sisteminə əsasən tərtib olunmuşdur. İmkan daxilində əsl ərəb sözlərinin mənşəyi göstərilmiş və başqa dillərdən ərəb dilinə keçmiş sözlərin izahı verilmişdir.

**III.** "Bablar öz növbəsində (ابتث) hərf sırası ilə fəsillərə bölünür. Maraqlı olan budur ki, fəsillərdəki sözlər ilk hərfinə[64] görə yığılıb və bu sözlər ikinci hərflərinin əlifba sırasına görə düzülüb. Məsələn, *ra* babının altındakı *bə* fəslində:

*b'ir, bᵊtᵊrᵃ, bᵊṣᵊrᵃ, bᵊcᵢrᵃ, bᵊḥr, bᵊxᵢrᵃ, bᵊdᵊrᵃ* ( بئر، بتر، بثر، بجر، بحر، بخر، بدر ...)

Diqqət edin, bu sözlər *r* (ر) samiti ilə bitir." [65]

Belə nəticəyə gəlmək olar ki, Əl-Cövhəri bu üsulu öz dayısı və müəllimi olmuş İshaq Əl-Fərabidən əxz edərək lüğətinə tətbiq etmişdir. Mənbələr də göstərir ki, hətta Fərabinin "Divanu-l-ədəb" lüğətinin əlyazmasını Əl-Cövhəri öz əli ilə köçürmüşdür.[66] Lakin Fərabinin lüğətinin quruluşu həddindən artıq mürəkkəb olduğundan istifadə etmək çətin idi. Bu səbəbdən əsər məşhurlaşa bilməmiş və leksikoqraflar onu leksikoqrafiya məktəblərinin təsnifatında nəzərə almamışlar.[67]

---

[63] عبد الحميد محمد أبو سكين . المعاجم العربية مدارسها ومناهجها . ص. 127 .1981 , s. 88.

[64] "Hərf" deyərkən burada samitlər nəzərdə tutulur.

[65] http://www.angelfire.com.

[66] تعريف مختصر بمعجم ديوان الأدب]

[67] Son göstərilən əsər.

Əl-Fərabinin "Divanu-l-ədəb" əsəri Mahmud Kaşğarinin "Divanu lüğət-it-türk" lüğətinin prototipi hesab olunur". Sözlərin ilk və ikinci hərfinin əlifba sırası ilə izlənməsi, son hərfinə görə sözlərin sıralanması və Fərabinin əbniyalar və bablar sistemi müəyyən fərqlərlə Kaşğaridə təkrarlanır. Belə məlum olur ki, Kaşğari öz lüğətini məhz qafiyə üsulunda tərtib etmişdir.

H.Zərinəzadə Əl-Cövhərinin "Əs-sıhah" lüğətini *qafiyəyə oxşar* məktəbə şamil edir. *Qafiyə* məktəbinə isə Hübeyş Tiflisinin "Qanunu-ədəb" lüğətini aid edərək onu bu məktəbin ilk nümunəsi hesab edir.[68] Halbuki sözlərin son hərfinə görə sıralanma, sait və samitlərin bu sıralanmada nəzərə alınması ilk dəfə İshaq əl-Fərabi tərəfindən "Divanu-l-ədəb" lüğətində tətbiq edilmişdir.

Beləliklə, "Əs-sıhah" lüğətində sözü tapmaq üçün aşağıdakı qaydalara əməl etmək lazımdır: sözün kökü artıq hərf və şəkilçilərdən təmizlənir; kökün son hərfi ilə lüğətin babı, ilk hərfi ilə isə babın fəsli müəyyənləşdirilir. Məsələn, *əkələ* ( أكل ) feilini *ləm* babının *həmzə* fəslində tapa bilirik.

Sevindirici haldır ki, İsmayıl Bin Həmmad Əl-Cövhərinin "Əs-Sihah" lüğətinin XII əsrdə köçürülmüş əlyazma nüsxəsinin iki cildi (I və II) AMEA M.Füzuli adına Dilçilik İnstitutunun Əlyazmaları Fondunda M-389 şifrəsi ilə qorunur. Əsər iri kalliqrafik nəsx xətti ilə yazılmışdır. Nüsxə 28,5x20,5 sm (mətnin ölçüsü 21x15 sm) ölçüsündə olub hər səhifədə 16 sətir olmaqla 234 vərəqdən ibarətdir. Tamamilə hərəkəli və nadir hallarda diakritik nöqtələrsiz olan bu nüsxə qara mürəkkəblə yazılmışdır. Əlyazma iki böyük hissədən ibarətdir.

"Orta əsrlərdə görkəmli şəxsiyyətlərin əsərləri hələ onların sağlığında katibləri tərəfindən köçürülürdü. Köçürmə prosesi

[68] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s.204.

iki cür yerinə yetirilirdi: ya müəllifin imlası altında, ya da müstəqil surətdə katiblərin özü tərəfindən. Ərəb dilçi alimi H.Nəssarın verdiyi məlumata görə, İsmayıl Bin Həmmad Əl-Cövhərinin "Əs-Sihah"ı hələ müəllifin sağlığında onun iki nəfər şagirdi İsmayıl Bin Məhəmməd Ən-Nişapuri və Əbu-Cəhl Əl-Hirəvi tərəfindən köçürülmüşdür. Məhz Əbu-Cəhl Əl-Hirəvinin avtoqraf nüsxəsindən köçürdüyü əlyazmanın surəti gəlib bizə çatmışdır. Cildlərindən yalnız sol tərəfi qalmışdır ki, bu, üzərinə tünd qəhvəyi rəngli dəri çəkilmiş qalın kartondan ibarətdir. Nüsxənin kağızı yaxşı cilalanmış Şərq kağızıdır. 1b-3b və 6a-9a vərəqləri naməlum şəxs tərəfindən yenidən yazıldığı üçün əsərin əsas mətni əlifbanın cim fəslindən başlanır. Bərpa məqsədilə sonradan əlyazmaya artırılmış vərəqlər nisbətən nazikdir və XVIII əsrin axırlarında istehsal olunmuş Avropa kağızıdır. Üzərindəki qeyddən göründüyü kimi, əlyazma nüsxəsi hicri 510 (1117)-cu il ramazan (yanvar) ayında müəllifin vəfatından təqribən 110 il sonra köçürülmüşdür. Bu nəfis əlyazmanın haşiyələrində böyük Azərbaycan alimi Xətib Təbrizinin mülahizələri öz əksini tapmışdır.[69]


Xətib Təbrizi "Əs-Sihah" lüğətinin ilk gözəl şərhçisi olmuşdur. o, lüğətdəki sözlərin etimologiyasını təyin edərək bir sıra dəyərli fikirləri ilə əsəri zənginləşdirmişdir. Bəzi ərəb mənbələrində Xətib Təbrizinin İsmayıl Əl-Cövhərinin "Əs-Sihah" lüğəti haqqındakı aşağıdakı qeydlərinə təsadüf olunur: "Əs-sihah gözəl tərtib edilmişdir, onunla asanlıqla mətləbə çatmaq

[69] Salayeva N.Z. "Əs-Sıhah"ın bəzi xüsusiyyətlərinə dair. "Əlyazmalar Xəzinəsində (əsərlər)" məcmuəsi. V cild. "Elm" nəşriyyatı, Bakı-1979. s. 96-103, s. 73-75.

olar. Burada yaxşı sözlər verilmiş və dilçiliyin problemləri izah olunmuşdur. Bununla yanaşı onda səhvlər vardır. Şübhə yoxdur ki, onlar xəttatlar tərəfindən deyil, bəlkə də müəllifin özündəndir, çünki kitablar hərflər üzərində qurulmuşdur və bu cür böyük əsərlər səhvdən xali ola bilməz. Əsərin bir çox üstünlükləri qarşısında bu səhvlər güzəşt olunmalıdır.

N.Salayevanın qeydinə görə, Bakıdakı əlyazma "Əs-Sihah" əsərinin orijinalına müvafiq olan yeganə nüsxədir. Bu əlyazmanın III və IV cildləri Mahaçqala muzeyində mühafizə olunur.[70]

Ərəb lüğətçiliyinin qafiyə məktəbinin davamçıları bunlardır:



*Şəkil 4 İbn Mənzurun öz əlyazması*

1. **İbn Mənzurun (...-1311) "Lisanu-l-ərəb" (لسان العرب) adlı 15 cildlik ensiklopedik lüğəti.** Əl-Cövhəridən fərqli olaraq İbn Mənzur ərəb dilinə aid bir sıra lüğətlərdə rast gəldiyi bütün sözləri saf-çürük etmədən öz "Lisanu-l-ərəb" lüğətində əks etdirmək istəmişdir. Buna görə də onun lüğəti 80 000 ərəbcə lüğət vahidinə şamildir.[71] Burada illüstrativ material olaraq Quran ayələri, hədislər, şeir, məsəllər və hikmətli sözlər əsas götürülmüşdür.

[70] Son göstərilən əsər, s.76.

[71] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s.123.

2. **Əl-Firuzabadinin (1329-1414) "Əl-Qamu-su-l-muhit" (القاموس المحيط) lüğəti** İbn Mənzurun lüğəti daxil olmaqla bir çox leksikoqrafik əsərləri özündə birləşdirir.

Sadəcə olaraq o, bir çox illüstrativ materialları ixtisara salmış, daha çox baş söz və izaha yer verərək kiçik həcmli praktik cəhətdən işlənməsi rahat olan lüğət yaratmağa nail olmuşdur.[72]



*Şəkil 5 Əl-Firuzabadinin "Əl-Qamusu-l-muhit" lüğəti*

Nəticədə "Əl-Qamu-su-l-muhit" lüğəti geniş populyarlıq qazanmışdır.

Əsasən, *dəniz, dəniz suyu* mənasını verən "qamus" sözü Firuzabadinin lüğətindən sonra yeni anlam qazanaraq ərəb dilində "mu'cəm" (lüğət) leksik vahidinin sinonimi olaraq istifadə olunmağa başlanmışdır. Bu lüğət çap olunan ilk ərəb lüğətidir. Kəlküttədə 1814-1817-ci illərdə nəşr edilmişdir.[73] Firuzabadi əslən Şiraz farsı idi. o, Əl-Cövhərinin "Əs-Sihah" lüğətinin tənqidçisi olmuş, bu barədə məşhur "Məcmə'u-s-suələt min sihah əl-Cövhər" əsərini yazmışdır.

3. **Əz-Zübeydinin (1733-1791) "Tac əl-'ərus" (تاج العروس) lüğəti.** Müəllifin məqsədi Əl-Firuzabadinin lüğətini ge-

[72] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s.176.
[73] Ürün, Ahmet Kâzım. Arap Dilinde Sözlükler. III. Uluslararasi Sözlükbilimi Sempozyumu Bildiri Kitapı. Eskiþehir Osmangazi Üniversitesi Yayınları No:285, 2017. s. 51-58, s. 54.

nişləndirib şərh etmək olmuşdur. Bu məqsədlə öncəki lüğətlərdən, dilçilik əsərlərindən istifadə edərək illüstrativ materialları əlavə etmiş, istinadları göstərmiş, Əl-Firuzabadinin nəzərə almadığı bir çox məsələləri lüğətə daxil etmişdir.

Bu məktəbə görkəmli Azərbaycan alimi Hübeyş Tiflislinin «Qanunu-l-ədəb» adlı lüğətini də aid etmək olar. Ərəb leksikoqrafiyasının «qafiyə» məktəbinin inkişafında onun çox böyük rolu olmuşdur.

### Müasir əlifba prinsipli məktəb (مدرسة الألفبائي الترتيب)

Bu mərhələ adi əlifba sıralı lüğətlərin tərtibatını ehtiva edir. Əlifba prinsipli məktəb Mahmud Əz-Zəməxşərinin "Əsas əl-bəlağə"[74] adlı lüğətindən başlamış XIX əsrdən bəri ta zəmanəmizədək sürətlə, kütləvi şəkildə tərtib və istifadə olunan ərəb izahlı lüğətlərini, o sıradan ikidilli (ərəbcədən digər dillərə tərcümə edilən) lüğətləri əhatə edir. Əlifba prinsipli lüğətlərdən ən mühüm olanları müəyyən fərqlər olsa da, aşağıdakı müəlliflərə aiddir:

1. **Əbu əl-Qasim Mahmudd ibn Ömər Əz-Zəməxşərinin (m. 1057-1144) "Əsasu-l-bəlağə" (**أساس البلاغة**) lüğəti.** Orta Asiya filoloqu, xarəzmli Əz-Zəməxşəri kök-yuva üsulunu saxlamaqla təqlibat və qafiyə üsullarından imtina etmiş, müasir dövrdə ərəb leksikoqrafiyasına xas kök-yuva prinsipinin əlifba sırası üslubunda lüğət tərtibatını həyata keçirmişdir. H.Zərinəzadə qeyd edir ki, "Əz-Zəməxşərinin "Əsasu-l-bəlağə" lüğəti leksik-etimoloji və proqressiv sıralandırma sistemi ilə tərtib edilmişdir. Ondan əvvəl isə bu sistem Ər-Rafib Əl-İsfəhani tə-

[74] Сусов И.П. История языкознания, (Тверской государственный университет, кафедра общего и классического языкознания) susov@tversu.ru. http://homepages.tversu.ru/~susov/download-pdf s. I-II

rəfindən "Əl-mufrədat fi ğaribi-l-Quran" lüğətinə tətbiq edilmişdi. Söz köklərinin tərkibindəki ancaq samitlərin proqressiv sıralandırılmasına əsaslanan və çox vaxt leksikoqraflar tərəfindən "kök-yuvacıq sistemi" adlandırılan bu sistem XIX əsrin ikinci yarısından sonra ərəbcə izahlı lüğətlərin, həmçinin ərəbcədən başqa dillərə tərcümə edilmiş ikidilli lüğətlərin tərtibində geniş yayılmışdır".[75]

Əz-Zəməxşəri lüğət tərtibatında diqqətini, əsasən, ibarələr, frazeoloji ifadələr, sözün həqiqi və məcazi mənalarının açılmasına yönəltmişdir.

2. **Məhəmməd ibn Əbu Bəkir Ər-Razinin (m. ...-1267) "Muxtər əs-sıhah" (مختار الصحاح) lüğəti** Əl-Cövhərinin "Əs-Sıhah" lüğətinin qısaldılmış şəklidir.[76]

3. **Əbu Əmrə Əş-Şeybani (m. ...-828) "Kitab əl-cim" lüğəti.** Təxminən Xəlil ilə bir dövrdə yaşamış Kufə leksikoqrafı Əş-Şeybani "Kitab əl-cim" lüğəti ilə yanaşı tərtib etdiyi bir çox tematik lüğətlərdə sözləri birinci kök səslərinin əlifba sırası ilə düzmüşdür. Lakin ilk dövrlərdə Xəlil və Cövhərinin leksikoqrafik metodları daha populyar olduğundan Şeybaninin metodu geniş yayıla bilməmişdir. Sonrakı dövrlərdə, xüsusilə X-XII əsrlərdə əlifba prinsipi geniş tətbiq edilməyə başlandığı zaman bu prinsip daha da inkişaf etdirilib təkmilləşdirilmişdir. Şeybaninin metodundan, əsasən tematik lüğətlərin tərtibində, xüsusilə Cəvaliqinin alınma sözlərə həsr olunmuş məşhur əsərində istifadə olunmuşdur.[77] Əş-Şeybani lüğətində sözləri ilk hərfinə

[75] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s.178.

[76] www.angelfire.com

[77] Məmmədəliyev V.M. Ərəb dilçiliyi, ali məktəb dərsliyi. Bakı: Maarif, 1985, 288 səh., s.160.

görə əlifba sırası ilə bablara bölsə də, bablarda eyni hərflə başlayan sözlərin daxili əlifba sırası gözlənilməmişdir.[78]

[78] Ürün, Ahmet Kâzım. Arap Dilinde Sözlükler. III. Uluslararasi Sözlükbilimi Sempozyumu Bildiri Kitapı. Eskiþehir Osmangazi Üniversitesi Yayınları No:285, 2017. s. 51-58, s.55.

# III FƏSİL

## ORTA ƏSR TÜRK DİLLƏRİNİN LÜĞƏTLƏRİ

XI əsr Şərqi Türküstanın islam mədəniyyəti coğrafıyasına sürətli inteqrasiyası dövrü olmuşdur. Heç də təsadüfi deyil ki, Misirdə, Qıpçaq Çölündə, Şərqi Türküstanda türk xalqları lüğətlər vasitəsi ilə öz dillərini təbliğ etməyə çalışırdılar. Misirdə, Xarəzmdə, Hindistanda, Azərbaycanda türkdilli lüğətlərin yazılması və üzünün köçürülməsi ənənələri formalaşaraq inkişaf edirdi. Bu əsərlərin ortaq cəhəti onların tədris xarakterli olması, qrammatika və lüğət hissələrinə ayrılmasıdır. Lüğətlərin sözlüklərində vulqarizmlərə və tabu hesab edilən sözlərə rast gəlmək mümkündür.

Beləliklə, türk lüğətçiliyini aşağıdakı mərhələlərə bölmək olar:

1) Mahmud Kaşğarinin "Divanu lüğat-it-Türk" əsəri;
2) Qıpçaq lüğətçiliyi;
3) Azərbaycan lüğətçiliyi;
4) Cağatay lüğətçiliyi.

## Mahmud Kaşğarinin "Divanu lüğət-it-Türk" əsəri

Qədim türk lüğətlərindən və müəlliflərindən söhbət açarkən birinci növbədə XI əsrin dahi dilçisi və lüğətçisi, uyğur əsilli Mahmud Kaşğarinin (1005-1102) adı çəkilməlidir. O, tarixdə ilk türk-islam dövləti olan Qaraxanilər xanədanına mənsub olmuşdur. 1057-ci ildə baş verən saray çevrilişində şahzadə olan atası zəhərlənərək öldürülmüş, Mahmud Kaşğari isə təqibdən yaxa qurtarmaq üçün Qərbi Qaraxani dövlətinin torpaqlarına keçmiş, hadisələrin sonrakı gedişatını izləməyə başlamışdır. 10-15 il bütün türk ellərini gəzərək alim kimi özünü qələmə verən Mahmud Kaşğari xəlifə Əl-Muktadir Əmrullahın sifarişi ilə türk dillərinin lüğətini yaratmağa qərar vermişdir. İraqa qədər bütün türk ellərini gəzən alim topladığı materiallar əsasında 1074-cü ildə bu möhtəşəm leksikoqrafik əsəri ərsəyə gətirmişdir.



Osman Fikret Sertkayanın hesablamasına görə, Kaşğarinin lüğət içərisində "bu söz türkməncədir, bu söz oğuzcadır, bu söz arğucadır" deyə sadaladığı xalqların sayı 20-dir: arğu, bulqar, çiğil, xaqaniyə, xotan, karluk, kəncək, oğuz, qıpçaq, soqd, suvar, tuhsı, tüpüt, türk, türkmən, uğraq, uyğur, yabaku, yağma, yemek. "Divan"da təmiz türk sözləri ilə yanaşı, monqolca leksik vahidlər nəzərə alınmasa, 200-dən çox Çin, hind (sanskrit), xoten, xoten sakacası, kəncək, toxar, soğd, yunan, fars, ərəb, Tibet dillərindən alınmış sözlər vardır.[79] "Divan"da türk

[79] Osman Fikri Sertkaya. Dîvânü Lugati't-Türk'te Geçen Her Kelime Türkçe Kölkenli midir? Veya Kaşğarlı Mahmud'un Dîvânü Lugati't-Türk'ünde

boylarından qırğız dilinə dair misallar yoxdur. Halbuki Mahmud Kaşğari bu dili araşdırdığını xüsusi olaraq qeyd etmişdir.[80]

Dahi lüğətçi yazır: "Ən təmiz və doğru dil yalnız bir dil bilən, farslarla qanışmayan və əcnəbi ölkələrə gedib-gəlməyən adamların dilidir. İki dilli şəhərlilərlə oturub-duran adamların dili noqsanlıdır. Uyğurların dili saf turkcədir, lakin oz aralarında danışdıqları zaman işətdikləri bir ləhcələri də var.[81]

Dahi leksikoqraf türk sözlərini unudaraq fars sözləri işlədən oğuzları kəskin tənqid edir.[82] Kaşğarinin yaşadığı dövrdə farslarla daha çox ünsiyyətdə olmuş oğuz tayfaları tarixən məhz Cənubi Azərbaycan ərazisində yaşamış Azərbaycan türkləri olmuşlar. 1028-ci ildə soltan Mahmud Qəznəviyə (998-1030) qarşı qaldırılmış uğursuz qiyamdan sonra təqribən iki min oğuz çadırı (ailəsi) qərbə qaçmışdı. Rəvvadilər hökmdarı Vəhsudan (1020-1059) öz dövlətinə pənah gətirmiş oğuzları dostcasına qarşılamış, onlara torpaq payı vermişdi. Amma Kiçik Asiya ərazisində səlcuqluların (oğuzların) yerləşməsi 1071-ci ilə təsadüf edir. Kaşğari isə lüğətini 1074-cü ildə Bağdadda bitirmişdir. Belə nəticə hasil olur ki, Kaşğari "fars dilində sözlər işlədən oğuzlar" deyərkən məhz Azərbaycan türklərini nəzərdə tutur. Əsər ərəbcə yazıldığı üçün külli miqdarda ərəbcə, ara-sıra farsca və çincə illüstrativ materiallar verilmişdir. Baş söz türkcə, izahı ərəbcə, misalları türkcə və ardından tərcüməsi ərəbcə yazılmışdır. Ümumilikdə lüğətdə "6730 baş söz"[83] yer almışdır.

---


Yabancı Dillerden Kelimeler. Dil Araştırmaları. Sayı: 5 Güz 2009, 9-38 say., s.16.

[80] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild, s.55.

[81] Son göstərilən əsər, I cild.s.103.

[82] Son göstərilən əsər, I cild.s.144.

[83] Osman Fikri Sertkaya. Dîvânü Lugati't-Türk'te Geçen Her Kelime Türkçe Kölkenli midir? Veya Kaşğarlı Mahmud'un Dîvânü Lugati't-Türk'ünde



***"Divanu lüğət-it-Türk"ün ilk səhifəsi. (Millət Kitabxanası, Əli Əmiri Əfəndi, № 4189)***

Yabancı Dillerden Kelimeler. Dil Araştırmaları. Sayı: 5 Güz 2009, 9-38 say., s.9.

Əlyazmada baş söz lüğət məqaləsi içərisində təkrarlandığı zaman üzərində qırmızı qələmlə işarə qoyulmuşdur. Əsərin girişində Mahmud Kaşğari *müstə'məl* (مستعمل) və *muhməl* (مهمل) terminlərini işlədir.[84] Ramiz Əskərin tərcüməsində *must'əməl* "işlək" və *muhməl* "arxaik" sözlər kimi verilir.[85] Bəsim Atalay isə *muhməl* terminini daha düzgün tərcümə edir: "kullanılmayan kelime".[86] Çünki bu termin ilk dəfə VIII əsrdə Xəlil ibn Əhməd tərəfindən eyni samitlərin müxtəlif kombinasiyalara salınaraq cürbəcür sözlər yaratmaq üsulu – təqalib üsulu nəticəsində ortaya çıxan *mənasız, uydurma sözlərə* deyilir (bax: "Ərəb leksikoqrafiyasının tərtibi prinsipləri" fəslinə). Kaşğari məhz *mənasız sözlərə* görə qəlbində şübhəyə düşdüyünü qeyd edir və sübut üçün xəlilsayağı yaratdığı türkcə söz kombinasiyalarını nəzərə çatdırır və hər birinin qarşısında ərəbcəyə tərcüməsi ilə yanaşı *işlək* (مستعمل) və ya *mənasız söz* (مهمل) olduğu haqqında qeyd yazır:

اَرِق [arıq] – çay. İşləkdir.
اَقُر [aqur] – aqur. İşləkdir.
قار [qar] – qar. İşləkdir.
قَرا [qara] – qara. İşləkdir.
رَقا [raqa] – Mənasız sözdür (yəni dildə işlənməyən, uydurma hərf kombinasiyasıdır – X.Heydərova).

---

[84] محمود بن الحسين بن محمد الكشغاري. كتاب ديوان لغات الترك. ٣٢٢ سنة هجريه. جلد اول. برنجي طبعي. دار حلافة العلمية. مطبعة عامره. ١٣٣٣ Basma nüsxə - Kilisli nəşri. 3 cilddə., I cild, s. 5.

[85] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild, s.57.

[86] Dîvânü Lugati't-Türk. Çev. Besim Atalay. Ankara: Türk Tarih Kurumu Basımevi. 1985. Cilt I. 530 səh., s. 6-7.

رَاق [raq] – çoxaltma ədatı (ərəb dili qrammatikasına xas termindir, müasir Azərbaycan dilində -raq, -rək: *yaxşı-raq, gödə-rək* sifətin azaltma dərəcəsini bildirir – X.Heydərova). [87]

Mahmud Kaşğari bu söz kombinasiyalarını misal kimi verməklə demək istəyir ki, türk dilində bunu etmək mümkündür, amma o, lüğəti qısaltmaq və işi sürətləndirmək məqsədilə bu üsuldan vaz keçir.[88] Kaşğari "Divan"ına ərəb leksikoqrafiya məktəblərindən qafiyə üsuluna uyğun tərtibat vermiş, ənbiya sistemi və bablar tətbiq etmişdir.

Mahmud Kaşğarinin öz əli ilə yazdığı dörd nüsxədən heç biri bizə gəlib catmamışdır. "Divan"ın elm aləminə məlum olan yeganə nüsxəsi h. 664 / m. 1266-ci ildə Məhəmməd ibn Əbu Bəkr ibn Əbu-l-Fəth əs-Savi sümmə əd-Diməşqi tərəfindən yazıya alınmışdır. Bu, Mahmud Kaşğarinin öz əlyazmasından tam 200 il sonra köcürülən nüsxədir. Üz qabıqda olan qeydə görə, Kaşğari əsərini h. 466 / m. 1074-ci ildə sona çatdırmışdır. Bəsim Atalayın fikrincə, Kaşğari lüğətini Bağdadda yazıb bitirmişdir.[89]

"Divanu lüğat-it-türk" elm aləminə ilk dəfə 1914-cü ildə məlum olmuşdur. Məşhur kitabsevər, bukinist mağazalarının daimi müştərisi Əli Əmiri Əfəndi tərəfindən 33 qızıl lirəyə satın alınmışdır. 1917-19-cu illər arasında Kilisli Rifətin nəzarəti altında "Divan" basma üsulu ilə nəşr edilir. "Divanu lüğət-it-türk"ün yeganə əlyazma nüsxəsi hazırda İstanbulda Millət kitabxanasında saxlanır. Əlyazma 239 × 165 mm ölçülü 319 vərəqdən və XX əsrdə nömrələnmiş 638 səhifədən ibarətdir. Hər səhifədə xəttatlığın nəsx xətti ilə yazılmış 17 sətir vardır.

---

[87] Bax: محمود بن الحسين بن محمد الكشغاري. كتاب ديوان لغات الترك. ٣٢٢ سنة هجريه. جلد اول. برنجي طبعي. دار حلافة العلمية. مطبعة عامره. ١٣٣٣ Basma nüsxə - Kilisli nəşri. 3 cilddə., I cild, s. 5-6.

[88] Son göstərilən əsər, I cild.s.6.


[89] Dîvânü Lugati't-Türk. Çev. Besim Atalay. Ankara: Türk Tarih Kurumu Basımevi. 1985. Cilt I. 530 səh., s. XV.

Breslau Universitetinin sami dilləri üzrə professoru, ərəb, ivrit, kopt, sanskrit, Akkad və türk dilləri üzrə görkəmli mütəxəssis, 600-dən artıq elmi əsər muəllifi Karl Brokkerman (1868-1956) 1928-ci ildə "Divanu lüğət-it-türk"dəki sözləri əlifba sırasına düzmüş və bir cild halında Macarıstan Elmlər Akademiyasının maddi dəstəyi ilə nəşr etdirmişdir. Bundan başqa, o, "Divan" haqqında ona yaxın məqalə yazmış, əsərdəki atalar sözlərini ayrıca kitab halında buraxmışdır. Professor Bəsim Atalay (1882-1965) 1939-cu ildə "Divan"ın I cildini (530 səhifə), 1940-cı ildə II cildini (366 səhifə), 1941-ci ildə III cildini (452 səhifə), 1942-ci ildə faksimilesini (320 səhifə), 1943-cü ildə isə indeks cildini (886 səhifə) nəşr etdirmişdir.[90]

"Divan"nın 1930-cu illərdə AMEA SSR Dilçilik İnstitutunda həyata keçirilmiş tərcüməsi və redaktəsi, çox təəssüf ki, yarımçıq qalmışdır. Bu tərcümə 1935-36-ci illərdə Azərbaycan dilçiliyinin banilərindən biri, özbək əsilli Xalid Səid Xocayev tərəfindən həyata keçirilsə də, 1937-ci il iyunun 3-də X.S.Xocayev həbs edilir. Həmin il oktyabrın 12-də son iclasda X.S.Xocayev Azərbaycan SSR CM-nin 68-ci maddəsi üzrə "əksinqilabi pantürkist təşkilatın üzvü və Türkiyənin xeyrinə kəşfiyyat işi aparmış şəxs" damğası ilə ittiham olunaraq güllələnməyə məhkum edilir.

1939-cu ildə "Divan"ın tərcüməsi yenidən İnstitutun planına salınır. X.S.Xocayevin əlyazmaları işlənmək üçün P.K.Jüze (Fələstin mənşəli şərqşünas, BDU-nun müəllimi), Ə.Ələskərzadə, F.İsmixanov və Ə.Dəmirçizadəyə tapşırılır. AMEA Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında saxlanan həmin əlyazmanın I cildinin üz qabığının iç tərəfində yuxarıda adları çəkilən tərcüməçilərin adları qeyd olunmuşdur. Amma X.S.Xocayev həmin dövrdə "xalq düşməni" olduğu üçün adı heç yerə

[90] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild, s.34.



***Çinin Sincan-Uyğur Muxtar Rayonu və ya Sintszyan-Uyğur Muxtar Rayonunda Mahmud Kaşğarinin heykəli***



yazılmır. Halbuki tərcümə bütünlüklə ona məxsus idi. Tərcümənin redaktorlarının 16.08. 1939 tarixində professor S.M.Malov və A.Kononov olduğu göstərilir. 25.04.1940 və 27.12.1946 tarixində "Divan"ın müəyyən hissələrini M.R. Əskərli, C. Əfəndiyev, M.Ə. Xəlifəzadə ərəbcə mətnlə birlikdə redaktə etmişlər.

"Divanu luğət-it-türk"un özbək dilinə tərcüməsini 1960-63-cü illərdə tanınmış alim və mütərcim Salih Mütəllibov həyata keçirmişdir. 1972-ci ildə Böyük Britaniyada çap olunmuş C.Klouzenin "XIII əsrə qədərki türk dilinin etimoloji lüğəti"ndə Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərindən geniş şəkildə istifadə olunmuşdur. "Divan"ın uyğur dilinə tərcüməsi isə tam bir elmi filoloji və insani faciə ilə müşayiət olunmuşdur. Hələ ötən əsrin 30-cu illərindən bəri dəfələrlə "Divan"ın tərcümə və nəşrinə cəhd göstərilsə də, sonu faciə ilə bitmiş, illərin əziyyəti yandırılaraq məhv edilmişdir. Sonunda 1981-84-cu illərdə Urumçidə 3 cild halında 10 min nüsxə tirajla nəşr edilməyə nail olunmuşdur.[91]

Nəhayət, 2006-cı ildə Ramiz Əskərin "Divan"ın Azərbaycan dilinə tərcüməsi işıq üzü gördü. Özünün də qeyd etdiyi kimi, tərcümə Bəsim Atalayın nəşri əsasında gercəkləşdirmişdir

[91] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild, s.37.

və bir baxıma bütün tərcümələrin təsiri altında olmuşdur.[92] Əsər dörd cilddən ibarətdir. İlk üç kitab bütünlüklə "Divan"ın tərcüməsi, sonuncu dördüncü isə əsərin indeks cildidir. Yəni burada lüğətdə əks olunmuş baş sözlər müasir Azərbaycan dilinin əlifbası sırasına düzülərək digər üç cilddəki yerləri, səhifələri verilmişdir.

## Əl-Fərabinin "Divanu əl-ədəb fi bəyən luğəti-l-arab" və Kaşğarinin "Divanu lüğət-it-türk" lüğətlərinin müqayisəli təhlili

Kaşğarinin "Divan"ının tərtibi quruluşunu ərəb lüğətçiliyindəki lüğətlərlə müqayisə etdikdə Əbu İbrahim İshaq ibn İbrahim Əl-Fərabinin "Divanu əl-ədəb fi bəyən luğəti-l-arab" ilə bənzərliyi müşahidə olunur. X əsr islam aləminin dilçi-alimi və leksikoqrafı olmuş Əbu İbrahim İshaq ibn İbrahim Əl-Fərabi (m. 872-961) Cənubi Qazaxıstanın Fərab ərazisində doğulmuşdur. O, filosof Əbu Nəsr Məhəmməd ibn Məhəmməd Fərabinin (870– 950) həmyerlisi və müasiri idi. Əl-Fərabi ərəb lüğətçiliyinin məşhur nümayəndələrindən biri olan Əl-Cövhərinin dayısı və bilavasitə müəllimi olmuşdur. Ərəb lüğətçiliyində Əl-Cövhərinin adı ilə bağlanan "qafiyə" üsulu əslində ilk dəfə Əl-Fərabinin "Divanu əl-ədəb" lüğətində tətbiq edilmiş, lakin tərtibatındakı mürəkkəb strukturlu əbniyalar və bablar lüğətdən istifadəni çətinləşdirdiyinə görə bu əsər ərəb lüğətçiliyi məktəblərinin təsnifatına daxil edilməmişdir. Uzun əsrlər boyu onun əsəri diqqətdən kənarda qalmış, yalnız Mahmud Kaşğarinin "Divanu luğat-it-türk" lüğətinin prototipi olması faktı üzə çıxdıqdan sonra bəzi tədqiqatçıların diqqətini cəlb etmişdir. Əl-Fərabinin lüğəti XX əsrdə iki dəfə çap edilmişdir: birinci nəşri 1970-ci ildə "Divanu əl-ədəb fi-l-luğa" adı altında, ikinci dəfə

[92] Son göstərilən əsər, IV cild, s.11.

isə İkinci dünya müharibəsi illərində əlyazması Misir alimləri tərəfindən təsadüfən İskəndəriyyə kitabxanasında tapıldıqdan sonra uzun araşdırmalar aparılaraq nəhayət 1974–1984-cü illərdə 4 cilddə çapa verilmişdir. Onun əsərləri alman şərqşünası K.Brokkerlman tərəfindən geniş tədqiqata cəlb olunmuşdur. Əl-Fərabi həmin dövrdə populyar olan Xəlilin təqlibat üsulundan imtina etmiş, lakin əbniya sistemini (hərflərin sayına görə leksik qruplar bölgüsü) tətbiq etmişdir. Xəlildən fərqli olaraq Fərabi lüğətin leksik materialı kimi feil, məsdər, fail və məfʿullar üzrə təsnifat bölgüsü də aparmışdır. Ona görə də paradiqmatik modellərin iyerarxik ardıcıllıqla (ənbiya) verilməsinə görə ilk təcrübə Əl-Fərabinin "Divanu əl-ədəb" lüğətinə aid edilir. O, əsərini 6 kitaba ayırmış və kitabları ərəb hərflərinin xüsusiyyətlərinə və köklərdəki samitlərin sayına görə aşağıdakı bölgünü vermişdir:

I kitab "Salim" (tərkibində əlif, vav, yə hərfləri olmayan, lakin həmzə və qoşa hərflərin iştirak edə bildiyi sözlər);

II kitab "Mudaaf" (şiddətlənən qoşa samitli sözlər);

III kitab "Misal" (tərkibində əlif, vav, yə hərflərindən biri olan);

IV kitab "Zavatu-s-sələsə" (üçsamitli köklər);

V kitab "Zavatu-l-ərbəʿə" (dördsamitli köklər);

VI kitab "Həmzə" (həmzəli köklər).[93]

Hər kitab iki hissəyə bölünür: isimlərə və feillərə. Özünün də qeyd etdiyi kimi, isimləri feillərdən əvvələ salmışdır.[94]

Əl-Fərabi məsdər və mücərrəd sözlərin də daxil olduğu isimlərin düzülüşünü aşağıdakı bablara ayırır: a) üçhərfli ilkin modellər; b) önündə əlif və ya mim prefiksi olan üçhərflilər; c)

---

[93] تعريف مختصر بمعجم ديوان الأدب .
http://www.alfaseeh.com/vb/archive/index.php/t-35063.html

[94] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s. 60.

mudaaf üçhərlilər; ç) hərfi-illəti ilk hecasında olan üçhərflilər; d) hərfi-illəti son hecasında olan üçhərflilər; e) postfiksli üçhərflilər; ə) dördhərflilər; f) beşhərflilər.[95] Fərabinin tərtib etdiyi isimlərin çoxsaylı paradiqmatik parçalanması getdikcə dəqiqliyi izləməyə çətinlik yaradır. Belə ki, o bəzi modellərin bölgüsündə yeganə nümunə ilə kifayətlənməli olmuşdur.[96] Qeyd etmək lazımdır ki, XI-XIII əsrlərin ərəb tərcümə lüğətləri lüğətdən çox tədrisi xarakterli dil öyrətmə kitabları idi. Burada qrammatik təsnifat, fonetik bölgü və izahlar çox qabarıq şəkildə tətbiq edilirdi. Bu isə lüğətin əsas funksiyalarının arxa plana keçməsinə səbəb olurdu. Lüğətin əsas funksiyalarından biri isə istifadəsinin mümkün qədər asan olması, axtarılan sözün tapılması üçün onun morfoloji, fonetik və orfoqrafik quruluşu üzərində baş sındırıb "hansı kitabda ola bilər?" kimi sual qarşısında qalmaq olmamalıdır. Əl-Fərabinin lüğətində sözü tapmaq üçün isə dərin filoloji savad tələb olunur.

Yuxarıda qeyd edildiyi kimi, Fərabi ərəb leksikoqrafiyasında ilk dəfə olaraq qafiyə üsulunu tətbiq etmişdir. O bunu həm samitlərə, həm də saitlərə şamil etmişdir. Belə ki, lüğətdə sözlüyün sıralanmasında fəthəli köklər əvvəldə gəlir, sonra dammalı, daha sonra isə kəsrəli köklər düzülmüşdür. Köklər ***bə*** (ب) hərfindən başlayaraq, zəif samitlər (əlif, vav, yə) xaric, əlifba sırası ilə tərtib edilmişdir. Əl-Fərabinin lüğəti ilə ərəb lüğətçiliyinin banisi Xəlil ibn Əhmədin "Kitəb əl-ayn" lüğəti arasındakı əsas fərq elə bundan ibarətdir .[97]

Fərabi lüğətinin müqəddiməsində yazır: "Biz söz-köklərin fəthalı olanları ilə başladıq. Çünki hərəkələr arasında ən rahatı odur, ağız boşluğundan heç bir gərginlik olmadan çıxır. Ardın-

[95] Son göstərilən əsər, s. 61.
[96] Son göstərilən əsər, s. 63.
[97] تعريف مختصر بمعجم ديوان الأدب .
http://www.alfaseeh.com/vb/archive/index.php/t-35063.html

dan damma ilə olan köklər, daha sonra isə kəsrəlilər gəlir. Kökündə sükun olanları fəthadan əvvələ yerləşdirdik, çünki sukun bütün hərəkələrdən ən yüngülüdür." Deməli, Əl-Fərabiyə görə ◌ْ → ◌َ → ◌ُ → ◌ِ sıralanması fonetik prinsipə əsaslanır.[98]

Qafiyə üsulunun daha bir əsas xüsusiyyətini Əl-Fərabi belə izah edir: "Biz sonu **bə** hərfi ilə bitən isimlərin köklərindən başlayırıq, beləcə əlifba sırası ilə davam edirik, ta ki əlifba bitənə qədər, "zəiflər"i (tərkibində əlif, vav, yə hərflərindən biri olan) bura daxil etmirik. Bununla da Xəlil ibn Əhmədin yolu ilə getmirik, hamının bilib-tanıdığı əlifba sırasını tətbiq edirik. Son hərfi eyni olan köklər ilk hərfinə görə əlifba sırası ilə düzülür. Əgər sözlərin ilk hərfləri də eynidirsə, ikinci hərfinə görə sıraya alınır".[99] Son hərfə və ikinci hərfə görə sözlərin nizama salınması qafiyə üsulunun əsas şərtlərindən biridir və ilk dəfə olaraq Fərabi tərəfindən tətbiq edilmişdir. Lakin lüğət işi üçün lüzumsuz olan çoxsaylı paradiqmatik bölgülərin hər dəfə sözün son və ikinci hərfinə görə yenidən əlifba sırasına salınması prinsipi əslində bu məktəbdən qaynaqlanmış Əl-Cövhərinin tərtibi metodundan geri qalır, çünki o, "Əs-Sihah" lüğətinin makrosisteminə vahid əlifba sistemi həyata keçirmişdir.

Kaşğari də Əl-Fərabi kimi "divan" (qeydiyyat) sözünü lüğətin adında istifadə etmişdir, çünki burada illüstrativ materiallara geniş yer vermişdir; iki lüğətin fəsillərinin başlıqlarını müqayisə etdikdə eyni quruluş müşahidə olunur. Fərq ondadır ki, Kaşğari lüğətini səkkiz kitaba bölmüş, "həmzə" fəslini başa keçirərək birinci kitab etmiş, yeddinci kitabını ərəb dilinə xas olmayan "ğünnəli sözlər" (tərkibində burundan gələn səslər olan

[98] Zərinəzadə H. H. Ərəbcə-azərbaycanca lüğətin nəzəri əsasları (filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 1974, 304 səh., s. 184.

[99] Рыбалкин В.С. Принципы постраения: арабских лексикографических трудов VIII-XVIII вв. Диссертация на соискание учёной степени кандидата филологических наук. Ленинград-1984. 229 səh. , s. 60-61.

sözlər) adlandırmış, səkkizinci kitaba sukunlu iki samitin birləşdiyi sözləri daxil etmişdir.

Digər ortadakı fəsillər isə Fərabinin lüğətində olduğu ardıcıllıqla düzülmüşdür. Bablarda eyni hərflə bitən sözlərdə samitlər sabitdir, yalnız saitlər dəyişir, məs.: *ərk, örk, irk*. Bütün lüğət boyu söz sonundakı hərfə görə ərəb əlifbası sırası ilə sözlərin sıralanması əsas aparıcı tərtib üsuludur. Əl-Fərabidə olduğu kimi, bu sözlərin ardından ilk hərfləri eyni olduğuna görə ikinci hərfinə görə dəyişmə baş verir: *irk, ilk*. Kaşğaridə də əlifba sırası hər paradiqmatik bölgüdə yenidən başlanır.


Qeyd etmək lazımdır ki, bu bəhsimizdə hərf deyərkən samit, həmzə və hərəkə deyərkən sait başa düşülməlidir.

Beləliklə, Kaşğarinin lüğəti aşağıdakı kitablardan ibarətdir:

1. "Həmzə" kitabı (كتاب الهمز)
2. "Salim" kitabı (كتاب السالم)
3. "Mudaaf" kitabı (كتاب المضاعف)
4. "Misal" kitabı (كتاب المثال)
5. "Zavatu-s-sələsə" kitabı (كتاب ذوات الثلاثة)
6. "Zavatu-l-ərbəʿə" kitabı (كتاب ذوات الاربعة)
7. "Ğünnə" kitabı (كتاب الغنّة)
8. "Sukunlu iki hərfin birləşdiyi" kitab (كتاب الجمع بين الساكنين) [100]

[100] محمود بن الحسين بن محمد الكشغاري. كتاب ديوان لغات الترك. ٣٢٢ سنة هجريه. 114. جلد اول. برنجي طبعي. دار حلافة العلمية. مطبعة عامره. ١٣٣٣ Basma nüsxə - Kilisli nəşri. 3 cilddə., I cild, s. 4-5.

Kitablardakı bütün fəsillər və bablar lüğətdə eyni prinsiplə tərtib edilmişdir. Əl-Fərabi kimi Kaşğari də kitablarını isim və feillərə bölmüşdür. O, əsərinin girişində qeyd edir ki, isimləri feillərdən əvvələ salmışdır. Bunların da hər biri kökün hərflərinin sayına görə bablara (hərflərin sayı beşdən yeddiyə qədər dəyişə bilər), bablar mudaaf (qoşa samitli), misal (*yə* hərfi ilə başlayan sözlər), mənqus (*əlif, vav, yə* hərflərindən biri olan sözlər), ğünnəli ([nq] səsli sözlər), ortası sükunlular, matvi (tərkibində *əlif, vav, yə* hərfləri olan sözlər) və s. başlıqlarına ayrılır. Kaşğari feillərlə bağlı kitablarda zaman şəkilçilərini və məsdərlərini göstərir, yeri gəldikcə geniş və qısa qrammatik izahatlar verir. Əsərdə verilən başlıqlar ərəb dilçilik terminlərinin təkrarı olsa da, ümumən, kitabların adları və sözlüyü Kaşğari tərəfindən türk dilinin fonetik və morfoloji sisteminə uyğun olaraq müəyyənləşdirilmişdir (bax: "Kaşğarinin tətbiq etdiyi hərf sistemi"). Lakin babların bölgüləri heç də eyni, vahid sistemdə təsbit edilməmiş, fərdi şəkildə başlıqlara ayrılmışdır. Çoxsaylı lüzumsuz paradiqmatik parçalanma və dərinə getdikcə hər təsnifatda sözün son hərfinə


كتاب ديوان لغات الترك
تاليف محمود بن الحسين بن محمد الكاشغري رحمه الله

və ikinci hərfinə görə əlifba sırasının yenilənməsi səbəbindən lüğətin makrosistemini müəyyənləşdirmək mümkün deyildir. Əl-Fərabidə olduğu kimi, Kaşğarinin əsərində də çoxsaylı paradiqmatik parçalanma modelləri bəzən bir, ya iki misal ilə yetinməli olur. Məsələn:

"Fə'ləl babı" bölməsində [III cild, s.31] – 1 söz
"Bu babin matvi olan sözü" bölməsində [III cild, s.37] – 1 söz;
"Bu babin matvi olan sözü" bölməsində [III cild, s.39] – 1 söz;
"Bu babın başqa bir növü" bölməsində [III cild, s.48] – 1 söz;
"Mudaafin başqa bir növü" [II cild, s. 332] – 2 söz;
"Fə'əllu babı" bölməsində [III cild, s. 48] – 2 söz;
"Bu babin matvi olanlari" bölməsində [III cild, s. 54] – 2 söz;
"Bunun başqa bir növü" bölməsində [III cild, s. 55] – 2 söz;
"Fəv'əl babi" bölməsində [III cild, s.31] – 3 söz;
"Fə'ilan babı"nda bölməsində [III cild, s.39] – 3 söz;
və s.

Əsərin sözlüyü, illüstrativ və qrammatik materialları, türk dilləri haqqında müqayisəli araşdırmaları və nəhayət, çoxsaylı paradiqmatik bölgüsü min il sonrakı dövr üçün əvəzsiz qiymətli filoloji-leksikoqrafik material olsa da, təəssüf ki, lüğətin tərtibi quruluşunu istifadəçi nöqteyi-nəzərindən uğurlu saya bilmərik. Beləliklə, lüğətin quruluşunu cətin də olsa, izah etməyə çalışacağıq.

**Birinci Kitab** "Həmzə" (كتاب الهمز) adlanır. Bu kitab öz növbəsində "isimlər" və "feillər" olmaq üzrə iki kitaba ayrılır. *"Həmzəli isimlər"* kitabı iki hərflilər, üç hərflilər, ortası hərəkəlilər, ziyadə hərflilər, dörd hərflilər, beş hərflilər bablarına bölünür. Babların da öz fərdi biri digərini sistemli şəkildə təkrarlamayan bölgüləri vardır.

Ümumilikdə *"Həmzəli isimlər"* kitabına saitlə başlayan leksik vahidlər daxil edilmişdir, məs., *ab, əb, ub, up sözləri* ərəb əlifbasında həmzə ilə başlayır. Lüğətdə sözlərin ardıcıllığı söz sonundakı *bə* hərfi ilə başlanır. "Divan"ın faksimilesində

görmək mümkündür ki, *bə* və *pə* hərfi ilə bitən sözlər bir lüğət məqaləsində toplanmışdır.[101] Ardından başqa bir lüğət məqaləsində *tə* (ت) hərfi ilə bitən və həmzəli, yəni saitlə başlayan sözlər gəlir: *at* (اَت), *ət* (اَت), *ot* (اُت), *it* (اِت) və s.

Sözlərin əvvəlində gələn samit və ya həmzə yenə Əl-Fərabidə olduğu kimi, əvvəl fəthəli (a/ə), ardından dammalı (u/o/ü), sonra isə kəsrəli (i/ı) olur.

Aşağıdakı cədvəl "Divanu lüğət-it-türk" lüğətinin hərf sistemini anlamaq və daha aydın mənzərəsini göz qabağında canlandırmağa yardımçı ola bilər:

**Həmzəli isimlər**

**İki hərflilər babı**

**B və p ilə bitənlər**

əb

ab
ob-ob
op

**T ilə bitənlər**

at
ət
ot
it

**Ç ilə bitənlər**

üç
uç
iç

**R ilə bitənlər**

[101] Dîvânü Lugati't-Türk. Tıpkıbasım. "Faksimile". – Ankara: Alaeddin Kirsi Basımevi, 1941. – 638 səh., s. 28.

| | | |
|---|---|---|
| | | ər<br>ir |
| | | və s. |
| **Üç hərflilər babı**<br>**B və p ilə bitənlər**<br>alb/alp | | |
| | **T ilə bitənlər**<br>art<br>urt | |
| | **Q (ق) ilə bitənlər**<br>arq<br>urq | |
| | **K (ك) ilə bitənlər**<br>ərk<br>örk<br>irk | |
| | və s. | |
| **Ortası hərəkəlilər (saitli) babı** | **T ilə bitənlər**<br>öçüt<br>aẑut<br>arut<br>uğut | |
| | və s. | |

*"Həmzəli feillər kitabı"*nda feillər şühudi keçmiş zaman şəkilçisi III səxsin təki ilə verilir. Lakin baş sözlərin düzümündə şəkilçi nəzərə alınmır, sözün kökündəki son samit və əvvəlindəki ilk hərfə görə əlifba sırası ilə (həmzədən başlayaraq) düzülür, məs.: *aç-dı, uç-dı, iç-di; ər-di, ur-dı* və s. "Həmzəli

feillər kitabı”nın aşağıdakı babları vardır: ikihərflilər, üçhərflilər, dördhərflilər, beşhərflilər. Yenə də babların öz fərdi bölgüləri vardır.

“Həmzəli feillər kitabı”nda hərflərin sayı yalnız sözün kökünə görə nəzərə alınır. Yəni *-dı* keçmiş zaman şəkilçisi bu hesaba daxil deyildir. Məsələn, Kaşğarinin lüğətində *almaq* feilini axtarmaq istədikdə aşağıdakı prosesi həyata keçiririk:

1) məsdər şəkilçisini atırıq;

2) *al* kökü *a* saiti ilə başladığına görə onu “*həmzəli feillər”in* “*ikihərflilər”* babında tapırıq.

**İkinci Kitab** “Salim” (كتاب السالم) adlanır. Ərəb dilinin qrammatikasında tərkibində *vav, yə, həmzə* hərfləri və qoşa samit olmayan sözlərə *salim* deyilir. *“Salim isimlər”* kitabında hər hansı bir leksik vahidi tapmaq üçün ərəb əlifbası ilə yazılışında, həqiqətən də, salim olduğuna əmin olmaq lazımdır. Bu o deməkdir ki, sözlər yalnız samit və qısa sait səs bildirən hərəkələrdən ibarət ola bilər, məs., bu kitabın “ikihərflilər” babında: *tap, top, bən, tək* və s.; “üçhərflilər” babında: *kənd, türk, kürk* və s.; “ortası hərəkəlilər” babında: *bulıt, katık, kaşuk, burun* və s. sözlərə rast gəlmək mümkündür.

**Üçüncü Kitab** “Mudaaf” (كتاب المضاعف) adlanır. Buraya qoşa samitli və hətta arasına sait girmiş iki eyni samiti olan leksik vahidlər daxildir, məs., *kak, sakak, kirqaq.* **-tı** keçmiş zaman şəkilçisi əlavə edildikdə qoşa ***tt*** əmələ gəldiyinə görə Kaşğari bu bölməyə sonu ***t*** ilə bitən feil köklərini də daxil etmişdir.

**Dördüncü Kitab** “Misal” (كتاب المثال) adlanır. Kitaba yalnız **yə** (y) hərfi ilə başlayan sozlər daxil edilmişdir. Məsələn, *yarb* (sağlam, möhkəm; insan sevindiyi zaman üzündə yaranan sevinc nuru), *yurt*, *yalt* (sərt), *yurç* (arvadm kicik qardaşı, kicik qayın), *yund* (at) və s. Bablarda hərflərin sayı artdıqca leksik şəkilçili və mürəkkəb sözlər daha çox müşahidə olunur. Məsələn, “Beşhərflilər” babında *yağırlığ* (yaralı olan), *yarağlığ* (ya-

rıyan), *yumıtğan* (toplanan), *yaratğan* (yaradan), *yazığçı* (yazıçı, mirzə), *yabaqulaq* (titrətmə; bayquş) və s.

**Beşinci Kitab** "Zavatu-s-sələsə" (كتاب ذوات الثلاثة) adlanır. Bu kitabda üç hərfli sözlər yer almışdır. Lakin Kaşğari "İkihərflilər" babını da ayırır. Bəsim Atalayın qeydi: "Mahmud Kaşğarinin üc hərfli sözlər kitabı açdıqdan sonra "iki hərflilər bölməsi" deyə bir bölmə açmasının səbəbini biz ancaq bu şəkildə başa düşürük: onun bu bölmədə verdiyi sözlərin iki cür yazıldığı müşahidə olunur, "tah", "cuh", "mah", "yah", "kah" şəklində yazılarkən bu sözlər üc hərfli olur. Belə olduqda onları yuxarıda söylənən "üchərflilər kitabı"na daxil etmək mümkündür. Mahmud Kaşğarinin bu sözlər "th", "ch", "mh", "yh", "kh" şəklində yazılır deməsindən isə onların iki hərfli isimlər arasına qoyulmuş olduğu anlaşılır, Bu halda müəllif bu sözlər ücün "yazılışda iki hərfli, oxunuşda üc hərfli" demək istəyir".[102]

Mamud Kaşğari bu babın "misal olanlar" bölümünü də verir, məs., *yah* (bəli, yaxşı).

"Ortası sükunlu fe'l, fə'l, fu'l" babındakı sözlər, qəribə də olsa, sükunla oxunmur, məs, تُوب [tüb], تُوب [tob], شُوت [şüt], تيش [tış] və ya [tiş]. Bu babın bölmələri bunlardır: matvi, misal olanlar.

و vavlı sozlərin əvvəli və sonu hərəkəli olan fə'əl babı, fə'əl kökündən yaranan و vavlı sözlər, ziyadə sözlər, beş hərflilər, hər növ hərəkəsi ilə fə'li babı və s. bablar və onların da hərəsinin bölmələri vardır.

**Altıncı Kitab** "Zavatu-l-ərbəʿə" (كتاب ذوات الاربعة) adlanır. Bura dördsamitli köklər daxildir.

[102] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. III cild, s. 117.

**Yeddinci Kitab** "Ğünnə" (كتاب الغنّة) adlanır. Burada burun səsləri olan sözlər yer almışdır. Məsələn, *təŋdi* (pərvazlandı), *möŋdi* (şıllaq atdı); bu babın misal olanı: *yəŋdi* (yendi).

**Səkkizinci Kitab** "Sükunlu iki hərfin birləşdiyi" (كتاب الجمع بين الساكنين) adlanır. Məsələn, *əldrük* (üzərliyin toxumu), *örtmən* (örtmə, talvar, cardaq, dam), *arslan* (aslan), *oldrum* (adamın oturduğu yeri, yanbızı; kotürüm, yatalaq).

Nəticə olaraq deyə bilərik ki, Kaşğarinin lüğətində babların bölgülərinin eyni sistemdə təsbit edilməməsi, fərdi şəkildə başlıqlara ayrılması, çoxsaylı lüzumsuz paradiqmatik parçalanma və hər təsnifatda sözün son hərfinə və ikinci hərfinə görə əlifba sırasının yenilənməsi səbəblərindən lüğətin vahid makrosistemini müəyyənləşdirmək qeyri-mümkündür. Əl-Fərabinin yaratdığı qafiyə üsulu ərəb lüğətçilyi üçün, əslində, uğurlu bir kəşf olsa da, əbniya sistemində babların bölgüləri ehtiyac duyulmayan parçalanmalar ilə müşahidə olunur ki, bu da lüğət işinə yaramır. İshaq Əl-Fərabinin "Divan əl-ədəb" lüğətinin bu uğursuz mürəkkəb tərtibatı təəssüf ki, Kaşğarinin lüğətində də təkrarlanmışdır. Belə ki, türkcə-ərəbcə olan "Divanu lüğət-it-türk" əsərində türkcə sözü tapmaq üçün, əvvəlan, istifadəçi-ərəb türk dilinin morfologiyasını və fonetikasını, onun ərəb əlifbası ilə orfoqrafiyasını gözəl bilməli idi, ən azından Kaşğari qədər. Təbii ki, həmin dövrdə türk dilini filoloji səviyyədə bilən dilçilərdən başqa heç bir kəs bu lüğətdən rahat istifadə edə bilməzdi. Yəqin ki, bu səbəbdən "Divanu lüğət ət-türk" əsəri öz dövründə geniş populyarlıq qazana bilməmişdir, bunun sübutunu üzünün dəfələrlə köçürülməməsi və onun ardıcıllarının olmaması ilə izah edə bilərik.

Lüğətin sözlüyü, illüstrativ və qrammatik materialları, türk dilləri haqqında müqayisəli araşdırmaları və nəhayət, çoxsaylı paradiqmatik bölgüsü min il sonrakı dövr üçün əvəzsiz qiymətli filoloji-leksikoqrafik material olsa da, təəssüf ki, lüğətin tərti-

bi quruluşu istifadəçi nöqteyi-nəzərindən uğurlu hesab edilə bilməz.

## Kaşğarinin tətbiq etdiyi hərf sistemi

Mahmud Kaşğari "Divanu lüğət ət-türk" əsərində işlətdiyi türkcə söz və illüstrativ materialları Qaraxani (Xaqaniyyə) türkcəsində qələmə almış, lakin digər türk dillərində fərqli tələffüz edildiyi halları da qeyd etmişdir. Yeri gəldikcə, o, başqa ləhcələrdə olan sözləri baş söz kimi vermişdir.

Kaşğari ərəb əlifbasından ث، ط، ظ ، ض، ص، غ، ه، ح hərflərini ixtisara salaraq türk dilinin əlifba sistemini aşağıdakı şəkildə müəyyənləşdirir:

ا، ب، ت، ج، خ، د، ذ، ر، ز، س، ش، غ، ف، ق، ك، ل، م، ن، و، ي

Maraqlıdır ki, dahi leksikoqraf hə (ه) hərfinin türk dilinə xas olmadığını göstərir. Kaşğari türk dilinə aid əlavə yeddi səsin təsvirini belə verir:

"Sərt *bə* ب (**bə**-nin karlaşması, yəni **p** – X.Heydərova);

Ərəbcə *cim* ج (Kaşğari vurğulayaraq الجيم العربية "ərəbcə cim" yazsa da, bütün tərcüməçilər qarşılığını ç verirlər – X.Heydərova);

Zə və şin hərflərinin məxrəcində zə ز (Kaşğari burada bir nöqtəli ز yazsa da, j nəzərdə tutur – X.Heydərova);

Ərəbcədə olan fə ف;

Ğayn (غ);

Qaf (ق) və kəf (ك) hərflərinin məxrəci olan gaf (g səsi – X.Heydərova);

Ğayn və qaf, nun və qaf məxrəcində tələffüz olunan ğünnəli kəf (sağir nun – X.Heydərova)".[103]

[103] محمد الكشغاري . كتاب ديوان لغات الترك. 322سنة هجرية 1333. Basma nüsxə - Kilisli nəşri. I cild, s. 8.

Cəmi üç sait səsi ifadə edə bilən ərəb yazısı orfoqrafiyası "qədim türk yazı abidələrində əks olunmuş 8 saitli (a, ə, ı, i, o, ö, u, ü) türk dilinin"[104] mükəmməl oxunuşunu, əlbəttə ki, tam təmin edə bilməz. O.F.Sertkaya "Divan"da ərəb hərfləri ilə yazılmış alınma sözlərin oxunuşunda üç əsas problem görür:

a) Sözün ahəng qanununa uyğun oxunub-oxunmaması problemi;

b) Sözün saitinin oxunması problemi;

c) Sözün həm saitinin, həm də samitinin oxunması problemi.

A bəndini izah edən Sertkaya – بُشِنْجَكْ sözünün *buşincək*, yoxsa *buşıncak* oxunacaq? – deyə polemikası yaradır.

B bəndində تغرل *toğrıl*, yoxsa *tuğrıl*?

C bəndində اُسُكْلا *ösügle~üsügle*, yoxsa *usukla* oxunacaq?

O.F.Sertkaya yuxarıdakı üç problemi alınma sözlərin oxunuşuna aid etsə də, əslində sadalananlar ərəb hərfləri ilə yazılmış bütün sözlərin oxunuşu problemidir.[105]

Biz M.Kaşğarinin lüğətinin quruluşu ilə bağlı araşdırma apararkən lüğətdəki baş sözlərin qarşılıqlarının müxtəlif tərcüməçilər tərəfindən fərqli və özünəməxsus şəkildə verildiyinin şahidi olduq. Bütün bunları daha aydın şəkildə qarşılaşdırmaq üçün cədvəl qurmaq qərarına gəldik (bax: Cədvəl 1.)

Birinci sütundan gördüyümüz kimi, Mahmud Kaşğari lüğətində **b** səsi üçün **bə (ﺐ)**, **p** səsi üçün isə **pə** (ﭖ) hərfini tətbiq etmişdir (bax: Şəkil 1.). Ramiz Əskərin tərcüməsində اُپ (up/op) texniki səhv olaraq " اَب" kimi getmişdir.[106]

[104] Bax: Алиев А., Содиков К Узбек адабий тили тарихидан. - Т.: Узбекистон, 1994.-118. S. 55.

[105] Osman Fikri Sertkaya. Dîvânü Lugati't-Türk'te Geçen Her Kelime Türkçe Kölkenli midir? Veya Kaşğarlı Mahmud'un Dîvânü Lugati't-Türk'ünde Yabancı Dillerden Kelimeler. Dil Araştırmaları. Sayı: 5 Güz 2009, 9-38 say., s. 15.

[106] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. I cild, s. 109.

| Mahmud Kaşğarinin "Divanu lüğət ət-türk" əsərinin nəşri (1917) və faksimilesi (1941)[107] | Bəsim Atalayın tərcüməsi, I cild (1939)[108] | 1939-cu ildə AMEA Dilçilik İnstitutunda edilmiş tərcümənin əlyazmasında, I cild (səh. 2) | Z.-A.M. Auezova-nın tərcüməsi, I cild (2005)[109] | Ramiz Əsgərin tərcüməsi, I cild (2006)[110] | Salih Mütəllibovun özbək dilinə tərcüməsi, I cild (1960)[111] |
|---|---|---|---|---|---|
| اَپ | ep | əp/ap | аб | ep | ep‖əp‖ap |
| اَپ | ap | ap | аб | ap | ab |
| اُپ | üp | up | уб | üp | üp‖up |
| اُپ اَپ | op-op | ob-ob | уб-уб | op-op | op-op |
| اِپ | op | op | уп | ap | op |

**Cədvəl 1.** ***Həmzə ilə başlayan "İsim" kitabının ikihərflilər bölməsində sonu bə (ﺐ) ilə bitən sözlər.***

[107] Dîvânü Lugati't-Türk. Tıpkıbasım. "Faksimile". – Ankara: Alaeddin Kirsi Basımevi, 1941. – 638 səh., s.29.
[108] Dîvânü Lugati't-Türk. Çev. Besim Atalay. Ankara: Türk Tarih Kurumu Basımevi. 1985. Cilt I. 530 səh., s.34.
[109] Махмуд аль-Кашгари. Диван Лугат а-Турк / Перевод, предисловие и комментарии З.А.М. Ауэзовой. Индексж составлены Р.Эрмерсом. – Алматы: Дайк-Пресс, 2005 -1288 с., s.73.
[110] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild., s.109.
[111] Маҳмуд Қошғарий. Девону луғотит турк. Таржимон ва нашрга тайёрловчи С. Муталлибов. Т: Узбекистан Фанлар Академиси Нешрияты –1960. – Б. 149. I cild, s.70.


Z.-A.M. Auezova çox düzgün olaraq **bə (ب)** hərfinin qarşılığını **b (б)**, **pə** hərfinin qarşlığını isə **p (п)** ilə verir. Amma digər tərcüməçilərin tərcümələrində **bə (ب)**-nin qarşılığı müəyyən səbəblərə görə bəzən **p**, bəzən isə **b** göstərilir. Bəsim Atalayın çevirməsində söz sonunda bütün **bə (ب)** hərflərinin **p** ilə verilməsi Türkiyə türkcəsində söz sonlarının karlaşması qanunu ilə izah edilə bilər. Eyni sözü özbək dili üçün də demək lazımdır. Salih Mütəllibov də **b**-nın qarşılığını **p** ilə verir. Təkcə اَب sözünü ***ab*** yazmışdır.

Ümumiyyətlə, bütün tərcümələrdə baş sözlərin qarşılığının verilməsində hər dilin özünəməxsus qanunları tətbiq edildiyi müşahidə olunur. Məsələn, Auezova **ج** hərfi üçün **c** səsini bildirən **j** tətbiq edir.[112] Hətta ən mükəmməl nəşr sayılan Bəsim Atalayın tərcüməsində sözlərin transkripsiyası zamanı bəzi **ğe**lər **ge** ilə, **ge**-lər **ğ** ilə, **sağır nun** isə **nğ** ilə verilmişdir ki, bu da cağdaş turkcədə **ğe** hərfinin oxunmaması ilə bağlıdır və məcburiyyətdən doğmuşdur.[113]


1930-cu illərdə AMEA-nın Dilçilik İnstitutunda "Divan"ın Azərbaycan dilinə tərcüməsinin əlyazmasında "rəngdə təkid bildirən" **ub** (اُب ) əvvəl **up** kimi verilmiş, sonra 16.08.1939 tarixində professor S.M.Malov və A.Kononov tərəfindən redaktə edilərək **op**, daha sonra isə **p** silinərək **b** yazılmış, sonra yenidən pozulmuşdur. Bu o deməkdir ki, **bə** hərfinin **p**, yoxsa **b** ilə verilməsi arasında tərəddüd olmuşdur (bax: Şəkil 2). اُب اُب sözü üçün tərcüməçilərimiz **b** samitini işlətmişlər: **ub-ub**; redaktədə saiti dəyişdirilərək **ob-ob** ilə əvəzlənmişdir.

[112] Махмуд аль-Кашгари. Диван Лугат а-Турк / Перевод, предисловие и комментарии З.А.М. Ауэзовой. Индексж составлены Р.Эрмерсом. – Алматы: Дайк-Пресс, 2005 -1288 с. + 2 с. вкл., s. 188.

[113] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Dörd cilddə. Bakı, "Ozan", 2006. I cild, s. 46.



*Şəkil 2. "Divanu Lüğət it-türk" lüğətinin Dilçilik İnstitutunun kitabxanasında saxlanan 1939-cu il tərcüməsi. səh. 1 və 2.*



**Şəkil 1.** ***Mahmud Kaşğarinin "Divanu lüğət it-Türk" əsərinin faksimilesində səhifə 29.***

Kaşğari türk dillərində söz sonunda karlaşma qanunu belə izah edir: "Bunu da bilməlisən ki, bütün feillərdə kecmiş zaman şəkilçisi د + ي [di] vasitəsilə yaranır. Bu qayda əsla pozulmur. Yalnız sərt hərflər gəldiyi zaman məxrəcin şiddətindən

dolayı د d hərfi ت t-yə cevrilir və د + ي = ت + ي [-di=-ti] olur. Türk dilində dörd sərt hərf vardır: sərt pə (پاء), sərt tə (تاء), sərt çim (چيم) və sərt kəf (كاف). Sərt pə *təpti* (تبتى) "təpiklədi" sözündə olduğu kimidir. Tə hərfi تُتّى *tuttı*, cim (Kaşğari bu dəfə "cim" yazır – X.Heydərova) hərfi قَجْتِى *qaçti*, sərt ک kəf isə تفَى جُكتى *təfə çökti* "dəvə çökdü" sözündə olduğu kimidir. Qaf (ق) hərfi də sərt kəfin (كاف) ardınca sərt hərflər sırasına daxil olur. Məsələn, اُل مَنكا بَقْتى *ol maŋa baktı* (qaf-ın q səsi k-ya çevrilir – X.Heydərova) cümləsində olduğu kimi. Bu gördüyümüz sözlərdəki د /d/ hərfi yuxarıda söylədiyim kimi, məxrəcin şiddəti səbəbindən ت t-yə cevrilmişdir. Bu sözlərin əsli د /d/ ilədir. Ancaq ت /t/ ilə söyləmək daha şirindir.[114]

"Divan"da ك kəf hərfi eyni zamanda həm *k* (əkin), həm də *g* (əgin=əyin, əyin-baş) səslərini ifadə edir.

Kaşğarinin sözlərindən belə aydın olur ki, o, orfoepiyada karlaşmanın nəzərə alınmasını vacib bilir və amma söz daxilində sözlərə şəkilçilərin qoşulması zamanı karlaşmanı orfoqrafiyaya bəzən tətbiq edir, bəzən isə yox. Məsələn, Kaşğari تَبْدي [təbdi] "təpdi", سَبْدي [səbdi] "səpdi" feilində d hərfini t-yə çevirməyib. Lüğətdə ard-arda gələn جَكْدي [çəkdi] sözündə د d olduğu kimi qalıb, amma سُكْتي [sökti] feilində karlaşma göstərilib. Qeyd etmək lazımdır ki, Ziya Bünyadov Əbu Həyyanın qıpçaq dilinə həsr olunmuş "Kitab əl-idrak əl-lisan əl-ətrak" lüğətinin tərcüməsində bə ب hərfinin qarşılığını olduğu kimi **b** ilə vermişdir.[115]

Ümumiyyətlə, Kaşğarinin lüğətinin tərcüməsində transkripsiyanın tətbiqi, onun orfoqrafik və orfoepik cəhətlərinin göstərilməsi, zənnimizcə, daha düzgün olardı.

---

[114] محمد الكشغاري . كتاب ديوان لغات الترك. 322سنة هجرية. Basma nüsxə - Kilisli nəşri. II cild, s. 29-28.

[115] Bünyadov, Ziya. Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak (Türk dillərini dərketmə kitabı). Bakı: Azərnəşr, 1992. 115 səh., s. 23-28.

Bəsim Atalay öz tərcüməsində ərəb hərfləri ilə yazılmış türkcə baş sözlərin qarşılığını latın qrafikasında verərkən bir neçə hərf qəbul etməyə məcbur olduğunu qeyd edir: ڭ = nğ; ذ = dh; ڤ = w; ئه = e; خ = x; ج = ç; ب = p.[116]

Ramiz Əsgər ərəb hərflərinin transliterasiyası zamanı aşağıdakı hərfləri tətbiq etmişdir:

ق *ka* və ك *ke* = k; نك = nq sağır nun, nöqtəli غ ğ, ق qa ilə ک ke arasındakı yumşaq ge və ن n hərfinə bənzəyən; ذ = dh; ڤ = w; ژ = j, ز z ilə ش ş arasında olan (ژ bu hərf faksimiledə yoxdur, Kaşğari zə زاء hərfini göstərir[117] – X.Heydərova); ب = p; ج = ç.[118]

Salih Mütəllibovun tətbiq etdiyi transliterasiya: ب = п (p); ک = ķ k və q qovuşuğunu bildirən; ج = ј; ڤ = w; ذ = з bəzən /d/, bəzən isə /y/ səsi verən; ژ = ж z və j məxrəcləri arasında tələffüz olunan; نك = ң nq tələffüzü üçün.[119]

**ج = ç.** XIII əsrin abidəsi olan Krım qıpçaqlarının dilini əks etdirən "Kodeks Kumanikus" lüğətində qıpçaqların dilində **c** səsinin olmadığı, yalnız alınma sözlərdə təsadüf edildiyi haqqında qeyd var.[120] Əbu Həyyanın XIII əsrdə qələmə aldığı qıpçaq dilinə həsr olunmuş "Kitab əl-idrak li-lisan əl-ətrak" lüğətini Azərbaycan dilinə tərcümə etmiş Ziya Bünyadov da ج cim

[116] Dîvânü Lugati't-Türk. Çev. Besim Atalay. Ankara: Türk Tarih Kurumu Basımevi. 1985. Cilt I. 530 səh., I cild, s. XXXIII.
[117] Bax: Dîvânü Lugati't-Türk. Tıpkıbasım. "Faksimile". – Ankara: Alaeddin Kirsi Basımevi, 1941. – 638 səh., s. 6.
[118] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild, s. 59.
[119] Маҳмуд Қошғарий. Девону луғотит турк. Таржимон ва нашрга тайёрловчи С. Муталлибов. Т: Узбекистан Фанлар Академиси Нешрияты –1960. – Б. 149. I cild, s. 38.
[120] Bax: "Kodeks Kumanikus" başlığı, s. 133.

hərfinin qarşılığını ç ilə verir.[121] Əbu Həyyan lüğətində əlifba sırasını verərkən *tə*, *cim* və *dəl* ardıcıllığı vermişdir, yəni "cim"in yanında "çim" hərfi yoxdur. Eyni hərf ardıcıllığı Mahmud Kaşğaridə də müşahidə olunur.[122] Lakin XIII əsrin sonlarına aid İbn Mühənnanın "Kitabu hilyətül-insan və həlbətül-lisan" lüğətində hər iki samit verilmişdir: ج cim və چ çim.[123] Bütün bu deyilənlərə rəğmən, Kaşğari vurğulayaraq الجيم العربية "ərəbcə cim" yazsa da [124], **c** səsinin karlaşdığını qeyd edir.

Mahmud Kaşğarinin "oğuzlar və qıpçaqlar **yə** hərfi ilə başlayan bütün isim və feillərin ilk hərfini **əlif**, yaxud ج **cim** ilə əvəz edirlər" kimi bir qeydi də vardır.[125]

**ذ** = **ẑ.** "Divan"ın özbək dilinə tərcüməçisi Salih Mütəllibov bu hərfi /z/, Ramiz Əskər isə Bəsim Atalay kimi **dh** ilə vermişdir. Mahmud Kaşğari ذ zəl hərfinin tələffüzünü belə izah edir: "Çigil dilindəki ذ dh hərfi qərbdə Rum diyarına, şərqdə Çinə qədər uzanan butün yağma, toxsı, oğuz boyları ilə arğuların bəzilərinin dilində ذ /y/ olur. Rum ölkəsinə doğru uzanan qıpçaqlar və onlara uyanlar tərəfindən ذ zəl hərfi ذ /z/ kimi deyilir".[126] Akartürk Karahan Kaşğarinin əsərindəki ərəb əlifbasının ذ zəl hərfinin qaraxani yazı dilində dişarası pəltək /ḏ/ olduğunu göstərir. Kaşğari, d>y dəyişiminə uğrayan sözlər üçün bə-

---

[121] Bax: Bünyadov, Ziya. Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak (Türk dillərini dərketmə kitabı). Bakı: Azərnəşr, 1992. 115 səh., 30.

[122] Bax: محمد الكشغاري . كتاب ديوان لغات الترك. 322سنة هجرية. Basma nüsxə - Kilisli nəşri. I cild, s. 7.

[123] Bax: السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri, 1934, s. 73.

[124] Bax: محمد الكشغاري . كتاب ديوان لغات الترك. 322سنة هجرية. Basma nüsxə - Kilisli nəşri. I cild, s. 8.

[125] Bax: Son göstərilən əsər, I cild, s. 31.

[126] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild, s. 106.

zən *"zəl hərfini yə yapanların dilinə görə"* şəklində açıqlama verərək daha öncə bəhs etdiyi dialektlərə işarə etmişdir.[127]

Bildiyimiz kimi, transliterasiya zamanı mənbə dilin tələffüz xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Amma Kaşğarinin lüğətinin tərcüməsində tərcüməçilərin öz dil xüsusiyyətlərini əsas götürdüklərinin şahidi oluruq.

Əhməd Bican Ercilasun Qaraxani türkcəsinin fonetikasını aşağıdakı şəkildə müəyyənləşdirir: "Qaraxani türkcəsində 8 sait və 26 samit vardır: *a, e, ı, i, o, ö, u, ü, b, c, ç, d, diş arası d (dh), f, g, ğ, h, j, k, x, I, m, n, ŋ, p, r, s, ş, t, v, w, y, z*. Bəzi türkoloqlara görə, qaraxanicədə qapalı *ə* də vardır[128]. Samitlərdən *c, j, f, h, v* alınma sözlərdə təsadüf edilir (məs., *cəfa, hava, ajun, dövlət*)."[129]

Qaraxani türkcəsinin fonetik xüsusiyyətlərini və tərcüməçilərin tətbiq etdiyi transliterasiyanın doğruluğunu anlamaq üçün, yekun olaraq aşağıdakı cədvəli tərtib etmək qərarına gəldik.

| **Qədim Qaraxani türkcəsində olan samit fonemlər və tələffüz xüsusiyyətləri** | **Mahmud Kaşğarinin tətbiq etdiyi hərflər** | **Bəsim Atalayın tətbiq etdiyi transliterasiya** | **Ramiz Əskərin tətbiq etdiyi translitərasiya** | **Salih Mütəllibovun tətbiq etdiyi transliterasiya** | **Auezovanın tətbiq etdiyi translitərasiya** |
|---|---|---|---|---|---|

[127] Karahan, Akartürk. Karahanli Türkçesi Yazi Dili Hangi Lehçeye Dayaniyordu? Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 3/2 2014 s. 13-28, Türkiye. S. 18.

[128] Mansuroğlu, Mecdut, "Karahanlıca", Târîhî Türk Şiveleri (çeviren: Mehmet Akalın), Ankara 1979. Mansuroğlu 1979, s. 145.

[129] Ercilasun, Ahmet B. Başlangıcından Yirminci Yüzyıla Türk Dili Tarihi. Akçağ Yayınları / 603, Araştırma - İnceleme / 50. ISBN 975-338-589-7. Baskı I Ankara 2004. 488 səh., s. 349.

| | | | | | |
|---|---|---|---|---|---|
| b<br>*dodaq, kipləşən, cingiltili* | ب | p | p | п [p] | б |
| c<br>*dil-diş, kipləşən, cingiltili* | ج | ç | ç | ҷ [ç] | ж |
| ç<br>*dil-diş, kipləşən, kar* | | | | | ч |
| d<br>*dil-diş, kipləşən, cingiltili* | د | d | d | д [d] | д |
| *ẑ (z və d samitləri-nin movqeyində pəltək ẑ)*<br>*dişarası, sürtünən, cingiltili.* | ذ | dh | dh | з | ӡ |
| f<br>*dodaq, novlu, kar* | ف | f | f | ф [f] | ф |
| g<br>*dilortası, kipləşən, cingiltili* | ك yumşaq gaf ق (qaf) və ك (kəf) arası tə-ləffüz olunur | ğ | g | г [kx] | г |
| ğ<br>*dilarxası, novlu, cingiltili* | غ | ğ | ğ | ғ [ğ] | ғ |
| x<br>*dilarxası, novlu, kar* | خ | x | x | х [x] | ҳ |
| j | ژ | j | j | ж [j] | ж |

| | | | | | |
|---|---|---|---|---|---|
| *dil-diş, novlu, cingiltili* | | | | | |
| k *dilortası, kipləşən, kar* | ک kar kəf (کسدی kəsdi) | k | k | к [k] | к |
| q *dilarxası, kipləşən, cingiltili* | ق | k | k | к [q] | ӄ |
| l *dil-diş, novlu, sonor* | ل | l | l | л [l] | л |
| m *dodaq, kipləşən, sonor* | م | m | m | м [m] | м |
| n *dil-diş, kipləşən, sonor* | ن | n | n | н [n] | н |
| ŋ *dilarxası, sonor, kipləşən* | نک | nğ | nq | ң [nq] | ң |
| p *dodaq, kipləşən, kar* | ب | p | p | п [p] | п |
| r *dil-diş, novlu, sonor* | ر | r | r | р [r] | р |
| s *dil-diş novlu, kar* | س | s | s | с [s] | с |
| ş *dil-diş novlu, kar* | ش | ş | ş | ш [ş] | ш |
| t *dil-diş, kipləşən,* | ت | t | t | т [t] | т |

| | | | | | |
|---|---|---|---|---|---|
| *kar* | | | | | |
| w<br>*dodaq, novlu, cingiltili* | ڤ | w | w | w | в |
| y<br>*dilortası, novlu, cingiltili* | ى | y | y | й [y] | й |
| z<br>*dil-diş, novlu, cingiltili* | ز | z | z | з [z] | з |

Bu cədvəldə diqqətinizi "yumşaq gaf" (ك) hərfinə yönəltmək istərdik. Mahmud Kaşğarinin ق və ك arası tələffüz olunan "yumşaq gaf" (ك) adlandırdığı dilortası, kipləşən, cingiltili [g] səsi Bəsim Atalayda ğ[130], Ramiz Əskərdə g[131], Saleh Mütəllibovda isə q[132] kimi verilir. Özbək dilində [g] səsi olmadığına görə, Qq hərfi [kx] səsini ifadə edir.[133] Burada Ramiz Əskər doğru olaraq g verib. Amma bununla belə, sözlərin transliterasiyası zamanı buraxılan səhvlər diqqəti cəlb edir. Kəf (ك) hərfinin Qaraxani türkcəsində həm *k*, həm də *g* səsini ifadə etməsi Ramiz Əskərin tərcüməsində nəzər-diqqətə çatdırılsa da, nəyə görəsə *gəldi* (كَلْدى) əvəzinə *kəldi* yazılmışdır.[134]

[130] Dîvânü Lugati't-Türk. Çev. Besim Atalay. Ankara: Türk Tarih Kurumu Basımevi. 1985. Cilt I. 530 səh., 318 say, s.14.
[131] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild, 338 səh., s. 65.
[132] Маҳмуд Қошғарий. Девону луғотит турк // III-жилд. Таржимон ва нашрга тайѐрловчи С. Муталлибов. Т: Узбекистан Фанлар Академиси Нешрияты –1960. – Б. 149., s. 48.
[133] Bax: "Azərbaycanca – özbəkcə, özbəkcə – azərbaycanca" lüğət. Bakı "Savad" 2019. 506 səh., s. 19.
[134] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. II cild, 338 səh., s. 374.

Kaşğarinin lüğətinin əslində *qurğay* (قُرْغاي)[135] şəklində yazılan sözü Ramiz Əsgər *kur-ğay* vermişdir.[136] Qeyd etmək lazmdır ki, orta əsr Qaraxani türkcəsində q (ق) səsi olmuşdur[137]. Azərbaycan dilində də q səsinin varlığına rəğmən, Ramiz Əskərin birinci hecadakını *k* verməsi təəccüb doğurur. Bəsim Atalay Türkiyə türkcəsinin fonetik sistemində bu səsin yoxluğunu əsas götürərək *k* vermişdir. Onlardan fərqli olaraq Saleh Mütəllibov ĸ [q] transliterasiyasını tətbiq etmişdir.

Auezovanın tərcüməsində isə MDB ərazisində ərəbşünaslıq sahəsi üzrə qəbul edilmiş ümumi transliterasiya qaydaları tətbiq edilmişdir.

Zənnimizcə, bu, qaraxanicə olan sözlərin düzgün oxunuşunu dəqiqliyi ilə əks etdirmədiyinə görə, yanlış bir yanaşmadır. Ümumiyyətlə, türk mənşəli qədim əlyazmaların transliterasiyası zamanı mənbə dilin fonetik özəlliklərini olduğu kimi vermək vacib şərtlərdən biri olmalıdır. Bu zaman transliterasiya deyil, daha çox transkripsiya tətbiq edilməlidir.

## QIPÇAQ LÜĞƏTLƏRİ

XIII-XIV əsrlərdə tərtib olunmuş qıpçak dilinin tərcümə lüğətləri iki qismə bölünür:

a) Məmlüklər dövlətində tərtib olunmuş lüğətlər;

---

[135] Bax: محمد الكشغاري . كتاب ديوان لغات الترك. 322سنة هجرية. Basma nüsxə - Kilisli nəşri. II cild, s. 55.

[136] Bax: Göstərilən əsərdə, II cild, s. 375.

[137] Bax: İnce, Yılmaz. Tarihî Türk Lehçelerinde Ünsüzler. / Doktora Tezi. Elazığ – 2017, Sayfa: XXXV+409., s. 72-73.

b) Krım qıpçaklarının dilinə həs olunmuş "Kodeks Kumanikus" tərcümə lüğəti.

## MƏMLÜKLƏR DÖVRÜNDƏ TÜRK-QIPÇAQ LÜĞƏTLƏRİ

1250-ci ildə yaradılan Məmlüklər dövlətinin əhalisinin əksəriyyəti ərəblər olsa da, hakimiyyətə türklər başçılıq edirdi. "Rəsmi yazışmalarda ərəb dili istifadə olunurdu. Ordu və saray dili türk dilinin qıpçaq ləhcəsi idi, lakin oğuz ləhcəsi də işlənirdi".[138] Məmlüklərın dövlət siyasətinə görə, türklər yerli xalqdan təcrid olunmuş halda yaşayırdılar. "Əl-Mütasim Məmlüklər üçün Samarra şəhərini inşa etmiş, hatta yerli xalqla qarışıb assimilyasiya olmamaları üçün türk qızları gətirdib, onlara maaş bele kəsmişdi".[139]

Ərəb xalqının türk dilinə olan marağı və Məmlüklər dövründə (XIII-XV əsrlər) ərəb xalqına dil öyrətmək siyasətinin həyata keçirilməsi türk dilinin qrammatikası əsaslı lüğətlərinin yaranmasına gətirib çıxardı: Kitabu-l-idrak li-lisani-l-ətrâk", "Əd-Dürrətü-l-mudiyyəti fi-l-luğəti-t-türkiyyəti", "Ət-Töḥfətuz-Zekiyye fi-l-luğati-t-türkiyye", "Kitabi məcmui tərcümani türki və əcəmi və muğalı və farsi", "Əl-Kavaninü-l-külliyyə lizabti-l-luğatı-t-türkiyyə", "Kitabu bulğatu əl-müştaq fi lüğəti-t-türk va-l-kıpçak", "Balai-balan" (bal – "dil", balan – "canlı, canlandıran") lüğəti və s.

[138] Türk Ansiklopedisi (1976). "Memlûkler", XXIII. Cilt, s. 486-490, Ankara, Millî Eğitim Basımevi. S. 487.
[139] Kopraman, Yaşar. "Mısır Memlûkleri", Hasan Celal Güzel (Ed.)de, Türkler 5. Cilt, Ankara, Yeni Türkiye Yayınları-2002, say. 99-126, s. 99-100.

Məmlüklər dönəmində yazılan lüğətlərin ortaq spesifik xüsusiyyətləri vardır. "O zamanın dərsliklərində əvvəl isimlər, arxasından feillər və son olaraq şəkilçilərin verilməsi bir ənənə idi və bu kitablar dil dərsliyi olarak tanınırdı".[140] M.Rispakovanın fikrincə, Məmluk dövründə yazılan əsərlər cağatay türkçəsinə daha yaxındır və bu dil qıpçak, türkmən (oğuz) dialekt xüsusiyyətlərini də daşımaqdadır. Həmin dövrdə yazılan qrammatika və lüğətlərin əksəriyyəti standart dilə aiddir.[141]

## Əbu Həyyanın "Kitab əl-idrak li-lisan əl-ətrak" lüğəti

Əsuriddin Əbu Həyyan Məhəmməd ibn Yusif ibn Əli ibn Yusif ibn Həyyan (m.1256-h.745/m.1344) milliyyətcə ərəb olmuş, lakin Məmlüklər dövlətində (1250-1517), xüsusən yaşadığı və çalışdığı Qahirədə türk dilini bilməyin vacibliyini anlayaraq ərəblər üçün türk dili lüğətini yaratmaq qərarına gəlmişdir. Qrammatikanın, morfologiya və sintaksisin gözəl bilicisi olan Əbu Həyyan türk dilini bu baza əsasında asanlıqla dərk edərək türk qrammatikasının qanunauyğunluqlarını işləyib hazırlamış və beləliklə, türk dilçiliyi sahəsində dövrünün ən nüfuzlu aliminə çevrilmişdir. Əsərin ən gözəl xüsusiyyətlərindən biri ondadır ki, burada təkcə qıpçaq dili deyil, türkmən-oğuz, tatar, bulqar, uyğur və başqa dillər qarşılaşdırılır. Burada "ayrı-ayrı sözlərin qarşısında "qıpçaq" və "türkmən" (oğuz) sözləri ilə yanaşı, bu və ya digər sözün tatar, bulqar, toqsuba, uyğur, Türküs-

[140] Yusuf Sülükçü. 'Kitâb-ı Mecmû-ı Tercümân-ı Türkî ve Acemî ve Mugalî' Adlı Esere Yabancılara Türkçe Öğretimi Açısından Bir Bakış. International Journal of Language Academy Volume 4/3 Autumn 2016 p. 67/76, s. 71.

[141] Merim Ryspakova. Codex Cumanicus ile Kirgiz Türkçesi Arasinda Bir Karşilaştirma Denemesi. Yüksek Lisans Tezi. Ankara–2007, 255 say., s. 8.

tan dillərində necə işlənməsi və ya onun fonetik variantları da verilir".[142]

Əbu Həyyan türk dillərinin qrammatikasına beş əsər həsr etmiş, lakin çox təəssüf ki, bunlardan ikisi – "Kitab əl-idrak li-lisan əl-ətrak" (Türk dillərini dərketmə kitabı") və "Əd-dürrətü-l-mudiyyə fi-l-lüğati-t-türkiyyə" **(**Türk dilinin parlayan incisi) lüğətləri bizə məlumdur. P.M.Melioranski müxtəlif müəlliflərin əsərlərində Əbu Həyyanın "Zəhru-l-mulki fi nəhv-it-türki", "Əl-Əfalu fi lisani turki" və "Əd-Durrətul-mudiyyə fi-l-lüğəti-t-türkiyyə" kitablarının adlarının çəkildiyi barəsində məlumat verir. O, Əbu Həyyanı dövrünün böyük alimi hesab edərək göstərir ki, "Kitab əl-idrak li-lisan əl-ətrak" və "Əd-dürrətü-l-mudiyyə fi-l-lüğati-t-türkiyyə" əsərlərində əks olunmuş qıpçaq dili "Kodeks Kumanikus"un dilinə çox yaxındır.[143]

Dahi leksikoqraf "Kitab əl-idrak" lüğətini hicri tarixlə 712-ci ilin ramazan ayının 20-də (18 dekabr 1312-ci il) cümə axşamı yazıb bitirmişdir. Kitab klassik dilçilik əsərlərinə uyğun şəkildə üç hissədən ibarətdir: lüğət, sərf (morfologiya) və nəhv (sintaksis). Nüsxələrdə son iki qisim "Təsrif" (qrammatika) başlığı altında verilir. Şərhi ərəbcə verilmiş türk dilinin qrammatikası ərəb dilinin qrammatik qaydaları əsasında yazılmışdır. Lüğət qismi 2300 ədəd türk sözlərinin ərəbcə qarşılığını əhatə edir.

Əsərdə isim və feillər qarışıq şəkildə ərəb əlifbası sırasına uyğun tərtib edilmişdir. Burada sözün birinci hərfi üzrə ardıcıllıqla əlifba sırası ilə ikinci hərfi ilə birləşməsindən yaranan sözlər sıralanmışdır (məs., əlif bə ilə, əlif tə ilə, əlif sə ilə və s.). Lüğətin quruluşu ərəb leksikoqrafiyasının ənənələrinə əsasən

[142] Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak (Türk dillərini dərketmə kitabı). Tərcüməçi: Z.Bünyadov. B.: Azərnəşr, 1992. 115 səh., s.8
[143] П.М.Мелиоранский, Араб филолог о турецком языке. Санкт-Петербург,1900. 217 səh. s. IX-X.

söz köklərinin qəlib formalarının – təqalib üsulunun tətbiq edilməsi (bax: Ərəb lüğətçiliyində işlənən terminlər) yolu ilə tərtib edilmişdir. Ziya Bünyadov öz tərcüməsinin ön sözündə Əbu Həyyanın fikirlərinin böyük elmi əhəmiyyətini nəzərə alaraq olduğu kimi verir: "Söz bir, iki, üç, dörd və beşhərfli ("hərf" deyərkən "samit" nəzərdə tutulur – X.Heydərova) ola bilər. Birhərfli fətha, kəsra və damma (sait səslər – X.Heydərova) ilə hərəkələnə bilər." O, türk dilində ikihərflilərin 12 növünü göstərir, onlar da aşağıdakı qəliblər əsasında yaranır: SiS – *kim*, SüS – yüz, SəS – sən, SaSu – qapu, SiSi – biti, SuSa – buğa, SıSa – qısa, SuSu – busu, SoSu – tolu. Əbu Həyyana görə, üçhərfli sözlərin 26, dördrdhərfli sözlərin 33, beşhərfli sözlərin 23 növü vardır.[144]

Onun "Təsrif" (qrammatika) başlığı altında türk dilində işlənən səslər haqqında söylədiyi fikirlər diqqəti cəlb edir. Əbu Həyyan yazır ki, türk dilində 23 hərf var: həmzə, xalis bə, korlanmış bə (p səsini nəzərdə tutur – X.Heydərova), tə, xalis cim, korlanmış cim (ç səsini nəzərdə tutur – X.Heydərova), dəl, ra, zə, sin, şin, sad, ta, ğayn, qaf, xalis kəf, bədəvi gafi, ləm, mim, xalis nun, sərt nun (sağır nun nəzərdə tutulur – X.Heydərova), vav və yə. Əbu Həyyan qeyd edir ki, türk dilində işlənən bəzi sözlərdə bu hərflərdən başqası varsa, o söz türkcə olmayıb ayrı dildən götürüldüyünə işarədir. Məsələn, *axşam, faraman, küləf* və s.[145] Yəni bu sıralamada x və f səsləri yoxdur. O, ərəb dilində işlənən, lakin türk dilinə xas olmayan pəltək *zəl* (ذ) və *sə* (ث), xə (خ), kobud *dad* (ض) və *za* (ظ), boğaz samiti *ayn* (ع), fə (ف) hərflərini türk dili üçün müəyyənləşdirdiyi əlifba sırasından çıxarmış, ərəb dilində olmayan *pə* (پ), *çim* (چ), sağır nun

[144] Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak (Türk dillərini dərketmə kitabı). Tərcüməçi: Z.Bünyadov. B.: Azərnəşr, 1992. 115 səh., s.8-9.

[145] Son göstərilən əsərdə, s.165

(ڤ), gaf (گ) hərfərini artırmışdır. Əbu Həyyan göstərir ki, türk dillərinin çoxunda ərəb dilinə məxsus pəltək *zəl* (ذ) hərfi yoxdur, lakin belələrinə bulqar dilində rast gəlmək mümkündür. Ona görə də Ziya Bünyadovun tərtibatında ərəb əlifbası ilə yazılar verilmədiyindən qarşılaşdırma aparmağa çətinlik çəkirik. Əbu Həyyanın lüğətinin faksimilesinin də buraya daxil edilməməsi tədqiqatçılar üçün qaranlıq məsələlərin qalmasına gətirib çıxarır. Ümumiyyətlə, qədim əlyazmaların tədqiqatı əsərlərində faksimilenin kitaba daxil edilməsi əsas şərt olmalıdır. Əhməd Cəfəroğlunun tərtibatında bu problem olmadığına görə, axtardığımız suallara onun əsərində cavab tapa bildik. Buradan məlum olur ki, leksikoqraf cim (ج) hərfindən sonra birbaşa dəl (د) hərfinə keçir.[146]


Maraqlıdır ki, Əbu Həyyan ***x*** səsinin türk dilllərinə, o cümlədən qıpçaq dilinə xas olmadığını hesab etdiyi halda, Peter B. Golden Krım qıpçaqlarının dilinə həsr olunmuş "Kodeks Kumanikus" lüğətində əksinə, x səsinin qıpçaq dilində işlənən, ***c*** səsinin isə yad bir ünsür olduğu, yalnız alınmalarda rast gəlindiyini qeyd edir.[147] Mahmud Kağari isə türk dilləri üçün müəyyənləşdirdiyi ərəb əlifbasında *cim* (ج) və *xə* (خ) hərflərini saxlamışdır. Bununla belə, həm Əbu Həyyan, həm də Mahmud Kaşğarinin sözlərdə verdiyi *cim* hərfinin qarşılığı bütün tərcüməçilər tərəfindən ç ilə əvəz edilmişdir. Bax: Şəkil 1.[148]

[146] Bax: Caferoğlu, Ahmet. Abû Hayyan, Kitâb al-İdrâk li-lisân al-Atrâk, İstanbul, 1931, s.47

[147] http://vlib.iue.it/carrie/texts/carrie_books/paksoy-2/cam2.html

[148] Bünyadov, Ziya. Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak (Türk dillərini dərketmə kitabı). B.: Azərnəşr, 1992. 115 səh. s. 30.

**Şəkil 1.** ***Ziya Bünyadovun tərcüməsindən.***



Чим һәрфи

чи — аналыг
чиәт — пендир
чыбык — арха, дал
чапаг — көз гапағы
чүпрәк — палтар
чапты — бир дәфәдә һәм вурду вә һәм дә кәсди
чүпүр — чирклы шеі

Bəsim Atalayın tərtibatında: جَبْ جَبْ [cəb cəb] çap çap (qamçı vurularkən çıxan səs və ya dodaq şappıltısı), جِبْ [cıb] çıp (şərabın tortası, hər şeyin çöküntüsü); جُبْ [cöb] çöp (incə və yumşaq budaq);[149]

Ramiz Əskərin tərtibatında: جَر [cər] çər (üz-üzə), جِر [cər] çır (paltarın cırılmasından, paltar cırmaqdan cıxan səs); جُر [cur] cür (mənfəət); جُر جُر [cür cür] çür-çür (sağılarkən südün qabda cıxartdığı səs).[150]

Salih Mütəllibovun tərtibatında: اجِلْدی açlındı (açıldı).[151]

Əbu Həyyan türk dillərinə xas səs əvəzləmələrindən danışır və lüğətdə yeri gəldikcə qeyd edir: d/t (dəmur-təmur, diz-

[149] Dîvânü Lugati't-Türk. Çev. Besim Atalay. Ankara: Türk Tarih Kurumu Basımevi. 1985. Cilt I. 530 səh., s. 318.

[150] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. I cild, s.338.

[151] Маҳмуд Қошғарий. Девону луғотит турк // III-жилд. Таржимон ва нашрга тайѐрловчи С. Муталлибов. Т: Узбекистан Фанлар Академиси Нешрияты –1960. – Б. 149, s. 256.

tiz), b/m (gömgög-göbgög, yamyaşıl-yabyaşıl), z/s (toqsan-toqzan); y/z (azaq – ayaq, uzudu – uyudu), ğ/v (oğul, ovul) və s.

"Kitab əl-idrak li-lisan əl-ətrak" lüğətinin 3 nüsxəsi məlumdur:

1) Türkiyədə İstanbul Beyazit Yazma Əsərlər Kitabxanasının Vəliyyüddin Əfəndi bölümündə 2896 nömrəsi altında qeydə alınmışdır (mətndə V. işarəsi ilə ifadə olunmuşdur). Bu əlyazma əsərin yazılışından 23 il sonra 15 şaban 735-ci ildə (13 fevral 1335) köçürülmüşdür və 132 səhifədən ibarətdir. Katibin adı məlum deyildir, lakin sonradan buraya yanlış olaraq yeni hərəkələr əlavələr edilmiş, hətta başqa bir türkcə-ərəbcə lüğət və qrammatik mətin sətirlər arasına, səhifə arası boşluqlara doldurulmuşdur.[152]

2) İstanbul Darul-Fünun kitabxanasının Xalis Əfəndi əlyazmalar bölümündə 3856 nömrəli nüsxəsi (mətndə D. işarəsi ilə ifadə olunmuşdur). Hicri tarixlə 805-ci ilin 4 cəmadəl-əvvəl (30 Kasım 1402) ayında Əhməd İbni Şafi adlı katib tərəfindən üzü köçürülmüşdür. Lüğət 194 səhifədən ibarətdir. Katibin nə ərəb, nə də türk dilindən kifayət qədər savadı olmadığı məlum olur. Çünki burada xüsusən türk sözləri çox yanlış hərəkələnmişdir.[153]

3) Qahirədə Daru-l-kütub vəl-Vəsaiqül-Qövmiyyə (Milli Vəsiqələr Kitabxanası) kitabxanasında qorunur. Burada əsərin müəllifi Əhməd Kasif olaraq qeyd olunmuşdur. V nüsxəsinə çox bənzəyən bu əlyazmada lüğət qismi əksikdir – 39 səhifədən ibarətdir. Qrammatika hissəsi isə 42 səhifədir.

"Kitab əl-idrak li-lisan əl-ətrak" lüğətinin ilk nəşri 1891-ci ildə Selanikli Mustafa Əfəndi tərəfindən İstanbulda həyata keçirilmişdir. Üzərində aparılan ilk elmi araşdırma isə Əhməd

[152] Caferoğlu, Ahmet. Abû Hayyan, Kitâb al-İdrâk li-lisân al-Atrâk, İstanbul, 1931. S. VII.
[153] Göstərilən əsər, s. VIII.

Cəfəroğluna aiddir: Ahmet Caferoğlu, Abu Hayyan, Kitâb al-İdrâk li-lisân al-Atrâk, İstanbul 1931.

Bu əsərin Azərbaycan dilinə tərcüməsi Ziya Bünyadova məxsusdur və 1992-ci ildə çap olunmuşdur. Çox təəssüf ki, bu nəşrdə Əbu Həyyanın lüğətindəki sözlüyün ərəbcə orijinal yazılışı öz əksini tapmamışdır. Bu isə tədqiqatçılar üçün çətinlik yaradır.

Daha bir tədqiqat Robert Ermers tərəfindən aparılmışdır: *Arabic Grammars of Turkic, The Arabic Linguistic Model Applied to Foreign Languages and Translation of Abû Hayyân al-Andalûsî's Kitâb al-İdrâk li-lisân al-Atrâk* Brill: Leiden- Boston-Köln 1999. Ən son çalışma isə A. Melek Özyetginə aiddir: *Ebû Hayyân-Kitâbu'l-İdrâk li Lisâni'l-Etrâk- Fiil: Tarihî-Karşılaştırmalı Bir Gramer ve Sözlük Denemesi,* Köksav, Ankara 2001.

## "Əd-dürrə əl-mudi'ə fil-lüğa ət-türkiyyə" ( الدرة المضيئة في اللغة التركية) lüğəti (XIV əsr)

Məmlüklər dövründə türk dilini öyrətmək məqsədilə Əbu Həyyan tərəfindən yazılmış əsərlərdən biridir. Ahmet B. Ercilasun bu əsərin yazılma tarixi və müəllifinin məlum olmadığını söyləyir.[154] Amma P.M.Melioranski İbn Muhammed Salihin "Əş-şüzur əz-zəhəbiyyə" əsərində ( الشذور الذهبيّة و الفطع الاحمديّة في اللغة التركية) Əbu Həyyana məxsusluğunu vurğuladığı "Əd-durrətul-mudiyyə fi-l-lüğəti-t-türkiyyə" adlı kitab barəsində məlumat verdiyini göstərir. Hətta burada Molla Salihin bir qeydi də

[154] Ercilasun, Ahmet B. Başlangıcından Yirminci Yüzyıla Türk Dili Tarihi. Akçağ Yayınları / 603, Araştırma - İnceleme / 50. ISBN 975-338-589-7. Baskı I Ankara 2004. 488 səh., s. 394.

əks olunmuşdur ki, Əbu Həyyanın "Əd-durrətul-mudiyyə" (الدرة المضيئة) əsərində haqqında bəhs etdiyi "tatari" (تترى) dialekti Kufə (كفه) şəhəri əhalisi arasında və ümumiyyətlə "tatar torpağında", yəni Krımda öz varlığını qoruyub saxlayır.[155] 1963-cü ilin oktyabr ayında Florensiyanın "Bibliotheca Medicea Laurenziana" kitabxanasında işləyərkən adıçəkilən lüğəti tapmış polyak şərqşünas-türkoloq A.Zayonçkovski bu əsərlə bağlı yazır: "Əsərin eyni əsər və müəllifin eyni müəllif (Əbu Həyyan əl-Qərnati və Əbu Həyyan ən-Nəhvi eyni şəxsdirmi) olması və ya eyniadlı müxtəlif əsərlər olması məsələsi xüsusi tədqiqat tələb edir." Akademik Ziya Bünyadov Əbu Həyyan əl-Qərnati ilə Əbu Həyyan ən-Nəhvinin eyni adam olması qənaətində olduğunu bildirərək bu əsərin "Kitab əl-idrak li-lisan əl-ətrak" lüğətindən sonra yazıldığı ehtimalını da irəli sürür.[156]

Əsərin günümüzə qədər gəlib çatmış nüsxəsi naməlum tarixdə Hüsrəv ibn Abdullah tərəfindən köçürülmüşdür və Florensiyadakı "Biblioteca Medicea Laurenziana" kitabxanasında *Orient 130* nömrəsi ilə qeydiyyatda olduğu bildirilir. Lakin təəssüf ki, kitabxananın vebsaytında[157] biz həmin nömrə ilə başqa əsərin qorunduğunu öyrəndik.

Lüğəti elm aləminə ilk məlum edən əslən kəraim türklərindən (yəhudi Krım türk xalqı) olan polşalı şərqşünas-türkoloq Ananias Zayonçkovski olmuşdur. O, bu əsəri 1963-cü ilin sentyabr ayında İtaliyanın Venesiya şəhərində keçirilən "II Beynəlxalq türk sənətləri" konqresində iştirak etdiyi zaman "Biblioteca Medicea Laurenziana" kitabxanasında tapmışdır. Əsərin daha geniş adı "Əd-dürrə əl-mudi'ə fil-lüğa ət-türkiyyə alət-tə-

[155] Вах: П.М.Мелиоранский, Араб филолог о турецком языке. Санкт-Петербург,1900. 217 səh. s. IX-X.
[156] Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak (Türk dillərini dərketmə kitabı). Tərcüməçi: Z.Bünyadov. B.: Azərnəşr, 1992. 115 səh., s.5.
[157] http://mss.bmlonline.it/?&search=Orient%20

mam vəl-kəmal"dır ( كتاب الدرة المضية في اللغة التركية على التمام والكمال). Əlyazmanın üz qabığında isə belə yazı əks olunmuşdur: "Gecə və gündüzün davam etdiyi müddətdə türk dili üçün tam və mükəmməl şəkildə parlayan inci. Kömək Allahdandır. Doğru yola yalnız Allah çatdıra bilər." Əsərin həcmi 24 vərəqdir.

"Türk dilinin parlayan incisi" mənasını verən bu lüğət tematik prinsiplə tərtib olunmuşdur və 24 fəslə bölünür: Allah, göy və yerdəkilər, sular, gözəl qoxulu bitkilər, meyvələr, ağaclar və s. anlayışların hər biri bir fəsil əmələ gətirir.

1. Uca Allah, göy və göydə olanlarla yer və yerdə olanlar (152 söz);
2. Sular (75 söz);
3. Gözəl qoxulu bitkilər (9 söz);
4. Meyvələr (39 söz);
5. Ağaclar (17 söz);
6. Dənli bitkilər (21 söz);
7. Yeməklər (46 söz);
8. Ev heyvanları (18 söz);
9. Vəhşi heyvanlar (42 söz);
10. Minik heyvanları (25 söz);
11. Qoşqu alətləri (32 söz);
12. Rənglər (17 söz);
13. Sürünənlər və böcəklər (22 söz);
14. Alətlər (91 söz);
15. Savaş alətləri (34 söz);
16. Quşlar (39 söz);
17. Geyim əşyaları (33 söz);
18. Bədən üzvləri (79 söz);
19. İnsanın xüsusiyyətləri və rəngləri (58 söz);
20. Türkcə saylar (153 söz);
21. Məslək adları (31söz);
22. Türk kişi adları (31 söz);

23. Türk qadın adları (7 söz);

24. Danışıq cümlələri (222 cümlə).

Göründüyü kimi, "Türk dilinin parlayan incisi" əsərində feillərə yer verilməmişdir. Sadəcə isimlər mövzular üzrə qruplar şəklində əks olunmuşdur. Sonuncu 10 səhifə məhz danışıq lüğətidir. Burada 220 qısa cümlə və anlam verilmişdir. Əsər bu bölümü ilə bütün digər türk dilinə həsr olunmuş lüğətlərdən fərqlənir. Ərəbcə sözlər və frazeoloji birləşmələr qara mürəkkəblə üst sətirdə, türkcə yazılar qırmızı mürəkkəblə alt sətirdə yazılmışdır. Əsər başdan ayağa hərəkələnmişdir. Bu cümlələrdən bəziləri aşağıdakı şəkildədir:

| | |
|---|---|
| Sen Türkişe bilürmisen? | Sən türkcə bilirsənmi? |
| Evet bilür men. | Bəli, bilirəm. |
| Sen Taŋrıdan ḳorḳumassen. | Sən Tanrıdan qorxmazsan. |
| Kel menim (menüm) ḳatumda. | Gəl yanıma |
| Men senden yetişir men. | Mən səni eşidirəm.[158] |

2003-cü ildə Rəcəb Toparlı əsərin tərcüməsini və faksimilesini nəşr etdirmişdir.

## "Kitabi Mecmuyi tərcümani türki və əcəmi və moğali və farsi" lüğəti

Xəlil ibn Muhəmməd əl-Konəvi adlı bir konyalı türk tərəfindən üzü köçürülən bu lüğətin müəllifi məlum deyildir. Həm lüğət, həm də qrammatika kitabı olan "Kitabu məcmuyi tərcümani türki və əcəmi və muğalı və farsi" (كتاب مجموع ترجمان تركى و عجمى و مغولى و فرسى) əsərinin yalnız bir nüsxəsi vardır və Hollandiyanın Leiden Akademiyasının kitabxanasında *Or. 517: 1* şrifti altında qorunur. "Tərcüman"ın ilk tədqiqatçısı olmuş

[158] Son göstərilən əsər, s. 30.

Martin Theodor Houtsman belə hesab edir ki, lüğətin Hollandiyanın Leiden kitabxanasında saxlanan əlyazması hicri 643, yəni 28 yanvar 1245-ci ildə yazılmışdır. Sonrakı tədqiqatçılar onun fikrini təkrarlasalar da, Barbara Flemminq bu tarixə 1343-cü il ilə düzəliş edilməsinin vacibliyini göstərir.[159] Çünki 62b səhifəsində olan kolofona görə, əsər hicri tarixlə Şaban ayının 27-i 743-cü ildə (25 yanvar, bazar günü, 1343) Xəlil ibn Mühəmməd ibn Yusuf al-Qonəvi tərəfindən tamamlanmışdır. Lakin Qonəvinin əsərin müəllifi olub-olmaması sual altındadır.

Əsərin adı fars dilindədir. Giriş (1b-5a) hissəsi isə ərəb dilindədir və 5a-35a səhifələrində qıpçaq türkcəsinin fonetik xüsusiyyətlərinə və məzmununa dair ətraflı məlumatları əks olunmuşdur. Hər səhifəsi 13 sətirdən ibarət olan bu əsərdə qırmızı və qara mürəkkəbdən istifadə olunmuşdur. "Tərcüman"da türk sözləri qırmızı mürəkkəblə yazılmışdır və hərəkəlidir.

Lüğət qisimlərə, qisimlər isə fəsillərə ayrılır:

I Qisim: 35a-46b səhifələrində isimlər verilir. Burada "1110 ismin və yeri gəldikcə 18 feilin mənaları izah edilmişdir".[160]

İsimlər mövzular üzrə (tematik prinsiplə) 26 kateqoriyada (fəsillərdə) sıralanmışdır:

1. Yüksəklik və onunla bağlı isimlər;
2. Yer və yerdə olanlar;
3. Su və su ilə əlaqəli məfhumlar;
4. Ağac, meyvə, bitki və s.;
5. Əkinçilik və dənli bitkilər;
6. Quşlar;

[159] Ein alter Irrtum bei der chronologischen Einordnung des Targuman turki wa agamı wa mugali. Der Islam XLIV, 226-229.

[160] Yusuf Sülükçü. 'Kitâb-ı Mecmû-ı Tercümân-ı Türkî ve Acemî ve Mugalî' Adlı Esere Yabancılara Türkçe Öğretimi Açısından Bir Bakış. International Journal of Language Academy Volume 4/3 Autumn 2016 p. 67/76, s. 73.

7. Vəhşi heyvanlar;
8. Həşaratlar;
9. At cinsləri, rəngləri və s.;
10. Silah, at ve savaş alətləri;
11. Dəvə və mal-qara;
12. Qoyun və keçi;
13. Yemək-içmək, süd və süd məhsulları;
14. Ev əşyaları, qadınlara məxsus geyimlər və s.;
15. Geyim və parça növləri;
16. İnsanın bədən üzvləri və daxili orqanları;
17. Say və hesab;
18. Muğam və ifaçıları;
19. İnsanların xüsusiyyətləri;
20. Ümumi isimlər və sinonimləri;
21. Vaxt və zaman;
22. Padşah və onun arvadı haqqında işlənən adlar;
23. Rənglər;
24. Mədənlər;
25. Qohum-əqrəba, yaxın, tanış-biliş, qul və cariyələr;
26. Xəstəliklər və şeytan[161]

II Qisim: 46b-53b səhifələrində əmr şəklində olan feillərin məsdərləri və əmr şəklini əks etdirir. Bu bölgüdə 455 feil və yeri gəldiyi üçün 14 isim yer almışdır.[162]

"Tərcüman"da əmr şəkli II şəxsin təkini bildirmək üçün -*ġıl/-gil, -ḳıl* şəkilçisinin üç növündən bəhs edildə də, sözlərin türkçəyə tərcüməsində dörd şəklindən (*-ġıl/-gil, -ḳıl/-kil*) istifadə olunduğu görünür:

[161] Toparlı, Recep. Ed-Dürretü'l-Mudiyye Fi'l-Lugati't-Türkiyye, Ankara: Türk Dil Kurumu Yayınları. 2003. S. 3-4.
[162] Sülükçü, Yusuf. 'Kitâb-ı Mecmû-ı Tercümân-ı Türkî ve Acemî ve Mugalî' Adlı Esere Yabancılara Türkçe Öğretimi Açısından Bir Bakış. International Journal of Language Academy Volume 4/3 Autumn 2016 p. 67/76. S. 73.

**yapın-ġıl** et, çat;
**tapu it-kil** xidmət et
**bur-gil** ip bük
**çaḳ-ḳıl** çax. 'birisini cadugərliklə məşğul olması ilə bağlı şikayet et' anlamına gəlir;[163]

Kitabın digər bir özəlliyi feillərin bir işin baş vermə sırasına görə düzülməsidir:

**ek-kil** – ək, əkin ək;
**biç-kil** – biç (parça ve qılıncla əlaqəlidir).
**un tart-ġıl** – un üyüt. **Üyüt-kil** də deyilir;
**ele-gil** – et, elə;
**yoġur-ġıl** – xamır yoğur;
**yap-ḳıl** – çörək bişir. **"Qapını ört"** və **"bina tik"** mənalarında da işlənir.
**avla-gil** – ovla;
**boġuzla-ġıl** – boğazını üz, kəs;
**şoy-ġıl** – soy.

**ḳayıt-ḳıl** – rədd et, rəddini ver;
**ḳaytur-ġıl** – geri qaytar, döndər geri.

**zindânla-gil** – həbs et, zindana sal;
**şalıber-gil** – burax, azad et


III Qisim: 53b-62b səhifələrində isimlərin hallanması və feillərin şəxsə və zamana görə təsriflənməsi verilmişdir. Burada təsriflənən feillər haqqında məlumat verməklə yanaşı, bu feil növlərinin hansı şəkilçilərdən əmələ gələ bildiyi də izah edilir, əmr şəkli, şühudi keçmiş zaman, gələcək zaman və indiki zaman haqqında qısa informasiya verilir;


[163] Toparlı, Recep. Ed-Dürretü'l-Mudiyye Fi'l-Lugati't-Türkiyye, Ankara: Türk Dil Kurumu Yayınları. 2003. S. 54.

IV Qisim: İsimlərin morfoloji quruluşu, əvəzliklər, ədatlar və şəkilçilərdən bəhs olunur.

63b-67b səhifələrində monqolca-əcəmicə (farsca) lüğət verilmişdir.

Lüğətin bölmə və fəsil adlarının yazılışında vahid sistem müşahidə olunmur. 63b səhifəsində ərəb dilində yazılır ki, bu, monqolca-əcəmicə kitabdır. 64a-da farsca "İnsan üzvləri babı", 65a səhifəsində yenə farsca "Qohumlar babı" və "Bir şeyin adını çək babı" başlıqları verilir. 65b-də "Yemək, içmək və qeyriləri babı" əks olunmuşdur.





***"Kitabu məcmuyi tərcümani türki və əcəmi və muğalı və farsi" 63b səhifəsi. Monqolca-əcəmicə lüğət qismi.***

***Hollandiyanın Leiden Akademiyasının kitabxanasında MS Leiden Or. 517 şifrəli əlyazma.***

67b-74b səhifələrində ərəbcə-monqolca sözlərin siyahısı verilmişdir. Başlıqdan aydın olur ki, ("On üçüncü qisim") sonuncu hissə fərqli bir işdən köçürülmüşdür. Çünki başlıq artıq fars dilində deyil, ərəb dilindədir, "bab" sözü "qisim" ilə əvəz edilmişdir və ərəb dilində 13 rəqəmi ilə nömrələnmişdir. 68b-69a səhifələri "On dördüncü hissə" vəhşi heyvanların adları; 68b "On beşinci hissə", quşların adları; 69a "On altıncı hissə", bədən mayeləri və "On yeddinci hissə", həşəratlar haqqında; 69b səhifəsində "On səkkizinci hissə" xəstəliklər, "On doqquzuncu hissə" rənglər və "İyirminci hissə" qohumlar haqqındadır; 70a "İyirmi birinci hissə" rəqəmlərə həsr olunmuşdur; 70b "İyirmi

ikinci hissə" zərflər və əvəzliklər. 71b səhifəsində 11 ismi feillərin əlifba siyahısını ehtiva edən bir "fəsil" (bab) başlayır.



***75a səhifəsindən bir fraqment.***

Türk dili 74b və 75a səhifələrində monqolca qarşılığı ilə əks olunmuşdur. Burada *ay toğdi, gün doğdi* kimi cümlələr, *Altunxatun, Gümüşxatun, Ayxatun, Günxatun* kimi türk qadın adları yazılmışdır.

75a və 75b-də monqol dilində ekvivalentləri olan bir sıra qısa ərəb cümlələri, 76a səhifəsində isə hansısa şah Cəmaləddinə həsr olunmuş türkcə poemadan misralar verilmişdir. 76b-də ərəb dilində dualardan fraqmentlər əks olunmuşdur.



*68b səhifəsi. 15-ci hissə "Quşların adları"*

Əsərdə ümumilikdə 1597 türk sözü baş söz olaraq əks olunmuşdur. Giriş hissəsində hərflərdən bəhs edərkən ərəb dilinə məxsus pəltək sə ( ث), boğaz samiti ayn ( ع) və kobud dad (ض ) səslərinin "xalis qıpçak türk dili"ndə olmadığı göstərilir. Daha sonra "xalis türk dili" ilə "türkmən dili"nin (oğuz dili) fərqləri araşdırılır.[164] Ayrıca olaraq "türkmən dilində belə deyilir" qeydi ilə 89 leksik vahid izah edilir. Digər türk dili kitablarında olduğu kimi, burada da gülüş hədəfinə çevrilməmək, üz-

[164] Ercilasun, Ahmet B. Başlangıcından Yirminci Yüzyıla Türk Dili Tarihi. Akçağ Yayınları / 603, Araştırma - İnceleme / 50. ISBN 975-338-589-7. Baskı I Ankara 2004. 488 səh., s. 388.

lərinə söylənərkən anlamaları üçün vulqar sözlərin izahları verilmişdir.[165]

"Tərcüman" lüğəti ilk dəfə 1894-cü ildə Martin Theodor Houtsma (Ein türkisch-arabisches Glossar) tərəfindən nəşr edilmişdir. Burada türk sözlərinin almanca qarşılığı da verilmişdir. "Tərcüman" üzərində ikinci tədqiqat A.K.Kuruşyanova məxsusdur: "Исследование по лексике старокыпчакского письменного памятника XIII века", Alma Ata 1970. Son olaraq "Tərcüman" Recep Toparlı, Sadi Çögenli və Nevzat H. Yanık tərəfindən işlənmişdir: "Kitâb-ı Mecmû-ı Tercümân-ı Türkî ve Acemî ve Mugalî", TDK, Ankara 2000. Bu tədqiqatda əsərin əsli, daha sonra isə tərcüməsi verilmiş və bütün türk sözləri əlifba sırası ilə düzülmüşdür. Lüğətin monqolca qismi isə N. Poppe tərəfindən hazırlanan "Das Mongolische Sprachmaterial einer Leidener Handschrift" adlı tədqiqat əsərində tərcümə edilmişdir.

## "Ət-Töhfətü-z-Zəkiyye fi lüğəti-t-türkiyyə" ( التحفة الزكية في اللغة التركية) ərəbcə-türkcə lüğəti

XV əsrin əvvəllərində Məmlüklər dövründə yazılmış bu əsər qıpçak dövlət dilini əks etdirir və ərəblərə türk dilini öyrətmək məqsədilə tərtib olunmuşdur. Lüğətin ön sözündə müəllif bildirir: "Bu kitabda qıpçak dialekti üzərində dayandım, çünki ən çox istifadə olunan dil qıpçaq dilidir. Burada türkmən dia-

[165] Sülükçü, Yusuf. 'Kitâb-ı Mecmû-ı Tercümân-ı Türkî ve Acemî ve Mugalî' Adlı Esere Yabancılara Türkçe Öğretimi Açısından Bir Bakış. International Journal of Language Academy Volume 4/3 Autumn 2016 p. 67/76. S. 76.

lektini sığışmadıqca yazmadım".[166] Bəsim Atalay "Ət-Töhfətü-z-Zəkiyyə" əsərinin "Divanü lüğət it-türk" və "Kitab əl-idrak" lüğətlərindən sonra bütün bənzərləri arasında birinci yerdə durduğunu vurğulayır.[167] İlk yazılma tarixi və müəllifi məlum olmasa da, əlyazmanın ilk səhifəsinin kənarına yazılmış "829" qeydinə əsasən demək olar ki, bu əsər miladi tarixlə 1425-ci ildən əvvəl qələmə alınmışdır. Başındakı və sonundakı bəzi işarələrdən Misirdə yazıldığı məlum olur.

"Ət-Töhfətü-z-Zəkiyyə fi-l-lüğət it-türkiyyə" lüğətinin yeganə nüsxəsi İstanbulda Bəyazid Kitabxanası Veliyüddin Efendi bölümündə 3092 nömrəsi ilə qeydiyyatdadır. Əlyazma o dövrdə "abadi" adlanan kağız materialı üzərində yazılmışdır. 91 vərəqdən ibarətdir. Hər səhifədə 13 sətir, hər sətirdə 7 söz vardır. Əsər iki hissəyə ayrılır. Birinci hissədə 78 səhifəlik lüğət yerləşir, ikincidə isə morfologiya və sintaksisdən bəhs edən 6 səhifəlik qrammatika verilir. Ərəbcə baş sözlər əlifba sırası ilə düzülmüş, hər hərfdə əvvəl isimlər, sonra feillər və bunların türkcə qarşılıqları verilmişdir. Hər bir ərəb sözünün qarşısına üç-dörd türk sözü yazılmışdır. "Əsərdəki türkcə sözlərin sayı 3000-ə yaxındır. Türk feil köklərinin 977-si sadə, 96-sı mürəkkəbdir".[168] Ərəb sözləri qara, türkcə olanlar isə qırmızı mürəkkəblə yazılmışdır.

Robert Ermers belə hesab edir ki, Əbu Həyyanın lüğəti "Ət-Töhfətü-z-Zəkiyyə" əsəri üçün birbaşa mənbə rolunu oynamışdır. Çünki burada onun qrammatik şərhlərinin təkrarını görmək mümkündür.[169]


---

[166] Atalay, Besim. Ettuhfet-üz-Zekiyye Fil-Lûgat-it-Türkiyye, İstanbul: TDK Yay. 1945. 431 say., s. 3.

[167] Bax: Son göstərilən əsər, s. XI.

[168] Son göstərilən əsər. s. XV.

[169] Robert Ermers. The Arabic Linguistic Model Applied to Foreign Languages & Translation of 'Abū ḥayyān Al-'Andalusī's Kitāb al-'Idrāk li-Lisān al-'Atrāk. 1999, 435 pages. s.45.




***"Ət-Töhfətü-z-Zəkiyye fi lüğəti-t-türkiyyə" ərəbcə-türkcə lüğəti***

Belə bir yanaşma səthi analiz təsiri bağışlayır. Əslində "Ət-Töhfətü-z-Zəkiyyə" əsərinin müəllifi girişdə çox hörmətlə Əbu Həyyanın adını çəkir və ondan qrammatik kateqoriyalarla

bağlı sitat gətirir.[170] Lakin "..baş sözlərin sıralanması, qaynaq dil – hədəf dil vəziyyəti, başqa dilçilik mövzularının və izahlarının olması onlar arasında fərqlilik yaradır".[171]

"Kitab əl-idrak" lüğətində türk sözləri ərəb əlifbası sırası ilə sıralandırılmış və ərəbcə qarşılığı verilmişdir. "Ət-Töhfətü-z-Zəkiyyə"də isə əksinə, ərəb sözləri baş söz olaraq götürülmüş, türkcə ona qarşılıq verilmişdir. Burada əlifba sırası tətbiq edilsə də, bu, tematik prinsip üzrə həyata keçirilimişdir, – hər hərfdə isimlər öndə, feillər isə ardından gəlir. Bunun əksi olaraq "Kitab əl-idrak"da isimlər və feillər qarışıq, kök samitlər əsasında əlifba sırası ilə düzülmüşdür. "Kitab əl-idrak"da sözlərin sıralandırılmasında birincidən sonra ikinci və üçüncü hərflərinə diqqət edilmişdirsə, "Ət-Töhfətü-z-Zəkiyyə"də buna əhəmiyyət verilməmişdir.

"Ət-Töhfətü-z-Zəkiyyə" lüğətində Misir qıpçaqcasının xüsusiyyətləri öz əksini tapmışdır. Müəllif bəzən, yeri gəldikcə, "türkmənlər deyirlər" şəklində müqayisə aparır. Amma Əbu Həyyanın lüğətində bir çox türk dialektləri təqdim edilir (bax: "Əbu Həyyanın "Kitab əl-idrak li-lisan əl-ətrak" lüğəti" paraqrafı). Misir qıpçaqcasının bəzi xüsusiyyətləri diqqəti cəlb edir:

c / ç > ş əvəzlənməsi, məs., *palçıq > balşık, borc > borş*;

ğ > v əvəzlənməsi, məs., *yağ > yav*;

ğ > y əvəzlənməsi, məs., *sığındı > sıyındı*;

b > m əvəzlənməsi (söz əvvəlində), məs., *mən, minmək, min (say), mu (bu), muyuz (buynuz)* və s.

v > b əvəzlənməsi, məs., *var > bar*

"Ət-Töhfətü-z-Zəkiyyə" lüğətində digərlərində olduğu kimi, vulqarizmlərə rast gəlmək mümkündür. Müəllif ərəblərin

[170] Bax: Atalay, Besim. Ettuhfet-üz-Zekiyye Fil-Lûgat-it-Türkiyye, İstanbul: TDK Yay. 1945. 431 say., s. 4.

[171] Baskin, Sami. Memlûk dönemi türkçe sözlüklerinin yapisi. dergipark.gov.tr/download/article-file/52793 PDF, s. 30.

gülünc vəziyyətdə qalmaması üçün vulqar sözləri də bilmələrini vacib hesab etmişdir.

"Ət-Töhfətü-z-Zəkiyyə" 1942-ci ildə T.Halasi Kun tərəfindən Budapeştdə faksimile şəklində nəşr edilmişdir. 1945-ci ildə Besim Atalay onu tərcümə edərək çapa vermişdir. 1968-ci ildə S.S.Mütəllibov bu lüğəti özbək dilinə tərcümə edib nəşr etdirmişdir. "Töhfə"nin rusca tədqiqatı E. İ. Fazilov və M. T. Ziyayevaya məxsusdur: *Исконный дар тюркскому языку. Грамматический трактат XIV века на арабском языке, Daşkənd, 1978*. Qazax alimi B. Suyerqul əlyazmanın morfoloji quruluşunu təhlil edərək "Ət-töhfə" əlyazmasının dilindəki fel kateqoriyası"adlı tezisində feil formalarını tədqiqata cəlb etmişdir. 2005-ci ildə Güvənc Çarıyevin tərcüməsi çapdan çıxmışdır: *Türkmen diline nepis sowgat, A.: Türkmenistanyň milli medeniýet «Miras» merkezi, 2005, 296s*. Amma nəyə görəsə bu kitabda "qıpçaq dili" ifadəsi "türkmən dili" ilə əvəz edilmişdir.

## "Kitab əl-idrak li-lisan əl-ətrak" və "Ət-Töhfətü-z-Zəkiyyə" lüğətlərinin hərf sistemi

Lüğətlərin hər ikisinin hərf sistemində fərq müşahidə olunur. Bu, dialekt xüsusiyyətləri ilə də izah oluna bilər. Amma əvvəlcə Misir qıpçaqcasının fonetik sistemini nəzərdən keçirək. Əhməd Cəfəroğlu Misir qıpçaqlarının dilində aşağıdakı fərqli səslərin olduğunu göstərir:

ä – əl sözündəki ilk hərf
x – خ
ŋ – sağır nun
q – ق

x´ – alman dilindəki *ch* kimi tələffüz olunur, Azərbaycan türkcəsində də işlənir[172]


ḍ – ذ

w – bilabial v

g´ – "gəlmək" sözündəki ilk hərf

ğ – qalın sözlərlə غ , incələrlə ك [173]

Bəsim Atalayın 1945-ci ildə nəşr etdirdiyi tərcümə bir çox müsbət xüsusiyyətlərə malikdir. Lakin Türkiyə türkcəsində *x, q, ə* səslərinin olmaması səbəbindən ümumən türk tədqiqatçılarının tətbiq etdikləri transkripsiya və transliterasiyalarda türkcələşdirməyə meyillilik müşahidə olunur. Məsələn, "Ət-Töhfə-tü-z-Zəkiyyə"nin hərf sisteminin transkripsiyasını Bəsim Atalay aşağıdakı şəkildə təqdim edir: **[174]**




Ğayn غ (ğ) hərfinin qarşılığı g verilir. Ğ niyə g olmalıdır? Səhifə 4-də Atalay yazır: "Bağlı "ك ge = ğ"dir".[175] Burda artıq dolaşıqlıq yaranır, ğayn غ niyə ğ deyil, bağlı "ك ge ğ-dir? Atalay qaf ق (q) hərfinin qarşılığını k verir. Ə səsi isə ümumiyyətlə, nəzərə alınmayıb. Üstəlik Atalayın tədqiqatında "Ət-

[172] Burada Azərbaycan dilindəki *y* samitinin kar qarşılığı olan, azacıq nəfəsli x´ [iyh] səsi nəzərdə tutulur, məs., *çiçəx´* (çiçək) sözündə olduğu kimi.

[173] Caferoğlu, Ahmet. Abû Hayyan, Kitâb al-İdrâk li-lisân al-Atrâk, İstanbul, 1931, 350 səh., s.XIII.

[174] Bax: Atalay, Besim. Ettuhfet-üz-Zekiyye Fil-Lûgat-it-Türkiyye, İstanbul: TDK Yay. 1945. 431 say., s. 3

[175] Son göstərilən əsər, s.3.

Töhfətü-z-Zəkiyyə" lüğətindən orijinal qıpçaqcanın ərəb əlifbası ilə verilməməsi sözləri düzgün oxumağa və orijinal ilə müqayisə aparmağa çətinlik yaradır. Misir qıpçaq dialektinin əks olunduğu Əbu Həyyanın lüğəti ilə "Ət-Töhfətü-z-Zəkiyyə" lüğətinin hərf sistemlərini müqayisə edək. Hər bir lüğətin müəllifi qıpçaq dilinin fonetikasının dəqiqliklə əks etdirməyə çalışıb.

**Misir qıpçaq dialektinin lüğətlərdəki hərf sistemi**

| **Əbu Həyyanın lüğətində** | **Transkripsiyası** | **"Ət-Töhfətü-z-zəkiyyə" lüğətində** | **Transkripsiyası** |
|---|---|---|---|
| ا | a, ə | ا | a, ə |
| ب | b | ب | b |
| Korlanmış ب | p | ف ilə qarışıq olan ب | p |
| ت | t | ت | t |
| ج | c | ج | c |
| Korlanmış ج | ç | ش ilə qarışıq olan ج | ç |
| خ | x | خ | x |
| د | d | د | d |
| ر | r | ر | r |
| ز | z | ز | z |
| س | s | س | s |
| ش | ş | ش | ş |
| ص | sa kobud | ص | sa |
| ط | ta kobud | ط | ta |
| غ | ğ | غ | ğ |
| ق | q | ق | q |
| ك xalis kəf | k | ك xalis kəf | k |
| ك bədəvi gafı | g | ك bağlı ge | g |

| ل | l | ل | l |
|---|---|---|---|
| م | m | م | m |
| ن xalis nun | n | ن xalis | n |
| ں sərt nun | sağır nun | نك burundan çıxan | sağır nun |
| و | v, o, ö, ü | و | v, o, ö, ü |
| ي | y, i, ı | ي | y, i, ı |

Gördüyümüz kimi, hər iki lüğətdə tamamilə eyni fonetik sistem nəzərə alınmışdır. Əbu Həyyanın lüğətini tərcümə etmiş Əhməd Cəfəroğlu Bəsim Atalaydan fərqli olaraq *ä* (ə), *x* və *q* transkripsiya hərflərini qəbul etməklə qıpçaq dilinin fonetik sistemini olduğu kimi əks etdirməyə çalışmışdır. Burda diqqətimizi çəkən transkripsiyada *e* səsinin verilib-verilməməsi məsələsidir. Əhməd Cəfəroğlu e səsini vermir, amma Ziya Bünyadov geniş şəkildə istifadə edir. Ərəb əlifbasında *e, ə, ü, ö* səsləri üçün ayrıca hərfi işarə olmadığı üçün tərcüməçilər arasında bu cür fikir ayrılığına rast gəlmək təbii bir haldır. Amma, zənnimizcə, hər şeydən əvvəl qıpçaq türkcəsinin vokalizmi araşdırılmalı, daha sonra ona uyğun transkripsiya tətbiq edilməlidir.

## Cəmaləddin Əbu Məhəmməd Abdullah ət-Türkinin "Kitabu bulğatu əl-müştaq fi lüğəti-t-türk va-l-qıfçaq" lüğəti (كتاب بلغة المشتاق فى لغة الترك و القفجاق) (XV).


Daha çox lüğət tərtibatlı olan bu ərəbcə-türkcə əsərdə qrammatik məlumatlara az yer verilmişdir. Müəllifi türk əsilli Cəmaləddin Əbu Məhəmməd Abdullah ət-Türkidir. Kitabda Ebu Bəkir adlı birinə aid qeyddən məlum olur ki, əsər 1451-ci ildən əvvələ aiddir. Lüğət türkəsilli müəllif tərəfindən tərtib

edildiyinə görə, digər əsərlərə nisbətən türk sözlərinin üzərindəki hərəkələr daha düzgün tətbiq edilmişdir.


كتاب بلغة المشتاق في
لغة الترك والقبجاق
جمع الامام الاوحد العلامة جمال الدين
ابي محمد عبد الله الترجمي عفا الله عنه
اللسان التركي ناقص عن العربي
الثا والظا والضاد والغين مهملة
واذا نقطت الكاف ثلاث نقط فهي معجمة
والدال فوقها طا والطا فوقها دال ينطق
بهما بينهما احكم من الشين والجيم الا قليلا

***"Kitabu bulğatu əl-müştaq fi lüğəti-t-türk va-l-qıfçaq" lüğətinin üz qabığı***

Əlyazmada ərəbcə mətn qara mürəkkəblə aşağıdan, türkcəsi qırmızı mürəkkəblə üstdən yazılmışdır. Lüğətin quruluşuna gəlincə, o, bütünlüklə üçsütunlu ziqzaq şəklində tərtib olunmuşdur. Cəmaləddin Əbu Məhəmməd Abdullah ət-Türki əsərdə ərəbcə baş sözlərin qarşısında türkcə qarşılığını iki, üç, hətta dörd sinonimlə vermişdir.



***Lüğətin quruluşu üçsütunlu ziqzaq şəklindədir.***

Lüğət giriş və üç fəsildən ibarətdir. Burada qrammatik kateqoriyalardan isimlər, zərflər, əvəzliklər və feillər əks olunmuşdur. İsimlər bölümü tematik üsulla tərtib edilmişdir:

1. Allah, səmavi cisimlər və Allahın iradəsinə bağlı hadisələr və məfhumlar;
2. Yer üzü, mədənlər və yer üzündəki bəzi cisimlər:
a) dağlar, meşələr, ağaclar və s.;
b) mədənlər, su, dəniz, çay, balıqçılıq və s.;
c) dəniz nəqliyyatı ilə ticarət (müşk, mirvari və s.)
d) həyat, ölüm, günahlar və s.;
e) ordu və hərb ləvazimatı;
f) taxıl və digər bitkilər;
g) mal-qara (dəvə, inək, qoyun və s.);
h) qıda, yeməklər, süd məhsulları;
i) içəcəklər;
j) qohum adları;
k) ölçülər və ağırlıqlar;
l) xəstəliklər;
m) vəhşi heyvanlar;
n) sürünənlər, böcəklər və s.;
o) quşlar;
p) saylar.

"Kitabu bulğatu əl-müştaq"ın leksik tərkibi müxtəlifdir: ümumtürk sözləri və kökləri əksəriyyət təşkil edir, lakin ərəb və fars dilindən alınmalara da rast gəlmək mümkündür. Türkmənşəli sözlər daha çox qıpçaq, qismən oğuz və qədim uyğur elementləri ilə xarakterizə olunur. G.R.Qaynutddinova onların aşağıdakı xüsusiyyətlərini göstərir: 1) qıpçaq elementləri (ismin hallarının çoxu); 2) oğuz elementləri (I və II şəxs əvəzliyinin cəminin yönlük halı – bizə, sizə); 3) uyğur ənənəsinin elementləri (şəxs əvəzliyinin cəminin formaları).

Əsərin sözlüyü orta əsrin yazılı abidələrinin dilinə - Məmlüklər dövlətində və Qızıl Orda ərazisində yaşamış qıpçaqların danışıq dilinə uyğun gəlir.

G.R.Qaynutddinova lüğətin dilinin fonetik xüsusiyyətlərinin müasir tatar dili ilə uyğunluq təşkil etdiyini qeyd edir.

Əsərdə türk dillərində xas fonetik dəyişikliklər də öz əksini tapmışdır: ***a > i*** – aydi (dedi), ***al*** və ***il*** – əl, ***eşit*** və ***isit*** (eşit). Burada dodaq ahənginə əməl olunsa da, pozulduğu anlar da müşahidə olunur: *bulut* (bulud), *sozim* (sözüm). Lüğətdəki türk sözlərində 9 sait səs vardır. *R* samiti yalnız alınmalarda müşahidə olunur.

Lüğətin yeganə əlyazması Parisin Milli Kitabxanasında №293 altında mühafizə olunur. İlk dəfə 1938-ci ildə Ananians Zayonçkovski tərəfindən isimlər bölümü çap edilmiş, 1954-cü ildə feillər, 1958-ci ildə isə isimlər təkrar nəşr edilmişdir. Bu nəşrlərə əsərin faksimilesi də daxildir.[176] A. Zayonçkovski lüğətin yazılış yerinin təxmini Suriya olduğunu qeyd etmişdir.

## Süni dil lüğəti "Baleybələn" ("Mühyinin dili" və ya həyat verən dil)

"Baleybələn" **(**بالي‌بلن**)** fərqli mədəniyyətə və dillərə məxsus xalqlar arasında ortaq süni dil (esperanto kimi) yaratmaq məqsədilə yazılmış müstəqil qrammatikası və lüğəti olan çox maraqlı bir əsərdir.[177] Lüğətin müəllifi XVI əsrdə Misirdə yaşayıb yaratmış Azərbaycan əsilli Mühyi Gülşəni (1528-1604) olmuşdur. Künyəsi Məhəmməd ibn Fəthillah Əbu Talibdir. Babası Əbu Talib Osmanlı İmperiyasının dörd əsas dövlət idarələrin-

[176] Argunşah Mustafa, Yüksekkaya Gülden Sağol, Tabaklar Özcan (2010). Karahanlıca, Harezmce, Kıpçakça Dersleri, İstambul: Kesit Yayınları. s.191.

[177] Avropada belə bir təcrübə XIX əsrin ikinci yarısında Johann Martin Şleyer "Volapük" (l879) və Leyzer Ludvik Zamenhofun Esperanto (l887) əsərləri ilə həyata keçirilmişdir.


dən biri olan ilmi sinfinin[178] üzvü idi və sufi təriqətinə mənsub olmuşdur. O, Şirazın hakimi olan Ağqoyunlu hökmdarı Uzun Həsənin oğlu şahzadə Xəlilin (ö. 1479)[179] təqiblərindən qaçaraq 1475-ci ildə Qəzvinə gəlir. Lakin 1501-ci ildə Təbrizdə baş verən münaqişələr zamanı öldürülür. Oğlu Fəthullah XVI əsrin əvvəllərində Osmanlı dövlətinə qaçır və Ədirnədə məskən salaraq burada ilmiyyə sinfinə daxil olur. Fəthullahın üç övladından biri olan Mühyi Gülşəni atasının təlim-tərbiyəsi altında sufi dünygörüşünə yiyələnərək Misirdə gülşəni təriqətini qəbul edir və hətta həmin təriqətdə xəlifəlik vəzifəsini yerinə yetirir. Mühyi tarix, qrammatika, təfsir, hədis, ritorika, siyasətnamə və kəlam elmlərinə aid 200-ə qədər əsər yazmışdır. O, üç fərqli dilin müqayisəli qrammatikasını əks etdirən "Baleybələn" əsərini 1566-1574-cü illərdə ərsəyə gətirmişdir. Əsərin girişində mövzunun aktuallığını şərh edən müəllif "Baleybələn"i nə üçün yazdığını izah edir. Ardından isə 1566-cı ildə taxta çıxmış Osmanlı İmperiyasının sultanı III Murada mədh söyləyərək bu əsəri ona təqdim etmək niyyətində olduğunu bildirir.

Əsərin adı fars dilində olub bal – *dil*, bələn – *dirildən, həyat verən* deməkdir. Kitabında ərəb dilinin quruluşunu əsas götürən Mühyi türk və fars dillərinin xüsusiyyətlərini də buraya daxil etmişdir. "Əsərdə ən çox türk dilində şərhlərə yer verilmiş, qrammatikaya aid oçerklər və mətn nümunələri əks olunmuşdur. Şərqdə yaradılmış lüğətlər içərisində ilk nümunədir ki, burada mətn transkripsiya ilə verilir".[180]

[178] Digərləri seyfiyyə, mülkiyyə və qələmiyyə sinifləri idi. Osmanlı dövlətinin idarəçiliyində fəaliyyət göstərən və başında Şeyxülislamın durduğu təşkilati sinif ilmiyyənin əsas vəzifəsi dini maarifləndirmə və şəriətə düzgün əməl edilməsinə nəzarət etmək idi.

[179] Şahzadə Xəlil 1470-1478-ci illərdə Şirazı idarə etmişdir

[180] Дуличенко А. Д. Д81 Международные вспомогательные языки. — Таллинн: Валгус, 1990. — 448 с. s.26



*“Baleybələn” kitabında rəqəm simvollarının əks olunduğu səhifə*

Əsərin əlyazması 1672-ci ildə Vansleben tərəfindən (Wansleben) Qahirədən satın alınaraq Fransaya göndərilmişdir. Hazırda "Baleybələn" əlyazması Parisin Milli Kitabxanasında 188 nömrəsi altında qeydiyyatdadır.

İlk dəfə 1813-cü ildə fransız şərqşünası C.De Sasi (Sacy) tərəfindən "Notices et Excraits Des Manuscrits de la Bibliothèque Imperial et Autres Bibliothèques" əsərinin IX cildində "Kitabü aslı'l-makâsıd ve faslı'l-marâsıd, Le capital des objets recherchés et le chapitre des choses attendues ou Dictionnaire de l'idiome Balaïbalan" başlıqlı məqaləsi ilə tanıdılmışdır. Lakin burada Sasi "Baleybələn" əsərinin süni dil məzmununa malik olmasını, onun müəllifi və yaranma tarixini müəyyənləşdirə bilməmişdir. Lüğətdə ortaq süni dilin əks olunması haqqında məlumatı 1966-cı ildə Türkiyədə Midhət Sərtoğlu "İlk beynəlxalq dil bir türk tərəfindən icad edilmişdir" adlı məqaləsində verir.[181] "Baleybələn" əsəri 2005-ci ildə Mustafa Koç tərəfindən tənqidi mətn şəklində işlənərək nəşr edilmişdir.[182]

## "Kodeks kumanikus" lüğəti

XI-XII əsrlərdə müasir Ukrayna ərazisindən Orta Asiyaya qədər böyük bir ərazini əhatə edən Qıpçaq Çölü (*fars.* Dəşti-Qıpçaq; *rus.* Половецкая степь) dövlətində ortaq ünsiyyət vasitəsi məhz qıpçaq dili idi. "O dövrdə "qədim qıpçaq türkcəsi üç alt qrupa bölünürdü: Bozkır qıpçaqcası, Məmluk qıpçaqcası

[181] Midhat Sertoğlu, "İlk Milletlerarası Dili Bir Türk İcat Etmişti", Hayat Tarih Mecmuası, 1 Şubat 1966, C. 1, sayı 1, s. 67.
[182] : Mustafa Koç, Bâleybelen Muhyî-i Gülşenî İlk Yapma Dil, İstanbul, 2005.

və erməni qıpçaqcası".[183]. Mühüm strateji əhəmiyyətə malik coğrafi mövqedə, ipək yolunun üstündə yerləşən Qıpçaq Çölü dövləti Avropanın hər yerindən ticarət, siyasət və din xadimləri qıpçaqlarla fəal əməkdaşlıq edirdi. İtalyan şəhər-dövlətləri olan Heniya və Venesiya öz ticarət məntəqələrini Şimali Qara dəniz sahillərində bərqərar etmişdilər. Onlar hamısı öz aralarında məhz Şimali Qara dəniz sahillərinin və Böyük Çöllüyün (Dəşti-Qıpçaq dövləti) ortaq türk-qıpçaq dilində danışmalı idilər. Müqayisə etsək, müasir dövrdə ingilis dili necə populyardırsa, həmin dövrdə də qıpçaq dili eyni populyarlığa malik idi. Böyük Çöllük ərazisindəki, xüsusən Krım kilsələrində dini ayinlər qıpçaq dilində oxunurdu.[184]


XIII əsrdə Krım ərazisində yaşayan türk xalqları xaşpərəstliyi qəbul etməyə meyilli idilər. 1227-ci ildə Roma Papası IX Qriqori qıpçaqların müraciətinə əsasən Qıpçaq Düzü (Половецкая степь) dövlətində kilsələrin tikilməsinə, yepiskopun təyin edilməsinə icazə verdi. Monqol yürüşlərinə qədər qıpçaqların bir qismi kotolik, bir qismi isə provoslav məzhəbini qəbul etmişdi. Missionerlər yetişdirən Feodesiyada (Krım şəhəri) tatar dili tədris edilirdi. Monqol hücumlarından qaçmış kotolik qıpçaqlar məskunlaşdıqları Macarıstanda XIX əsrə qədər "Bizim Atamız" ayinini qıpçaq dilində oxumuşlar.[185].

1241-ci ildə monqol-tatar işğalına məruz qalan Krım türkləri assimilyasiya olmaq əvəzinə, monqol hakimiyyətini öz təsiri altına almağa başladı. Tezliklə qıpçaq dili Çingizilər İmperiyasının Qərb ərazilərində beynəlxalq ünsiyyət vasitəsinə çevrildi. Qıpçaq dili həmin dövrdə həm də Məmlukilər dövlətinin

[183] Merim Ryspakova. Codex Cumanicus ile Kirgiz Türkçesi Arasinda Bir Karşilaştirma Denemesi. Yüksek Lisans Tezi. Ankara–2007, 255 say., s.I.
[184] https://anaurt.com/qrt/kodeks-kumanikus-dan-uvazheniya-tyurkam-kryma
[185] Гаркавец А. Codex Cumanicus: Половецкие молитвы, гимны и загадки XIII-XIV вв. . – Алмата: Баур, 2005. 276 стр., s.68-69.

saray və ordu dili idi. İki dövlət arasında yaranan ticari, siyasi, dini əlaqələr və islamın monqollar tərəfindən qəbul edilməsi qıpçaq dilinin daha da geniş yayılmasına şərait yaratdı.

Bu səbəbdən avropalıların Şərqlə uğurlu ticarət əlaqələri yaratması, xristianlıq dinini yayması və yerli xalqla rahat ünsiyyət qura bilməsi üçün qıpçaq dili lüğətinə ehtiyac yaranmışdı. XIV əsrin əvvəllərində italyan tacirləri və alman missionerləri tərəfindən tərtib olunmuş "Kodeks Kumanikus" və ya "Qıpçaqların Kitabı" lüğəti zamanın tələbindən yaranan bir əsər idi. Lüğətin tam adı bu şəkildədir: "Alfabetum Persicum, Comanicum et Latinum Anonymi scriptum Anno 1303. Die 11 Julii".[186] Kodeks Kumanikus"un ilk səhifəsində "11 iyul 1303-cü il" yazılmışdır. Əsər 1362-ci ildə Petrarca tərəfindən Venedik Respublikasına hədiyyə edilmişdir. Bu səbəbdən Gabain əsərin 1303-1362 illər arasında meydana gətirildiyi qənaətindədir.[187] D. A. Rasovski isə 1303-cü ili Kodeks Kumanikusun köçürülmə tarixi olaraq qəbul edir. Lüğət hazırda Venedikdə St. Markus (St. Marcus) Kitabxanasında-



[186] https://anaurt.com/qrt/kodeks-kumanikus-dan-uvazheniya-tyurkam-kryma

[187] Gabain, Annemarie von. Einfuhrung in die Zentralasienkunde.Wissenschaftliche Buchgesellschaft. German. Publisher Wissenschaftliche Buchgesellschaft. 1979, 186 pages, s.73.

dır.

"Qıpçaqların Kitabı" lüğəti Qara dəniz sahillərində yaşamış qıpçaq türklərinin danışıq dilini, dialektlərini əks etdirən, bir cilddə birləşdirilmiş lakin bir-biri ilə əlaqəsi olmayan ikihissəli bir əsərdir: "Tərcüməçinin Kitabı" Interpretor's Book və "Missionerlər Kitabı" (Missionaries' Book). Əsərin üzü dəfələrlə köçürülmüş, üzərinə sonradan əlavələr edilmişdir.

"Tərcüməçinin Kitabı" (Interpretor's Book) adlanan birinci hissə italyan tacirləri tərəfindən yaradılmış 110 səhifədən ibarət latın-fars-qıpçaq terminləri lüğətidir. Lüğət latınca giriş, ardından tematik prinsiplə tərtib olunmuş əlifba sırası ilə üçdilli lüğət gəlir. Burada üç sütunda qarşılaşdırılan latın, fars və qıpçaq dillərində məişət leksikası, ticarət, din, astronomiya, hərbçilik, ətriyyat, xarratlıq, ayaqqabıçılıq, dövlətçilik, bir sözlə, böyük şəhərlərdə olan bütün sənətkarlıq və məslək terminləri öz əksini tapmışdır. "Lüğətin içində verilmiş feillərin təsnifatı, isimlər, sifətlər, əvəzlik, əvəzliklərin şəxsə görə dəyişməsi, zərflər qıpçaq dilinin qrammatikası materialıdır. Birinci sütunda 1560 söz verilmişdir ki, bunların heç də hamısı fars və qıpçaq dilinə tərcümə olunmamışdır. Semantik qruplara bölünmüş 1120 sözün 200-ü yenə fars və qıpçaq dilinə tərcümə olunmamışdır".

I Kitabda üç dildə verilmiş təqvimi araşdıran məşhur şərqşünas-türkoloq Aleksand Samoyloviç miladi və hicri tarixlərin üst-üstə düşən ekvivalentlərini hesablayaraq bu tarixlərin 1227, 1259, 1292, 1324, 1357-ci illərə təsadüf etdiyini və beləliklə, əsərin XIV əsrdə deyil, XIII əsrdə yazıldığı qənaətinə gəlmişdir. Venesiya nüsxəsinin vərəqi üzərində aparılan analiz göstərir ki, kağız XIII əsrin ortalarından tez olmayaraq hazırlanmışdır.

Lüğət eyni bir insanın xətti ilə qələmə alınmışdır. Lakin sonradan boş qalmış yerlərə və sətirlər arasına əlavələr və düzəlişlər edilmişdir. Bu əlavələr çox güman ki, alman fransis-



kanları (katolik məzhəbi) tərəfindən müxtəlif vaxtlarda həyata keçirilmişdir.[188]

II. Alman dilində olan ikinci kitab "Missionerlər Kitabı" (Missionaries' Book) adlanır. Əsər 1330-1340-cı illərdə yazılmışdır və 54 səhifədən ibarətdir. Burada linqvistik məlumatlar, qıpçaq dilində olan "İncil"dən parçalar, xristianlığın 10 İlahi Ayini, folklor materialları, tapmacalar və atalar sözləri tərcümə edilərək həm latın dilində, həm də Orta əsrlər Şərqi Orta Ali alman dialektində (Eastern Middle High German) verilmişdir.

"Kodeks Kumanikus"un əlyazmasını araşdıran S.Abibullayeva belə nəticəyə gəlir ki, bu iki hissə sonradan birləşdirilmiş ayrı-ayrı yazı abidələridir.[189]


Əsərin italyanca və almanca bölümlərinin imla sistemi birbirindən fərqlidir. Alman hissəsi qotik hərfləri ilə yazılmışdır. I Kitab italyan-latın danışıq dilində (Vulgar Italo-Latin) olduğu halda, II Kitab savadlı ilahiyyətçilər tərəfindən qələmə alınmışdır.

---

[188] http://vlib.iue.it/carrie/texts/carrie_books/paksoy-2/cam2.html, Александр Гаркавец, s. 65.

[189] Абибуллаева С. «Кодекс Куманикус» – Памятник тюркских языков конца XIII-начала XIV веков // Культура народов Причерноморья. — 2006. — № 91. — С. 9-11. — Бібліогр.: 26 назв. — рос.

Davud Monçizadə belə hesab edir ki, lüğətdə olan farsca materialı (Daoud Monchi-Zadeh) qıpçaqdilli vasitəçilər tərcümə etmişlər və burada olan fars dili canlı dil deyildir, koyne (funksional dil) rolunu oynayır.[190]



Hər iki kitabda eyni sözlər qıpçaq dilinin ayrı-ayrı dialektlərində fərqli fonetik variantlarla verilmişdir. Məsələn, *kəndi – kənsi, tizgi – tiz* (diz), *ipək – yibək, igit – yegit, abusqa – abisqa* (qoca) və s. Türk dilinə yad olan ***c*** səsi fars və ərəb mənşəli alınmalarda öz əksini tapmışdır: *cahan, can, comərd, cavab* və s. Qıpçaq və ümumən türk dillərinə məxsus səs əvəzləmələri "Kodeks Kumanikus" lüğətində də müşahidə olunur: q>x (yoq-

[190] http://vlib.iue.it/carrie/texts/carrie_books/paksoy-2/cam2.html

sul > yoxsul), c=y (comart = yomard), v/w (*tauk, taoh* = *tavuq* və ya *tawuq, tavox* və ya *tawox*).[191]

I Kitabın 1–58/1–63 səhifələrində feillər əlifba sırası ilə düzülmüş və təsrif edilmişdir:[192]

| Latınca | Farsca | Qıpçaqca | Tərcüməsi |
|---|---|---|---|
| **audio** | mesnoem (mesnowm) | ***esiturmen*** (esitrmen) | eşidirəm |
| **audimus** | mesnam (mesnowim) | ***eşitürbis*** (esitrbiz) | eşidirik |
| **audiebam** | mesin(.) dem (mesinidm) | ***eşitürədim*** (esitrədim) | eşidirdim |
| **audiebant** | mesinident (mesinidnt) | ***eşiturlaredi*** (esitirlərədi) | eşidirdilər |
| **audiui** | sinide (= sinidm) | ***eşitum (esitm)*** | eşitdim |
| **audiueratis** | sindabudit (sinada budit) | ***eşitungusədi*** (eşitnguzədi) | eşitdik |
| **audiam** | bisnoem (bisnowm) | ***eşitcaymen*** (eşitğaymən və ya esitkəymən) | eşidəcəm |
| **audiemus** | besnoym (besnowim) | ***eşitğaybiz/eşitkəybiz*** | eşidəcəyik |
| **audi** | bisna (bisno) | ***eşit (eşit)*** | eşit! |

Lüğətdə verilmiş qıpçaq dilində şəxs əvəzlikləri müasir Azərbaycan dilinə uyğun şəkildədir: ***mən*** (mən)***; məning*** (mənim); ***manga*** (mənə); ***məni*** (məni); ***məndən*** (məndən); ***biz*** (biz) və s. Ümumiyyətlə, digər sözlər də müasir dilimizə həd-

[191] http://vlib.iue.it/carrie/texts/carrie_books/paksoy-2/cam2.html
[192] Yenə orda.

dindən çox oxşayır: ***qan*** (qan), ***balgam*** (bəlğəm), ***qursaq*** (qursağ), ***sari*** (öd, sarı), ***ulu*** (ulu, böyük), ***kiçi*** (kiçik), ***yaqşi*** və ya ***eygi*** (yaxşı), ***yaman*** (yaman, pis), ***yngl*** (yüngül), ***ağır***, ***tutmaq***, ***kormek*** (görmək), ***esitmek***, ***iylamaq*** (iyləmək), ***tatmaq*** (dadmaq) və s.

"Türk dili Kodeksdə dörd dəfə işlənir: italyan hissəsində latınca *comanicum* və *chomanicho*; almanca hissəsində türkcə yazılarda *tatarçe* və *tatar til*. *Qıpçaq* sözünü "Missionerlərin kitabı"nda yalnız bir tapmacada görə bilirik: *Səndə, məndə yox, seŋgir tavda yox, ütlü taşta yox, qıpçaqta yox. Ol, quş sütdir.* (Səndə, məndə yox, uca dağda yox, yarılıb-oyulmuş qayada yox, qıpçaqda yox. Açması "quş südü"dür)."[193]

"Kodeks Kumanikus"un əlyazmalarından biri orta əsrlərin məşhur şairi, nadir və maraqlı kitablar həvəskarı Françesko Petrarkın şəxsi kitabxanasında olmuşdur. 1362-ci ildə o bütün kitablarını "Kodeks Kumanikus"la birlikdə Venessiya Respublikasının San Marko kitabxanasına hədiyyə etmişdir. Hal-hazırda bu əsər həmin kitabxanada Cod. Mar. Lat. DXLIX qeydiyyatı altında mühafizə edilir. Məhz burada ilk dəfə olaraq bibliioqraf Y.F.Tomasini "Kodeks Kumanikus"la maraqlanmışdır. 1828-ci ildə əsəri ilk dəfə öyrənən və nəşr etdirən alman şərqşünası, poliqlot və səyahətçi Yulius Henri Klaprot olmuşdur. Sonralar V.V.Bartold, N.A.Baskakov, A.A.Zayonçkovski və bir çox başqa türkoloqlar əsərin tədqiqi ilə məşğul olmuşlar.

"Kodeks Kumanikus"un dili üzərində araşdırmalar A. von Gabainə məxsusdur («Die Sprache des Codex Cumanicus», Fundamenta I, Wiesbaden 1959). Gabain əsərdəki qıpçaq dilinin bugünkü tatar dilinə çox bənzədiyini göstərir.[194]

---

[193] Гаркавец А. Codex Cumanicus: Половецкие молитвы, гимны и загадки XIII-XIV вв. . – Алмата: Баур, 2005. 276 стр., s.70.

[194] Ercilasun, Ahmet B. Başlangıcından Yirminci Yüzyıla Türk Dili Tarihi. Akçağ Yayınları / 603, Araştırma - İnceleme / 50. ISBN 975-338-589-7. Baskı I Ankara 2004. 488 səh., s. 386-388.

Ukrayna mənşəli Sovet və qazax türkoloqu Aleksandr Nikolayeviç Qarkavecin 2005-ci ildə nəşr etdirdiyi «Codex Cumanicus: Половецкие молитвы, гимны и загадки XIII-XIV вв.» (Kodeks Kumanikus: XIII-XIV əsrlərdə qıpçaq duaları, himnləri və tapmacaları) adlı əsəri adıçəkilən araşdırmalar arasında diqqətəlayiq tədqiqatlardan biridir.

## CAĞATAY DİLİNİN LÜĞƏTLƏRİ

Cağatay türkcəsi XV əsrdən XX əsrin əvvəllərinə qədər oğuzlardan başqa, diğər müsəlman türklərinin ortaq ünsiyyət vasitəsi olmuşdur. "Cağatay" sözü Çingiz xanın Börtə xatundan doğulan ikinci oğlu, sonradan Uygur dövləti, Səmərqənd və Buxaraya qədər olan bölgələrin hakimi olmuş Çağatay xanın adından götürülmüşdür. "Çağatay" termininin ədəbi dildə istifadəsi ilk dəfə Əlişir Nevainin "Mizanül-Əvzan" əsərində müşahidə olunur.[195] XV əsrə qədər cağatay türkcəsi əvəzinə yalnız "türk dili" sözü işlənmişdir.

### Əbu əl-Qasim Mahmud ibn Ömər Əz-Zəməxşərinin "Müqəddimət əl-ədəb" (مقدّمة الأدب) lüğəti

Orta Asiya filoloqu, xarəzmli Əbu-l Qasim Mahmud ibn Ömər Əz-Zəməxşərinin (...-1141) yazdığı bu leksikoqrafik əsər tematik prinsipli olub ərəb-fars-türk-monqol dillərinin qarşılıqlı tərcümə lüğətidir. Əsərdə fars dili tacik dilini, türk dili isə qədim Xarəzm dilini əks etdirir.

[195] Bax: Alį Şįr Nevāyį, Mįzānu'l Evzān (Vezinlerin Terazisi), Haz. Kemal Eraslan, TDK Yayınları, Ankara 1993, s. 11

Buxaranın İbn Sina kitabxanasında "Müqəddimət əl-ədəb" lüğətinin iki nüsxəsi mövcuddur. Birinci nüsxə h. 705/ m. 1305-ci ildə katib Həmid Hafiz tərəfindən köçürülmüşdür. Burada Zəməxşərinin əsərinin beş hissəsinin beşi də (isim, feil, hissəciklər və s.) olduğu kimi saxlanmışdır. Lakin əsəs ərəbcə olan hissənin yalnız isim və feil qismlərinin farscaya tərcüməsi var. Monqol və türk dili hissələri isə yoxdur. H. 898/ m. 1492-ci ildə katib Dərviş Məhəmməd tərəfindən üzü köçürülmüş ikinci əlyazma Zəməxşərinin əsərinin yalnız iki hissəsini əks etdirir, son üç hissə əksikdir. Bu nüsxədə ərəb sözlərinin fars, türk (Orta Asiyanın ədəbi dili olan cağatay türkcəsi) və monqol dillərinə tərcüməsi verilmişdir.[196]

Müqəddimət əl-ədəb" lüğəti ərəb leksikoqrafiyasının ənənələrinə uyğun şəkildə tədris xarakterlidir və predmet-tematik prinsiplə tərtib olunaraq bablara və fəsillərə ayrılır. Əsərin birinci hissəsi "İsimlər" adlanır. Burda isimlər tək və cəm verilir.

N.N.Poppe göstərir ki, Əz-Zəməxşəri öz lüğətini Xarəzmşah Atsızın şərəfinə yazmışdır. Leksikoqraf 1143-cü ildə monqolların işğalından əvvəl vəfat etdiyinə görə, çox güman ki, monqol dili hissəsi lüğətə sonradan əlavə edilmişdir. Türk dili hissəsi isə Xarəzmşah Atsızın lüğətin saray kitabxanasına daxil edilməsi barəsindəki göstərişindən sonra Əz-Zəməxşəri tərəfindən qlossariyə əlavə edilmişdir.[197]

Buxarada İbn Sina kitabxanasındakı əlyazma nüsxəsində bablar aşağıdakı qaydada düzülmüşdür: 1) vaxt, zamanın dövrləri; 2) səma, səma çıraqları və s.; 3) torpaq, minerallar, yollar;

[196] Поппе Н. Н. Монгольский словарь Мукаддимат ал-Адаб / [В 2 выпусках.] М.; Л.: 1938. s.5-6.
[197] Поппе Н. Н., 1938, s.5-6.

4) su; 5) bitkilər; 6) yaşayış yerləri, tikintilər; 7) Allah, dualar və s.; 8) insan bədəni, bədən üzvləri, cins, yaş və s.; 9) dinlər; 10) insan məşğuliyyəti, silahlar və s.; 11) geyim; 12) saylar, ölçülər; 13) at, silahlar və s.; 14) heyvanlar, vəhşi və yırtıcılar; 15) həşəratlar; 16) quşlar; 17) sifətlər; 18) əvəzliklər və zərf.[198]



*"Müqəddimət əl-ədəb" lüğətinin monqol dilinin də əlavə edildiyi nüsxəsi. Bu şəkildə solda onluq rəqəmlər, sağda yüzlüklər əks olunmuşdur. Hər vərəqdə soldan birinci cərgədə ərəb, ikincidə fars, üçüncüdə türk, dördüncüdə monqol dili verilmişdir.*


[198] Вопросы языкознания. Год издания XIV. Издательство «Наука» Москва —1965. S. 98-99.

## İmad əl-Qarahisarinin "Şamil əl-lüğat" qlossarisi

A.K.Borovkovun fikrincə, İstanbulda tapılmış XV əsrin sonu XVI əsrin əvvəllərinə aid "Şamil əl-lüğat" türk-fars lüğəti "Müqəddimət əl-ədəb" lüğətinin qısaldılmış formasıdır. "Şamil əl-lüğat"in müəllifinin İmad əl-Qarahisari olduğu yazılsa da, mövzuların və sözlüyün təkrarı eyni bir lüğətdən söhbət getdiyini göstərir. "Şamil əl-lüğat" və "Müqəddimət əl-ədəb" lüğətlərinin müqayisəsini verən A.K.Borovkov İstanbul nüsxəsində Kiçik Asiya türk dialektinin əks olunduğunu bildirir:[199]


| **"Şamil əl-lüğat"** | **"Müqəddimət əl-ədəb"** |
|---|---|
| qulaq | tiş |
| alın | manzlay |
| qaş | qaş |
| kirpik | kirpük |
| göz | köz |
| yüz | yüz |
| ağız | azık |
| dudaq | erin |
| diş | qulaq |
| dil | til |

[199] Son göstərilən əsər, s. 98-99.




161b 162a

***"Şamil əl-lüğat"də əks olunmuş feillər: Əglənmə! Götürdüm. Sevməzəm. Gül! Gülmə! Ağlama! Səni kim vurdi? Göstər! Bəgi gör! Əpsəm ol! Otur! Var. Ol kişini vur! Sözümi eşit! Bildük! Dur! Varidsin.***



149a



148b

"Şamil əl-lüğat"də əks olunmuş bir çox türkcə sözlər (məs., *baş, saqqal, alın, burun, diş, qulaq, dil, dodaq* və s.) Azərbaycan türkcəsinə uyğundur. Ola bilsin ki, ərəb əlifbasına tətbiq edilən ortaq orfoqrafik qaydalar burda böyük rol oynayır.

## Fəzlullah Xan lüğəti

XVII əsrin əvvəllərində Hindistan imperatoru Babur Şahın xəlifi Məhəmməd Evrengzibin (1658-1707) tapşırığı ilə Fəzlullah Xan tərəfindən yazılmışdır. Müəllif o dövrün hökmdarı Şeyx Xanın əmisi oğlu idi. Əsərə "Lüğəti türki" adı qoysa da, daha çox "Risaleyi-Fəzlullah Xan" adı ilə tanınır. 1828-ci ildə Münşi Əbdürrəhim tərəfindən Kəlküttədə yayımlanan nüsxəsi isə "Kəlküttə lüğəti" adını daşıyır. Əsər cağatay türkcəsi və

farsca lüğət olmasına baxmayaraq bəzi sözlərin qarşısında hind dilində qarşılığı verilmişdir.

Lüğət predmet tematik prinsiplə tərtib olunmuşdur, üç qismə bölünür. Birinci qismə əlifba sırası ilə feillər, ikincisinə isimlər, son üçüncü qismə isə saylar, heyvanlar, nəbatat, mədən, türk qəbilə və tayfalarının adları, hərbi geyimlər və s. daxildir.

Lüğətin ilk tədqiqatı 1825-ci ildə Mönşi Əbdürrəhim tərəfindəndən Kəlküttədə həyata keçirilmişdir. Bu tədqiqat əsərində iki əlyazma qarşılaşdırılmışdır. Əlyazmalarından biri İngiltərə Milli Kitabxanasında (British Library), digəri isə Tehran Məlik Milli Kitabxanasına aiddir.

## ƏLİŞİR NƏVAİNİN DİLİNƏ HƏSR OLUNMUŞ MÜƏLLİF LÜĞƏTLƏRİ

XV-XVI əsrlərdə islamın Qərbdən Şərqə Orta Asiyaya doğru yönəltdiyi dil və ədəbiyyat cərəyanı axın edirdi. S.Malovun dili ilə desək, Orta Asiyada bu mədəniyyət axınında türklərin əriyib assimilyasiya olmasına mane olan Əlişir Nəvainin (1441-1501) dahiyanə yaradıcılığı və populyarlığı oldu. O, axına nəinki qoşulmadı, əksinə, bu axını idarə edən və yönləndirən qüvvəyə çevrildi.

Nəvainin 16 mənzum və 16 mənsur olmaqla bir-birindən dəyərli 32 əsərindən ən önəmlisi "Mühakimətül-lügateyn" hesab olunur. 1499-cu ildə qələmə alınan bu əsərin adın "iki dilin mübahisəsi" mənasını ifadə edir. Məhz bu əsərdən sonra Mərkəzi Asiyanın qərbində ədəbiyyatın və mədəniyyətin dili olan fars dili öz mövqelərini təslim etməyə başladı. Nəvai əsərin əvvəlində tarixi səyahətə çıxır, ərəb və fars dillərinin oynadığı rol haqqında danışır, türk dili və mədəniyyətinin yaranması və in-

kişafı, qədim özbək dilinin leksik zənginliyi və ondan geniş istifadənin vacibliyi haqqında məlumatlar verir.[200] Qeyd etmək istərdik ki, A.M.Şerba "özbək dili" ifadəsini işlətsə də, Nəvai "Mühakimətül-lügateyn" əsəri boyu yalnız "türk dili" haqqında danışır.[201]

1499-cu ildə ilk dəfə olaraq Əlişir Nəvai qohum olmayan dillərin müqayisəsini vermişdir.[202] Nəvai "Mühakimətül-lüğəteyn" əsərində dünya dillərinin təsnifatını verir: "Dillərin növləri o qədər çoxdur ki, onların hamısının təsvirini və təsnifatını vermək qeyri-mümkündür. Qısa şəkildə mübaliğəyə yol verməndən demək olar ki, 72 xalq və 72 dil vardır, amma əslində onlar daha çoxdur. Dünyanın yeddi bucağında nə qədər ölkə, şəhər, kənd varsa, o qədər də dil var və hər xalqın da ayrı-ayrı qrupları var. Cəmiyyətin bir qrupunun dili digərindən fərqlənir. Bu fərqlər başqa dillərdə yoxdur.[203]

O, əsərinin 60-80 səhifəsini türk dilinin fars dilindən daha zəngin olmasını sübut etməyə həsr etmişdir. Nəvai burada dilin qrammatik vasitələrini və onun söz yaradıcılığı imkanlarını müqayisəli şəkildə təhlil edir. "O, cağatay dilində ən kiçik anlam fərqi üçün söz yaradıldığı, bu səbəbdən yaxınmənalı sözlərin çoxluq təşkil etdiyini diqqətə çatdırır və beləliklə, fars dilinin bundan məhrum olduğunu bildirir."Mühakimətül-lüğə-

[200] Щербак А.М. Грамматика староузбекского языка. М.-Л.: Изд-во АН СССР, 1962. 276 с., s. 52.
[201] Bax: Alisher Navoiy. Muhokamatul Lug'atayn. 62 səh. http://gunturk.tk/. PDF.
[202] Оманова М. Э. Взгляды Алишира Навои на сравнительное языкознание. Вестник Челябинского государственного университета. 2014. № 14 (343). Политические науки. Востоковедение. Вып. 15. С. 85–87, s. 85.
[203] Навои А. Избр. произведения. Т. 3. Ташкент, 1948. С. 175.

teyn"əsərində hətta Nəvainin öz əsərlərində belə rastlanmayan çox nadir cağatay sözlərini görmək mümkündür ".[204]

Nəvai olduqca oxunan, sevilən bir müəllif və klassik cağatay dilinin qurucusu idi. Onun populyarlığı cağatay türkcəsinin bütün türk ellərində məşhurlaşmasına, İranda, Hindistanda, Azərbaycanda, Osmanlı İmperiyasında, Əfqanıstanda məhz Nəvai dilinə həsr olunmuş çoxsaylı cağatay lüğətlərinin yaranmasına gətirib çıxardı.

## "Abuşqa" lüğəti və ya "Lüğəti-cağatayi"

XVI əsrdə yazılmış cağatayca-osmanlıca bir lüğət olan "Abuşqa" lüğəti Cəfəroğlunun fikrincə, Anadolu ərazisində qələmə alınmışdır və ən qədim əlyazma nüsxəsi 1560-cı ilə aiddir.[205] Z.H.Ölmez göstərir ki, "Abuşqa" Ə.Nəvainin ölümündən sonra tərtib edilmişdir.

"Abuşqa" adı sözlüyün başında gələn ilk baş sözdən götürülmüşdür: ابوشقا .

"Kodeks Kumanikus" lüğətində də işlənən bu söz "qoca", "Abuşqa"da isə "qoca qarı" mənasını ifadə edir.

Bu lüğətin Türkiyə kitabxanalarında müxtəlif, amma birbirinə yaxın nüsxələri mövcuddur: Abuşka, Abuka der lûgati Çağatay, Lûgati Nevaî, Lûgati Mevlâna Nevaî, Lüğəti Mir Əlişir Nevaî, Əl-Lüğat alə lisani Nəvai, el-Lûgati Nəvaiyyə.[206]

Lüğət qısa bir müqəddimə ilə başlayır. Burada cağatay və osmanlı orfoqrafiyaları arasındakı fərq izah edilir. Hər bir baş

[204] Zuhal Kargı Ölmez. Çağatayca sözlükler. Kebikeç/sayı 6. 1998. səh. 137-144, s. 137.
[205] Caferoğlu, Ahmet. Türk Dili Tarihi: I–II. 3. Baskı; Enderun Yayınları: 17. İstambul: Enderun Kitabevi, 1984, XIV+202 say., s. 224-225.
[206] Muharrem Güzeldir. Abuşka lüğati. Doktora tezi. Erzurum – 2002. 639 say., s. 10.

sözün izahından sonra Nəvai başda olmaqla başqa müəlliflərdən götürülmüş illüstrativ materiallar verilir.

Lüğətin sözlüyü 2000-ə qədər baş sözü əhatə edir. Quruluşu ərəb əlifbası sistemi ilə tərtib edilmiş, aşağıdakı şəkildə bölümlərə ayrılmışdır: *üstünlü (fəthəli – a, ə səsi) əlif, əsrəli (kəsrəli – ı, i səsi) əlif, ötrəli (dammalı – u, ü, o , ö səsi) əlif, üstünlü (fəthəli – a, ə səsi) bə, əsrəli (kəsrəli – ı, i səsi) bə, ötrəli (dammalı – u, ü, o , ö səsi) bə, üstünlü (fəthəli – a, ə səsi) tə, əsrəli (kəsrəli – ı, i səsi) tə, ötrəli (dammalı – u, ü, o , ö səsi) tə, üstünlü (fəthəli – a, ə səsi) cim, əsrəli (kəsrəli – ı, i səsi) cim, ötrəli (dammalı – u, ü, o , ö səsi) cim* və s. Baş sözlər şəkilçi ilə birlikdə verilmişdir, məs., *bozladı, tikti, sançkay, karmaygıl* və s. Sözlərin mənaları izah edildikdən sonra hansı əsərdə istifadə olunması haqqında məlumat və beyt şəklində olan nümunənin tərcüməsi də verilmişdir.[207]

Bu lüğət sonradan tərtib ediləcək bir çox lüğətlərə qaynaq rolu oynamışdır.

"Abuşqa"nın illüstrativ materialları 1862-ci ildə A.Vambery tərəfindən macar dilinə tərcümə olunmuşdur; 1868-ci ildə Velyaminov-Zernov tərəfindən türkcə mətni Fransız dilinə tərcümə edilərək Sankt-Peterburqda nəşr edilmişdir. Əsərin elmi nəşrini Türkiyədə Bəsim Atalay həyata keçirmişdir: *Abuşka Lugati veya Çağatay Sözlüğü,* Ankara 1970. 2002-ci ildə Muharrem Güzeldirin "Abuşga" doktorluq tezi işıq üzü görmüşdür. Bu nəşr "Giriş", "Mətn" bölümündə "Abuşqa" lüğətinin müxtəlif nüsxələrindən qarşılaşdırılaraq ortaya çıxarılan tam versiyası, "Nəticə" bölümündə tədqiqatın nəticələri və "Dizin" bölümündə 3021 cağatayca baş sözlərin ərəb və latın hərfləri ilə ayrı-ayrı indekslərindən ibarətdir. Muharrem Güzeldir apar-

[207] Zuhal Kargı Ölmez. Çağatayca sözlükler. Kebikeç/sayı 6. 1998. səh. 137-144, s. 139.

dığı tədqiqatda 20 nüsxəni təsbit etmiş, ayrıca Vamberi Armen tərəfindən hazırlanan "Abuşqa" adlı əsəri də tədqiqata cəlb etmiş və bu nüsxələr arasında böyük bir fərqin olmadığı qənaətinə gəlmişdir.[208]

## "Bədaiü-l-lüğət" cağatayca-farsca müəllif lüğəti

Adıçəkilən lüğət təxminən XV əsrin sonlarında saray şairi Tali İmani tərəfindən tərtib olunmuşdur. Burada Əlişir Nəvai poeziyasında işlənən sözlərin farsca tərcüməsi və izahı verilir.[209] Lüğətdə "Abuşqa" lüğətindən istifadə olunmuşdur.

Əsər Teymurilər dövlətinin hökmdarı Hüseyn Baykaranın (1438-1506) hakimiyyəti dövründə yazılmışdır, lakin əlyazmada h. 1117 / m. 1705-1706 illər qeyd olunmuşdur. Əsərin girişində lüğətin Sultan Hüseyin Baykaran tərəfindən Əlişir Nəvainin əsərlərindən faydalanmaq məqsədilə yazılması əmri verildiyi qeyd olunmuşdur. Lüğət təxminən 1000 söz və qaydalar bəhsindən ibarətdir. "Bədaiu-l-lüğət"də Nəvai, Lütfi, Mir Heydərin şeirlərindən də nümunələr vardır.

"Bədaiü əl-lüğət"in sözlüyünə daxil olan sözlərin saitləri verilməmiş, hərəkələri qoyulmamışdır. Amma hər sözün oxunuşuna dair açıq məlumatlar əks olunmuşdur. Feillər lüğətdə məsdər şəklində verilmiş, düzəltmə feillər təhlil edilmişdir. Sözlər ərəb əlifbası sisteminə görə düzülmüşdür.

"Bədaiü əl-lüğət"in yeganə əlyazma nüsxəsi Leninqrad Dövlət Kitabxanasının Saltıkov Şedrin kolleksiyasında 35-ci nömrə qeydiyyatında saxlanır.

---

[208] Bax: Muharrem Güzeldir. Abuşka lüğati. Doktora tezi. Erzurum – 2002. 639 say., s. IX.

[209] Щербак А.М. Грамматика староузбекского языка. М.-Л.: Изд-во АН СССР, 1962. 276 с., s.53.

"Abuşka" və "Bədaiü-l-lüğat" eyni dövrdə tərtib edildiyinə görə bəzi bənzərlikləri vardır. Lakin tərtibat baxımından fərqlənirlər. "Bedaiü"nün ən orijinal xüsusiyyəti odur ki, İraq və Azərbaycan türkcələrindən də bəhs edir.[210]

1961-ci ildə A.K.Borovkov "Bədaiü-l-lüğət"ə həsr etdiyi tədqiqat əsərini çap etdirmişdir: *Словарь Тали Имани Гератского к сочинениям Алишир Навои, Москва, 1961, 265 с.* O, əsərinin girişində lüğət və müəllifi haqqında geniş məlumat verir, "Bədaiül-lüğət"i "Abuşqa" və "Senglah" lüğətləri ilə müqayisə edir. Ərəb əlifbası sisteminə sadiq qalan alim sözlüyü orijinal tərtibatında təqdim edir. Ardından transkripsiyası, mənası və hansı mətndə istifadə olunması haqqında məlumatlar, daha sonra isə sözün digər lüğətlərdə ("Abuşqa", Şeyx Süleyman Əfəndi, "Dictionnaire turk-oriental, Feth Ali, Budaqov və Rodlovda) necə verilməsi haqqında müqayisələr əks etdirir. Əsərin sonunda faksimilesi verilir.[211]


## Mirzə Mehdi Xanın "Sənglax" (سنگلاخ) lüğəti (1758-1760)

Cağatay dilinə həsr olunmuş bu əsər Nadir Şahın (1736-1747) baş mirzəsi olmuş Mirzə Mehdi Xana aiddir. Məşhur "Tarixi Nadir" əsəri də məhz ona məxsusdur. Əsər Nadir şahın dövründə yazılmağa başlanaraq hicri tarixin 1172-1173-cü illərində tamamlanmışdır. Mirzə Mehdi Xan lüğətin girişində qeyd edir ki, lüğəti Əlişir Nəvainin dilinə həsr etsə da, burada eyni zamanda Füzuli, Lütfi, Hüseyn Baykara, Babür Divani, Baburnamə və cağatayca "Kəlilə və Dimnə"dən də illüstrativ materi-

[210] https://www.turkcenindirilisi.com/

[211] Zuhal Kargı Ölmez. Çağatayca sözlükler. Kebikeç/sayı 6. 1998, səh. 137-144, s.140.

allar seçərək istifadə etmişdir.[212] Müəllif özü haqqında danışarkən gəncliyində Əlişir Nəvainin əsərləri ilə çox maraqlandığını, qarşılaşdığı bir çox çətinliklərə görə əsərinə "sənglax", "daşlıq" adını qoyduğunu qeyd edir.[213]



***İranın Tehran Universitetinin Mərkəzi Kitabxanasında №4919 şifrəsi ilə qorunan "Sənglax" nüsxəsinin birinci və ikinci səhifələri.***

Cağatay türkcəsində olmasına baxmayaraq əsərdə Azərbaycan dilində, Anadolu türkcəsində və monqolca sözlərə də yer verilmişdir. "Sənglax" lüğəti 6000 baş sözü əhatə edir. Əsər üç qismə bölünür. Birinci qismi cağatayca qrammatikadır. Təkcə bu bölümün İstanbul Süleymaniyə Kitabxanasında və Tehranda əlyazmaları mövcuddur. İkinci bölüm bütünlüklə lüğətdir. Üçüncü bölümdə isə Nəvainin əsərlərində istifadə olunmuş ərəb və fars mənşəli sözlər və misalların açıqlamaları yer almışdır.

[212] Son göstərilən əsər, s. 137.
[213] https://www.turkcenindirilisi.com/

"Sənglax" lüğətinin altı əlyazma nüsxəsi dünyanın dörd bir yanına paylanmışdır: Britaniya Muzeyi, Oksforddakı Bodleian kitabxanası, Londonda School of Oriental Studies kitabxanası, Paris və Tehran milli kitabxanaları. Britaniya Muzeyindəki nüsxəsi ilk dəfə 1888-ci ildə Rieunun müəllifi olduğu kataloqda elm aləminə tanıdılmışdır.

Lüğətin quruluşu aşağıdakı şəkildədir: əvvəlcə hərflərə görə "Kitab əl-əlif", "Kitab əl-bə", "Kitab ət-tə" və s. qismlərə bölünür. Hər kitab da "Bab əl-məftuhat", "Bab əl-məqsurat" və "Bab əl-məzmumat" kimi bablara ayrılır. Daha sonra bunlar ilk saitdən sonra gələn hərfə görə bölünür. Feillərin əvvəl məsdər, sonra məlum, məchul, qayıdış, icbar şəkilləri verilmişdir. Sözlərin tələffüzü isə hərəkəli halının yazılışı ilə izah edilir, məs., *arzı* – "dəyəri olmaq" sözünün tələffüzü belə şərh edilir: "bəsükuni-ra və kəsreyi-za".[214]

1910-cu ildə E.Denison Ross "Sənglax"ın Britaniya muzeyindəki nüsxəsinin lüğət qismini çapa vermişdir: *Ross, E. Denison (Edward Denison), Sir, 1871-1940, ed.: The Mabâni ʾl-lughat, being a grammar of the Turki language in Persian; (Calcutta, Asiatic society, 1910), by Mirza Mehdi Khan (page images at HathiTrust; US access only), 142 p*. İranda Tehran Universitetinin Mərkəzi Kitabxanasında olan əlyazması Rövşən Xiyavinin tərtibatı ilə qismən müasirləşdirilərək nəşr edilmişdir: **میرزا مهدی خان استرآبادی . سنگلاخ . فرهنگ ترکی به فارسی از سدهء دوازدهم هجری. تهران ، نشر مرکز ، ۱۳۷۴ ، ۲۸۲ ص**. ISBN 964-305-151-X.

[214] Zuhal Kargı Ölmez. Çağatayca sözlükler. Kebikeç/sayı 6. 1998. səh. 137-144, s.141.

## Məhəmməd Yaqub Çinginin "Kitabi zəbani türki" və ya "Kəlürnamə" lüğəti

Əslən türk olan hindistanlı Məhəmməd Yaqub Çingi tərəfindən XVII əsrin yarısında yazılmış "Zəbani türki" və ya "Kəlürnamə" cağatayca-farsca lüğəti Böyük Moğol İmperiyasının hökmdarı I Aləmgir Şaha ithaf edilmişdir. Üç nüxəsi məlumdur: London, Daşkənd və Uttar Pradeş (Hindistan).

Daşkənd nüsxəsi Özbəkistan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Əlyazmalar arxivində 5052 nömrəsi ilə qeydiyyatdadır. Bu əlyazma 35 vərəqdən ibarətdir. İkinci səhifədən etibarən a üzü hind rəqəmləri ilə nömrələnməyə başlanmış, b üzü isə boş buraxılmışdır.

London nüsxəsi İngiltərə Milli Kitabxanasının (British Museum) Türkcə Əlyazmalar bölümündə Or. 1912 arxiv nömrəsi ilə qeydiyyatdadır. Bu nüsxə sətirlərin sayı az olduğuna görə 261 səhifə təşkil edir. Əlyazmanın əvvəlində və sonunda hər hansı bir möhür, yazılma tarixi və ya katibin adı haqqında heç bir məlumat yoxdur. London nüsxəsi əsasən hərəkəsizdir, lakin bəzi sözlər xüsusi olaraq hərəkələndirilmişdir.

Daşkənd və London nüsxələrində tematik bölgü aşağıdakı şəkildədir:

I fəsil: Göy üzü və onunla əlaqəli sözlər;
II fəsil: Yer və onunla bağlı sözlər;
III fəsil: At və minik heyvanları və onlarla bağlı sözlər;
IV fəsil: Şahin və qızılquş adları;
V fəsil: İnsan bədən üzvləri;
VI fəsil: Ana, ata, əqraba və insanla bağlı sözlər;
VII fəsil: Qurşun, silah və buna bənzər digər adlar;
VIII fəsil: Sayılan (rəqəmlər)
IX fəsil: İsimlər, işarə və şəxs əvəzlikləri, məişətdə işlənən sözlər.

Hindistan nüsxəsi Uttar Pradeş əyalətinin Luknou (Lucknow) şəhərindəki Şibli kitabxanasında (Nədvətül-üləma Şibli Library) 24 nömrəli şifrə altında qeydiyyatdadır. Taliq xətti ilə qələmə alınmış əlyazmanın bəzi yerlərini qurd yediyi üçün oxunmaz vəziyyətdədir. Sətir sayı doqquz olan Hindistan nüsxəsi ən az vərəq sayına malikdir – cəmi 23 vərəq.

Əsər "Zəbani türki" adı ilə tanınsa da, əsl adı "Kəlürnamə"dir. "Kəlürnamə" sözü türk dilində *gəl* + *ür* gələcək zaman şəkilçisi və farsca *namə* hissələrindən ibarət olub simvolik olaraq lüğətin ikidilli olduğunu ifadə edir.

Ərəb lüğətçiliyi ənənəsi ilə qrammatika və sözlük qismlərinə ayrılan bu əsər digər Əlişir Nəvainin dilinə həsr olunmuş cağatayca lüğətlərdən fərqli olaraq türk dilini öyrətmək məqsədilə yazılmışdır. Burada əsasən dövrünün işlək sözləri əks olunmuşdur. Baş sözlərin ümumi sayı 6744 ədəddir. Bunlardan 459-u feildir. Lüğətə omonim və çoxmənalı sözlər daxil edilmiş, hətta şəkilçi və ədatlar da baş söz kimi təqdim edilmişdir.

"Kəlürnamə"nin üç nüsxəsi bir-birindən fərqli quruluşa malikdir. Daşkənd və London nüsxələri tematik üsulla, Hindistan nüsxəsi isə ərəb əlifbası sırası ilə tərtib edilmişdir. Bundan başqa hər birinin fərqli fəsil və babları vardır. Sözlər üçbucaq şəklində düzülmüşdür.

## ORTA ƏSR AZƏRBAYCAN LÜĞƏTÇİLİYİ

Azərbaycan lüğətçiliyi özünəməxsus ənənəyə malik olmuşdur. C.Qəhrəmanov qeyd edir ki, Nəvainin dilinə həsr olunmuş lüğətlərin məhz Azərbaycanda mövcud lüğətçilik ənənəsinə müvafiq meydana gəlməsi türkoloqlar tərəfindən qəbul edilmiş bir həqiqətdir. Azərbaycanda lüğət tərtibi ənənəsinin

əsası hələ XII-XIV əsrlərdə qoyulmuş, farsca-azərbaycanca, ərəbcə-azərbaycanca bir çox lüğətlər yazılmışdır.[215]

Azərbaycan lüğətçiliyinin ilk nümunələri fars dilinə həsr olunmuşdur. Bunlardan ilki Azərbaycan şairi, farsca mükəmməl "Divan" sahibi olan Qətran Təbrizinin (1012-1091) 1046-cı ildə qələmə aldığı "Təfasir" ("İzahlar") əsəri hesab olunur. Fars dilinin ilk izahlı lüğəti sayılan bu kitabda Qətran Təbrizi qədim və çətin anlaşılan təxminən 300 ədəd fars mənşəli sözün mənalarını izah etmişdir. Sözlərin ilk və son hərfinə görə tərtib edilmiş ən qədim Azərbaycan lüğəti olan "Təfasir" qismən öyrənilsə də, nəşr olunmamışdır. Bunun da başlıca səbəbi əsərin əlyazmalarının günümüzə qədər gəlib çatmamasıdır. Bununla yanaşı, sonrakı yüzilliklərə aid bir çox fars lüğətlərində "Təfasir"dən nümunələrə yer verilmişdir ki, bu da onun vaxtilə mövcud olmasını sübut edir.[216]

XI əsrdə yaşayıb-yaratmış Bağdad məktəbinin nümayəndəsi hesab edilən Azərbaycan alimi Xətib Təbrizi (1030-1109) ərəb leksikoqrafiyası sahəsində sözükeçən, sayıb-seçilən bir mütəfəkkir elm adamı olmuşdur. Orta əsr ərəb alimlərindən Yaqut Rumi onu "ədəbiyyat, qrammatika və leksikoqrafiya emlərinin başçısı" adlandırmışdır. O, ərəb leksikoqrafiyası tarixində qafiyə məktəbinin banisi olan İsmayıl Əl-Cövhərinin "Əs-Sihah" lüğətinə düzəlişlər yazmışdır.

XI əsrdə Naxçıvanda yaşamış Əsədi Tusi "Lüğətnamə" (Sözlük) və ya "Sihahül-furs" ("Fars dilinin düzgün lüğəti") adlı bir sözlük tərtib etmişdir. Bu kitabda 1700 fars mənşəli sözün izahı verilmişdir. Əsədi Tusinin lüğətinin qədim bir nüsxəsi günümüzə qədər gəlib çatmış və Tehranda yayımlanmışdır.

---

[215] Qəhrəmanov Cahangir. Hinduşah Naxçivaninin lüğətindən fraqmentlər. "Əlyazmalar Xəzinəsində (əsərlər)" məcmuəsi. III cild. "Elm" nəşriyyatı, Bakı-1972. s. 121-140, s.121.

[216] Nağısoylu Möhsün. Orta əsrlər Azərbaycan lüğətçiliyinə bir baxış". Dilçilik İnstitutunun əsərləri". №1. "Elm və təhsil". Bakı-2016, səh.5-17.

Orta əsr Azərbaycan alimlərindən İbnul-Marafi Məhəmməd Əl-Həmədani ərəb leksikoqrafiyasının birinci mərhələsinin təqalib üsulunun banisi Xəlil ibn Əhməd Əl-Fərahidinin "Kitabul-ayn" lüğətinə düzəlişlər vermişdir. Azərbaycan alimi işinin öhdəsindən müvəffəqiyyətlə gəlmiş, onun düzəlişləri görkəmli ərəb dilçiləri tərəfindən təqdir edilmişdir.[217]

XII əsrdə yaşayıb-yaratmış Əbul-Fəzl Hübeyş Tiflisi ərəb dilinin leksikoqrafiyasına "Tərcüman əl-Quran", "Vucuh əl-Quran", "Ət-Tərcüman" və "Qanun əl-ədəb" əsərlərini həsr etmişdir. Bunlardan ən məşhuru "Qanun əl-ədəb" lüğətidir. Bu lüğət Əl-Cövhərinin ərəb leksikoqrafiyasında əsasını qoyduğu qafiyə məktəbində özünəməxsus yer tutur. Lüğətin müqəddiməsində qafiyə prinsipinin məziyyətlərindən danışan Hübeyş Tiflisi onun şairlər, xüsusilə əcəmlər (farslar) üçün çox faydalı olduğunu vurğulayır. Hübeyş Tiflisinin bu məşhur lüğətinin əlyazmaları dünyanın bir sıra muzey və kitabxanalarında, o cümlədən Britaniya muzeyində, Paris Milli Kitabxanasında və Qərbi Berlinin Dövlət Kitabxanasında saxlanılır.

### Cəmaləddin İbn Mühənnanın "Kitabu hilyətül-insan və həlbətül-lisan" lüğəti (كتاب حلية الإنسان و حلبة اللسان).

Ərəb leksikoqrafiyasının dərslik tipli lüğətləri üslubunda yazılmış bu əsər XIII əsrin sonlarına aid edilir. Lüğətin müəllifinin adı İstanbul nüsxəsi üzərində "Əs-seyyid Cəmaləddin İbn Mühənna" (السيّد جمال الدين ابن مهنّا) şəklində yazılsa da, tam adı və nəsəb silsiləsi (ailə şəcərəsi) qeyd edilmədiyinə görə, haqqında apardığımız tədqiqatda iki ziddiyyətli məlumatla qarşılaşdıq.

[217] Məmmədəliyev Vasim. Ərəb dilçiliyi, ali məktəb dərsliyi. Bakı: "Maarif", 1985. 288 səh.

Birinci informasiyanı Kilisli Müəllim Rüfət əldə etmişdir. İbn Mühənnanın nəsəbini müəyyənləşdirə bilməyən Rüfət Kilisli tanınmış alim Əli Əmiri Əfəndi ilə öz fikirlərini bölüşərkən Əli Əmiri lüğətin müəllifinin "Ümdətu-t-Talib fi ənsabi Əli Əbu Talib" əsərini yazmış İbn Mühənna olduğunu söyləmişdir. Kilisli Rüfət adıçəkilən kitabın 1318-ci ildə Bombeydə basılmış ikinci nəşrini tapıb araşdırmış, 108-ci səhifədə müəllifin uzun adının və nəsəb silsiləsinin Cəmaləddin Əhməd ibn Əli ibn əl-Hüseyn ibn Əli İbn Mühənna İbn İnəbə əl-Əsgər olduğunu müəyyənləşdirmişdir. Buradan və ondan bəhs edən digər bioqrafik əsərlərdən anlaşıldığına görə, müəllif "İbn Mühənna"dan çox "İbn İnəbə" adı ilə şöhrət qazanmışdır. 748/1347-ci ildə İraqda dogulduğu və 828/1424-cü ildə Kirmanda vəfat etdiyi ehtimal edilir. Onun əslən Məhəmməd peyğəmbərin nəslindən, yəni seyidlərdən olduğu, Hicazdan İraqa köçdüyü məlum olmuşdur. İbn Mühənna yuxarıda qeyd edilən nəsəb kitabı və "Hilyətül-insan və həlbətül-lisan" adlı lügətindən başqa, "Bəhrü-l-Ənsab" adlı əsəri də qələmə almışdır.[218]

Digər bir informasiya isə müasiri və bilavasitə tələbəsi olmuş, İbn Mühənnanın əlyazmalarını köçürmuş iraqlı tarixçi və katib İbn əl-Fuvatinin (ö. 723/1323) verdiyi az bir məlumatdan ibarətdir.[219] Bu informasiyaya görə, lüğətçinin tam adı belədir: Əbu əl-Fəzl Cəmaləddin Əhməd Məhəmməd Həsən əl-Hilli (ö. 682/1283). Milliyyətcə ərəb olan İbn Mühənna iraqlı dil alimi və tarixçisi kimi tanınır. "Nisbəsindən[220] Bağdad və Kufə arasındakı Hillə şəhərində doğulub böyüdüğü anlaşılan alimin ailəsi və təhsili haqqında mənbələrdə bir məlumat yoxdur. İbn

[218] Tülücü, Süleyman. İbn Mühenna Sözlüğü ve Bu Sözlükte "Kadın" ve "Kadın Akrabalık Adları" İçin Kullanılan Sözler. https://dergipark.org.tr/tr/download/article-file/33346

[219] Telḫîṣu Mecmaʿi'l-âdâb, IV/1, 256 say., s. 100.

[220] Ərəblərdə şəxsin hansı məmləkətə aid olduğunu bildirən və harda doğulduğunu göstərən şəxsin adından sonrakı əlavə ləqəb.

Mühənna Abbasilər dövlətinin monqollar tərəfindən məğlubiyyətinin şahidi olmuşdur (1258). Bağdadda və Elxanilər dövlətinin[221] paytaxtı Marağadakı "Dar əl-elm və əl-hikmə və ər-rasad"da (Elm, hikmət və rəsədxana evi) rəsmi vəzifəni icra etmişdir.[222] Zəhəbi İbn əl-Fuvatiyə əsaslanaraq Mühənnanın hicri tarixlə 682-ci ilin səfər ayında (1283-cü ilin may ayında) Bağdadda vəfat etdiyini qeyd edir.[223]

Birinci məlumat XIV-XV əsrləri əhatə edirsə, ikincinin tarixi İbn Mühənna lüğətinin dərin tədqiqatını aparmış P.Melioranskinin elmi nəticələri ilə üst-üstə düşür, yəni XIII əsrin sonları, XIV əsrin əvvəlləri. P.Melioranski Avropa nüsxələrində müəllifin adının qeyd olunmadığı və İbn Mühənnanın şəxsiyyəti haqqında heç bir məlumatı olmadığı halda, çox düzgün təhlil aparıb, "Hilyətül-insan və həlbətül-lisan" (İnsanın bəzəyi və dilin sahəsi) əsərinin Hülakülər dövründə İran regionunun şimal-qərbində[224] XIV əsrdən gec olmayaraq XIII əsrin ikinci yarısında yazıldığı ehtimalını irəli sürmüşdür.[225] Lüğətin nəticə hissəsində erməni, gürcü və yunan dillərinin adlarının çəkilməsi əsərin indiki İranın Hülakülər dövründəki şimal-qərb zonasında yazıldığına işarədir. Amma lüğətdə nə erməni, nə də gürcü dilində bir kəlmə sözə rast gəlinmir, yunan dilində isə iki

[221] Elxanilər dövləti və ya Hülakilər dövləti – 1258-cı ildə Çingiz xanın nəvəsi Hülaki xan (1258-1265) tərəfindən yaradılmış dövlət. Elxanilər dövlətinin əraziləri Fars körfəzindən Dərbəndə və Ceyhun çayından Misirə qədər uzanırdı. Ölkənin ən başlıca və mühüm məmləkəti Azərbaycan idi. Məhz burada dövlətin paytaxtları, əvvəlcə Marağa, daha sonra isə Təbriz yerləşirdi.

[222] TDV İA, 20. Cilt, s. 218–219. http://avetruth-books.blogspot.com/2018/08/aptullah-battal-ibnumuhenna-lugati-1934.html

[223] Târîḫu'l-İslâm, XI, vr. 107a.

[224] İndiki İran İslam Respulikasının Şərqi Azərbaycan ostanı ərazisi.

[225] Bax: П.М.Мелиоранский, Араб филолог о турецком языке. Санкт-Петербург, 1900. 217 səh., s. XVI.

söz vardır.[226] Melioranski öz tədqiqat əsərində lüğətin türkcə hissəsinin qədim Azərbaycan türkcəsi olduğunu sübuta yetirir və bildirir ki, əsərdə Türküstan türkcəsi ilə "bizim məmləkətin türkcəsi" dəfələrlə qarşılaşdırılsa da, lüğətdə təqdim edilən sözlər əsasən Azərbaycan türkcəsindədir.[227] Yeri gəlmişkən, Melioranski məmləkətimizin və dilimizin adını "Aderbeydjan", "aderbeydjanskiy dialekt" (Адербейджанѣ, адербейджанѣский диалектѣ) şəklində çəkir. Lüğətdə qarışıq türk dialektlərinin verilməsini dahi alim belə izah edir: "Monqol-türk qoşunlarının yürüşünə qədər türk tayfalarının cənub boylarından olan oğuz əsilli Səlcuqlar İran ərazisinin bəzi yerlərində artıq məskən salmışdılar. Hülakü qoşunlarının tərkibində isə çox güman ki, şərqi türk elementləri (uyğurlar) mövcud olmuşdur.[228]

Yuxarıda göstərilən iki versiya – İbn Mühənna lüğətinin XIII-XIV və ya XIV-XV əsrlərə aid edilməsi fərziyyələrində, fikrimizcə, sonuncu doğru deyildir. Çünki XIV əsrin sonları və XV əsrin əvvəllərində yaşamış Nəsiminin dilində Türküstan türkcəsi elementlərini ilə uyğunluq təşkil edən qıpçaq elementlərinə geniş şəkildə rast gəlmək mümkündür. İbn Mühənna lüğətində göstərilən qrammatik xüsusiyyətlər əsərin əslinin çox qədim olduğunu göstərir.[229] İbn Mühənna öz lüğətində dəfələrlə Türküstan, türkmən dillərini, erməni, gürcü, hətta yunanları xatırlatdığı halda, "qıpçaq" [230] sözünün heç adını da çəkməməsi təəccüb doğurur. Amma bununla belə, lüğətdə qıpçaqca leksik vahidlər çoxluq təşkil edir.

Əsərin Marağada qələmə alındığı təxmin edilir. Elxanilər dövlətinin rəsmi dili türk dili olmuşdur, lakin bununla yanaşı mədəniyyət, idarəçilik, ticarət və ictimai həyatda ərəb, fars və

[226] П.М.Мелиоранский, 1900, s. XVI.
[227] П.М.Мелиоранский, 1900, s.XVII-XX.
[228] П.М.Мелиоранский, 1900, s. XX.
[229] Bu barədə az sonra İstanbul nüsxəsi bölümündə danışılacaqdır.
[230] Bax: П.М.Мелиоранский, 1900, s. XVIII.

monqol dillərinin də istifadə edildiyini qeyd edən İbn Mühənna kitabını ərəblər üçün dərs vəsaiti olaraq tərtib etmişdir. Əsər klassik ərəb dilində (Qurana əsaslanan ərəb dili) yazılmamışdır. Belə ki, burada işlənən ibarələr, terminlər, söz birləşmələri müasir ərəblər üçün belə anlaşılmazdır. Biz tədqiqatımızı apararkən İstanbul nüsxəsinin basma nəşrinə[231], Melioranskinin tərcüməsinə[232] və Bəkir Çobanzadənin tədqiqatına[233] əsaslanmışıq.

Lüğət müqəddimə və üç qisimdən ibarətdir: fars, türk və monqol. Onun müqəddiməsi və bütün qisimlərdə tərcümələr, qrammatik izahlar ərəb dilindədir. İbn Mühənna lüğəti quruluşca tematik prinsipdədir və hər qisim bablara, fəsillərə bölünmüşdür. Əsərin birinci sırada gələn fars dilinə ayrılan qismi ümumi dilçilik məlumatları, giriş və iyirmi səkkiz bölümdən ibarətdir. Birinci bölümdə Allahın otuz üç adı və on üç terminin fars dilində qarşılığı göstərilmişdir. İkinci bölümdə feilin təsriflənən formaları verilmiş, digər bölümlərdə isə müxtəlif sahələrdəki 1291 ərəbcə sözün fars dilində tərcüməsi qeyd edilmişdir. Lüğətin ikinci qismi olan "Türk dili bölümü" haqqında geniş məlumat aşağıda əks olunmuşdur. Əsərin üçüncü sırada gələn monqolca qismində isə feil və əvəzlik barəsində bəzi qısa məlumatlardan əlavə, dillə bağlı hər hansı bir açıqlama verilməmiş, sadəcə müxtəlif gruplara aid isim, feil və ədatlar iyirmi beş bölüm halında sıralanmışdır. İstanbul nüsxəsinin monqol dili bölümünü işləmiş Nicholas Poppenin tərtibatında bu qisimdə 928 monqol sözü yer almışdır.

---

[231] السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri .1934, 241 səh. Türk dili qismi: 71-191.

[232] Мелиоранский П.М. Араб филолог о турецком языке. Санкт-Петербург, 1900. 217 səh.

[233] Çobanzadə Bəkir. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 368 səh., s. 53-141.

Türk dilini əks etdirən ilk əsərlərdən biri olan İbn Mühənna lügətinin altı nüsxəsi məlumdur. Bunlardan biri İstanbul Arxeoloji Muzeyi Kitabxanasında (keçmiş adı: "Müze-i Humâyûn") № 1202 şrifti ilə qeydiyyatdadır. Üçü Oksforddakı "Bodleian Library"də, biri "Berlin Staatsbibliothek" (№ 60), biri də "Paris Bibliothèque Nationale" (Ancien Fonds Turc № 208 Gaulmin) kitabxanalarında qorunur. Nüsxələrin hamısı üzdən köçürülmədir və orijinal əsərlər deyil. Onlar tərkibinə görə bir-birindən fərqlənir. Katiblər tərəfindən köçürülərkən bəzi hissələr ixtisara salınmış, bəzilərinə müstəqil lüğət tərtibatı verilmiş, əlavələr edilmişdir və s. Beş Avropa nüsxəsi ümumi quruluş və tərkib baxımından İstanbul əlyazmasından fərqlənir. Bu səbəbdən onları müvafiq bölgü ilə ayrı-ayrı araşdırmaq qərarına gəldik.

**Avropa nüsxələri.** Avropa nüsxələrinin beşində də adı "Kitabi tərcümani farsi və türki və moğoli" ( کتاب ترجمان فارسی و ترکی و مغولی) şəklində yazılmışdır və heç birində müəllifin adı göstərilmir. Bu əlyazmalara ilk diqqət yetirən professor baron V.R.Rozen olmuşdur. O, 1875-ci ildə Oksfordun Bodleian kitabxanasındakı Thurston 14 nüsxəsinin türkcə olan qismini Laud B 28 (hazırda Laud Or. 43) və Marsh 238 nüsxələrindəkilərlə qarşılaşdırma aparmış, 1890-cı ildə isə "Türk və monqol dillərinin ərəb dilində yazılmış qədim qrammatikaları haqqında" (О древнейших грамматиках турецкого и монголского языков, написанных на арабском языке) materialını dərc etdirmişdir. Sonradan o, əlində olanları rus şərqşünas-türkoloqu Platon Mixayloviç Melioranskiyə təqdim etmişdir. Melioranski isə yuxarıda göstərilən üç nüsxədən əlavə Berlin və Paris nüsxələrini də tədqiqata cəlb etmişdir. Bu nüsxələrdə lüğətçinin adı bəlli olmadığına görə, o, tədqiqat əsərini 1900-cü ildə "Bir ərəb filoloqu türk dili haqqında" başlığı altında nəşr etdirmişdir. 1901-ci ildə Melioranski eyni adlı doktorluq dissertasiyası-

nı yazaraq müdafiə etmişdir. Əsərin monqol dili hissəsini isə o, 1904-cü ildə nəşrə vermişdir.

Oksford Universitetinin Bodleyn Kitabxanasında (Bodleian Library) olan əlyazmalar bunlardır:

- Thurston 14
- Laud Or. 43 (əvvəlki şrifti – Laud B 28)
- Marsh 238 [234]

*MS. Thurston 14* nüsxəsi XIV və ya XV əsrlərə aid edilir. 96 vərəqdən ibarətdir. Adı belə verilir: "Kitabi tərcümani farsi və türki və moğoli" (کتاب ترجمان فارسی و ترکی و مغولی). Bodleyn Kitabxanasına necə daxil olduğu məlum deyil. P.Melioranski yazır: "Əlyazmalar arasında ən tam versiyalı olan Thurston 14 nüsxəsidir. Bu əlyazma görüntü və xəttatlıq baxımından çox qədim təsir bağışlayır."[235] O səbəbdən Melioranski sonuncu nüsxənin bir səhifəsinin şəklini çəkib bir çox alimlərə göstərmiş və müəyyən bir fikir ayrılığı olsa da, onun XIV əsrin birinci yarısına aid olduğu qənaətinə gəlinmişdir.

*MS. Laud Or. 43* nüsxəsinin köçürülmə tarixi XVI əsrə aid edilir, 49 vərəqdən ibarətdir. Adı belə verilir: "Kitabi tərcümani farsi və türki və moğoli" (کتاب ترجمان فارسی و ترکی و مغولی). Arxiyepiskop Vilyam Laudun tərəfindən hədiyyə edilmiş bu nüsxə Bodleyn Kitabxanasına 1638-ci ildə daxil olmuşdur. Bu əlyazmada monqol dili hissəsi yoxdur, kiçik həcmli olub vərəqlərin kənar haşiyələrində katibin özünə məxsus qeydləri, əlavələri vardır. Yazılar nəsx xətti ilə qələmə alınmışdır.

*MS. Marsh 238* nüsxəsinin köçürülmə tarixi 1657-ci ilə aiddir. 97 vərəqdən ibarətdir. Adı belə verilir: "Kitabi tərcümani farsi və türki və moğoli" (کتاب ترجمان فارسی و ترکی و مغولی). Melioranskinin fikrincə, bu əlyazma *MS. Thurston 14* nüsxə-

[234] https://www.fihrist.org.uk/catalog/work_3141

[235] Мелиоранский П.М., Араб филолог о турецком языке. Санкт-Петербург, 1900. 217 səh., s. XII-XIII.

sindən bir avropalı tərəfindən köçürülmüşdür və üç hissənin üçü də tam şəkildədir.[236] *MS. Marsh 238* nüsxəsi Bodleyn Kitabxanasına 1714-cü ildə arxiyepiskop Nartsis Marşın vəsiyyəti ilə ölümündən sonra şəxsi kitabxanasından daxil olmuşdur.

*Ancien Fonds Turc № 208 Gaulmin* nüsxəsi Fransanın Paris milli Kitabxanasında (Paris Bibliothèque Nationale) saxlanır. "Uzunluğu 16,4 sm, eni 10,1 sm olan 60 vərəqdən ibarətdir. Nəsx xətti ilə qələmə alınmışdır, amma üzərində yazılma tarixi barədə məlumat yoxdur. Əlyazmanı görünüşündən hicri tarixin IX əsrinə aid etmək olar. Bu lüğətin başlığı yoxdur və natamamdır. Kitab belə başlayır: القسم الثانى من الكتاب في اللغة التركية والمسطور الخ. (Türk dili kitabından ikinci hissə və digər yazılar). Beləliklə burada "ön söz" və fars dili qismi yoxdur".[237] Türk dili hissəsi demək olar ki, tam şəkildədir. Yalnız sonuna yaxın hissələri yarımçıqdır və nəticəsi yoxdur. *MS. Laud Or. 43* nüsxəsində olduğu kimi, burada da orijinalda olmayan əlavələr vardır və ikisi də müstəqil lüğət şəklindədir.

*"Berlin Staatsbibliothek" (№ 60)*. Burada yalnız monqol və türk dili hissələri var. Monqol dili türk dilindən əvvələ keçirilmişdir. *MS. Thurston 14* nüsxəsindən fərqli yerləri çox azdır.[238]

Beş lüğətin beşində də eyni səhvləri müşahidə edən Melioranski bu qərara gəlmişdir ki, onlar eyni bir nüsxədən – artıq xarab edilmiş arxetipdən köçürülmüşdür. Ona görə də nüsxələri qarşılaşdıraraq vahid tam versiyasını yaratmaq orijinal nüsxənin deyil, korlanmış arxetipin bərpası ilə nəticələnəcəkdir.[239] Melioranski bütün nüsxələrdə təkrarlanan aşağıdakı səhvləri göstərir:

[236] Мелиоранский П.М., 1900, 217 səh., s. XIII.
[237] Мелиоранский П.М., s. XIII-XIV.
[238] П.М.Мелиоранский, s. XIII.
[239] Bax: П.М.Мелиоранский, s. XIV.

1) وضع الحروف و الادوات باب و هی الخ bu sözlərdə mütləq səhv vardır, amma bütün əlyazmalarda hərfbəhərf təkrarı verilir;

2) Bütün nüsxələrdə مداخل əvəzinə متداخل verilir;

3) Bütün nüsxələrdə مثقّاة əvəzinə مثقّلة verilir;

4) Bütün nüsxələrdə نون sözü işlənməli olduğu yerdə işlənmir;

5) Bütün nüsxələrdə و انما ابدلت الدال تاء لتقارب əvəzinə و انما ابدلت الدال بالتقارب verilir;

6) Bütün nüsxələrdə الكاف əvəzinə mənası olmayan الكلّى verilir;

7) Bütün nüsxələrdə الضمّة əvəzinə الفتحة verilir;

8) Bütün nüsxələrdə mümkün olmayan başlıq verilir: الثانية الافعال

9) Bütün nüsxələrdə الدال əvəzinə اللام verilir və s.[240]

**İstanbul nüsxəsi.** Bu əlyazma İstanbulda Arxeoloji Muzey Kitabxanasında (Arkeoloji Müzesi Kütüphanesi, nr. 1202) qorunur və köçürülmə tarixi XVI əsrə aid edilir. 20-ci əsrin əvvəllərində tapılan bu nüsxədən nəhayət ki, "Hilyətül-insan və həlbətül-lisan" lüğətinin müəllifinin adı elm aləminə məlum olmuşdur. Kilisli Müəllim Rüfət İstanbul nüsxəsini 1922-ci (h. 1340) ildə çapa vermişdir. 1934-cü ildə Abdullah Battal Taymas tərəfindən həmin əlyazmanın türk dili bölümündə işlənən bütün türk sözlərinin lüğəti indeksi ilə tərtib edilmişdir: *İbnü-Mühennâ Lûgati, İstanbul, 1934*.

Azərbaycanda 1936-cı ildə Bəkir Çobanzadə *"İbn Mühənna və onun lüğəti"* adlı tədqiqat əsərini yazmış[241] və sonuna ərəb dilindən tərcümə edərək hazırladığı "Hilyətül-insan və

[240] П.М.Мелиоранский, 1900, s. XIV.

[241] B.Çobanzadə bu əsərində P.M.Melioranskinin "Араб филолог о турецком языке" tədqiqatına və Rifət Kilislinin İstanbul nüsxəsi nəşrinə istinad etmişdir.

həlbətül-lisan" lüğətinin 74 səhifəlik türk dili qismini əlavə etmişdir. Lakin makina çapında ərəb əlifbası ilə olan yazılar üçün saxlanan boş yerləri doldurmağa və bəlkə də daha geniş tədqiqat aparmağa imkan tapmamışdır: Çobanzadənin tədqiqatında İbn Mühənnanın qrammatik və fonetik şərhlərinin hər birinə münasibətini görmək mümkün deyildir. Çünki təəssüflər olsun ki, 1937-ci ilin repressiya kabusu bu genişsahəli biliklərə malik yaradıcı alimi öz qurbanları sırasına almışdır. Adıçəkilən tədqiqatın makina çapı və əlyazması hazırda Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində 171 nömrəli fondda saxlanır. 2007-ci ildə çap olunan Bəkir Çobanzadənin 5 cildlik *"Seçilmiş əsərləri"*nin II cildində "İbn Mühənna və onun lüğəti" adlı tədqiqatı öz əksini tapmışdırsa da, lakin lüğətin tərcüməsi natamam olduğuna görə buraya daxil edilməmişdir. [242]

2008-ci ildə Tofiq Hacıyev P.M.Melioranskinin "Арабˆ филолог о турецком языке" tədqiqatı və Abdulla Battalın "İbnü-Mühennâ Lûgatı" əsərinin müqayisəli təhlili əsasında *"Seyid Əhməd Cəmaləddin İbn Mühənna. Hilyətü-l-insan və həlbətü-l-lisan"* adlı kitabını nəşr etdirmişdir.

Melioranskinin tədqiqatı ilə İstanbul nüsxəsinin müqayisəsi göstərir ki, Avropa nüsxələrində sözlərin yerləri katiblər tərəfindən səhv köçürülüb. Bu səhvləri müşahidə edən Melioranski əlyazmaların artıq korlanmış arxetipdən köçürüldüyü qənaətinə gəlmişdir. İstanbul nüsxəsində isə misalların yerləri doğru şəkildədir. Burada səslərin fonetik xüsusiyyətlərinin şərhini vermək üçün tətbiq edilən transkripsiya xarakterli diakritik işarələr diqqəti cəlb edir. Bu işarələr lüğət hissəsində deyil, yalnız fonetik şərh bölümündə yer almışdır. Tədqiqatçılar yekdilliklə İstanbul nüsxəsini ən qədim və ən mükəmməl hesab edirlər. Amma bununla belə, o yenə də orijinal deyildir.

[242] Bəkir Çobanzadə. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 368 səh.

Sergey Malov Rüfət Kilislinin sözlərini təsdiqləyərək yeni tapılmış İstanbul nüsxəsini Avropa nüsxələrindən daha dolğun və leksik baxımdan daha yaxşı hesab edir. Amma Avropa nüsxələrində olduğu kimi burda da səhvlərə yol verildiyini bildirsə də, açıqlamasını vermir.[243] Rüfət Kilisli İbn Mühənna lüğətinin basma nəşrinin ön sözündə İstanbul əlyazması ilə Avropa nüsxələrinin arasında olan fərqi aşağıdakı şəkildə verir:

1) Bizim nüsxədə təqribən 10 faiz artıq söz var;

2) Bizim nüsxədə hərəkə və hərf işarələri vardır;

3) Bizim nüsxədə müəllifin adı Cəmaləddin İbn əl-Mühənna göstərilmişdir, basmada isə yox. Əsərin adı "Hülyat əl-insan hülbət əl-lisan" yazılmışdır, basmada isə "Tərcüman".[244]

Nəsiminin dövrünə çox yaxın bir zamanda qələmə alınmış İbn Mühənna lüğətinin istər Avropa, istərsə də İstanbul nüsxələrində "Türküstan türkcəsi" ilə "bizim ölkənin türkcəsi" (Azərbaycan türkcəsi) arasında eyni şəkildə müqayisələr aparılır[245], hətta şəkilçilər və səs dəyişimi kimi fərqlər göstərilir. Biz onu cədvəl şəklinə saldıq:

| **Türküstan türkcəsində** | **Azərbaycan türkcəsində** | **Mənası** |
|---|---|---|
| İdi (ایدی), iẑi (ایذی) | İti (ایتی) | Sahib |
| ətkü (اَتکو), əẑkü (اَذکو) | Eykü (ایکو) | Yaxşı |
| ədaq (اَداق), əẑaq (اَذاق) | Ayaq (ایاق) | Ayaq, qədəh |

[243] Bax: Малов С. Ибн-Муханна о турецком языке. Записки Коллегии Востоковедов, Ш. Ленинград: Издательство Академии Наук СССР, 1928. c. 221-248, s.15.

[244] السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri, 1934, s. ج .

[245] Bax: السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri. 1934, s. 79-80; П.М.Мелиоранский, Араб филолог о турецком языке. Санкт-Петербург, 1900. 217 səh., s. 09.

Bəkir Çobanzadə İstanbul nüsxəsinin 78-90-cı səhifələrində 72 yerdə müqayisələrə yer verildiyini göstərir.[246]

Türküstan türkləri Hülakü qoşunlarının tərkibində mövcud olmuşlar və İbn Mühənnanın lüğətində onların dialektinə xüsusi diqqət ayrılması həmin dövrdə nüfuz sahibi olmalarından xəbər verir. Görünür, Azərbaycan ərazisində olan uyğurlar sonralar monqollar kimi yerli türklərin arasında assimilyasiyaya uğramışlar. B.Çobanzadə İbn Mühənnanın lüğətinə Türküstan türkcəsini əlavə etməsi ilə bağlı yazır: "Müxtəlif türk sistemli dillər haqqında yazan müəlliflər daima uyğur dilinə müraciət etmişlərdir. Bunun səbəbi XIII-XIV miladi əsrlərə qədər uyğur ədəbiyyatının türk sistemli dillərdə ən ziyadə inkişaf etmiş və işlənmiş olmasıdır."[247] Doğrudan da orta əsr Azərbaycan əlyazmalarında, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanında uyğur ərəb əlifbasının xüsusiyyətlərini görmək mümkündür.[248]

Sergey Malov müəllimi olmuş Melioranskinin Avropa nüsxələrini Azərbaycan dili ilə əlaqələndirməsini haqlı hesab edir. Lakin İstanbul nüsxəsinin uyğur dilində olduğu fikrini irəli sürür. Adıçəkilən lüğətdə Azərbaycan türkcəsinin əks olunduğunu elmi əsaslarla sübuta yetirən Bəkir Çobanzadə Malovun bu fikri ilə razılaşmayaraq şəxsən özü ilə elmi mübahisə aparmış, 1936-cı ilin avqust ayında bu mübahisə nəticəsində professor Sergey Yefimoviçin dəstəyini almışdır.[249]

Abdullah Battal isə Malovun fikirlərini təkrarlayaraq İbn Mühənna lüğətinin Avropa nüsxələrinin qədim Azərbaycan dilinə uyğun gəldiyini, amma İstanbul nüsxəsinin şərqi türk, Kaş-

[246] Bəkir Çobanzadə. Seçilmiş əsərləri. II cild. 2007, s.59.
[247] Çobanzadə Bəkir. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 368 səh., s.71.
[248] Bax: "İbn Mühənna lüğəti əsasında XIII əsr Azərbaycan vokalizminin təyini" başlığı, s.181.
[249] Çobanzadə Bəkir. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 368 səh., s.97.

ğar və uyğur dilində olduğuna əminliyini ifadə edir.[250] Ahmet B. Ercilasun daha da irəli gedərək əsərin adını "Hilyetü'l-Lisân ve Hulbetü'l-Beyân" şəklində göstərməkdən əlavə, son nüsxəni "Harezm Türkçesine Ait Eserler" bölümünə aid edərək, onun xarəzm türkcəsində olduğunu bildirir. Səbəb olaraq isə əsərdəki türkcə sözlərdə y>d (dişarası) əvəzləmələri, birdən çox hecalı sözlərdə düşmə hallarında *g*-lərin qorunması kimi faktları göstərir. Bununla yanaşı qeyd edir ki, lüğətdə *d* ilə olan nümunələr oğuz xüsusiyyətləridir. Amma *f* ilə olan nümunələr daha çoxdur.[251]

Ercilasunun nümunələrlə əsaslandırmadığı bu şərhi aydın bir mənzərə yaratmadığına görə, qeyd etməliyik ki, yuxarıda göstərildiyi kimi, İbn Mühənna Türküstan türkcəsindən istifadə etmişdir. Belə ki, on dördüncü fəsildə ismin çıxışlıq halının -*din* (دين), yönlük halının -qa, -ka (قا، كا), feili sifət əmələ gətirən -ğan (غان) + -li (لي) (*gəlgəli* "gələn", *barğali* "gəzən") şəkilçiləri, gələcək zaman şəkilçisinin -ğay, gay[252] şəklində olması Qaraxani türkcəsinə məxsus xüsusiyyətlərdir. Bu nümunələr həm Avropa, həm də İstanbul nüsxələrində eyni şəkildə verilmişdir. Göstərilən şəkilçilərdən bəziləri hətta İbn Mühənna tərəfindən "bizim ölkənin türkləri"nə aid edilir və Mahmud Kaşğarinin əsərində də qədim oğuz türkcəsində olduğu göstərilir. Məsələn, feilin gələcək zamanını bildirən -ğay, -gay şəkilçisi: *vuruşğay biz* (وُرُشْغای بيز) "biz vuruşacağıq", *dutuşğay biz* (دُطشغای بيز) "biz tutaşacağıq", *nə bulğay*? (نا بولغای) "nə olacaq?". Qeyd etmək lazımdır ki, -ğay şəkilçisi XIII-XIV əsr qıpçaq dilində də

[250] Battal, Aptullah. İbnü Mühenna Lugati. 3. Baskı. Ankara 1997. 105 say., s. 2.

[251] Bax: Ercilasun, Ahmet B. Başlangıcından Yirminci Yüzyıla Türk Dili Tarihi. Akçağ Yayınları / 603, Araştırma - İnceleme / 50. ISBN 975-338-589-7. Baskı I Ankara 2004. 488 səh., s. 385.

[252] Bax: السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri, 1934, s. 117.

mövcud olmuşdur. Bunu Əbu Həyyanın lüğətində və "Kodeks Kumanikus"da görmək mümkündür. Nəzərə alsaq ki, dilimiz oğuz-qıpçaq xüsusiyyətlərini daşıyır və İbn Mühənnanın ""Bizim ölkənin türkləri" *nə bulğay?* əvəzinə bəzən *nə olğay* deyirlər"[253] qeydi XIII-XIV əsrlərdə Azərbaycan türkcəsində bu şəkilçinin olmasından xəbər verir. Belə ki, XIV əsrin nümayəndəsi olan Qazi Bürhanəddinin dilində *-ğay* şəkilçili feillərə rast gəlmək mümkündür:

Cənnətdə yüzün kibi *hur olmağay*,
Məst gözün kibi *məstur olmağay*.
Yoluna can oynamağı dilərəm,
Qorxum oldur ki, ana *dəstur olmağay.*[254]

XV əsrin ortalarında Cənubi Azərbaycan ərazisində yaşamış Nemətulla Kişvərinin dili, zənnimizcə, İbn Mühənna lüğətində əks olunmuş yerli türklərin dialektinə daha yaxın olmalıdır. Çünki XIV-XV əsrdə yaşamış Nəsiminin dilində *-ğay* şəkilçisini görə bilmiriksə, XV əsrin ortaları və ikinci yarısında yaşamış Kişvərinin şeirlərində bu suffiksə rast gəlinir:

Həlqəyi-zülfüni görgəc könlümün əfğanıdur,
Tifyanlıq kim, *çığırğay* nagəhan yılan görüb;[255]
Zə'fəranı yüzüm üzrə qırmızı donun görüb,
Əşki-güldünüm şəqayiqdür kim, *açılğay* bəhar.[256]
Dustilər qan *ağlağay* mən piri-hicrin halına
Lalə tək gər zahir olsa dağı-pünhanım mənim.[257]

Ola bilsin ki, kimsə Kişvərinin yaradıcılığında bu şəkilçinin olmasını Nəvainin təsiri ilə əlaqələndirsin. Çünki həqiqətən

[253] كتاب حلية الانسان و حلية اللسان. s.80.
[254] Qazi Bürhanəddin. Divan. (tərtib edən Əlyar Səfərli). "Öndər nəşriyyatı", 2005, 728 səh., 694-cü tuyuq.
[255] Nemətulla Kişvəri. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2004, 176 səh., s.17.
[256] Göstərilən əsərdə, s.26.
[257] Göstərilən əsərdə, s.73.

də, orta əsr təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi olmuş və türk poeziyasının populyarlaşmasında əvəzolunmaz xidmətlər göstərmiş Əlişir Nəvai XV əsr Azərbaycan şairlərinin, o cümlədən Nemətulla Kişvərinin yaradıcılığına böyük təsir göstərmişdir. Amma nəzərə almaq lazımdır ki, XIV əsrin nümayəndəsi olan Qazi Bürhanəddinin dilində də bu şəkilçi müşahidə olunur. Üstəlik İbn Mühənnanın lüğətində təsvir edilən XIII əsr cənubi Azərbaycan dialektində *-ğay* şəkilçisinin yeganə gələcək zaman morfemi kimi təqdim edilməsi faktı var.

Qızılgül Abdullayeva *-ğay//-gəy* morfeminin vəzifə və funksiyalarının qəti gələcək zaman *-acaq*[2] şəkilçisi ilə üst-üstə düşdüyünü, XVII əsr ədəbiyyatı təmsilçilərinin dilində artıq geniş əhatə dairəsi tapa bilmədiyini qeyd edərək, Məhəmməd Əmaninin dilində bu morfemin sıxlıq təşkil etdiyini qeyd edir.[258]

Mirzə Rəhimovun fikrincə isə *-ğay* şəkilçisi arzu, niyyət, məqsəd məzmunludur.[259] İlkin Qulusoy da bu morfemin müasir Azərbaycan dilindəki feilin *-a, -ə* şəkilçili arzu şəkli olduğunu göstərir və türkoloqların rəylərinə əsaslanaraq, onun inkişaf yolunu aşağıdakı kimi müəyyənləşdirir: *-ğay>-ay>-a//ə*.[260]

Qeyd etmək lazımdır ki, İbn Mühənna lüğətində nə *-acaq*[2], nə *ar*[2], nə də ır[4] gələcək zaman şəkilçilərinə təsadüf edilmir. Leksikoqraf gələcək zaman şəkilçisi kimi yalnız *-ğay* morfemini göstərir. Melioranski lüğətdə bu şəkilçinin -ğay (غای), -kay (کای), -gay (گای) formalarına və hətta səs düşümünə məruz qal-

[258] Abdullayeva Qızılgül. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi. Bakı, "Elm və Təhsil", 2019, 384 səh., s.118.
[259] Rəhimov Mirzə. Azərbaycan dilində feil şəkillərinin formalaşma tarixi. Bakı, "Elm və təhsil", 2019, 320 səh., s.44.
[260] Qulusoy İlkin. Qazi Bürhanəddin "Divan"ının dilinin sintaksisi. Ankara: Sonçağ Akademi Yayınları, 2019. 210 səh., s.76.

mış -ğa (غاء), -ka (كاء) paralellərinə rast gəlindiyini nəzərə çatdırır.[261]

Müqayisə üçün qeyd edək ki, "Dədə Qorqud" dastanında feillərdə gələcək zamanı əmələ gətirmək məqsədilə *ır*[4] şəkilçisindən istifadə edilmişdir. *-acaq*[2] şəkilçisi, görünür, yeni yaranma və inkişaf mərhələsi yaşadığı üçün yalnız "olmaq" köməkçi feili ilə (*çıqaracaq olanca, açılacaq olursa, basılacaq olursam, qurtaracaq olursa* və s.) və feili sifət (*varacaq yer, yatacaq yer, yıqılacaq ev* və s.) [262] qismində işlənir.

Qazi Bürhanəddinin dilində də -acaq/-əcək qəti gələcək zaman şəkilçisinə rast gəlinmir. Əvəzində şairin dilində bu suffiksin tam qrammatik sinonimi kimi çıxış edən, XIII-XIV yüzilliklərin dili üçün işlək olmuş, XV əsrdə nəzərə çarpacaq dərəcədə məhdudlaşan *-ısar, -isər* şəkilçisi müşahidə olunur. Qeyri-qəti gələcək şəkilçisi olan *-ar, -ər* isə Bürhanəddinin dilində geniş istifadə olunur. Məsələn:

*Gəzərüz* dərbədər eşqün içün biz,
Ümmana girürüz Ceyhun içün biz.[263]

İbn Mühənnadan təxminən 100 il sonra yaşayıb-yaratmış Nəsiminin dilində *-acaq*[2] şəkilçisini feili sifət və feili bağlama tərkiblərində görə bilirik. Məsələn, feili sifət kimi:

Zey – Zaval irmiyə bu din mülkünə,
Rey – Rəfiq *olmayacaq* şeytana mən;

Feili bağlama kimi:

Bilsəm bu meyi haram edən kim,
Fitva *bulacaq* halal olurmu?

[261] Мелиоранский П.М. Араб филолог о турецком языке. Санкт-Петербург, 1900. 217 səh., s. LXXII-LXXIII.
[262] Dədə-Qorqud dastanı. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, 376 səh., D98, D51, D118, D192.
[263] Qazi Bürhanəddin. Divan. (tərtib edən Əlyar Səfərli). "Öndər nəşriyyatı", 2005, 728 səh., s.109.

Gələcək zamanı bildirmək üçün Nəsimi Qazi Bürhanəddində olduğu kimi, qəti gələcək üçün -ısar[2] (Ol gündə həşr *olisər*, ol gündə macəradır), qeyri-qəti gələcək üçün -ar[2] şəkilçisindən istifadə edir (Zülfü qaşü kirpigin gördükcə adam məst *olar* / Fitnələr çün kim *qopar*, ol surəti-Həvvayı gör).

Türksistemli dillərdə keçmiş zaman feilinin I şəxs cəmi olan *-dıq, -dik* şəkilçilərinin İbn Mühənna tərəfindən III şəxs kimi *görmədik* (كورمديك) sözünün "görmədi", *bilmədik* (بيلمديك) sözünün "bilmədi" şəklində tərcümə edilməsi diqqəti cəlb edir.[264] Melioranski burada səhvə yol verilmə ehtimalını irəli sürür.[265] Mahmud Kaşğari isə oğuzların keçmiş zamanı bildirmək üçün *-dı, -di* (دى) şəkilçisi əvəzinə *qaf*-lı (ق) sözlərdə *-duq* (دُق), *ğayn*-lı (غ) sözlərdə *-dük* (دُك) suffikslərini istifadə etdiklərini göstərir və misallar verir:

*Ya qurduq* (يا قُردُق) – *O, yay qurdu*;
*Mən ya qurduq* ( من يا قُردُق) – *Mən yay qurdum*;
*Biz ya qurduq* (بز يا قُردُق) – *Biz yay qurduq*;
*Olar tağqa ağduq* (اُلار تاغقا اَغْدُق) – *Onlar dağa çıxdılar.* [266]

*-duq* (دُق), *-dük* (دُك) şəkilçisi ilə bağlı dərin tədqiqat aparan B.Çobanzadə yazır: "*Mən getmədük* (من كتمدك), *sən getmədük* (سن كتمدك) formalarının mövcudiyyəti türk sistemli dillərdə vaxtilə mütabiq yalnız kəmiyyət (müfrəd və cəm) cəhətdən deyil, eyni zamanda şəxs cəhətindən də olmadığını göstərir. Gernudial quruluş və formalarda bunu bu gün də təsadüf edirik, məsələn: *biz getdikdə, mən getdikdə, o getdikdə* və i.a." [267]

Yuxarıda misal olaraq çəkilən "*Olar tağqa ağduq*" ( اُلار تاغقا اَغْدُق) "onlar dağa çıxdılar" cümləsində Kaşğarinin oğuzlara

---

[264] كتاب حلية الانسان و حلبة اللسان. s.135.
[265] Bax: П.М.Мелиоранский, 1900, s.38.
[266] Bax: .1333 سنة هجرية 322 .كتاب ديوان لغات الترك . محمد الكشغاري. Basma nüsxə - Kilisli nəşri. I cild, s. 51; Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006, II cild.s.78.
[267] Çobanzadə Bəkir. Seçilmiş əsərləri. 2007. II cild. s.85.

şamil etdiyi yönlük halı bildirən *-qa* şəkilçisi (*tağqa – dağa*) İbn Mühənnada geniş şəkildə istifadə olunmuşdur.

XIV əsrin sonları, XV əsrin əvvəllərində yaşamış İmadəddin Nəsiminin yaradıcılığında yönlük hal şəkilçisinin *-ğa* forması və *-ni* təsirlik hal şəkilçisi aşağıdakı beytdə öz əksini tapmışdır.

Yaman yaxşı ilə yaxşı müdara eyləsə, yaxşı,
Kişi yetməz muradın**ğa**, büləndutmazsa hümmət**ni**.


Bu şəkilçilərə Əbu Həyyanın "Kitab əl-idrak əl-lisan əl -ətrak" lüğətindəki qrammatika bölümündə rast gəlinir. O, bildiyimiz kimi, Misir qıpçaqcasının lüğətini tərtib etmiş və qıpçaq dialektinin qrammatik xüsusiyyətlərini şərh etmişdir. Əbu Həyyan yönlük halın *-ğa, -kə* və samitlə bitən kökə təsirlik halın *-ni* şəkilçilərinin artırılması məqamlarını təfərrüatı ilə izah edir.[268] Bu səbəbdən oğuz-qıpçaq xüsusiyyətli qədim Azərbaycan türkcəsində göstərilən şəkilçilərin olması normal haldır və əsla cağatay elementləri sayıla bilməz.

Təəssüflə qeyd etmək lazımdır ki, yuxarıda göstərilən zaman şəkilçilərinə Hadi Mirzəzadənin "Azərbaycan dilinin tarixi qrammatikası"[269] əsərində rast gəlinmir. O hətta yönlük halın *-ğa, -gə* formalarını başqa qədim türk xalqlarının təsiri hesab edir.[270]

Amma türk dillərində ğünnəli *-ğa // -gə // -qa // -ka* fonetik variantlarında olan qədim yönlük hal şəkilçisinin əlamətlərini müasir Azərbaycanın Zəngilan və Qazax dialektlərində *mən, sən* şəxs əvəzliklərinin yönlük halda *manqa, sanqa* şəklində tələffüz edilməsində görə bilirik. Burada n (ن) + *-qa* (قا) yönlük hal şəkilçisinin birləşməsi nəticəsində *-nq* qovuşuğu əmələ gəl-

[268] Bünyadov, Ziya. Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak (Türk dillərini dərketmə kitabı). Bakı: Azərnəşr, 1992. 115 səh., s. 97.
[269] Mirzəzadə Hadi. Azərbaycan dilinin tarixi qrammatikası. Azərbaycan Universiteti Nəşriyyatı, Bakı, 1990. 375 səh.
[270] Göstərilən əsərdə, s. 43.

mişdir. Ə.Dəmirçizadəyə görə, "... sövti saflaşma yolu ilə inkişaf nəticəsində dilimizdə qədimdən işlənən günnəli *q* və *k* sonralar sağır nun (ŋ) olmuş, sağır nun isə tədricən "*n*" samiti ilə qovuşur. Doğrudan da, ayrı-ayrı şivələrdəki faktların da təsdiq etdiyi kimi burada *nq/ng*→ ŋ →*n* inkişaf yolu aydın görünməkdədir."[271]



***Cəmaləddin İbn Mühənnanın "Kitabu hilyətül-insan və həlbətül-lisan" lüğətinin İstanbul nüsxəsinin ilk və son səhifələri (№ 1202).***

Biz Çobanzadənin fikirlərini təsdiqləyərək belə hesab edirik ki, İstanbul nüsxəsi daha çox Azərbaycan türkcəsinin əks olunduğu bir əlyazmadır. İbn Mühənna lüğətində dilimizə xas olan aşağıdakı xüsusiyyətləri görmək mümkündür:

1) İbn Mühənna lüğətindəki orfoqrafiyanın təhlili göstərir ki, ərəb əlifbasının orfoqrafiyasında türk sözlərinin sonunda

[271] Dəmirçizadə Əbdüləzəl. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Elm Nəşriyyatı. Bakı 1999, 140 səh., s.39.

uzanmalar tətbiq edilir. Məsələn, *qılıc* (قلیج), qərintaş (قَرِنْتاش), kişi (كِشی) və s. Bu isə sözün son hecasına vurğunun düşməsinə işarədir.

2) Melioranski qeyd edir ki, Türküstan türkcəsindən fərqli olaraq Azərbaycan türkcəsində sözlər cingiltili samitlərlə bitir.[272] Məsələn, *atmaq* (آطمق), *barmaq* (بارماق), *qılıc* (قِلِیج) və s. Lüğətdə cingiltili samitlə bitən sözün cingiltili samitli şəkilçi qəbul etməsi də əks olunmuşdur, məs., sancdı (سانجدی), İraqdan (عراق دن). "Qılınc" mənasını verən *qılıc* sözü Avropa nüsxələrində kar *ç* samiti[273] , İstanbul nüsxəsində isə cingiltili *c* samiti ilə (قلیج)[274] verilmişdir. Cingiltiləşmə mövzusunun davamı olaraq İbn Mühənna z > s dəyişimində *z* səsini Azərbaycan türkcəsinə, *s* səsini Türküstan türkcəsinə aid edir. Məsələn, *yaramaz – yaramas, kəlməz – kələməs*.[275]

3) Digər türk dialektlərində söz ortasında olan *q* (ق) Azərbaycan türkcəsində geniş şəkildə *x*-ya (خ) çevrilmişdir. Bu barədə İbn Mühənna xüsusi qeyd yazaraq misallar gətirir: *toxli* (توخلی) – *toqli* (توقلی), *səxtadı – səqtadı* və s.[276]

4) İbn Mühənna göstərir ki, "bizim ölkənin türkləri" *nə buldı?, nə bulğay?* əvəzinə bəzən *nə oldı? nə olğay* deyirlər. *B* səsinin düşümü nəticəsində əmələ gələn *olmaq* köməkçi feili, Melioranskinin də qeyd etdiyi kimi, yalnız cənub-türk dialektlərinə xas xüsusiyyətdir. Bəkir Çobanzadəyə görə, *bol – ol* təqabülü XIV əsrdə başlamış və əvvəlcə cümlə daxilində müxtəlif söz kombinasiyalarında özünü göstərmişdir.[277]

---

[272] Bax: П.М.Мелиоранский, 1900, s. XXXVII.

[273] Bax: П.М.Мелиоранский, 1900, s. 0106.

[274] Bax: .السید جمال الدین ابن مهنّا. کتاب حلیة الانسان و حلبة اللسان. Kilisli nəşri .1934, 1934, s.81.

[275] کتاب حلیة الانسان و حلبة اللسان, s.80.

[276] کتاب حلیة الانسان و حلبة اللسان. s. 8.

[277] Çobanzadə Bəkir. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 368 səh., s.81.

5) Ç > ş, c > ş keçidi Azərbaycan dialektlərinə xas xüsusiyyətdir. İbn Mühənna *c* səsinin yerli türklərin dilində *ş*-ya oxşar tələffüz edildiyini qeyd edir.

| **İstanbul nüsxəsində** | **Melioranskidə** |
|---|---|
| *Aştı, actı* (آشتی، آجتی)<br>*qacdı* (قجدی)<br>*bişdi* (بیشدی)<br>*aşmaq*, acmaq (اشمق، اجمق) | *Actı, açtı, aştı* (آجتی، آچتی، آشتی)<br>*qaştı* (قاشتی)<br>*biçdi* (بیچدی)<br>*açmaq* (اچمق) |

6) Söz əvvəlində *y* samitinin düşümü. Məsələn, *üzüm* (اوزوم), *ir//ır* (ایر) "melodiya, mahnı". İbn Mühənna lüğətində bu fonetik hadisə geniş əks olunmamışdır. Çünki orta əsr Cənubi Azərbaycan dialektində *y* səsinin düşümü hələ kifayət qədər inkişaf etməmişdi. Bunu XIV əsrdə Qazi Bürhanəddinin, XV əsrdə Kişvərinin şeirlərində də müşahidə etmək mümkündür. Qızılgül Abdullayeva XVII əsr Azərbaycan ədəbi dilinin fonetik mənzərəsində *y* başlanğıclı sözlərin daha geniş əhatə dairəsi ilə yer aldığını və işlənmə tezliyi baxımından da üstünlük təşkil etdiyini göstərir.[278]

7) *-durur* xəbər şəkilçisi[279] qədim Azərbaycan və Anadolu türkcəsində rast gəlinir. "Köktürk, uyğur, Qaraxani, Xarəzm, cağatay və qıpçaq türkcələrində *-turur* şəklində işlənmişdir."[280]

**Lüğətin quruluşu:** İbn Mühənna qeyd edir ki, o, əsasən, ümumişlək sözləri lüğətə daxil etməyə çalışmışdır. Leksikoqraf

[278] Abdullayeva Qızılgül. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi. Bakı, "Elm və Təhsil", 2019, 384 səh., s.135.
[279] Bax: كتاب حلية الانسان و حلبة اللسان, s.94. Bu kimindurur? (بو كيم ينك درور)
[280] Savran Hülya. Türk Dilinde "+Dır" Bildirme Eki Ve "+Dır" Bildirme Ekiyle Yapılan Belirsizlik Kelimeler. U.Ü. Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi Yıl: 9, Sayı: 14, 2008/1. 163-188 say., s.165.

işlək sözləri "mustəməl", köhnəlmiş sözləri isə "muhməl" adlandırır və bu qismi "növi" adı ilə iki hissəyə ayırır. Birinci hissə qrammatikaya həsr olunmuşdur: isimlərin hallanması, feillərin təsriflənməsi, ədatların və nitq hissələrinin işlənmə üsulu, hərflərin ifadə etdiyi səslər və yeddi bölmə.


İkinci hissədə əbcəd sırası ilə iyirmi dörd tematik qrup (bablar) verilmişdir:

1) (ا) Allahın adları;
2) (ب) İnsan bədəninin üzvləri;
3) (ج) Qohumluq əlaqələri;
4) (د) Müxtəlif insan zümrələri;
5) (ه) Əksmənalı sözlər;
6) (و) Peşə adları;
7) (ز) Dərman və xəstəliklər;
8) (ح) Yemək və içkilər;
9) (ط) Paltarlar, döşəmələr və rənglər;
10) (ى) Hərəkət edən mülkiyyət və əmtəələr;
11) (يا) Ev heyvanlarının adları;
12) (يب) Silahlar və alətlər;
13) (يج) Vəhşi və yırtıcı heyvanlar;
14) (يد) Quşların adları;
15) (يه) müxtəlif səslər;
16) (يو) Uçan və sürünən həşəratlar;
17) (يز) Yerlər və onlarla əlaqəli olanlar;
18) (يح) Bina və yaşayış məntəqələrinin adları;
19) (يط) Suların adları;
20) (ك) Bitki və kolların adları;
21) (كا) Göydə olan cisimlər;
22) (كب) Zaman anlayışı ilə bağlı ifadələr;
23) (كج) Hesab və saylar;
24) (كد) Bu qruplara uyğun gəlməyən adlar.

Bəzi babların öz mövzusuna aid yarımbaşlıqları vardır. Məsələn, "Yerlər və onlarla əlaqəli olanlar" tematik qrupunun

yeraltı sərvətlərə aid isimləri əks etdirən "Mədən" yarımbaşlığı mövcuddur. Maraqlı olduğu üçün diqqətə çatdırmaq istərdik ki, burada *neft* qədim Azərbaycan dilində "yer yağı" deməkdir.[281]

İstanbul nüsxəsinin 72-ci səhifəsində verilən tematik qruplar cədvəlində 17 (يز) və 18-ci (يح) sıralar hansısa səbəbdən əks olunmamışdır (bax: Şəkil 1). Amma lüğətin içərisində hər iki mövzunu görmək mümkündür.



| ا | اسماء الله تعالى | ب | اعضاء الانسان |
|---|---|---|---|
| ج | القرابات | د | طبقات الناس |
| ه | الاسماء المتضاده | و | اسماء الصنّاع |
| ز | الادواء والامراض | ح | المآكل والمشارب |
| ط | الملابس والفرش والالوان | ى | الاثاث والامتعه |
| يا | الدوابّ | يب | السلاح والآلات |
| يج | الوحوش والسباع | يد | الطيور |
| يه | اختلاف الاصوات | يو | الحشاد والهوام |
| يط | المياه | ك | النبات والشجر |
| كا | العلويات | كب | الازمنه |
| كج | الحساب والعدد | كد | اسماء شذّت عن الابواب |

**Şəkil 1.** ***İbn Mühənna lüğətinin İstanbul nüsxəsinin tematik qruplar cədvəli***

İbn Mühənna "İyirminci bab: bitki və kolların adları" bölümündə حُلْبَةٌ (hulbə) sözünün türkcəsini بُوىٰ (boy) verir.[282] "Hulbə" türk dilində çəmən otu, boy otu və ya buyotu deməkdir. Botanikada latınca adı *trigonella foenum graecum* olan bu bitki paxlakimilər fəsiləsinə aiddir və müasir Azərbaycan dilində *güldəfnə* adlanır. Melioranskidə *божья трава* tərcümə edil-

[281] Bax: السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri .1934, s. 128.

[282] Göstərilən əsərdə, s.76-181.

mişdir. Mahmud Kaşğaridə "boy" sözünün bitki anlamında mənası "*yeyilən bir ot, poy otu (oğuzca)"* yazılmışdır.[283] Yəni belə anlaşılır ki, İbn Mühənna oğuz dilində "boy" çəmən bitkisinin adını yazmışdır. Abdulla Battal isə tərcüməsini "galle" (sincab) verir.[284]

## İbn Mühənna lüğəti əsasında XIII əsr Azərbaycan vokalizminin təyini

**Saitlər.** Qədim runi, uyğur, manixey və ərəb yazı sistemləri sait işarələrinin sayı məhdud olmuşdur və bu səbəbdən adıçəkilən hərflər əsasında səslərin keyfiyyəti haqqında doğru qərar vermək mümkün deyildir. Amma Şərqi Türküstandakı brahmı sillabik əlifbası[285] ilə qələmə alınmış qədim türk qloslarını araşdırmış A.M.Şerbak bu əlifbada sait səsləri ifadə etmək üçün çoxlu sayda işarələrin olduğunu göstərir. Brahmı yazı sisteminin yeğanə çatışmayan cəhəti i ilə ı fonemlərini fərqləndirə bilməməsidir. A.M.Şerbakın sözlərinə görə, qədim türk dillərinin saitlər sistemi kifayət qədər inkişaf etmişdir və müasir variantından çox az fərqlənir.[286]

Beləliklə, A.M.Şerbak köktürk dilində 16 – 8 qısa və 8 uzun sait səsin olduğunu göstərir: a, o, u, ı, ä, ö, ü, i, a:, o:, u:, i:, ä:, ö:, ü:, i:.[287] Gördüyümüz kimi, burda *e* səsi yoxdur. Şerbakdan fərqli olaraq Ercilasun *e* saitinin qədim köktürk dilində olduğunu söyləyir (a, e, ı, i, o, ö, u, ü) və uzun saitlərin olma

[283] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006. III cild, s.144.
[284] Bax: Battal, Aptullah. İbnü Mühenna Lugati. Ankara 1997, s.21. "Boy" maddəsi.
[285] Hind heca əlifbasının növlərindən biri.
[286] Щербак А.М. Сравнительная фонетика тюркских языков. М.: Наука, 1970, 204 с., s. 140-142
[287] Bax: Щербак А.М. 1970, s.76.

ehtimalını təsdiqləyir. *Ə* səsinin isə (türklər buna qapalı e deyir) bəzi alimlər tərəfindən qəbul edilərək 9-cu sait kimi bu sıraya daxil etdildiyini vurğulayır.[288]

*E* səsinin qədim türk dilində olub-olmaması mübahisə mənbəyi olmuşdur. Son araşdırmalar köktürkcədəki səkkiz əsas saitdən birinin yarımqapalı qısa e saiti deyil, qısa *ə* saiti olduğunu təsdiq etmişdir. L.S.Levitskaya isə köktürk vokalizmində qısa ə saitinin və onun uzun qarşılığı kimi e: saitinin mövcudluğunu göstərir. O, qəti şəkildə yazır ki, köktürkcədə qısa *ə* və uzun *e*: saitlərinin olması haqqında, hətta kökdilin sonrakı mərhələlərində indiyədək müxtəlif fonetik şəraitlərdə *ə* saitinin kombinator dəyişmələrinin (ɛ, e) mövcudluğu haqqında daha böyük yəqinliklə danışmaq olar.[289] *E* səsi haqqında az sonra söhbət açacağıq.

Türk dillərinin sait fonemlər tərkibi köktürk vokalizminin sonrakı dəyişmələrinin nəticəsi kimi meydana çıxmışdır. Səkkiz uzun və səkkiz qısa saitdən ibarət olan köktürk vokalizminin sonralar bəzi dəyişikliklərə uğraması nəticəsində ayrı-ayrı türk dillərində müxtəlif sait sistemləri formalaşmışdır. Əksər türk dillərində olduğu kimi, Azərbaycan dilində də saitlərin pratürk uzanması itmiş, Azərbaycan dilinin saitlər sistemi doqquz normal qısa sait əsasında formalaşmışdır.[290] Ə.Dəmirçizadə də "Kitabi-Dədə Qorqud"un yaradıldığı dildə 9 saitin olduğunu təsdiq edir.[291]

---

[288] Ercilasun, Ahmet B. Başlangıcından Yirminci Yüzyıla Türk Dili Tarihi. Akçağ Yayınları / 603, Araştırma - İnceleme / 50. ISBN 975-338-589-7. Baskı I Ankara 2004. 488 səh., s. 177-178.

[289] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkkülü və inkişafı. Dərs vəsaiti. 2-ci nəşri. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016, 348 səh, s. 27-31.

[290] Əzizov E.İ. Göstərilən əsərində, s. 27.

[291] Bax: Dəmirçizadə Əbdüləzəl. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Elm Nəşriyyatı. Bakı 1999, 140 səh.

XIII əsrin istedadlı filoloqu olmuş İbn Mühənna fonetik ekspertiza apararaq yaşadığı ərazidə türk dilində eşitdiyi 11 sait səsin xarakteristikasını verir.[292] O, ərəb dilinə yad olan sait səsləri özünəməxsus şəkildə təhlil edərək izah etməyə çalışır. Bu izahlar çox zaman aydın və dəqiq deyil. Ərəb əlifbasının ö, o, e, ü, ı səslərini dəqiq ifadə edə bilməməsi dilimizin sait mənzərəsini yaratmağa çətinlik törədir. Bu səbəbdən aşağıdakı cədvəldə (Cədvəl 1.) İbn Mühənnaya aid olan şərhləri olduğu kimi vermişik:

| **Saitlər** | | **İbn Mühənnanın saitlərə verdiyi xarakteristika** | **İbn Mühənnanın tətbiq etdiyi transliterasiyası** |
|---|---|---|---|
| | **Melioranskinin transkripsiyası** | | |
| **a** dilarxası (qalın), dodaqlanmayan, açıq | a | əsli əlif | əlif (ا), fəthə (ـَ), söz sonunda ه. Məsələn, *qar* (قار), *qam* (قام) "cadugar". İstanbul nüsxəsində əlifin *a* səsini ifadə etməsi üçün üzərinə diakritik işarə tətbiq edilmişdir: آ . Məs., munda (مُنْداً) "bunda", əlma (أَلْماً) və s.[293] |

[292] Bax: П.М.Мелиоранский, 1900, s. XXIV.

[293] السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri, 1934, s. 75.

| | | | |
|---|---|---|---|
| **ə** dilönü (incə), dodaqlanmayan, açıq | ä | fəthədən kəsrəyə doğru əyilən, sapan (امالة). | əlif (ا), fəthə (ـَ), söz sonunda ه və ى . İbn Mühənna lüğətinin orfoqrafiyasında əlifin *ə* səsini verməsi halları çox müşahidə olunur. Məsələn, kəskin (كاسكين), köbək (كُباك) "göbək", günəş (چناش) və s. Bu, *ə*-nin Naxçıvan dialektində olduğu kimi bir qədər qalın deyilişi ilə əlaqədar ola bilər. Fəthə ilə əmələ gələn *ə* səsinə nümunələr: *mən* (من), *bən* (بن), *bək* (بك), *ər* (ار), *ət* (ات), *ev/əv* (اَو) və s. |
| **e** ön sıra, dilortası (incə), yarımqapalı, dodaqlanmayan | ĭ | Kəsrəyə (yəni qısa i səsinə - X.Heydərova) bənzər deyiliş. Fars dilindəki *şir* "süd" sözündəki i-yə bənzəyir, amma daha xəfifdir.[294] | İstanbul nüsxəsinin qrammatik şərh bölməsində ى hərfinin altına bir uzun və bir nöqtəyəbənzər diakritik işarələr qoyulmuşdur.[295] Məsələn, *eş* (ايِـــش), *keş* (كيِـــش) "oxqabı" (*farscadır*), *bez!* (بيِـــز) "qaç, aradan çıx!", *ber!* (بيِـــر) "ver", yer (يير). Lüğətdən misallar: *evləndi* (ايولاندى), *eşik* (ايشيك), *enlu* |

[294] Bax: Yenə orda, s. 76. Bu bənzərlik müasir fars dilinin tələffüzü ilə uyğun gəlmir. Ola bilər ki, XIII-XIV əsrlərdə fars dilinin hansısa dialektində *süd* mənasını verən *şir* (شير) *şer* kimi deyilmişdir.

[295] Bax: السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. 1934, s. 76.

| | | | |
|---|---|---|---|
| | | | (اینلو), *eniş* (اینش), *evtibi* (اوتیبی) "künc-bucaq", *evgögası* (اوچوچاسی) "tavan". |
| **i** dilönü (incə), qapalı, dodaqlanmayan | i | Aydın tələffüz olunan | ى (ای). Söz əvvəlində اِ və ايِ şəklində işlənir. Məsələn, *isradı* (اِسرادی) "izlədi", *iş* (ایش), *kiş* (كيش) "samur, heyvan", *biz* (بيز) "deşik açmaq üçün ucu şiş metal alət", *bir* (بير) *say*. İbn Mühənna lüğətini izlərkən tarixi i > ə əvəzlənməsini müşahidə etmək mümkündür: *ir* (ایر) → *ər*, *irdəmlik* (ایردامليك) → *ərdəmlik* və s. |
| **ı** dilarxası (qalın), dodaqlanmayan, qapalı | ы | Dodağın vəziyyətinə görə u-dan kəsrəyə (ı səsinə) keçid (امالة بلفظة الشفة). | Damma və kəsrə hərəkələri samitə eyni anda tətbiq edilmişdir (ـٍـُـ). Sonrakı əl-yazmalarda bu işarələrdən istifadə olunmamışdır.[296] Məs., *qızıl* (قِزِل), *qış* (قِش) və s. |
| **o** dilarxası (qalın), dodaqlanan, açıq | o | Qalınlaşan (تفخيم). | ـُوّ, söz əvvəlində اُوّ , اُ . Məs., *oğlan* (اُغلان), oş (اُوش) "ştə, budur", oq (اُوّق) "ox" və s. |
| | ȯ | Ötəri deyilən. | ـُ , او ,و |
| **ö** | ö | Həmzənin | و, söz əvvəlində او. |

[296] П.М.Мелиоранский, 1900, s. XXIV.

| | | | |
|---|---|---|---|
| dilönü (incə), dodaqlanan, açıq | | dammasını kəsrəyə çevirən ( امالة متوسطة). | Məs., öt (اوت) “öd”. |
| **u** dilarxası (qalın), dodaqlanan, qapalı | y | Əsl, tam tələffüz. | و , söz əvvəlində او, bəzən söz sonunda وا [297]<br>Məs., *uz* (اُوز) “ustad”, *vur!* (وُورْ، اُور)[298], *buz* (بُوزْ) və s. |
| | ẙ | Ötəri deyilən. | و , söz əvvəlində او<br>Məs., *burğu* (برغوا), *alğu* (الغو) və s. |
| **ü** və ya **ů** dilönü (incə), qapalı, dodaqlanan | ÿ və ya ẙ | Həmzə vav ilə birləşib incəlir ( وصل الهمزة بمدّ خفيف ). İbn Mühənna ü saitinin iki çalarını verir, amma fərqini ayırd etmək olmur.[299] | Söz ortasında və sonunda و, söz əvvəlində او .<br>Məs., *üt* (اوت) “qulaq deşiyi”, *üt!* (اوت) “ütmək”, *yügür*! (يُگُر) və s. |

**Cədvəl 1.**

Cədvəl 1-də əks olunan İbn Mühənnanın aydın şəkildə tələffüzünü verə bilmədiyi e, ů, o̊, ů fonemlərini Melioranski aralıq, ötəri səslər adlandırır və həmin dövrdə bütün türk dillərində işlənən səkkiz saiti (a, ä, o, ö, y, ÿ, ы, i) əsas götürür. Maraqlı burasıdır ki, Melioranski *e* saitini bu sıraya daxil etmir

[297] Bax: П.М.Мелиоранский, 1900, s. XXIII.
[298] Avropa nüsxələrində *vur* (П.М.Мелиоранский, 1900, s.06), İstanbul nüsxəsində *ur* (Kilisli nəşri, s. 76). yazılmışdır.
[299] Bax: П.М.Мелиоранский, 1900, s. XXVI.

və ى hərfinin müasir dövrdə müəyyən sözlərdə ifadə etdiyi *e* səsini *ə* (*ä*) kimi verir və misal olaraq *eş* (ايش yoldaş) əvəzinə *əş*, *ber* (بير ver) əvəzinə *bər* və s. yazır.[300] Amma, zənnimizcə, XIII əsrdə Azərbaycan türkcəsində *e* səsi artıq yaranmış olmalı idi.

İbn Mühənnanın təsvirində *e* səsinin olmasının bir sübutu lüğətdə *iş – eş* (yoldaş), *kiş* ("samur" heyvan) – *keş (oxqabı), bir* (say) – *ber (ver)* sözlərinin fərqli tələffüzlə deyildiyini bildirmək üçün ayrı-ayrı bəndlərdə verilməsidir (baz: Cədvəl 1).[301]

Maraqlı məqamlardan biri budur ki, İstanbul nüsxəsində *ev* "əv" (اَو)[302] şəklində yazılır. Amma yenə həmin nüsxədə *evlənmək* sözündəki *e* əlif (ا) və yə (ي) birləşməsi (ايِ) ilə verilir: *evləndi* (ايولاندى). Bu o deməkdir ki, müasir dialektlərimizdə olduğu kimi, İbn Mühənnanın yaşadığı ərazidə də *ev* və *əv* variantları olmuşdur. "Azərbaycan türkcəsində *e* saiti məhdud məqamda, həm də ən az işlənən saitlərdəndir. Əsl Azərbaycan sözlərində *e* saiti ancaq birinci hecada"[303] olur. Yuxarıda verilən misallarda da *e* saiti yalnız birinci hecada yer almışdır.

Elbrus Əzizov belə hesab edir ki, köktürkə məxsus uzun *ə:* saiti Azərbaycan dilində qısalaraq yarımqapalı *e* saitinə çevrilmişdir: **bə:l'* «beş» > *beş,* **ə:l* «tayfa ittifaqı» > *el* «xalq», **bə:l* «bel» > *bel*, **bə:r-* «vermək» > *ver-*, **kə:t-* «getmək» >

[300] Bax: П.М.Мелиоранский, 1900, s. XXIII-XXIV.

[301] Bax: السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri, 1934, s. 76.

[302] Yenə orda: s. 106. Səhifə 179-da əlif fəthə ilə və vav hərfinin birləşməsi ilə *əv* (أو), *evtibi* (اوتيبى) "künc-bucaq", *əvgögası* (اوڭوڭاسى) "tavan" sözlərinə rast gəlinir.

[303] Bax: Müasir Azərbaycan dili. Fonetika, orfoepiya, orfoqrafiya. I hissə. Bakı-2007, Şərq-Qərb Nəşriyyatı. 252 səh., s.43.

*get-*, **yə:r* «yer» > *yer, *kə:ŋ* «gen» > *gen, *yə:ti* «yeddi» > *yeddi*.[304]

Amma bu hansı dövrdə baş vermişdir? Baxmayaraq ki, Melioranskinin təqdim etdiyi sait sistemində *e* səsi yoxdur, nəzərə almaq lazımdır ki, hələ XI əsrdə Mahmud Kaşğari oğuzların fars sözlərindən çox istifadə etməsindən şikayətli idi.[305] Elm və din dili olan ərəb dilindəki *ey* diftonqunun da (*eyn* "göz", *beynə* "arasında", *Bəhreyn* və s.) təsirini nəzərə almaq lazımdır. Elə isə XIII-XIV əsrlərdə Azərbaycan türklərinin vokalizmində *e* səsinin əmələ gəlməsi mümkün deyildimi?

Bəkir Çobanzadə İbn Mühənna lüğəti ilə bağlı tədqiqatında Kaşğarinin və Əbu Həyyanın lüğətləri əsasında orta əsr qıpçaq və oğuz dialektlərinin təsvirini verərkən *e* səsinin varlığını nümunələrdə əks etdirmişdir.[306] "Dədə Qorqud" dastanının dilindəki saitlərdən bəhs edən Ə.Dəmirçizadə yazır: "Nəzərdən keçirilən sözlərin əksərən əsas lüğət fonduna mənsub olması, indi də eyni sait səslə tələffüz edilməsi və çox vaxt hətta şivələrdə də bu sözlərin tələffüzündə saitlərdə əsaslı fərqin olmaması və ya olan fərqlərin qanunauyğunluq əsasında izah edilə bilməsi ümumxalq dilinin ilk nümunələrindən olan "Kitabi-Dədə Qorqud"un yaradıldığı dildə də, əsasən a, ə, e, i, ı, o, ö, u, ü sait fonemlərinin mövcud olduğunu təsdiq edir."[307]

[304] Əzizov E.İ. Köktürk vokalizminin Azərbaycan dilində təzahür xüsusiyyətləri. Bakı Universitetinin xəbərləri.3 Humanitar elmlər seriyası. 2009, s.30.
[305] Bax: Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006, I cild.s.144.
[306] Çobanzadə Bəkir. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 368 səh., s. 62. Elkin, ben bardım
[307] Dəmirçizadə Əbdüləzəl. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Elm Nəşriyyatı. Bakı 1999, 140 səh., s.33.

**Samitlər.** İbn Mühənna türk dilində işlənən samitləri aşağıdakı şəkildə müəyyənləşdirir:[308]

ب، ت، ج، خ، د، ذ، ر، ز، س، ش، ص، غ، ف، ق، ك، ل، م، ن، و، ه، ي

Sonra qeyd edir ki, ərəb dilinə xas ث، ح، ص، ض، ظ، ع hərfləri bu sıraya daxil deyildir, yerinə ərəb dilində olmayan və hər birinin altından üç nöqtə qoyulan 5 hərfi əlavə edir: پ، چ، ژ، ڤ، ڭ:[309]

Aşağıdakı cədvəldə İbn Mühənna lüğəti əsasında XIII əsr Azərbaycan türkcəsinin samit fonemlərinin fonetik xüsusiyyətləri əks olunmuşdur:

| **İbn Mühənna lüğətində samitlər** | **Qədim Azərbaycan türkcəsində olan samit fonemlər və tələffüz xüsusiyyətləri** | **İbn Mühənna lüğətində fonemlərin xarakteristikası** |
|---|---|---|
| ب | b *qoşadodaq, kipləşən, cingiltili* | Qədim türk dilinə xas *b* səsi sözlərin əvvəlində, ortasında, sonunda və şəkilçilərdə istifadə olunur. Söz əvvəlində: bar (بار) "var", bardı (باردی) "getdi, yeridi". Söz ortasında: *yelbardı* (یلباردی) |
| پ | p *qoşadodaq, kipləşən, kar* | İbn Mühənnanın təsvirinə görə, p səsi qalınlaşmış, iki dodağın arasında, dodaqlar azca qabarараq tələffüz olunur.[310] Lüğətdə söz əvvəlində çox nadir təsadüf edilir: pəmbuqçi |

[308] السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri, 1934, s. 72.

[309] Göstərilən əsərdə, s. 72-73.

[310] Göstərilən əsərdə, s. 73.

| | | |
|---|---|---|
| | | (پمبوقچی). Melioranski bu sözün etimologiyasını farsca *pəmbə* ilə əlaqələndirir.[311] Qədim türk dilində və İbn Mühənna lüğətində söz ortasında və sonunda geniş istifadə olunur, məs., *qopuz* (قُپوز), *ipsi sucı* (اپسی سوجی) "hamamçı" və s. |
| ت | t<br>*dil-diş, kipləşən, kar* | t (ت) və d (د) hərfləri lüğət boyu eyni sözlərdə bir-birini əvəz edir. D > t və t > d hadisələri türk dialektlərində geniş yayılmış fonetik əvəzləmələrdir. Məs., *təmir* (تَمِر) "dəmir", *təmğa* (تَمْغا) "damğa", *ton* (تون) "don". Lüğətdə başqa sözlərə də rast gəlmək mümkündür: *tilkü* (تِلْکو) "tülkü", *təgri* (تَکْرِی) "qədər" qoşma, *təgincə* (تَکِنْجا) "qədər" qoşma. |
| ج | c<br>*dil-diş, kipləşən, cingiltili* | Qədim köktürkcədə *c* səsi olmamışdır. Bu fonemin əmələ gəlməsi sonrakı dövrlərdə baş vermişdir. Söz əvvəlində *c* samiti yalnız alınma sözlərdə təsadüf edilir, söz ortasında və sonunda isə ç > c dəyişimi ilə əlaqədar meydana çıxmışdır. İbn Mühənna lüğətində c > ş keçidi müşahidə olunur. O, lüğətin müqəddiməsində *c* səsinin *ş* səsinə yaxın tələffüz edildiyini qeyd edir.[312] |
| چ | ç<br>*dil-diş, kipləşən, kar* | Qədim türk dilinə xas ç səsi sözlərin əvvəlində, ortasında, sonunda və şəkilçilərdə istifadə olunur. |

[311] Bax: Мелиоранский П.М. s.XXXV.
[312] السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان, 1934, s.73.

| | | |
|---|---|---|
| خ | x<br>*dilarxası, novlu, kar* | Söz əvvəlində: ibn Mühənna lüğətində *x* ilə başlayan sözlər əcnəbi (daha çox fars) mənşəlidir. Söz əvvəlində çox nadir yalnız qeyri-türk mənşəli sözlərin əvvəlində təsadüf edilir, məs., *xeyirsiz* (خیرسیز). Bu fonem türk mənşəli sözlərin ortasında və sonunda işlənir. Məsələn, axsağ (آخساغ), arxa (آرخا), ox (اوق), ax! (آخ). Melioranski qeyd edir ki, digər türk dialektlərində söz ortasında olan *q* Azərbaycan türkcəsində geniş şəkildə *x*-yə çevrilmişdir.[313] Müasir dilimizdə də bu tendensiyanın davamı olaraq çoxhecalı sözlərin sonunda yazılan *q* samiti ədəbi tələffüz normalarına uyğun olaraq *x* kimi tələffüz olunur. |
| د | d<br>*dil-diş, kipləşən, cingiltili* | Söz əvvəlində d samitinin işlənməsi t > d əvəzlənməsi nəticəsində meydana çıxmışdır. Söz ortasında və sonunda işlənməsi isə əsl türk sözlərində müşahidə olunur: *od* (اود), *dörd* (دورد). İbn Mühənna د hərfi ilə başlanan sözlərin "bizim ölkənin türkləri"nə aid olduğunu qeyd edir: *daratı* (داراتی), *dırnaq* (درناق) və s. |
| ذ | *ẑ (z və d samitlərinin movqeyində pəltək ẑ)* | M.Kaşğariyə görə, oğuz və qıpçaqlar dişarası *ẑ* (ذ) fonemini heç vaxt işlətməmişlər. Çigil və türklər (uyğurlar – X.Heydərova) üçün |

[313] П.М.Мелиоранский, 1900, s. XXXVIII.

| | | |
|---|---|---|
| | *dişarası, sürtünən, cingiltili.* | səciyyəvi olan bu səs oğuzların dilində *y*-ya, qıpçaqların dilində isə *z*-ya çevrilir.[314] İbn Mühənna isə türküstanlıların dilində olan ذ hərfinə qarşılıq "bizim ölkə türkləri"nin dilində *t* və *y* olduğunu göstərir: aẑaq (اذاق) – ayaq (اياق), əyẑi (ايذى) – əyti (ايتى). Ə.Dəmirçizadə "Dədə Qorqud dastanı"nda bu hərfin yalnız alınma sözlərdə işləndiyini göstərir.[315] Elbrus Əzizov müasir Azərbaycan dilinin Qazax, Gədəbəy, Çənbərək şivələrinin bəzi sözlərində söz ortasında və sonunda ədəbi dildəki *z* və *d* samitləri movqeyində dilarası cingiltili ẑ səsinin işləndiyini göstərir: *əẑəli* < *əzəli, əẑildi* < *əzildi, aẑ* < *az, öẑ* < *öz* (Qaz.), *qəẑim* < qədim (Qaz., Çən.), *geẑir* < gedir (Çən.), *ẑəẑə* <*dədə* (Gəd.).[316] |
| ر | r<br>*dil-diş, novlu, sonor* | *R* samiti nisbətən az işlənən sonorlardandır. İbn Mühənna lüğətində r hərfi ilə başlayan heç bir türk mənşəli söz yoxdur. Burada *r* ilə başlayan alınma sözlərdən yalnız ərəb mənşəli *razı* (راضى) sözü var. Türkmənşəli sözlərin ortasında |

[314] Bax: Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ramiz Əskərin tərcüməsi. Bakı, "Ozan", 2006, I cild.s.106.
[315] Dəmirçizadə Əbdüləzəl. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Elm Nəşriyyatı. Bakı 1999, 140 səh., s.35.
[316] Əzizov Elbrus. Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkkülü və inkişafı. Dərs vəsaiti. 2-ci nəşri. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016, 348 s., s. 270.

| | | |
|---|---|---|
| | | (*dümrük* (دومرك) "baraban", *diriklik* (ديريڭ ليك) "dirilik", *barlu* (بارلو)) və sonunda gəlir (*bar* (بار) "var", *bir* (بير) say). |
| ز | z<br>*dil-diş,*<br>*novlu,*<br>*cingiltili* | Bu səs alınma sözlərin əvvəlində, ortasında və sonunda rahatlıqla gələ bildiyi halda, türk mənşəli sözlərin yalnız ortasında və sonunda rastlanır: azdı (آزدى), biz (بيز). İbn Mühənna lüğətində kökü z ilə başlayan fars mənşəli sözlər vardır: *zindan, zindançı, zindanla!, ziyan*. |
| ژ | j<br>*dil-diş,*<br>*novlu,*<br>*cingiltili* | j səsi üçün *zeyn* (ز) hərfinin altına üç nöqtə qoyur: ژ . Bu hərfin fonetik izahını verən İbn Mühənna cim və şin hərflərinin məxrəcində səslənən hərf kimi tərifini verir. |
| س | s<br>*dil-diş*<br>*novlu, kar* | İncə saitlərlə işlənir.[317] İbn Mühənna lüğətində rahatlıqla söz əvvəlində, ortasında və sonunda işlənir: *sözlədi* (سوزلدى) "danışdı". |
| ش | ş<br>*dil-diş*<br>*novlu, kar* | Söz əvvəlində yalnız alınma sözlərdə istifadə olunur. Dilimizdə isə söz ortasında və sonunda geniş şəkildə işlənir. |
| ص | s | Qalın saitlərlə işlənir, amma mütləq deyil. Eyni sözün bəzən س ilə, bə'zən ص ilə yazılması, Melioranskinin yazdığı kimi, buradakı س ilə ص -ın |

[317] Qədim köktürk dilində iki cür – qalın saitlərlə və incə saitlərlə işlənən s hərləri olmuşdur.

| | | |
|---|---|---|
| | | məxrəccə fərqli olduqlarını düşünmək üçün heç bir əsas olmadığını göstərir.[318] |
| ط | qalın t (d?) *dilönü, dişarxası, kipləşən, kar* | t > d əvəzləmələrində (məs., *dağ* > *tağ*), qalın saitlərlə müşahidə olunur. Məs., *taşlaşdı* (طشلاشدی), *toldurdi* (طُولدُردی) və s. |
| غ | ğ *dilarxası, novlu, cingiltili* | Yalnız alınma sözlərdə başda gələ bilən *ğ* samiti türkmənşəli sözlərin ortasında və sonunda işlənir. Söz sonunda: *ağ//aq* (آغ، آق), *bağ* (باغ), *ayağ* (آياغ). Amma İbn Mühənna lüğətində *qılmaq* köməkçi feilinin *ğılmaq* fonetik variantı da yazılmışdır.[319] |
| ف | f *diş-dodaq, novlu, kar* | Qədim köktürk dilində izlənməyən bu səs alınma sözlərdə müşahidə olunur. Söz əvvəlində, ortasında və sonunda, əsl türk sözlərində b/p > f, v > f əvəzlənmələrində istifadə olunur. *F* samiti şəkilçilərin fonetik tərkibində işlənilmir. |
| ق (qaf) | q *dilarxası, kipləşən, cingiltili* | Bu səs, əsasən, qalın saitlərlə işlənir. Sözün əvvəlində, ortasında və sonunda müşahidə olunur. Qədim əlyazmaların tərcüməçiləri bu hərfin transliterasiya və transkripsiyasını ziddiyyətli şəkildə təqdim edirlər. Bəsim Atalay və Ramiz Əskər (ق) hərfinin kar *k* səsini |

[318] Мелиоранский. Араб филолог, s. XXXVII.

[319] Bax: السيد جمال الدين ابن مهنّا. كتاب حلية الانسان و حلبة اللسان. Kilisli nəşri .1934. s. 80.

| | | |
|---|---|---|
| | | ifadə etdiyini göstərirlər. Dəmirçizadə belə hesab edir ki, ərəb əlifbası ilə yazılan mənbələrdə (ق) hərfi həm cingiltili "q", həm də bu səsin kar qarşılığı olan "*k*˴" səslərini bildirən iki mənalı bir əlamət kimi işlənilmişdir. Xüsusən sözlərin sonunda yazılan (ق) hərfi "q" deyil, məhz "k˴" kimi tələffüz olunmuşdur."[320] Nəzərə alsaq ki, "Dədəd Qorqud" dastanı təmiz oğuz xüsusiyyətləri ilə səciyyəvidir, bu fikirlə razılaşmaq olar. Amma T.Hacıyev dilimizin söz sonunda cingiltiləşmə xüsusiyyətini nəzərə alaraq (ق) hərfinin cingiltili *q* kimi yazılmalı olduğunu göstərmişdir.[321] Əhməd Cəfəroğlu da cingiltili *q* samitini Məmlük qıpçaqlarının dilində söz əvvəlinə, ortasına və sonuna tətbiq etmişdir, məs., *oğlaq, yoq, taraq, tarlıq, taqtı, balçıq, qaçtı, qaçan, qalın, qalqdı* və s. [322]<br>Nəsiminin yaradıcılığını izlədikdə (ق) hərfinin ardından cingiltili samitlə |

[320] Dəmirçizadə Əbdüləzəl. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Elm Nəşriyyatı. Bakı 1999, 140 səh., s.36.
[321] Hacıyev Tofiq. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: ―Elm‖, 2012, 476 səh., s. 116.
[322] Caferoğlu Ahmet. Abu Hayyan, Kitâb al-İdrâk li-lisân al-Atrâk, İstanbul 1931, 353 say.

| | | |
|---|---|---|
| | | başlayan şəkilçinin gəldiyini görmək olur, məs., *yoqdur* (یوق در)[323], həqdir (حق در)[324], həqdən (حق دن)[325] və s. Demək ki, oğuz-qıpçaq əsaslı Azərbaycan türkcəsindəki (ق) hərfi qədim və orta əsrlərdə cingiltili *q* səsini ifadə etmişdir. |
| ک<br>kar<br>kəf<br>(کسدی<br>kəsdi) | k<br>*dilortası, sərt damaq, küylü, kipləşən, kar* | İncə saitlərlə işlənən *k* səsi Azərbaycan türkcəsində ahəng qanununu sabitləşdirən samitlərdəndir. Yalnız alınma sözlərdə qalın saitlərlə yanaşı gələ bilər. Türkmənşəli sözlərin əvvəlində, ortasında və sonunda qədimdən bəri geniş şəkildə işlənir. Məsələn, *kəskin* (کاسکین), *köbək* (كُباك) "göbək", *kəpənək* (کپنک) "yapıncı" və s. |
| ڭ<br>yumş<br>aq gaf | g<br>*dilortası, kipləşən, cingiltili* | Köktürk dilində "gu/gü" sual ədatı xaric, söz əvvəlində istifadə olunmayan, qədim uyğur türkcəsində yalnız alınma sözlərin əvvəlində işlənən *g* səsi Azərbaycan türkcəsində k > g əvəzləməsi ilə əlaqədar olaraq söz əvvəlində işlənmişdir. *G* samiti söz başında nisbətən çox istifadə olunur: *gün* (ڭن), *gətur*! (ڭتور), *görklük* (ڭورکلوك), *gecəlik* (ڭجلیك), *gişi* (ڭشی) "kişi", *gəŋ* (ڭڭ) "gen" və s. Söz |

[323] Qəhrəmanov Cahangir. İmadəddin Nəsimi. 3 cildlik. II cild. Əski əlifba ilə. Bakı, "Elm" nəşriyyatı. 1973, 646 səh., s.224.
[324] Yenə orda, s.254.
[325] Yenə orada, s.328.

| | | |
|---|---|---|
| | | ortasında və sonunda: *siliglig* ( سیلیپ لیپ) “təmizlik”, *diriglig* (دیریپ لیپ) “dirilik”; *təgri* (تَڭْری) “qədər, dəki” qoşma, *təgincə* (تَڭْنْجا) “qədər” qoşma, *ög* (اوڭ) “şüur”, *ögəy* (اوڭای). Gördüyümüz kimi, *g* samiti qədim dilimizdə söz ortasında və sonunda sərbəst şəkildə işlənmişdir. Halbuki müasir Azərbaycan dilində *g* samiti həmin məqamlarda yalnız alınma sözlərdə müşahidə olunur.[326] İbn Mühənna yerli türkcədə *g* səsinin zəif deyildiyini qeyd edir. |
| ل | l (л)<br>*dil-diş, novlu, sonor* | Alınma sözlərin hər söfti halında istifadə oluna bilən *l* sonor samiti türkmənşəli sözlərin ortasında və sonunda işlənir. Lakin İbn Mühənna lüğətində türk mənşəli *laçın* (لاچین) və *lengəc* (لَنْگَجْ) “xərçəng” leksik vahidlərində söz əvvəlində görmək mümkündür. Maraqlı burasıdır ki, lüğətdə sonuncu sözün *yengəc* (ینگج) variantına da rast gəlinir. |
| م | m<br>*dodaq, kipləşən, sonor* | Türkmənşəli sözlərin başında b > m dəyişməsi nəticəsində *bən* > *mən, bin* > *miŋ, binmek* > *minmək, boncuk* > *muncuq* və s. şəklində işlənir. Bu fonem türkmənşəli sözlərin ortasında və sonunda da gəlir. |
| ن | n | *n* fonemi türkmənşəli sözlərdən yalnız |

[326] Bax: Müasir Azərbaycan dili. Fonetika, orfoepiya, orfoqrafiya. I hissə. Bakı-2007, Şərq-Qərb Nəşriyyatı. 252 səh., s.69.

| | | |
|---|---|---|
| | *dil-diş, kipləşən, sonor* | "nə" sual əvəzliyinin müxtəlif şəkillərinin əvvəlində gələ bildiyi hallarda, sözlərin ortasında və sonunda geniş işlənir. |
| نڭ | ŋ (nq, nğ, ng) *sağır nun və ya velyar nun. dilarxası, sonor, kipləşən.* | İbn Mühənna lüğətində *ng* (نڭ) qovuşuğu öz əksini tapmışdır. Avropa nüsxələrində bəzən sadəcə ڪ hərfi sağır nunu bildirir. Bu səs söz əvvəlində gəlməyib yalnız ortasında və sonunda işlənir. Məs., təŋiz (تڭز) "dəniz", siŋir (سينگير), gəŋ (گَڭ) "gen", yeŋilə! (يَنْ گِلَ). |
| ه | h *novlu, küylü, qırtlaqdibi* | Türk dilinə xas olmayan h samiti müasir Azərbaycan dilində də az işlənən səslərdəndir. İbn Mühənnanın lüğətində yalnız bir sözdə – ərəb mənşəli *həlak* sözünə *-lə* feil düzəldən şəkilçinin qoşulması yolu ilə əmələ gəlmiş *həlakla* (هَلاكْ لَ) leksik vahidində təsadüf edilir. |
| و | v *novlu, dodaq-diş, cingiltili* | Köktürk və qədim uyğur türklərinin dilində olmayan /v/ fonemi ərəb əlifbası istifadə olunduğu dövrlərdə alınma sözlərlə dilə daxil olmuşdur. Oğuzlarda b > v əvəzlənməsi (bar > var, bar- > var-, ber- > ver- və s.) sözlərdə istifadə olunmuş və qədim oğuz dilində tamamilə mənimsənilmişdir. V fonemi sözlərin əvvəlində (ur- > vur-, oltur- > voltur- və s.), ortasında və sonunda "-b-/-b > -w-/-w > -v-/-v" dəyişməsi ilə (ab > aw > av, eb > ew > ev (öy), sab > saw > |

| | | |
|---|---|---|
| | | sav, tabar > tawar > tavar (davar), təbə > təwə > təvə (dəvə) və s.) istifadə olunmuşdur.[327] İbn Mühənna lüğətində v samitinə çox təsadüf edilir. Məs., *var* (وار), *vur*! (ور), *vuruş* (وُروش), *səv*! (سو), *yavuz* (یاوُز) "haqsızlıq edən", yavuq (یاوُق) "yaxın adam" və s. |
| ڤ ڤ | w<br>*dodaq, novlu, cingiltili* | İbn Mühənna w səsi üçün fə (ف) hərfinin altına üç nöqtə qoyur, bəzən isə Mahmud Kaşğarinin lüğətində olduğu kimi nöqtələri üstdən (ڤ) tətbiq edir. Bu samit türk sözlərinin başında gəlməyib, söz ortasında və sonunda v > w əvəzlənməsi ilə özünü göstərir. Bunu müşahidə edən İbn Mühənna aşağıdakı sözləri misal gətirir: آو < آڤ av "ov", سونج < سڤنج sevinc, چاو < چاڤ çav "səs". Ümumiyyətlə, lüğət daxilində ڤ hərfi ilə yazılmış sözlərə çox az rast gəlinir. "Qoşadodaq *w* səsi Azərbaycan dilinin Zaqatala şivəsində və Kərkük türkmənlərinin dilində saxlanır: *war, watan, ew, towuğ, sowuğ* (Zaq.),[328] *qawırma, dawşan, watan, qa-wın, babawız, ikiwiz* (Kərkük)."[329] |

[327] İnce, Yılmaz. Tarihî Türk Lehçelerinde Ünsüzler. / Doktora Tezi. Elazığ – 2017, Sayfa: XXXV+409, s.70.

[328] Hüseynov A. Tala şivəsinin bəzi fonetik xüsusiyyətləri // APİ-nin elmi əsərləri, XIII c., 1960, səh.11-20, s. 12.

[329] Пашаев Г.М. Фонетика керкукского диалекта. Автореф. дис. ... канд. филол. наук. Баку, 1969, s.15-20.

| | | |
|---|---|---|
| | | Qədim köktürk dilində də iki variantlı v hərfi və səsi olmuşdur.[330] |
| ى | y *dilortası, novlu, cingiltili* | Qədim köktürk dilindən ta indiyə qədər bütün türk dialektlərində işlənən y samiti sözün əvvəlində, ortasında və sonunda bütün saitlərlə yanaşı işlənir. Məsələn, *yaylaq* (يايلاق), *yapraq* (يَپْراق), |

**Cədvəl 2.**

Abdullah Battalın transliterasiya məsələlərinə əsərində necə əməl etdiyini diqqətə çatdırmaq istərdik. İbn Mühənnanın cingiltili samitlə verdiklərini Battal karlaşdırmış, *ə, x, q* səslərini ümumiyyətlə verməmişdir. Tofiq Hacıyevin qeyd etdiyi kimi, hətta ifrata vararaq *k, q, g* səslərinin üçünü də *k* hərfi ilə ifadə etmişdir.[331] Biz bura onun *k* kimi verdiyi *ğ* səsini də əlavə edirik.

| **İbn Mühənnada** | | **Abdulla Battalda** | **Tərcüməsi** |
|---|---|---|---|
| آغ، آق | ağ, aq | ak | ağ |
| جقاردى، چيقاردى | ciqardı, çıqardı | çıkarmak | çıxarmaq |
| چقدى | çıqdı | çıkmak | çıxmaq |
| قَبُر، قُپوز | qəbur, qopuz | kabur | qopuz |
| قَرى | qəri | karı | qoca qadın |
| قرغا | qərğa | karga | qarğa |
| قاشيدي | qaşıdı | kaşımak | qaşımaq |
| اجيتى | acıtı | açımak | (acımaq, |

[330] Bax: П.М.Мелиоранский, 1900, s. XXXI-XXXII.

[331] Hacıyev Tofiq. Seyid Əhməd Cəmaləddin İbn Mühənna. Hilyətül-insan və həlbətül-lisan. Bakı, "Kitab aləmi", 2008. 160 səh., s.14.

| | | | turşumaq) |
|---|---|---|---|
| تمغالادی | təmğaladı | tamgalamak | damğalamaq |
| قِنَنْدی | qinəndı | kınanmak | qınanmaq |
| سانجدی | sancdı | sançmak | sancmaq |
| امدی | əmdi | emmek | əmmək |
| یاشل | yaşıl | yeşil | yaşıl |
| یمیاشل | yəmyaşıl | yemyeşil | yamyaşıl |
| برك | bərk | berk | bərk |
| بن | bən | ben | mən |
| من | mən | men | mən |
| اود | od | ot (1. Ateş; 2. Bitki) | od |
| اوت | ot | | ot |

**Cədvəl 3.**

Abdulla Battal mənbə dilin vokalizmini araşdırmadan tərcümə işini həyata keçirmiş və Türkiyə türkcəsinə uyğunlaşdırmağa çalışmışdır. Belə bir yanaşma, təbii ki, doğru deyildir və elmi yanaşma hesab edilə bilməz.

**İbn Mühənna lüğətində müşahidə olunan səs əvəzləmələri:**

**a > ə** əvəzlənməsi: *qara* > *qəra* (قَرا), *qarı* (قارى) > *qəri* (قَرى), *səvmək* (سوماك) > *savmaq* (ساومق).

**a > u** əvəzlənməsi: *boğaz* (بُغَزْ) > *boğuz* (بُغُزْ), *armaq* (آرمق) > *urmaq* (اورمق) "vurmaq".

**b > v** əvəzlənməsi: *bar* (بار) > *var* (وار), *ber-* (بير) > *ver-* (وير), *buldı* (بولدى) > *vuldı* (ولدى), *bulğay* (بولغاى) > *vulğay* (ولغاى) və s.

**m > b** əvəzlənməsi: *mən* > *bən*, *miŋ* > *biŋ*, *mun* > *bun* "ayıb". Şirəliyev belə hesab edir ki, **b > m** hadisəsi, əsasən,

qıpçaq tipli dillərə aiddir.[332] İbn Mühənna *m* səsini Türküstan türkcəsinə, *b* fonemini "bizim ölkə türkləri"nə aid etsə də, Azərbaycan türkcəsində indi də m – b dəyişməsinə rast gəlinir. Çobanzadənin fikrincə, bu xüsusiyyət Azərbaycan türkcəsinin türkmən və qıpçaq dili tiplərinin calaqlaşması prosesini keçirdiyini göstərir. Lakin buna baxmayaraq, Azərbaycan türk dili əsasən *b* variantını təmsil edən dillərdəndir və İbn Mühənnanın *b* variantını "bizim ölkə türkləri"nə aid etməsi doğrudur.[333]

**c > ç** əvəzlənməsi: *qılıc* (قِلِيج) > *qılıç* (قِلِيچ), *qəmçi* (قَمْچِى) > *qəmci* (قَمْجى) və s.

**c > x** əvəzlənməsi: *bacanaq* (باجناق) > *baxıyaq* (باخياق) və s.

**c > ş** əvəzlənməsi: *acmaq* (اجماق) > *aşmaq* (اشماق) "üzüqoylu yıxılmaq", *acdı* (اچدى) > *aşdı* (اشتى) "açdı, sərdi" və s.

**ç > ş** əvəzlənməsi: *saçmaq* (صاچمق) > *saşmaq* (صاشمق) və s.

**d > t** əvəzlənməsi: od (اود) > ot (اوت), öd (اُود) > öt (اُوت), *dut* (دوت) > *tut* (توت) və s.

**ə > e** əvəzlənməsi: *ev* (ايو) > *əv* (اَو) və s.

**f > v** əvəzlənməsi: *təfuq* (تفوق) > *tovuq* (توق) "toyuq" və s.

**ğ > q** əvəzlənməsi: *ağ* > *aq* (آغ، آق), *nə ğılır* (نا غلر) > *nə qılur* (نا قلور) "nə edir?"; *qısa* (قسا) > *qısqa* (قيسقا) > *qısğa* (قيسغا), *yəğuq* (يغوق) > *yavuq* (ياوق).və s.

**i > u** əvəzlənməsi: *quru* (قُرو) > *quri* (قُرى), *atlu* (آطلو) > *atlı* (آطلى) və s.

**k > g** əvəzlənməsi: *gün* (گُن), *gətur*! (گتور), *görklük* (گورکلوك), *gecəlik* (گجليك), *gişi* (گشى) "kişi", *gəŋ* (گَنْگ) "gen" və s.

**q > x** əvəzlənməsi: *qorq* (قُرْقْ) > *qorx* (قُرْقْ), *ox* (اوق) > *oq* (اوخ), *toqli* (توقلى) > toxli (توخلى) "bir illik keçi balası" və s.

---

[332] Şirəliyev Məmmədağa. Azərbaycan dialektologiyasının əsasları. Bakı, "Şərq-Qərb", 2008, 416 səh., s.77.

[333] Çobanzadə Bəkir. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 368 səh., s. 79.

**l > y** əvəzlənəməsi: *lengəc* (لَنْگَجْ) > *yengəc* (ینگج) "xərçəng" və s.

**r > z** əvəzlənməsi: *orğaq* (اورغاق) > *özğaq* (اوزغاق), *əgri* (اڭری) > *əgzi* (اڭزی), *armaq* (آرمق) > *azmaq* (آزمق) və s.

**s > ş** əvəzlənməsi: *qasıq* (قاسق) > *qaşıq* (قاشق) "qasıq", *asağa* (اصغا) – *aşağa* (اشغا) və s.

**s > z** əvəzlənməsi: *yaramaz* (یاراماز) > *yaramas* (یاراماس), kəlməz (کلمز) > kəlməs (کلمس) və s.

**v > w** əvəzlənməsi: آو < آپ *av* "ov", سونج < سونج *sevinc*, چاو < چاپ *çav* "səs" və s.

**y > t** əvəzlənməsi: *yamaq* (یاماق) > *tamaq* (تاماق) və s.

İbn Mühənna lüğətindəki səs əvəzləmələrinin daha geniş və dəqiq araşdırılmasına böyük ehtiyac vardır.

Əsərdə səs düşümü hadisələrinə də rast gəlinir. Məsələn, *acuq* (اَجق) "açıq" sözünün antonimi olan *bağlı* İbn Mühənna lüğətində *bəğluq* (بَغْلُق)[334] şəklində verilir. Demək ki, tarixi inkişaf nəticəsində *bəğluq* → *bağlı* şəklinə düşmüşdür. Yaxud XIII əsrdə yeni-yeni dilimizdə əmələ gəlməyə başlayan *y* səsinin düşümü hadisəsi: *yir* (یِیر) → *ir//ır* (ایر)[335] "melodiya, mahnı"; *yüzüm* (یوزوم) → *üzüm* (اوزوم)[336].

## FARSCA-TÜRKCƏ LÜĞƏTLƏR

Orta əsrlərdə yazılmış farsca-türkcə lüğətlər tərtibati quruluşuna görə iki qismə ayrılırdı: mənzum lüğətlər və mənsur lüğətlər.

Mənzum lüğətlər, əsasən, uşaqların sözləri asan əzbərləməsi və əruz vəznini mənimsəyə bilməsi məqsədilə tərtib olu-

[334] السید جمال الدین ابن مهنّا. کتاب حلیة الانسان و حلبة اللسان. 1934, s.154.
[335] Yenə orda, s.161.
[336] Yenə orda, s. 182

nurdu. Belə hesab edilirdi ki, mənzum lüğətlərin uşaqlara əzbərlədilməsi onunların zehni inkişafına gətirib çıxarır.

## Hüsaməddin Xoyinin "Töhfeyi-Hüsam" lüğəti (XIII əsr)

1399-1400-cü illərə aid edilən "Töhfeyi-Hüsam" farsca-türkcə lüğəti Hüsaməddin Həsən ibn Əbdülmömin Xoyi tərəfindən mənzum şəkildə tərtib olunmuşdur. Türkiyə dilçiliyində müəllifin adı Hüsam ibn Həsən (Hüseyn) əl-Konəvi şəklində təqdim edilir. Azərbaycan dilçiliyində, o cümlədən İranda məhz Hüsaməddin Həsən ibn Əbdülmömin Xoyi olduğu göstərilir.

Hüsamın iki mənzum lüğəti məlumdur: "Nəsib əl-fityan və nəsib ət-tibyan" adlı ərəbcə-farsca və "Töhfeyi-Hüsam" adlı türkcə-farsca lüğətlər.

Nizami Xudiyev ikinci lüğətin indiyə qədər tapılmadığını qeyd edir.[337] Lakin İranda həmin əsərin 2003-cü ilə aid nəşri işıq üzü görmüşdür. Türkiyənin kitabxanalarında isə "Töhfeyi-Hüsam" əsərinin 8 nüsxəsi mövcuddur.

Tofiq Hacıyev "Ədəbi dil tarixi" əsərinin I cildində "Töhfeyi-Hüsam" lüğəti ilə bağlı geniş məlumat verir[338]. Hüsaməddin Xoy şəhərində doğulmuş və ilk təhsilini burada alsa da, yaradıcılığı Anadoluda keçmişdir. O, Mardində yaşamış və əsas ömrünü Kastamonidə Çobanoğullarının sarayında keçirmiş, bədii əsərlərini fars dilində yazmışdır. Hüsaməddin Xoyinin Ço-

[337] Xudiyev Nizami. Azərbaycan ədəbi dili tarixi. Ali məktəblər üçün dərslik. Bakı, "Elm və təhsil", 2012, 686 səh., s.178.
[338] Hacıyev Tofiq. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: ―Elm, 2012, 476 səh., s.185-190.

banoğullarını mədh edən şeirlərində yüksək bədii sənətkarlıq hiss olunur.

"Töhfeyi-Hüsam" lüğətinin Bursada İnəybəy Kitabxanası Haraççıda 1398/2 nömrəsi altında qorunan nüsxəsi haqqında tədqiqat aparmış Erdoğan Boz əsərin üç hissədən ibarət olduğunu göstərir.

Türkcə-farsca «Töhfeyi-Hüsam» mənzum lüğəti bir giriş, 20 qitə – fəsil və xatimə hissəsindən ibarətdir. Ümumilikdə 302 beyti vardır. Qitələrin beyt sayı 6 ilə 19 arasında dəyişir. Qitənin sonunda vəzninə uyğun olaraq məsnəvi şəklində türkcə bir beyt verilir. "Lüğətin yazılışında şair əruzun müxtəlif bəhrlərindən istifadə edib. Ən yığcam bəhr 8-ci qitədir – I növ mütəqarib (fəUlin fəUlin fəUlin fəUl): *Bəgəl yenə qoltuq, ərişdür, biləg…* Ən uzunu 7-ci qitədir – I növ rəcəz bəhri (müstəfəlün, müstəfəlün, müstəfəlün, müstəfəlün): *Hirə qafa, pilə papaq, pişani atın, ruy yüz…* Ən az həcmli 18-ci qitədir – 12 misradan, ən iri həcmlisi 9-cu qitədir – 64 misradan ibarətdir. Şeir forması qəzələ uyğun gəlir: ilk iki misra həmqafiyə olur, sonrakı beytlərin ikinci misrası həmin qafiyə ilə davam edir. Bütün qitələrdə son beytin misraları öz aralarında qafiyələnir. Lüğətin başlanğıcı dövrün məsnəvilərinin, poemalarının başlanğıcı kimi Allahın adı ilə açılır:

*Xuda Taŋrı, təvangər mənisi bay,*
*İşə buyruq edici karfərmay.*

Lüğətdə, ümumiyyətlə, bədii-mənzum əsərlərdəki kimi bədii təsvir vasitələrindən, dili bədiiliklə təmin edən müxtəlif göstəricilərdən istifadə olunur. Məsələn, tərcümə olunan sözlərin seçim ardıcıllığında antonimliyə fikir verilir:

*Bəbala rəv* ***yuqaru*** *var deməkdür,*
***Aşağı*** *en demək, yəni foru ay, –*

– bədii təzad yaranır və yadda saxlama asanlaşır. Əksərən sözlər semantik qruplar üzrə sadalanır ki, bu da qavrayışa sürəklilik gətirir:

*Təbər balta, qılınc şəmşi o tir oq,*
*Sepər qalqan, kəmin* ***busu****, kəman yay.*

Lüğətdə onlarla məişət sözləri var ki, bunlar XIII əsr Azərbaycan cəmiyyəti haqqında, məişət və evdarlığı, təsərrüfat və məşğuliyyəti haqqında təsəvvür yaradır: *çardaq, çarıq, çomaq, çölmək, çəküc, çərçi, çöp* və s.[339]

T.Hacıyev göstərir ki, lüğətin dilində (sözlüyündə) müasir dil baxımından onlarla türk mənşəli arxaizmlər cəmləşmişdir. Bunlar Nəsiminin, Füzulinin dilindəkindən dəfələrlə çoxdur. Lüğətdə bədii nitqin sözləri yox, dilin, bilavasitə işlək, canlı dilin materialı əhatə olunur. Deməli, bu arxaizmlər Hüsaməddin Xoyinin zamanında Azərbaycan xalqının gündəlik danışığında işlənmişdir.

Lüğətdə frazeologiya çox zəif əks olunur, görünür, lüğətin hərfi mənaya meyli, məcazdan qaçmaq tələbi bu nəticəyə gətirmişdir. İşimiz oldu *göy* (işi yaxşı olmaq), *nəsnə bilməz kimsə* (bacarıqsız), *sınub qanmaq* (həzm etmək). Bu hikmətli söz verilir və farscaya çevrilir: *Kim gülə irişürsə, aqibət dikən dərə – hər ke ba qol estizəd, aqebət beçinəd xar*.

## Fəxrəddin Hinduşah Naxçıvaninin "Sihahül-əcəm" farsca-türkcə lüğəti

"Sihahül-əcəm" XIII əsrin sonlarında (ehtimala görə, 1270-ci ildə) ərəb dilində yazılmış fars-türkcə lüğətdir. Bu əsər orta əsrlərdə dərs vəsaiti kimi geniş yayılmış və uzun müddət istifadə olunmuşdur. "Sihahül-əcəm" lüğəti 6000-dən çox türk sözünü əhatə edir. Burada fars dilinin qrammatikası və sintak-

[339] Hacıyev Tofiq. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: ―Elm, 2012, 476 səh.


sisi təhlil edilir. Onun müəllifi XIII və XIV əsrin böyük ədibi olmuş Fəxrəddin Hinduşah ibn Səncər Naxçıvanidir (ö. 1328).

Fəxrəddin Hinduşah əslən Naxçıvanın Kiran (Gilan) şəhərindən olan Səncər ibn Abdullah ən-Naxçivani sülaləsinə məxsusdur. Bu sülalə nümayəndələri Elxanilər dövründə tutduqları ictimai və elmi mövqeyə görə "əs-sahibi" titulunu daşımışlar. Səncər Naxçivaninin üçüncü oğlu Fəxrəddin Əbülfəzl Hinduşah əs-sahibi dövrün filosofu, yazıçısı, tərcüməçisi, şairi, dilçisi və s. kimi tanınmışdır. Fəxrəddin Hinduşah Bağdadda Müstansıriyyə mədrəsəsində təhsil almışdır. Onun yaradıcılığından "Təcarüb əs-sələf dər təvarixi-xüləfa və vüzareyi-işan" (h. 724-cü ilin məhərrəm ayı/ m. 1324-cü ilin yanvar ayı), 1307-1308-ci illərdə (h. 707) Təbrizdə ərəbcə yazıb bitirdiyi, müxtəlif kitabxanalarda nüsxələri geniş yayılmış "Məvaridül-ədəb" adlı şeirlər antologiyası və "Sihahül-əcəm" adlı lüğəti məlumdur.

Sonuncu əsər haqqında ilk dəfə osmanlı müəllif Katib Çələbi 1074-cü ilə aid "Kəşfüz-zunun" əsərində məlumat vermiş və o, lüğəti Hinduşaha aid etmişdir. "Sihahül-əcəm" lüğətinin müəlliflik məsələsi tədqiqatçılar arasında uzun müddət mübahisələrə səbəb olmuş və Hinduşahın oğlu Məhəmməd Naxçivaninin "Sihahül-fürsi" adlı əsəri ilə eyni qəbul edilmişdir.

Əbülfəz Quliyev qeyd edir ki, "Sihahül-əcəm" lüğətinin 100-dən çox əlyazma nüsxəsi aşkara çıxarılmışdır. Əsərin əldə olan ən qədim nüsxəsi Ankara Milli Kitabxanasının Əlyazmalar Kolleksiyonunda -6 Mil Yz FB 33 kataloq nömrəsi altında *h.* 704 / *m*. 1304 tarixi ilə qeydə alınmışdır. Digər nüsxələr böyük ehtimalla bu əlyazma əsasında tərtib olunmuşdur. Amma həmin əlyazma kataloqda Hinduşah ibn Səncər adı ilə deyil, Birgivi Məhməd Əfəndi ibn Pirəli ismi ilə qeyd olunmuşdur.[340]

[340] Quliyev Əbülfəz. Hinduşah Naxçivaninin "Əs-sihah əl-əcəmiyyə" əsəri və onun əlyazma nüsxələri haqqında bəzi qeydlər. / Azərbaycan Milli



***Hinduşah Naxçıvaninin "Sihahül-əcəm" lüğətinin AMEA M.Füzuli adına Əlyazmal İnstitutunun fondunda B-5303 şifri altında mühafizə olunan nüsxəsi. Əlyazmada feillər fəslindən bir səhifə əks olunmuşdur.***


AMEA M.Füzuli adına Əlyazmal İnstitutunun fondunda olan "Sihahül-əcəm" lüğətinin bir fəsli, daha doğrusu, feil bəhsinə həsr edilmiş bir hissəsi "Əf'al min əl Sihahül-əcəm" başlığı altında Əbu Abdullah ibn-Əhməd əz-Zəvzəninin tərtib etdiyi "Tərcümeyi məsadiri-Cövhəri" adlı əsərinin sonunda əlavə şəklində verilmişdir. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun fondunda B-5303 şifri altında mühafizə olunan bu nüsxənin üzü 1030 (1620)-cu ildə Əkrə şəhərində Ömər ibn-Məhəmməd tərəfindən köçürülmüşdür. Əlyazma nüsxəsi çox səliqə ilə köçürülmüş və öz görkəmini indi də saxlamaqdadır.[341] C.Qəhrəmanov məqaləsində 5 səhifə yarımdan ibarət həmin hissələrin faksimilesini və 128-140 səhifələrində isə özünün əlavə etdiyi izahlarla lüğətini verir.

Elmlər Akademiyası Naxçıvan bölməsinin Elmi Əsərləri, 2019, №3, səh.134-140, s.136.

[341] Qəhrəmanov Cahangir. Hinduşah Naxçivaninin lüğətindən fraqmentlər. "Əlyazmalar Xəzinəsində (əsərlər)" məcmuəsi. III cild. "Elm" nəşriyyatı, Bakı-1972. 121-140 səh., s.127.

Bu əsərə X əsr ərəb lüğətşünası Əl-Cövhərinin "Tac əl-lüğa və sihahül-ərəbiyyə" adlı izahlı lüğətinin tərtibatına uyğun olaraq qafiyə üsulunda quruluş verilmiş və üç hissədən - ərəbcə müqəddimə, farsca-türkcə lüğət və ərəbcə yazılmış fars dilinin qrammatikasından ibarətdir. Müqəddimənin ilk səhifəsində yazılıb:

"Bismillahir-rəhmanir-rəhim. Həmd olsun Allaha ki, bizə dilləri və deyimləri bəxş etdi. Salavat olsun sevgili Peyğəmbərə, onun ailəsi və yaxınlarına. Mötəbər kitabların çoxunun fars dilində yazıldığını və lüğət sahəsində bunlara maraq göstərənlərin çoxunun qeyri-farslar olduğunu görüncə o güvənilir kitablarda olanlardan ondan yararlanmaq istəyən bütün taliblər (tələbələr) üçün asanlaşdırıcı bir tərzdə topladım."



*Vatikan arxivində qorunan nüsxənin giriş səhifəsi (Borg.pers.12)*

"Sihahül-əcəm" lüğəti qafiyə üsulunda tərtib edildiyindən sözlər axırıncı hərfinə görə lüğətdə yerləşdirilmişdir. Lüğət quruluşca sözlərin sonundakı hərflərə görə bablara, baş hərflər üzrə isə fəsillərə (فصل) ayrılmışdır (fəsul-əlif (فصل الاليف), fəslul-bə (فصل الاليف), fəslut-tə (فصل الاليف), fəslus-sə (فصل الا-ليف) və s.) və fəsil adları qırmızı rəngdə verilmişdir.

Çexoslovakiyanın Bratislava kitabxanasındakı nüsxə 1923-cü ildə (h. 1341) professor Qulamhüseyn Begdəlinin təsəbbüşü altında nəstəliq xətti ilə yazılmış, 1942 və 1947-ci il-

lərdə (h. 1361, h.1366) 484 səhifəlik lüğət şəklində işıq üzü görmüşdür. Kitab Qulamhüseyn Begdeli tərəfindən qələmə alınmış farsca müqəddimədən sonra "ab avərdən" (آب آوردن) baş sözünün izahı ilə başlayıb, "yəhzə" (یهزه) sözü ilə bitir.

Azərbaycanda əsərin tədqiqi Cahangir Qəhrəmanova[342] və C.Ə.Sadıqova ilə T.Ə.Ələsgərovaya[343] məxsusdur.

## "Lecsico-İtaliano-Persiano-Turco" italyanca-farsça-türkçə lüğət


Lüğətin müəllifinin adı kitabda izlənmir. Əsər Vatikanda Borg.pers.14. şrifti ilə qorunur. Lüğətin həcmi 245 vərəqdir.



***"Lecsico-İtaliano-Persiano-Turco" italyanca-farsça-türkçə lüğətin titul səhifəsi***

[342] Qəhrəmanov Cahangir. Hinduşah Naxçivaninin lüğətindən fraqmentlər. "Əlyazmalar Xəzinəsində (əsərlər)" məcmuəsi. III cild. "Elm" nəşriyyatı, Bakı-1972, səh. 121-140.

[343] Hinduşah Naxçivani. Əs-sihah əl-əcəmiyyə (giriş, elmi-tənqidi mətn, əlavə sözlük. Tərtibçilər: C.Ə.Sadıqova və T.Ə.Ələsgərova. Bakı,1993.



***"Lecsico-İtaliano-Persiano-Turco" italyanca-farsça-türkçə lüğətin son səhifəsi***

Bu lüğət üzərində hər hansı bir tədqiqatın aparılması haqqında, təəssüf ki, heç bir məlumat yoxdur.

# IV FƏSİL

# AVROPA LÜĞƏTÇİLİYİNİN YARANMASI VƏ İNKİŞAFI (I-XVIII ƏSRLƏR)

## QƏDİM LATIN DİLİ LÜĞƏTLƏRI

**"Libri de significatu verborum" lüğəti.** Bizim eranın I yüzilliyinə aid edilən latın dilinin ilk lüğəti olub 40 cilddən ibarətdir.

Onun müəllifi romalı dilçi və müəllim Markus Verrius Flakkus (Marcus Verrius Flaccus, e.ə. 55- b.e. 20) Sezar Avqustun nəvələrinə müəllimlik etməsi də ilə tanınırdı. O, latın yazıçılarının əsərlərindən istifadə edərək lüğətini zəngin illüstrativ materiallarla təchiz etmişdi. Flakkusun lüğəti klassik antik dövrün ən mühüm əsərlərindən biri hesab olunur. Günümüzə bu lüğətin Pompeius Festus (II və III əsrlər və Paulus Diakonus (VIII əsr) tərəfindən qısaldılmış variantlarından parçalar gəlib) gəlib çatmışdır.

Festusun ixtisar etdiyi lüğət "De Verborum Significatione" ("Sözlərin mənaları"), tam olaraq "De Verborum Significatione Libri XX" ("Sözlərin mənalarının 20 kitabı") və ya The Lexicon of Festus (Festusun lüğəti) adı ilə tanınmışdır. O, Flakkusun 40 cildlik lüğətini 20 cildə qədər azaltmışdı. Festusun lüğəti ilk əlifba sıralı lüğət hesab olunur. Burada baş sözlərin yalnız ilk hərfləri əlifba sırasına görə düzülmüşdür, baş sözlərin tərkibindəki hərflər bu sıralamada nəzərə alınmamışdı. Festus Flakkusun lüğətindəki lüğət məqalələrinə dəyişiklik etmiş və bəzi tənqidi qeydlərini də əlavə etmişdir. O, sözlüyü yeniləmiş, köhnəlmiş sözləri ixtisara salmış və etdiyi dəyişiklikləri ayrıca bir kitabda sənədləşdirmişdi. Lakin təəssüf ki, həmin əsər itmişdir.

Bununla belə Festus Flakkusun lüğətinin böyük qismini, etimologiya və izahları, tarix, din, siyasət və mədəniyyətə aid məlumatlarını olduğu kimi saxlamışdır.



SEX. POMPEI FESTI
ET
MAR. VERRII FLACCI
DE VERBORUM SIGNIFICATIONE.
LIB. XX.
NOTIS ET EMENDATIONIBUS
ILLUSTRAVIT
ANDREAS DACERIUS,
IN USUM SERENISSIMI
DELPHINI.
Accedunt in hac Nova Editione Notæ integræ Josephi Scaligeri, Fulvii Ursini, & Antonii Augustini, cum Fragmentis & Schedis, atque Indice novo.



AMSTELODAMI,
Sumptibus HUGUETANORUM.
M. DCC.

***Pompeius Festusun "De Verborum Significatione Libri XX" ("Sözlərin mənalarının 20 kitabı") lüğəti***

Bu lüğətin yeganə salamat qalmış nüsxəsi XI əsrə aid "Codex Farnesianus" surətidir ki, o da yanğın zamanı zədələnmişdir. Həmin surət 1416-cı ildə Şimali Gall abbatlığında tapılmışdır. Bu tapıntı böyük maraq və maariflənmə dalğası yaratmışdı. 1880-ci ildə klassika alimi Henri Hettlessinq Festusun əsərini "şöhrətpərəstlik və bacarıqsızlıq" adlandıraraq tənqid etmişdir. Lakin digər alimlər, məsələn, Alessandro Moskadi bunu müstəqil bir iş kimi qəbul etmək lazım olduğunu göstərir.

Festusun lüğəti barəsində ətraflı məlumatı yalnız Paulus Diakonusun (VIII əsr) bu lüğətə etdiyi rezumesindən əldə etmək mümkündür. Əgər Festus Flakkusun 40 cildliyini 20-yə endirmişdisə, Paul da öz növbəsində Festusun lüğətini illüstrativ materialları və anlaşılmaz hesab etdiyi hissələri ixtisara salmaqla 10 cildə qədər azaltmışdır.

**Korpus qlossarisi (Corpus Glossary).** VIII əsrdə artıq əhəmiyyətini itirməyə başlayan latın dilinin arxaikləşmiş sözlərini işlək latın sözləri ilə izah edilə bilən lüğətlər hazırlanmağa başlandı. Corpus Glossary ilk belə lüğətdir.

**Qrammatik ləqəbli Elfrikin lüğəti (***qəd.ing. Ælfrīc***, 955-1020).** Bu lüğət ilk latın-anqlosakson lüğət hesab olunur. Tələbələr üçün dərs vəsaiti olaraq hazırlanmışdı.

**"Epinal qlossarisi".** VII əsrdə İngiltərədə yaradılmış arxaizmlər lüğəti. Bu qlossaridə həmin dövrün ənənəsinə uyğun olaraq arxaikləşmiş latın sözləri işlək latınca ilə izah edilir.

**"Gənclər üçün xəzinə" lüğəti**. 1440-cı ildə nəşr olunmuş bu leksikoqrafik əsərdə 10000-dən çox ingilis sözlərinin latın dilinə tərcüməsi var.

Orta əsrlərdə latın dili beynəlxalq elm dili və İncilin müqəddəs dili olduqdan sonra dünyada geniş yayılmağa və lüğətlər tərtib edilməyə başladı. Bu lüğətlərdən ən məşhuru Cenovalı Geovanni Balbinin "Katolikon" ("Catholicon") və ya "Summa" əsəridir. Lüğətin 1268-ci ildə tamamlandığı və ilk dəfə 1460-cı ildə Cohann Gutenberq tərəfindən nəşr edildiyi hesab edilir. Lakin istər kitabın hissələri, istərsə də keyfiyyətsizliyi bu lüğətin məhz Gutenberqə məxsus olduğu fikrini yaratmışdır. "Katolikon"un əlyazmaları ikidilli lüğətlərə mənbə rolunu oynamışdır.


**"Latın dilinin tezaurusu" ("Thesaurus Linguae Latinae") (1531)** dəfələrlə nəşr olunmuş əhəmiyyətli bir əsərdir. Lüğətin müəllifi Robert (Stephanus) Estienne (1503-1559) öz

sahəsində bir cığır açmış və onun əsəri etibarlı elmi mənbə rolunu oynayır.

## İNGİLİS DİLİ LÜĞƏTLƏRİ

